*Bu kitab əclaflar barədə deyil,*
*onları yetişdirən sistem barədədir*

# Əclafın ölümü



roman

İntiqam Əli

İntiqam Əli

# ƏCLAFIN ÖLÜMÜ

*roman*

2019

İntiqam Əli (Əliyev). **Əclafın ölümü**

Bakı, "OL"NPKT, 2019-cu il, 208 səh.

*Üz qabığındakı şəklin ideya müəllifi: Nəcmin Kamilsoy*
*Rəssam: Emin Talışxanov*

Əsər avtoritar idarəçilik şəraitində cəmiyyətdə baş verən deqradasiya, ikiləşmə prosesləri barədədir. Opponentlərini sıradan çıxarmaq üçün ixtiyar sahiblərinin hər vasitəni məqbul saydığı ölkədə sistem daim əclaf istehsalı ilə məşğuldur; bu dəyirmana hər kəs düşə və oradan salamat çıxmaya bilər. Hər şeyin alınıb-satıldığı, dəyərlərin baş-ayaq olduğu, bir tərəfin diqtə etdiyi sərt oyun qaydalarının hökm sürdüyü mühitdə hər kəs potensial qurbandır. Təsadüfi deyil ki, kitabın əsas sloqanı kimi onun "əclaflar barədə deyil, onları yetirən sistem barədə olduğu" vurğulanır.

Əsərin əsas qəhrəmanı hakimiyyətin basqılarına məruz qalan medianın, jurnalistlərin, ictimai-siyasi fəalların işlərini çıxan az sayda mübariz vəkillərdən biridir. Ölkəni idarə edənlərin ünvanına tez-tez sərt tənqidlər səsləndirir. Çoxsaylı xəbərdarlıq, real təhdidlər və məruz qaldığı sui-qəsd də onu yolundan döndərə bilmir. İdarəçilər üçün ciddi başağrısına çevrilən vəkilin həbsi məsələsi ən yüksək səviyyədə gündəmə gətirilir və o, saxta ittihamlarla zindana atılır. Təkcə öz ölkəsində deyil, kənarda da müdafiəsi üçün kampaniyalar təşkil olunur, adı dünyada tanınmış dustaqlarla yanaşı çəkilir, ən nüfuzlu ödüllərə layiq görülür, öz ölkəsindən çox-çox uzaqlarda da mübarizə simvollarından birinə çevrilir. Beş illik həbs həyatından sonra, nəhayət, azadlığa buraxılır və daha böyük enerji ilə mübarizə meydanına atılır. Amma bu dəfə tam fərqli cəbhədə - vaxtilə çiyin-çiyinə dayandığı, onun müdafiəsinə qalxan, çətin anlarında yanında olan kəsimə, keçmiş əqidə yoldaşlarına qarşı...

Əsər tanınmış vəkil və ictimai xadim, 2015-ci ildə ağır xəstəlikdən vaxtsız dünyasını dəyişmiş Elton Quliyevin xatirəsinə ithaf olunub.

ISBN

© İntiqam Əli. 2019
© "OL"NPKT. 2019



*Elton Quliyevin əziz xatirəsinə*
*ithaf olunur*

Gözlərini çətinliklə aça bildi. Hər yer zülmət qaranlıq idi. Onları bərk-bərk ovxalayıb yenidən yumub açdı. Yenə də heç nə görmürdü.

"Haradayam və bura necə düşmüşəm? Yoxsa, yuxudu bu?"

Ümidlənən kimi oldu, qolunu çimdiklədi, əlini dizinə vurdu, ovurdunu şişirdib-boşaltdı. Məyusluğu hüdudsuz idi: baş verənlər yuxu deyildi.

- Heey, kimsə var burda?

Səs verən olmadı. Diqqətini cəmləyib harada olduğunu xatırlamağa çalışdı. Heç nə yadına gəlmirdi. Nəyisə görmək ümidilə ətrafına bir də diqqətlə göz gəzdirdi. Gözləri ancaq zülmət görürdü. Lap əndişələndi.

Əlləri ilə uzandığı yeri yoxladı. Taxta döşəmə idi.

"Mən niyə yerdə uzanmışam... Haradı bura?"

Təşviş içində ehtiyatla dikəldi, əlini bədənində gəzdirdi, paltardaydı. Arxa cibində telefon vardı, çıxarıb ora-burasını qurdaladı, bir-bir bütün düyməciklərini basdı, səsi çıxmadı. Telefon işləmirdi, məyus halda onu kənara qoydu.

Nəfəsini çəkib ətrafa qulaq verdi. Sakitlikdi.

Başı möhkəm, bu dəqiqə partalayacaq qədər bərk ağrıyırdı. Ağzı quru və zəhər kimi idi. Qurumuş və şişmiş dilini tərpədib ağzını sulamaq üçün tüpürcək aradı. Dilinə su dəyməyəndə fərqinə vardı ki, ciyəri susuzluqdan yanır. Suyu tapmazdan öncə harada olduğunu bilməli idi.

Yenidən diqqətini cəmləyib harada olduğunu və buraya necə düşdüyünü yadına salmağa çalışdı. Bu dəfəki cəhdləri də uğursuz oldu, heç nə xatırlamırdı ki, xatırlamırdı.

Gah bu, gah da o biri əli ilə önünü yoxlaya-yoxlaya və iməkləyə-iməkləyə irəliləməyə başladı. Azacıq getmişdi ki, əli divara toxundu; ona dirənib qorxa-qorxa dikəldi, təzə yeriyən uşaq kimi əlini divardan çəkmədən bir neçə ürkək addım atdı. Həm içini, həm çölünü almış zülmətin xofundan az qala bağrı yarılacaqdı. Ümidsizlik içində bu dəfə daha bərkdən çığırdı:

- Heyy, burda kimsə var? Mənə kömək edin, mən görmürəm!

Yenə hay verən olmadı. Həyəcan və qorxusu getdikcə daha da güclənirdi. Başını tamam itirmişdi, nə edəcəyini bilmirdi.

"Sakit ol, özünü ələ al. Ayıq başla ayırd etməyə cəhd elə ki, nə baş verib..." - özünü sakitləşdirməyə çalışdı.

Daha bir neçə addım atdı.

"Bəlkə ölmüşəm, bura da məzarlıqdı?"

Özü heç vaxt ölməmişdi və ölümdən sonra adamın necə olduğu, məzarlıq barədə də təsəvvürü yoxdu. Amma öləndə ruhun bədəndən çıxdığı barədə deyilənləri xatırladı. Əllərini bir daha bədəninin ora-burasında gəzdirdi: başı, əlləri, ayaqları, burnu, gözləri - hamısı yerində, işlək idilər, təkcə gözləri görmürdü. Ölmüşdüsə, gözləri niyə görmürdü? O dünyada adamın kor gəzdiyi barədə oxuduğu, eşitdiyi nəsə yadına gəlmirdi. Düşünə də bilirdi, deməli, ağlı da, ruhu da yerində idi. Yox, o, bu dünyada idi, buna da artıq şübhəsi qalmadı.

"Bəlkə, mən həbsdəyəm ya da girov götürüblər. Girovluqdayamsa, məni girov götürənlər hardadı bəs?"

- Eyy, hardasız, lənətə gəlmişlər, bitirin bu oyunu, buraxın məni burdan! - Bu dəfə elə dəli kimi də bağırdı.

Harayına yenə səs verən olmadı.

Divara toxuna-toxuna irəliləməkdə davam etdi. Əli boşluğa düşdü. Deyəsən, qapı yeri idi. Yanılmamışdı. Materialı möhkəm olsa da, dəmirdən deyildi.

"Həbsxana olsaydı, dəmirdən, özü də bağlı olardı."

Ağlını itirmək dərəcəsinə çatırdı. Daha bir neçə ürkək addım atmışdı ki, ayağı nəyəsə ilişdi, əyilib ehtiyatla yoxladı, süpürgə idi.

"Əgər bura evdisə, pəncərələri, giriş qapısı hanı bəs?"

Bu dəfə pəncərə və qapı axtarışına çıxdı. Xeyli vaxtını və enerjisini alan cəhdləri nəticəsiz bitdi. Əlini aşağı-yuxarı, sağa-sola hərəkət etdirərək bütün divarları yoxladı, nə qapı vardı, nə də pəncərə.

Başının ağrısı güclənmişdi. Yerə oturdu. Həyəcandan əlləri əsirdi. Dolub-daşan sidik kisəsi də az qala partlayacaqdı, dözülməz ağrı verirdi. İməkləyə-iməkləyə tualet deyilən yerin axtarışına çıxdı. Bir qədər irəliləmişdi ki, daha dözə bilməyəcəyini anladı. Başqa çarəsi qalmırdı. Dikəlib şalvarının düyməsini çətinliklə açdı, onu aşağı salıb büzüşmüş ət parçasını bayıra çıxarması ilə sidiyin yandıra-yandıra çölə axması bir oldu. Tələsik və köntöy davranması səbəbindən alt paltarı da sidiyə bulaşdı.

Ətrafı kəskin iy götürdü. Ürəyi bulandı. Divardan tutub həmin yerdən uzaqlaşmaq istədi. Başı hərlənirdi, daha bir neçə addım atmışdı ki, ləngər vurub döşəməyə sərildi...

***

Sarı iqtisad universitetinin üçüncü kursunda oxuyurdu. Orta məktəbi əla qiymətlərlə bitirmişdi. Qəbul imtahanını uğurla versə də, pulsuz bölməyə düşmək üçün bir neçə balı çatmadı. İmkansız ailədən olduğu üçün, təhsil haqqını ödəmək gücündə deyildi, ərizə yazıb qiyabi bölməyə keçdi.

Əvvəlcə təhsilinə uyğun iş axtarışına çıxdı. Müxtəlif qapılara xeyli ayaq döyəndən sonra cəhdlərinin mənasız vaxt itkisi olduğunu anladı; üz tutduğu dövlət qurumlarında təklif olunan iş

ancaq kuryer vəzifəsi oldu ki, maaşı heç yeməyini və yol pulunu görmürdü. Fəhləliyə üz tutası oldu. Dayısının dostu usta idi, onun yanında günəmuzd işləməyə başladı. Musa yaxşı adamdı, vaxtilə rayonun adlı-sanlı dülgərlərindən sayılırdı, amma on il öncə sağ əlini dəzgah biləkdən kəsəndən sonra bu sənətin daşını atmışdı, suvaq işlərinə keçmişdi. Bir əlilə palçığı divara elə sürətlə yapışdırırdı ki, təzə şagirdi onunla güclə ayaqlaşa bilirdi. Əsasən, evlərdə və kiçik obyektlərdə işləyirdilər. Bir əlli olmasına rəğmən, Musa yaxşı usta sayılırdı, işsiz qaldıqları vaxt olmurdu. Sarı fəhləlik edə-edə qısa zamanda suvaq işini elə öyrəndi ki, ustasından geri qalmırdı. Musa ağıllı, həm də insaflı adamdı, bacarığını və işə münasibətini nəzərə alıb onu özünə şərik elədi.

Aylıq qazancı babat olurdu. İlk ilinin təhsil haqqını işə başladığı ilin tamamında, o biri ilinkini isə ilk semestr başlayanda tam ödədi. Növbəti il şəhərə köçmək barədə düşünürdü: kənddə təhsilinə uyğun münasib iş tapmaq çətin idi, həm də şəhərdə inkişaf üçün daha geniş imkanlar vardı. Qiyabi oxumasına baxmayaraq, yaxşı tələbə kimi universitetdə ad çıxarmışdı.

Karyera inkişafı üçün ingilis dilinin vacibliyini anladığından onun üstünə möhkəm düşmüşdü. Yaxşı kurs axtarışında xəbər tutdu ki, Sülh Korpusu adlı beynəlxalq təşkilat yerli hakimiyyət qurumlarının razılığı ilə əməkdaşlarından birini onların rayonuna ezam edib. Rayon kəndlərindən birində ailədə qalan Anna xırda bizneslə məşğul olanlar və olmaq istəyənlər üçün ingilis dili dərsləri keçirdi; məqsəd dünyanın böyük bir hissəsinin danışdığı dilə yiyələnməklə bizneslərini inkişaf etdirmək üçün iştirakçılara yeni perspektivlər açmaqdı.

Sarı ambisiyalı idi, ingilis dilini təkmilləşdirməklə yanaşı, həm də öz biznesini qurmaq barədə düşünməyə başlamışdı. Bu səbəbdən, Annanın kurslarına yazıldı. Dərslərə davamlı gedir, təlimçinin bütün tapşırıqlarını yerinə yetirməyə çalışır, evdə də hər gün bir neçə saatını bu işə sərf edirdi. Anna onun dil götürmə bacarığına heyranlığını gizlətmirdi. Zəhməti bəhrə verməyə

başlamışdı və bu, gənci ruhlandırırdı. İlin sonunda kursun ən fərqlənən iki iştirakçısından biri seçildi.

Bir gün eşitdi ki, Anna qalmağa yeni mənzil axtarır. Kirayədə yaşadığı evin sahibi maşınla adam vurduğuna görə həbs olunmuşdu; cəzasını yüngülləşdirmək və ölənin ailəsini razı salmaq üçün evi satmaq zorunda qalmışdılar. Sarı müəllimməsinə öz evlərində qalmağı təklif etdi, qız çox düşünmədən razılıq verdi.

İngilis dili dərslərinə gedib-gələndən sonra əli suvaq işindən soyumağa başladı; beyninə müxtəlif biznes ideyaları gəlirdi, onları reallaşdırmaq yolları barədə düşünürdü. Xeyli araşdırmadan sonra eyforiya məyusluqla əvəzləndi; başa düşdü ki, onun yaşadığı məmləkətdə bu iş o qədər də asan başa gələn deyilmiş. Annanın nümunə çəkdiyi ölkələrdən öz ölkəsinin də fərqi bunda idi: oralarda dövlət bütün təşəbbüslərində vətəndaşına dəstək olur, ona hər cür yardım edirdi, burada isə tam əksi idi. Səbəblər barədə çox düşünürdü; düşündükcə də təhlillərinin bir ucu idarəçilik, siyasət məsələlərinə gedib çıxırdı.

Anna dərslərdə siyasi mövzularda müzakirələrdən qaçırdı; Korpusun bütün əməkdaşlarına öncədən xəbərdarlıq edilmişdi ki, əks halda, problemləri yarana, hətta ölkədən qovula bilərlər. Amma qız Sarıgilə köçdükdən sonra bu cür müzakirələrə imkan yarandı; bunlar gənc oğlanda baş verənlərin səbəbləri barədə daha aydın təsəvvür formalaşmasına yardım edirdi. Bu söhbətlərin təsiri altında siyasətə daha çox maraq göstərməyə başladı. İngilis dili bilikləri artıq ona xarici mənbələrə çıxış imkanı verirdi. Bu sahədə bilikləri, dünyagörüşü artdıqca mövcud durumun dəyişməsinin vacibliyi barədə daha çox düşünürdü. Özü kimi düşünən insanların hesabına sosial şəbəkələrdəki dostlarının dairəsini genişləndirməyə başladı. Əvvəlcə daha çox başqalarının yazdıqlarını, statuslarını oxuyur, onlara şərhlər yazırdı, sonra özü yazmağa başladı. Yazılar intensivləşdikcə tənqidin dozası da artırdı. Fikir vermişdi, nə qədər sərt yazırdısa, maraq daha böyük, bəyənənlərin sayı daha çox olurdu. İzləyicilərinin sayı isə gündən-günə artmaqdaydı. Bir gün qərara

aldı ki, söyməklə iş bitmir, təşkilatlanmaq lazımdır və "Xilas" adlı qrup yaratdı. Qısa zaman keçmiş, qrupa yerləşdirilən yazılara on minlərlə adam baxırdı.

Yaxşı usta kimi ad çıxardığına görə sifarişlərin artmasına baxmayaraq, daha əvvəlki kimi təmir işlərinə getmirdi. Bu, təkcə onunla bağlı deyildi ki, əyninə fəhlə paltarı geyib suvaq vurmağı artıq özünə yaraşdırmırdı, o, bu həyatdakı təyinatının özü və ailəsi üçün yaxşı gün ağlamaqdan daha vacib olduğu qənaətində idi. Sarı Tanrı tərəfindən hamının yaxşı yaşaması uğrunda mübarizə üçün xüsusi missiya ilə yer üzünə göndərilənlərdən olduğuna inanırdı.

Qısa müddət sonra şəhərə köçdü; xarici ölkələrdən birinə təhsilə yollanan tanışı gəlib boş qalmış mənzilində yaşamağı təklif edəndə imtina etmədi. Şəhərə köçməsi həm də proseslərdə daha fəal iştirak imkanlarını genişləndirirdi. İngilis dilini bilməsi də çox karına gəlirdi; tərcümə ilə bağlı sifarişlər hesabına xərclərini qarşılaya bilirdi.

Adamlar onu küçədə-bayırda üzdən tanıyır, yaxınlaşıb salamlaşır, minnətdarlıq edir, şəkil çəkdirirdilər. Bütün bunlar çox xoşuna gəlir və onu daha da ruhlandırırdı.

Yaratdığı və admini olduğu "Xilas" qrupu isə qısa zamanda sosial şəbəkələrdə ən populyar bir neçə səhifədən birinə çevrilmişdi. Orada yerləşdirdiyi videolara, yazılara on minlərlə adam baxır, oxuyur, şərh yazır, paylaşırdı...

Paytaxta köçdüyü dördüncü ayın son həftəsində axşam radələrində qapıları bərk döyüldü; kompüterin arxasında iş başında idi. Kim olduğunu soruşdu.

- Aç, bilərsən! - göstəriş gəldi.

- Kim olduğunuzu deməsəniz, açan deyiləm! - dirəndi.

- Onda özündən küs! - nazı ilə oynamaq fikirləri yox idi.

Bir neçə saniyənin içində bir-birinin ardınca endirilən güclü zərbələrdən qapı döşəmənin üstünə sərildi.

Gözlərini açıb-yummağa macal tapmamış bir topa adam içəri doluşdu. Üzdən tanıdığı sahə müvəkkili istisna, qalan hamısı

maskalı idi. Nəsə soruşmağa və danışmağa imkan vermədən qollarını burub ayaqyalın pilləkənlərlə sürüyə-sürüyə apardılar.

Səs-küyünə kimsə başını qapısından bayıra çıxarmadı...

***

Qara polis idarəsindən çıxanda qaranlıq düşməkdə idi. Yenə mitinqdə iştirakına görə çağırmışdılar. Bu dəfə rəisin özü qəbul edib çox sərt tonda və "sonuncu dəfə" xəbərdarlıq etdi.

Dünənki mitinq müstəqil həmkarlar qurumlarının birgə təşkilatçılığı ilə "Maaşları, pensiyaları artırın, kreditləri də bağlayın!" şüarı altında keçirilmişdi. Ölkənin hər yerindən insanlar axışıb paytaxta gəlirdilər. Son vaxtlar etiraz toplantılarına gələnlərin sayında önəmli artımdan narahat olan hakimiyyət qurumları müxtəlif qabaqlayıcı tədbirlərə əl atırdılar: mitinqlərin təşkilində və ya sosial şəbəkələrdə xüsusi fəallığı ilə seçilənləri həbs edir və ya özlərini, valideynlərini yerli polis şöbələrinə çağırıb hədə-qorxu gəlirdilər; toplantı günü şəhərə giriş yerlərində çox sayda polis patrulları yerləşdirir, xətdənkənar avtobusları yarıyolda boşaltdırıb, özlərini də cərimələyib geri qaytarırdılar. Amma bütün bu maneələrə baxmayaraq, bu dəfəki toplantı da izdihamlı alınmışdı.

Qara öncələr adətən tribunaya yaxın ərazidə özünə yer edər, əlində hakimiyyət əleyhinə plakatlar tutar, şüarlar səsləndirərdi; bu dəfə çox da gözə görünməməyə çalışırdı. Amma məxvi qalmaq cəhdlərinə rəğmən, polisə məlumat sızmışdı. Onu necə əldə etmişdilər, bilmədi; polis idarəsində də bu barədə heç nə demədilər. Toplantının keçirildiyi ərazidə çox sayda kameralar quraşdırılmışdı, onlardan birinə tuş gələ, ya da onu tanıyanlardan biri polisə çuğulluq edə bilərdi...

Polis idarəsinə girəndə qəbul otağında telefonunu söndütdürüb əlindən almışdılar; hüquq-mühafizə, məhkəmə və digər dövlət qurumlarında çalışanların qanunsuz davranışları, kobudluğu ilə bağlı son vaxtlar sosial şəbəkələrdə yayılan gizli səs yazılarının sayı artdığı üçün, indi həmin qurumlara hər adama

telefonla girməyə izn verilmirdi. Nədənsə ürəyi narahat idi, idarədən çıxan kimi telefonunu işə saldı və Kəklikdən çox sayda zəng gəldiyini görüb daha da əndişələndi. Tez nömrəsini yığdı. Xəttin o başından "Bayaqdan hardasan?" sualı gəldi və sual sahibi cavab gözləmədən ağlaya-ağlaya təcili görüşməli olduqlarını söylədi. Oğlan nə baş verdiyini təkidlə soruşsa da, qız hər dəfə əsəbi halda "Telefon söhbəti deyil!" - deyib inadla cavabdan qaçdı.

Qara söhbətin nədən gedəcəyini təxmin edirdi və o gecəni gözünə yuxu getmədi.

...Kəkliklə ölkədəki növbəti etiraz mitinqlərindən birindən qayıdanda metroda tanış olmuşdu. İzdihamlı alınmış toplantının coşqusu altında kefi kök, qəlbi ümid və sevgi ilə dolu idi. Vaqona girəndə gözü dərhal bir qızı tutdu, gəlib yaxınlığında oturdu. Qızın diqqəti telefonda idi; tez-tez gələn mesaj səslərindən kiminləsə yazışdığı hiss olunurdu. Sifətinin incə cizgilərini nazik burnu və yumşaq bənövşəyi rənglə boyanmış dodaqları tamamlayırdı. Uzun qara saçları isə Qara çox sevirdi; ilk uşaqlıq sevgisi olan ədəbiyyat müəlliməsinin də belə uzun və qara hörükləri vardı. Qızın fikrinin yazışmada olmasından yararlanıb hərdən gizlicə ona göz qoyurdu. Bir-birinin ardınca gələn mesajları oxuduqca gah dodaqlarını büzməsindən, gah sifətini turşutmasından, gah da barmaqlarının titrəyişindən əsəbiləşdiyi hiss olunurdu. Yazdığı yerdə birdən telefonu söndü; görünür, batareyası bitmişdi. Qız bu dəqiqə yerə çırpacaqmış kimi aparatı əsəblə əlində yellətməyə başlayanda Qara əlinə düşən bu fürsəti boşa verə bilməzdi. Çantasını açıb oradan dördbucaq formalı, ağ rəngli qurğunu çıxarıb qıza uzatmış, təəccüblü baxışların altında gülümsünüb "Batareyanı yükləmək üçündü", - demişdi...

Altı aydan çox idi ki, görüşürdülər. Qaranın niyyəti ciddi idi: Kəkliyi sevirdi və onunla ailə qurmaq istəyirdi. Amma hər dəfə evlənmək barədə söz açanda qızın sifəti dönür, araya başqa mövzu atıb söhbətdən qaçırdı.

Kəkliyin təkidilə görüşləri gizli olurdu, ya kitabxanada, ya şəhərdən kənarda, ya da küçələrdən birində ayaqüstə və qısa müddətə. Qız yaxınlarından, xüsusilə də, əmisindən çox qorxduğunu gizlətmirdi...

Şəhərin kənarında adam gözə dəyməyən küçələrdən birində görüşdülər. Sevgilisi onu görcək ağlaya-ağlaya iki gün sonra onlara elçi gələcəyini dedi; onu əmisi oğluna almaq istəyirdilər. Qızın Şahlar adlı əmisi rayonun polis rəisinin müavini idi, əzazilliyi ilə bu ərazilərdə ad çıxarmışdı. Müxalifətin son toplantılarından birinin ertəsi günü Qaraya zəng edib polisə çağırmışdılar; ilk və son dəfə Şahlarla orada üz-üzə gəlmişdilər. Otağına girəndə salamsız-kəlamsız üstünə gəlmişdi:

"Nə azzarın azıb ə, sənin mitinqdə?! Nədən narazısan?!"

"Toplantı azadlığı vətəndaşın qanuni haqqıdı." - Mitinq təşkilatçıları evdə, işdə, polisdə bu sualı verənlərə bu cür cavab vermələrini tövsiyə etmişdilər.

Rəis müavini bu cavabı eşidəndə çığırıb-bağırmağa başlamış, təşkilatçıların da, ora gələnlərin ünvanına təhqir və küçə söyüşləri yağdırmışdı.

"Sənə xəbərdarlıq edirəm, get ağıllı ol, başını da aşağı salıb öz işinlə məşğul ol! Dövlətlə dövlətçilik edənlərin bilirsən də axırı necə qurtarır! Bir də o toplantılarda görünsən, səninlə burda və mən yox, tamam başqa yerdə və başqa adamlar danışacaqlar!"

Qara o vaxt bərk qorxmuşdu: adamsızın biri idi, tək yaşlı bir anası vardı, özü də xəstə idi, ona bir şey olsaydı, qadın Allahın ümidinə qalacaqdı. İndiyə qədər heç vaxt polisdə onunla bu cür sərt danışmamışdılar. O hadisədən sonra bir müddət mitinqlərə getmədi. Həmin günlər həmişə toplantıya birgə qatıldığı dostları zəng edəndə bir bəhanə ilə aradan çıxırdı...

Kəkliyin ağlamaqdan gözləri şişmişdi.

- Mən o oğlanı sevmirəm, Qara və ümid edirəm, kimi sevdiyimi sənə izah etməyə gərək yox. Durumu sənə anlatdım, bundan sonrası artıq sənlikdi, sən necə desən, elə də olacaq.

Sevgilisi heç vaxt məsələni belə sərt qoymamışdı. Qara ona nə cavab verəcəyini bilmirdi, amma bildiyi o idi ki, bu qızsız həyatını təsəvvür etmir.

- Sən olmasan, mən ölərəm! - ağlına gələn fikri dilinə gətirdi.

- Bir yerdə ola biləcəyimiz halda, ölmək niyə?!

- Necə? - Qara çarəsiz-çarəsiz soruşdu.

Qız susub üzünə baxdı. Oğlan onun nə demək istədiyini nəhayət anladı.

- Mənimlə qaçmağa razı olarsan? - çəkinə-çəkinə soruşdu.

Kəkliyin kədərli çöhrəsinə xəfif təbəssüm qondu.

- Mən sevdiyim adamla ölümə də getməyə hazıram!

Qonşuluqda taksi xidməti göstərən Rəhimi razı salmaq asan olmadı. Əvvəl qorxduğunu deyib imtina etdi, amma qızın razılığı olduğunu biləndə və qonşusunun cibindən çıxardığı yüzlüyü görəndə razılaşdı. Qızı Qaranın qonşu rayonda yaşayan dayısıgilə aparacaqdılar.

Taksi məsələsini həll etdikdən sonra Kəkliyə zəng edib görüş yeri və vaxt barədə razılaşdılar...

***

Gözünü açıb ətrafını qaranlıqda görəndə gecə olduğunu zənn etdi. Döşəmədə niyə uzandığına təəccübləndi. Qalxıb işığı yandırmaq istədi. Burnunu sidik iyi vuranda dəhşətlə görmədiyini xatırladı. Ətrafa qulaq verdi, qulaqbatırıcı sakitlik vardı.

Saatın neçə olduğunu, gecə ya gündüz olduğunu düşündü. Təxmin edə bilmədi.

İndi olduğu məkan iki əl uzunluğunda bir yer idi, yenə divara toxuna-toxuna irəlilədi. İxtiyarsız addımlarını saymağa başladı. On ikinci addımda divar bitdi, əli fərqli bir materiala toxundu. Qısa təmasdan sonra dəmir olduğunu biləndə dodağı qaçdı: deyəsən, giriş-çıxış qapısını tapa bilmişdi. Əlinin içi ilə diqqətlə hər yerini yoxlamağa başladı. Budur, bu da kilidin deşiyi və nəhayət, tutacaq əlinə gəldi. Ondan bərk-bərk

yapışıb ümidlə gah irəli itələdi, gah geri dartdı. Çiyinlərinə güc verib bir neçə dəfə təkanla qapını yerindən tərpətməyə çalışdı. Hər uğursuz cəhdindən sonra üzündəki sevinc və onunla birgə ümid də azalırdı. Ümidləri tamam tükənəndə hirslə qapıya bir neçə təpik ilişdirdi; hər vurduqca da, "Açıl!... Nə olar, açıl! Açıl daa, lənətəgəlmiş!..." - deyə dəli kimi bağırırdı.

Təngnəfəslik güc gəldi, yerə əyləşdi. Ayaqları ağrıdan zoqquldayırdı.

Bir müddət beləcə qaldı. Təlaş içində nə edəcəyi barədə düşünürdü. Bir tərəfdən də, zülmətin gətirdiyi məchulluq, qorxu bağrını yarır, nəfəsini kəsirdi. Yenə özünü sakitləşdirməyə çalışdı.

"Bu, pis yuxudu, keçib gedəcək. Ruhdan düşmək olmaz, qalx və irəli!"

Həvəssiz qalxdı. Susuzluqdan içi od tutub yanırdı. Əlini divarda gəzdirə-gəzdirə bir neçə addım atmışdı ki, nəsə taxta bir şeyə toxundu. Barmaqları üzərində gəzişdi, qapıya oxşayırdı. Astaca itələdi, cırıldaya-cırıldaya açıldı. Bu dəfə əlinin içi divarda gəzişdi, kafeldi. Tualet ola biləcəyi fikrinə sevindi: burada su olmalı idi. Doğru tapmışdı; kor gözlərinə işıq gəldi. Susuzluğu dözülməz həddə çatmışdı, əli su kranına toxuncaq ürəyi həyəcandan döyünməyə başladı, onu aça-aça ağzını boruya dirədi. Oradan bir neçə damcı su axıb dayandı. Nə qədər açıb-bağladısa, ardı gəlmədi. Qəzəbindən yumruğunu krana necə ilişdirdisə, ağrıdan az qala ağlı başından çıxacaqdı. Yerə oturub hönkürməyə başladı; hərdən hönkürtü bağırtı ilə əvəzlənirdi. Beləcə, bir neçə dəqiqə özünü boşaltdı.

Çeçələ barmağının qanamasını toxunuşla hiss etdi, həmin yeri ağzına aparıb sovurmağa başladı. Bu məşğuliyyəti də bir neçə dəqiqə vaxt apardı. Bezib ayağa qalxdı, əl və ayaqları ilə yenidən axtarışa çıxdı. İlk ağlına gələn unitazı tapmaq oldu; bu iş daha tez başa gəldi. Bir az toxtadı, indi özünü boşaltmaq istəsə, bunu daha küncdə-bucaqda etmək lazım gəlməyəcəkdi, uyğun məkan vardı.

Unitazdan kəskin sidik iyi vururdu. “Görəsən, sonuncu dəfə kim olub burda... heyvərə ardınca suyu da çəkməyib!” - bərkdən deyindi. Bilərəkdən düşündüklərini tez-tez dilə gətirirdi; bu, özünü tənha hiss etməməkdə ona dəstək olurdu.

Suyu çəkən yeri axtarmağa başladı. Böyürdən bir ip sallanırdı, onu aşağı dartdı və dartmağı ilə qabdakı suyun unitazın içinə şırıltı ilə axmağı bir oldu. Otaqdakı hava xeyli təmizləndi. İpi dalbadal daha bir neçə dəfə dartdı, amma daha su gəlmədi.

Suyun olmaması qanını əməlli-başlı qaraltmışdı. Ürəyi bərk su istəyirdi. Su axtarışında əli və ayağı ilə az qara hər yeri yoxlamağa başladı. Ayaq barmaqları kiçik plastik qaba oxşar bir şeyə toxundu; tərpənişdən içində su səsinə bənzər səs gəldi. Sevincək əyilib əli ilə yoxladı. Qulpu, uzun və nazik ağızlığı vardı; aftafa olduğuna şübhəsi qalmadı.

Qab ağzına qədər su ilə dolu idi. Burnuna yaxınlaşdırdı, azacıq kif iyi gəlirdi. Tərəddüdü uzun çəkmədi, susuzluq bütün digər hisslərini korşaltmışdı. Əvvəl ehtiyatla bir qurtum aldı, sonra ağzına dayayıb başına çəkdi. Dodaqlarından ayıranda qab yarı olmuşdu.

“Birdən su olmadı!”

Ağlına gələn bu fikirdən əhvalı pozuldu; tədbirsiz davrandığına görə özünü xeyli danladı. Qabı ehtiyatla bir küncə qoyub məkanı tərk etdi. İndi özünü daha yaxşı hiss edirdi...

***

Sarının həbsinin beşinci günü tamam olurdu. Harada saxlandığını, hansı qurum tərəfindən həbs olunduğunu bilən yox idi.

Hüquq-müdafiə təşkilatlarından birinin işə qoşduğu vəkil müştərisinin sorağında ora-bura yazıb zəng etsə də, yerini bildim deyən olmadı. Prokurorluq polisin, polis məhkəmənin, o da o birilərin üstünə atırdı...

Sarı atasını erkən itirmişdi. Yaşı altmışı haqlamış anası özünü oda-alova vurub balalarını çətinliklə böyütmüşdü. Kiçik qar-

daşı orta məktəbi bitirdikdən sonra imkansızlıq səbəbindən təhsil dalınca getmədi; başını aşağı salıb fəhləliklə həm özünü dolandırır, həm də ailəyə kömək edirdi. Onuncu sinifdə oxuyan bacısını isə artıq istəyənlər vardı. Onların yaşadığı rayonda qızların on dörd-on beş yaşdan ərə verilməsi normal sayılırdı. Yaşı on səkkizi adlamış qızların qartımış sayıldığı mühitdə böyümüş və qafası bərkimiş anası qızın tez ərə getməsinin tərəfdarı olsa da, Sarı qəti etiraz edirdi; bir dəfə hətta gələn elçiləri evdən qovmuşdu. Həmin hadisədən sonra qorxusundan kimsə bu adla bir daha qapılarını döymədi.

Sarı sosial şəbəkədə fəallaşmağa başlayandan sonra qohum-əqrəba ilə münasibətlərində soyuqluq yaranmağa başladı. Əmisi orta məktəb direktorunun müavini, xalası qızı dövlət bağçalarından birində müdir, bibisi oğlanlarından biri polisdə, o biri isə işıq idarəsində çalışırdı. Başlarının ağrıya biləcəyi qorxusundan qohumlar ailədən uzaq dururdular. Hərdən başını itirmiş qadına gizlicə dəymək fikrinə düşənlər tapılanda da bolluca oğlunun qarasınca deyinirdilər:

"Sənin axı kimin var ki, başından yekə qələtlər edirsən, özün cəhənnəm, bizim üçün də problem yaradırsan."...

Yoxa çıxmasının altıncı günü Sarını buraxdılar. Birbaşa rayona getdi, evə çatan kimi sosial şəbəkələrdəki bütün hesablarını bağladı. Əslində, həmin hesablar faktiki daha onunku deyildilər; onların üzərində sərəncamı artıq başqaları verirdi. Otağına çəkilib bir neçə gün evdən bayıra çıxmadı, heç kimlə danışmır, dost-tanışdan fasiləsiz gələn zənglərə belə cavab vermirdi. Tutulmasından şikayət vermək barədə vəkilinin təklifindən də imtina etdi.

Onu kim tutmuşdu, harada saxlamışdılar, başına nə oyun açmışdılar, özündən başqa kimsə bilən olmadı...

Həbsdən çıxan gündən beynində ancaq bir fikir dolanırdı: ölkəni tərk etmək, özü də mümkün qədər tez. Xeyli götür-qoydan sonra bu qənaətə gəldi ki, bu işdə ona yardım edə biləcək yalnız bir adam var - Anna. Amma qız öz ölkəsinə qayıtmışdı.

Çox fikirləşdikdən sonra ona qısa bir məktub yazdı. Vacib bir mövzuda onunla danışmaq istədiyini, deyəcəklərinin yalnız bir məqsədlə istifadə olunmasını, başqa heç bir halda yayılmamasını xahiş etdi. Dərhal cavab aldı. Çox qısa müddət sonra daha təhlükəsiz rabitə vasitələrindən biri ilə əlaqəyə çıxdılar. Sarı çox şeyi açıb ona danışdı!

Anna eşitdiklərindən şokda idi, yalnız bir sual verdi:

"Sənə necə kömək edə bilərəm?"

Sarı öz ölkəsini tərk etməkdə, onun ölkəsində sığınacaq almaqda yardımçı olmasını xahiş etdi:

"Bunu mümkün qədər tez etməliyəm, lap tez. Sənə hər şeyi deyə bilmirəm, bircə onu bildirim ki, bunlar məndən əclaf düzəltmək istəyirlər. Bundan qaçmaq üçün yeganə çıxış yolum ölkəni tərk etməkdir. Mən əclaf olmaq istəmirəm, Anna!"

Qız söz vermədi, amma bu yöndə çox çalışacağına əmin etdi. On gündən sonra qonşu ölkədə keçirilən təlimdə iştirakla bağlı Sarıya dəvət gəldi. Plan belə idi: təlim adı ilə ölkəni tərk edir, sığınacaq məsələsi həll olunana qədər bir müddət Tiflisdə qalır, sonrakı addımlar isə şəraitə uyğun atılır. Gürcüstanda qalmaq və yaşayış xərclərini insan haqları təşkilatlarından biri qarşılayırdı.

İki gün sonra evdəkilərlə qucaqlaşıb-öpüşüb, əlində həmin təşkilatın onun üçün aldığı təyyarə bileti aeroporta gedəndə orada onu nə gözlədiyi heç ağlına gəlməzdi. Pasport yoxlamasında "stopun var", - deyib geri qaytarılanda dünyanın sonu olduğunu sandı. Kor-peşman taksiyə minib yolda hara gedəcəyi, nə edəcəyi barədə ağır düşüncələrdən sonra nəhayət, yeganə çıxış yolu kimi gördüyü qərarı verdi.

Həmin körpü yolunun üstündə idi, ora çatanda taksini saxlatdırdı. Öncə kənarda dayanıb hər tərəfi diqqətlə nəzərdən keçirdi. Planını uğurla reallaşdırmaq üçün ən münasib yeri müəyyən etdikdən sonra qısa bir mesaj mətni yazıb yeyin addımlarla körpüyə qalxmağa başladı. Seçdiyi yerə çatanda qəfil iri sütunların arxasından çıxan polis serjantı qarşısında peyda oldu.

- Cavan oğlan, burda neynirsən? - üzündə təbəssüm soruşdu.

- Heç... - Duruxdu, nə cavab verəcəyini düşündü. Maşınlar onlara çatanda maraqdan yavaşıdırdılar. Son vaxtlar bu körpüdə intiharlar tez-tez olurdu; nə səbəbdəndisə vaxtından əvvəl ölmək istəyənlərin çoxu buraya üz tuturdu. Əlindəki telefonu polisə göstərdi. - Şəkil çəkmək istəyirdim, burdan şəhər çox gözəl görünür.

- Hə, razıyam, çox gözəldi. - Polisin sifətindən təbəssüm çəkilməmişdi. - İstəyirsən, mən çəkim.

Yenə bilmədi nə cavab versin.

- Sizə əziyyət deyilsə... əlbəttə... qoy, kameranı hazırlayım.

Telefonunda bayaq yazdığı və intihar öncəsi yaymaq istədiyi məktubu tapdı:

"Əzizlərim, bağışlayın ki, belə oldu. Mən əclaf olmaq istəmirdim..."

Tələsik yazını silib cihazı polisə uzatdı, o da bir neçə yöndən şəklini çəkib telefonu qaytardı.

- Deyəsən, aeroportdan gəlirsən? - Gülümsəyərək gözü ilə kiçik çamadanına işarə etdi. - Yəqin, evə gedirsən...

"Bu hardan peyda oldu! Niyə məni belə sorğu-sual edir?"

- Hə, - o da gülümsəməyə çalışdı, - evə gedirəm.

- Eviniz hansı tərəfdədi?

"Lənət sənə, kor şeytan! Məni güdürmüşlər nədi?" - Polisin davranışı narahatlığını daha da artırdı. Əvvəl istədi başqa ünvan desin, amma "böyük ehtimalla, ünvanı bilməmiş deyil" - düşünüb yalan danışmaqdan vaz keçdi, yaşadığı yeri dedi.

- Gəl otur maşına, elə mən də o tərəfə gedirəm. Növbəmin vaxtı başa çatır, iş yerim də yaxınlıqdadı.

Tabe olmaqdan başqa çarəsi qalmadı...

***

Qara gecəni Kəkliklə ayrı-ayrı otaqlarda keçirdilər; əvvəldən razılıq belə idi ki, mollanın yanına gedib kəbin kəsdirənə qədər bu cür olsun. Toy etməyə imkanları yox idi, uzaqbaşı, kiçik

məclis təşkil etməyə gücləri ancaq çatardı. Molla şəhərə getmişdi, kəbinin vaxtını ertəsi günə razılaşdılar.

Baş verənlər Qaranın dayısı arvadının aşkar ürəyincə deyildi. Söhbət kəbinin üstünə gələndə arvad davam gətirmədi.

- Tək kəbinlə işmi bitər?! Qızın ata-anasının, yaxınlarının halallığını, xeyir-duasını almadan olarmı bu iş?! İllərdi qız verib, qız almışıq, həmişə də belə görmüşük. Nə qızımızı qaçıran olub, nə də bizlərdən kimsə qız qaçırıb.

- Gülsüm xala, ata-anası qızı zorla başqasına vermək istəyir, - Qara tərs və acıdil dayısı arvadını yola gətirməyə çalışdı, - halbuki hətta on yaşı tamam olmuş uşaqla bağlı qərar veriləndə belə, qanun onun da fikrini almağı tələb edir. Kəkliyin iyirmi beş yaşı var, mənimki də bu gün-sabah iyirmi səkkiz olacaq. Bir-birimizi sevirik və ailə qurmaq istəyirik, niyə kimlərinsə alış-veriş predmetinə çevrilməliyik?! Və ümumiyyətlə, almaq, vermək nədi, biz hansı ölkədə və hansı əsrdə yaşayırıq?!

- Ay oğul, ta qədimdən ata-babalarımız qızı veriblər də, qızı alıblar da! Sən indi köhnə dəyirmana təzə mıxmı çalassan?!

- Mənim heç yerə mıx çalmaq fikrim yoxdu.

Masa arxasında sakitcə əyləşib maraqla söhbətə qulaq asan dayısı qızları Fatimə ilə Bikə bu yerdə pıqqıldaşıb-gülüşdülər. Barıt çəlləyinə dönmüş və partlamaq üçün himə bənd olan Gülsüm acığını qızlarına tökdü:

- Durun, tez rədd olun burdan! - Bacılar tabe olub otağı tərk edəndə arxalarınca da bozardı: - Tərbiyəsizlər! - Sifətini əyib Qaraya döndü: - Sən də danışığına fikir ver, nə böyük bilirsən, nə də kiçik!

- Mən pis nə söz dedim ki, axı, Gülsüm xala. - Qara günahkar-günahkar gah qadının, gah onun səssizcə oturub söhbətə qulaq asan ərinin, gah da Kəkliyin üzünə baxırdı.

Xəstə dayısı ya davakar arvadından çəkindiyi üçün ona baş qoşmur, ya da bu məsələdə onunla həmfikir olduğu üçün susurdu. Kəkliyin isə sıxıldığı aşkar görünürdü.

- Sən ya özünü avam yerinə qoymusan, ya da bizi gic yerinə!

Daha nə deməlisən ki!

Qara sözdən söz çıxaran qadının xasiyyətinə yaxşı bələd olduğu üçün dərinə getmədi, həm də telefonuna zəng gəldi. Anası idi, həyəcan və qorxu içində polislərin qızın adamları ilə birgə tökülüşüb evlərinə gəldiyini, hər yeri ələk-vələk etdiklərini, heç nədən xəbəri olmadıqları barədə onun and-amanından sonra çıxıb getdiklərini söylədi. "O gədənin hər tikəsini qulağı boyda edəcəm!" - deyə qışqır-bağır salan qızın əmisinin səsi rayonu başına götürübmüş.

Dayıarvadı bunları eşitcək özünə əl qatdı:

- Mən bilirdim ki, elə belə də olacaq. Sən götür camaatın qızını bas maşına qaçır ki, nədi, nədi, iş bilmişəm! Belə arvad almaq olar, belə ailə qurmaq olar?! İndi bir azdan tökülüşüb gələcəklər bura, biabır olacıq el-oba içində! Hamısının da gözləri qanlıdı yəqin, əllərindən nə xəta desən çıxa bilər. Bu nə bəla idi, başımıza gəldi!

- Mən razı olandan sonra əmim neyləyəcək ki, Gülsüm xala... - Kəklik qadını sakitləşdirməyə cəhd etsə də, səsi o qədər də inamlı çıxmadı; görünür, baş verənlərdən o da ciddi-ciddi narahat olmağa başlamışdı.

- Bir azdan qohum-əqrəban bura tökülüşüb səni aparmaq istəyəndə ata-ananın, əminin üzünə ağmı olacaqsan, ay qız?! Əmin polis işçisidi, bir sözü yetər ki, bu yetimi adam oğurluğuna görə tutub bassınlar içəri. Sən evdə oturub bunun yolunu beş-altı il, bəlkə də çox, gözləyənsənmi? Ay-hay, zırt gözləyərsən!

Qız başını qaldırmadan astadan:

- Gözləyərəm. - Söz dilindən çıxar-çıxmaz gözlərinin yaşı yanaqlarına süzüldü.

Qadının ürəyi yumşalan kimi oldu, səsinin qazını aldı.

- İndi belə deyirsən də, ay qızım, sən gedib evinə çıxanda, oğlanı da polis aparanda bilmək olmaz kim nə deyəcək. - Bu dəfə üzünü Qaraya tutdu. - Bağışla oğul, böyüklərinizin xeyir-duası ilə toyunuzu edin, gəlin, nə qədər istəsəniz qalın, gözümüz üstə yeriniz var, indi isə burdan getməyiniz məsləhətdi.

Mənim nə qız adamının qabağına çıxmağa, nə də polisin, prokurorluğun qapılarında sülənməyə halım var. Güclə başımızı birtəhər dolandırırıq. Dayın da xəstə adamdı, infarkt keçirib, ona əsəbləşmək heç olmaz...

Qaranın gümanı gələn yer ancaq bura idi, qızı aparacağı başqa bir yer ağlına gəlmirdi. Əvvəldən də belə düşünmüşdü ki, bir müddət burada qalıb, ara sakitləşəndən sonra öz evlərinə dönərlər.

Kəkliyin də əhvalı çönmüşdü, qorxu və həyəcanı artıq üz-gözündə idi. Qara ona baxa-baxa hər şeyi əvvəlcədən yaxşıca götür-qoy edib daha tədbirli davranmadığına görə ürəyində özünü danladı. O biri tərəfdən də özünə onunla haqq qazandırırdı ki, indi bunu etməsəydi, qızın üzünü bir daha görməyə bilərdi; Kəkliksiz isə həyatını təsəvvür etmirdi.

Bu basabasda hara gedəcəkləri barədə düşünürdü ki, telefonuna yenə zəng gəldi, yenə anası idi. Durub bayıra çıxdı. Binəva arvad səsində vəhşət, ağlaya-ağlaya bildirdi ki, onları aparan sürücünü polis həbs edib, arvad-uşağı tökülüşüb gəliblər evlərinə, qan-qan deyirlər, onun olduğu yeri soruşurlar.

Qara başını tamam itirmişdi. Bu an onun daxilində həyəcan, qorxu, çarəsizlik – hamısı bir-birinə qarışmışdı.

"Böyük ehtimalla sürücü hər şeyi polislərə danışıb və bir neçə dəqiqədən sonra qızın adamları ilə birgə burda olacaqlar," - düşününcə otağa qayıdıb, gözləri dolub-boşalan Kəkliyə:

- Dur geyin, tez çıxmalıyıq, - dedi, - bir azdan sizinkilər burda olacaqlar. Polis bizi gətirən sürücünü artıq həbs edib. Əllərinə keçən kimi böyük ehtimalla məni də həbs edəcəklər.

- Səni niyə? - Qız təlaş və qorxu içində soruşdu.

- Səni qaçırdığıma görə.

- Axı mən könüllü gəlmişəm, uşaq da deyiləm, kimlə və hara istəsəm, getməyə haqqım çatır. İstəyirsən, mən bir kağız yazıb qoyum ki, özüm könüllü gəlmişəm səninlə.

Oğlan qısa tərəddüddən sonra dayısı qızlarından qələm və ağ vərəq alıb geri qayıtdı.

- Amma tələs, vaxtımız yoxdu, nə qədər ki başımızın üstünü almayıblar, aradan çıxmalıyıq.

Qız kağızda bu cümləni yazdı:

"Mən, özüm könüllü Qaraya qoşulub gəlmişəm. Bir-birimizi se-virik və ailə olmağa hazırlaşırıq".

Bitirdikdən sonra narahat gözlərini Qaraya dikdi:

- Bəs, hara gedəcik?

- Bilmirəm, - oğlan çiyinlərini çəkdi, - yolda bir şey fikirləşərik.

Ev sahibləri ilə sağollaşıb darvazaya yaxınlaşmışdılar ki, çöldə əvvəlcə maşın səsləri eşidildi, sonra hay-küy qopdu. Kimsə darvazanı bərkdən döyəcləməyə başladı. Qızlar qorxudan qaçıb evdə gizləndilər. Gülsüm "Ay Allah, özün kömək ol!", - deyib az qala dağılan darvazaya tərəf götürüldü. Qapını açmağı ilə on-on beş adamın həyətə doluşmağı bir oldu; aralarında polis geyimində bir neçə nəfər də vardı.

Qızla oğlan qorxudan bir-birilərinə qısılıb durmuşdular. Mayor rütbəli polis içəri girən kimi özünü Qaraya yetirib sol qulağının dibinə yağlı bir şillə tutuzdurdu.

- Qudurmusan, əə, müxalifət küçüyü, ilişməyə adam tapmadın?!

Oğlan zərbənin təsirindən səndirlədi. Özünə gəlməyə macal tapmamış ikinci şillə sağ tərəfindən gəldi. Zərbə o qədər güclü alındı ki, Qaranın burnundan qan açıldı.

- Sənin hər tikəni qulağın boyda edəcəm! - Üzərində tamam nəzarəti itirmiş mayorun səsi həyəti başına almışdı.

Həyətdəki adamlardan biri - hündürboylu, ağsaçlı kişi polis mayoruna yaxınlaşıb sakitləşdirməyə çalışdı:

- Özünü ələ al, Şahlar, camaat yığışıb, bura yeri deyil!

- Əmi, qurban olum, vurma, onun bir günahı yoxdu! - Qanı görən Kəklik hönkürə-hönkürə yalvarmağa başladı. - Mən özüm ona qoşulub gəlmişəm...

Sözü ağzından çıxar-çıxmaz sifətini gün yandırmış çilimsiz bir qadın ora yaxınlaşdı, qızın saçlarından yapışıb bərkdən dartmağa başladı.

- Kəs səsini, küçük! Acın, yalavacın biri sənə ata-anandan, əmindən də əziz oldu?! - Qızın saçlarını dartdıqca daha bərkdən qışqırırdı: - Gəl, qancığın qızı, sənin dərsini hələ evdə verəcəm, sən o qədər qudurmusan ki, böyüklərini də saymırsan?!

Kəklik başını tutub hönkürtü ilə ağlaya-ağlaya yalvarırdı:

- Ana, qurban olum, burax, qələt eləmişəm, camaat bizə baxır! Ana, burax saçımı, ağrıdır! Biabır eləmə bizi, anaa!..

Qızının yalvarışları gücləndikcə ana daha da qızışırdı.

- Bəs sən bizi biabır edəndə, başımızı yerə soxanda heç bu küt beyninlə fikirləşmirdin ki, hansı poxu yeyirsən?!

Həyətə toplaşmış qadınlardan bir neçəsi nəhayət, yaxınlaşıb Kəkliyi üzərində nəzarəti itirmiş anasının əlindən birtəhər ala bildilər. Hönkürtüsü kəsməyən qızın halı birdən pisləşdi, onu tələsik maşına mindirib apardılar.

Qızın əmisi yaxınlıqda dayanmış işçilərini yanına çağırıb onlara nəsə dedi. İki polis Qaraya yaxınlaşıb, "bizimlə polis idarəsinə getməlisən" deyib qoluna girdilər...

***

Nə qədər davam etdiyini bilmədiyi gəzintidən sonra bəzi vacib bilgilər əldə edə bilmişdi. Olduğu yer dəhlizdən, iki otaqdan, tualet və mətbəxdən ibarətdi.

Qtaqlardan birində dəmir çarpayı qoyulmuşdu, üstündə quru döşək, tükləri çıxmış yekə yastıq və nazik döşəkağı vardı. Yataqdan xoş olmayan iy vursa da, yatmağa yeri olduğuna məmnun idi.

Qonşuluqda daha bir otaq vardı, addımlarının köməyilə ölçmüşdü. O birindən eninə görə dörd, uzunluğuna görə altı addım böyük olan həmin otaqda üzü dəridən olan kreslo, kiçik masa, dörd stul və bir də kitab şkafı vardı. Burada olduğu ilk səhəri, - ya da ola bilsin, gündüzü və ya gecəni, - kor olmuş gözləri ilə həmin otaqda açmışdı.

İki əl uzunluğunda və adam boyundan bir qədər hündür

olan kitab şkafının altı rəfində irili-xırdalı otuz altı kitab saymışdı. Hərdən onları əlinə alır, o tərəf-bu tərəfə çevirir və yenidən yerinə qoyurdu. Bunu da özünə məşğuliyyətə çevirmişdi; ən kiçik kitab yuxarı rəfdə sonda, ən böyük kitab isə aşağı gözdə ortalarda yer almışdı. Çox təəssüflənirdi ki, gözləri görmür, kitablar vaxtını öldürməkdə və ən əsası da, aclıq və susuzluğunu yaddan çıxarmaqda yardımçı olardılar.

Bir dəfə ən böyük kitabı götürüb əlini qalın üz qabığının üzərində gəzdirəndə döymə yolu ilə yazılar diqqətini çəkdi; böyük ehtimalla bunların kitabın adı olduğunu düşündü. Barmaqlarını hərflərin üzərində asta-asta gəzdirməklə onları deşifrə etməyə cəhd etdi. İki gün davamlı bir neçə saatını həsr etdikdən sonra, nəhayət, kitabın adını oxuya bildi: İDİOT.

Nə kitabın özünü, nə də müəllifini xatırlaya bildi. Maraq çox güc gəldi, yetərincə boş vaxtı da vardı, tələsəcəyi yer də yoxdu; ona görə, indi də barmaqlarını bu qalın kitabı yazan müəllifi müəyyən etmək üçün işə saldı. Kitabın adından fərqli olaraq, müəllifin adı kiçik hərflərlə yazıldığı üçün bu iş daha çətin başa gəldi və daha çox vaxtını aldı, - zamanı çox idi deyə, buna görə heç heyifslənmədi, - amma sonda onun kim olduğunu ayırd edə bildi: Fyodor Dostoyevski.

Bu adı da ilk dəfə eşidirdi. Nə qədər çalışdısa, nə hansısa əsər, nə də yazıçı və şair adını yada sala bildi. Bu halından dəhşətli dərəcədə məyus idi...

Kiçik masa, taxtadan bir taburetka, tok çaydanı, kiçik şkaflar, içərisi boş kibrit qutusu, su kranı və böyründə bir neçə qab-qacaq... - bütün bunlar indi olduğu məkanın mətbəx olduğuna işarə idi. Yemək və su tapacağı ümidilə bütün dolabları, dəlmədeşikləri ələk-vələk etdi. Aşağı siyirmələrdən birində bir neçə çörək qırığı, kiçik şüşə qablardan birində isə bir ovuc dənəvari, daha çox düyüyə oxşayan bir şey tapdı. Çörək qırıqları dişə gəlməyəcək qədər bərkimişdilər; onları ağzına atıb xırtıldada-xırtıldada iştahla yedi. Qabdakının nə olduğunu müəyyən etmək üçün birini götürüb dişinə vurdu; düz tapmışdı, düyü idi. Ye-

məyə daha münasib bir şey olsaydı, daha çox sevinərdi, amma indiki halında buna da şükür etdi. Şkafın yuxarı gözlərində şüşə qablardan birinin dibində kif iyi verən şirə, - barmağını batırıb daddı, mürəbbəyə oxşayırdı, - qənddanda qalmış yeddi-səkkiz qənd aşkarladı. Döşəmədə bir küncdə yarıçürük beş-altı kartof atılıb qalmışdı. Onlara dəymədi, qalanlarını səliqə ilə dolablardan birinə yığdı.

Tualetə qayıdıb, oradakı suyu götürüb geri qayıtdı. İndi onu məmnunluqla birdəfəyə başına çəkərdi, amma hələ ki, bu, tapdığı yeganə ehtiyat idi. Qiymətli mayeni əlinə keçən boş qablardan birinə boşaltmaq istədi, amma fikrindən daşındı: gözləri görmürdü, dağıda bilərdi...

***

Sarı səhər gözlərini açan kimi ilk beyninə gələn yenə həmin fikir oldu:

"Mən əclaf olmaq istəmirəm!"

Bütün günü nə etməsindən asılı olmayaraq bu fikir onu rahat buraxmırdı.

"Onlar məndən əclaf qayırmaq istəyirlər. Çıxış yolu ölkədən qaçmaqdı! Amma necə?"

Yenə o adamı yadına saldı. Üç gün öncə çox etibarlı bir tanışına təhlükə barədə üstüörtülü məlumat verib qeyri-leqal yolla da olsa ölkəni tərk etmək fikri olduğunu bildirəndə tanışı onun kontaktını vermişdi. Üç gün davam edən əzablı düşüncələrdən, tərəddüdlərdən sonra nəhayət, risk etməyə qərar verdi. Şərtli razılaşma ilə həbsdən çıxandan sonra danışıqlarının, yazışmalarının izlənilə biləcəyini ehtimal edirdi. Amma bu iş risksiz başa gələn deyildi; indi şansından yararlanmasa, bir də belə imkan əlinə düşməyə bilərdi. Dəli kimi otaqda var-gəl etməyə başladı.

"Yox! Mən əclaf olmaq istəmirəm!"

Hər zaman zarafatlaşdığı bacısı yeməyi masanın üstünə qoyub sakitcə necə gəlmişdisə, eləcə də otağı tərk etmişdi; o qədər

fikirli idi ki, qızın nə vaxt gəlib, nə vaxt getdiyini belə hiss etməmişdi. Yemək soyumuşdu; sevdiyi kənd toyuğu ilə kartof qızartması idi. Masaya yaxınlaşdı, kartofun birini, buddan da balaca bir hissə qoparıb istiliyi hələ keçməmiş təndir çörəyinin arasına qoyub ağzına apardı. Çeynəmək istədi, hövsələsi çatmadı, diri-diri uddu.

Bu işdə yardımçı ola biləcək adama yazmaqdan öncə təhlükəsizliklə bağlı riayət etməli olduğu bəzi qaydaları ona izah etmişdilər. Onlara əməl edib dünən gecədən yazıb hazır qoyduğu məktubu ünvana göndərdi.

Nəhayət, gecə saat birdə cavab aldı: "5000 və nə vaxt?"

Bilmədi sevinsin, yoxsa kədərlənsin, gülsün ya ağlasın. İşin alınmasına hədsiz sevinirdi, amma bu qədər pulu da yoxdu. Onu da anlatmışdılar ki, bu adamla bazarlıq etmək fikrinə düşməsin, acığa düşüb imtina edə bilər. Bu şansı heç cür qaçıra bilməzdi, pulu mütləq tapmalıydı. Özündə min manat vardı, uzaqbaşı minini də dost-tanışdan borc ala bilərdi. Qalanını haradan tapacaqdı?

Xeyli fikrə getdi. Qəfil ağlına gələn tapıntıdan az qala qol açıb oynayacaqdı. Həyətə çıxdı. Anası tövlədə Alagözü sağırdı. Yanındakı vedrələrdən biri inəyin əmcəklərindən süzülən dümağ, adama gəl-gəl deyən südlə ağzına qədər dolmuşdu, o biri də dolmaq üzrə idi. Ana oğlunu görcək təəccübləndi. İnəyi sağa-sağa ona tərəf çöndü.

- Nəsə lazımıydı, oğul?

- Nə qədər süd verir, ay ana, bu? - Oğul suala sualla cavab verdi.

- İyirmi beş litr də sağdığım vaxt olub, iyirmi də, on beş, on səkkiz də? Nədi ki, sənə süd lazımdı?

- Yox, ana, sağ qurtar, gəl evə, vacib bir məsələ var, onu danışmalıyıq...

Anasına necə deyəcəkdi bütün bunları, nədən başlayıb, nədə qurtaracaqdı, bu barədə baş sındırmaqda idi ki, arvad hövlnək içəri girdi.

- Bayaq südü niyə soruşdun, oğul? Sual verdim, cavab da vermədin, bərk narahat oldum ki, görəsən, nəsə olub...

- Ana, Alagözü satmaq lazım gələcək, - oğlu birbaşa mətləbə keçdi.

- Nə? - Arvadın təəccübdən az qala gözü kəlləsinə çıxacaqdı. Alagözü satmaq? Niyə, ay oğul?!

- Mənə üç min manat pul lazımdı, ana, özü də çox təcili. Heç nə soruşma məndən. Bilirəm, inək ailə üçün nə deməkdi, amma oğlunu sağ-salamat görmək istəyirsənsə, buna razı olmalısan. Sənə söz verirəm, pulu çalışacam tez bir zamanda qaytarım. Amma yalançı da olmaq istəmirəm, mən deyən olmasa, başıma bir iş gəlsə, onda haqqını halal edərsən.

Qadının yanağından axıb gedən bir gilə yaş kəlağayısına tərəf süzüldü...

***

On dəqiqə davam edən prosesdə hakim Qaranın barəsində məhkəməyə qədər üç aylıq həbs qərarı çıxardı. Prokuror çıxışında müttəhimin şəxsiyyətini, onun qaçıb gizlənə, zərərçəkmişə, şahidlərə təzyiq göstərə və sübutları məhv edə biləcəyi ehtimalının real olduğunu qeyd edib bu qərarın çıxarılmasını xahiş etmişdi. Onu dinlədikcə Qara qulaqlarına inanmırdı. Dövlət ittihamçısı necə belə yalan şeylər danışa bilərdi?

"Mənim şəxsiyyətimə nə olub ki, bu yaşa çatmışam, kimsənin toyuğuna heç kiş də eləməmişəm?! Mənim nə xarici pasportum var, nə pulum, nə də getməyə yerim, hara qaça bilərəm ki?! Qızın əmisi polisdə rəis müavinidi, mən onun qardaşı qızına necə təzyiq göstərə bilərəm axı?! Səlahiyyət də əllərində, güc də, şahidlərə özləri təzyiq göstərməsinlər, mən kiməm ki?! Məhv edə biləcəyim hansı sübutlardan danışırlar görəsən, qızın qaçırıldığı maşını nəzərdə tuturlarlarsa, mən onu necə məhv edə bilərəm?!..."

Müttəhim məhkəmənin dövlət hesabına ona təyin etdiyi yaş-

lı vəkildən prokurorun dəlillərini darmadağın edən çıxış gözləyirdi. Bayaqdan telefonu ilə oynayan müdafiəçiyə söz veriləndə tənbəl-tənbəl yerindən qalxıb, "Məhkəmənin mülahizəsinə buraxıram" - deyib əyləşdi. Qara gördüklərindən, eşitdiklərindən şokda idi: onun təsəvvüründəki məhkəmə ilə indi gördükləri tamam fərqli şeylər idi.

Onu qandallayıb məhkəmədən birbaşa istintaq təcridxanasına gətirdilər. Qaydalara görə, təzə gələn dustaqları karantindən keç-dikdən sonra kameralara bölüşdürürdülər.

İçəri girəndə dustaqların çoxu uzanmışdı, səsə dikəldilər və maraqla onu süzməyə başladılar. Salam verib nəzarətçinin göstərdiyi, üstündə çirkli yataq dəsti olan boş çarpayıda özünə yer etdi.

Karantin keçdikləri yer iyirmi kvadrat metrlik bir otaq idi. İkiyaruslu dörd dəmir çarpayı yerləşdirilmiş otaqda səkkiz nəfər idilər. İçəridə hava yox idi, siqaretin tüstüsündən göz-gözü görmür, qapısı açıq olan tualetin iyindən isə nəfəs almaq olmurdu.

Birinci çarpayıdakı yaşlı kişi əlindəki kitabı kənara qoyub:

- Hansı, bacıoğlu? - soruşdu və təzə sakinin təəccüblə ona baxdığını görüb gülümsündü: - Soruşuram maddən hansıdı?

- Adam oğurluğu. - Qara maddəsini utana-utana dedi.

- Bu da şeyinin balasına düşənlərdəndi yəqin. - Bunu deyən indicə sual verən yaşlı dustaqla eyni çarpayıda ikinci mərtəbədə üzü divara tərəf uzanmış orta yaşlı yekəpərin biri idi; sözlərinə əksəriyyət gülüşdü. - Soruşun görək, heç olmasa bir şey edib, yoxsa elə upakovkada[1] qoyub, gəlib düşüb bura.

Yenə hamı gülüşdü. Yaşlı kişi ona acıqlandı.

- Kərgədan, ayıbdı, bu cür danışma, böyük var, kiçik var...

- Onlar hamısı qaldı bayırda, Hətəm dayı, - kişinin sözünü ağzında qoydu, - türmədə nə böyük, nə kiçik?! Bir də mən nə dedim ey, yenə düşmüsən üstümə. Düz deyirəm də, bunun maddəsinin sanksiyası səkkiz ildən on iki ilə qədərdi, mənimki

---

[1] Rus sözü ("упаковка"), tərcüməsi «qablaşdırma»; burada "toxunulmamış", "əl dəyilməmiş" mənasında işlədilir.

beş ildən on ilə qədər. Mən bankomatlardan üç yüz min pul qaçırmışam, bu bədbəxt də arvad. Mən o boyda pulu basıb yemişəm, gəlib düşmüşəm bura, bu da bir arvada basa... Lənət sənə, kor şeytan!

Kamerada yenə gülüş qopdu. Qara başını aşağı salıb dinməzcə oturmuşdu. Kərgədan çarpayısını cırıldada-cırıldada aşağı endi.

- Durun gəlin bir tikə zəhrimarımızı yeyək. - Üzünü pərt olmuş təzə sakinə tutdu. - Sən də gəl, yəqin, acsan, mənə də fikir vermə, başdanqrijanın biriyəm... - Yaxınlaşıb əlini uzatdı. – Mansur. Nərmənazik olduğuma görə hamı məni Kərgədan deyə çağırır. İkinci dəfədi düşürəm bura. Vecinə alma, papağını fırladacaqsan, müddət gəlib keçəcək. Amma gərək, burda olduğun vaxt çölü birdəfəlik başından atasan, yoxsa çox çətin olar...

Qara nədən adam oğrusu sayıldığını heç cür anlaya bilmirdi. Baş verənlərin dəhşətli bir yanlışlıq olduğunu düşünürdü: o, heç kimi oğurlamamışdı, sevdiyi və onu sevən birisilə ailə qurmaq istəyirdi, qız da könüllü ona qoşulub getmişdi. Yaxşı bir vəkil olsaydı, onun köməyilə tezliklə günahsız olduğunu sübut edə biləcəyinə şübhə etmirdi. Amma nə tanıdığı vəkil vardı, nə ona verməyə pulu, nə də ailəsində, qohum-əqrəbasında bu işin dalınca düşə biləcək adamı.

Karantində olduğu üçüncü gün ürəyini Hətəm kişiyə açdı; onunla söhbətləri tuturdu, həm savadlı və dünyagörmüş, həm də alicənab birisi idi. Hətəm kişi gənci diqqətlə dinləyib "haqlısan, yaxşı bir vəkil olsa, bəlkə də, səni burdan qurtara bilər", - deyə onu ürəkləndirdi.

Günorta naharından sonra ona vəkil verilməsi barədə ərizəni birgə hazırlayıb ünvanına göndərmək üçün nəzarətçiyə verdilər...

***

Vaxtı öldürmək və ən əsası, aclıq və susuzluq hissini unutmaq üçün özünə məşğuliyyət tapmalı idi. Günlərin sayını, saatı necə müəyyən edə biləcəyi barədə xeyli vaxtdı düşünürdü. Haradasa saat çıqqıltısı eşitmişdi; yaddaşı onu aldatmırdısa, kitab

şkafı olan otaqda idi. Həmin anda ona xüsusi önəm verməmişdi, kor birisi saatın neçə olduğunu necə görə bilərdi ki. Boşbekar idi, "bəlkə, nəsə fikirləşib tapa bildim", - ümidilə həmin otağa keçdi. İndi daha rahat irəliləyə bilirdi, hətta bəzən əlini divardan da çəkirdi.

Yanılmamışdı, saat həmin otaqda idi; bir qədər yanında durub çıqqıltısına qulaq asdı. "Görəsən, neçə olar?" - Maraq o qədər güc gəldi ki, əlini səs gələn tərəfə uzatdı, amma yetmədi. Stullardan birini gətirib ayağının altına qoydu, ehmalca üstünə çıxıb saatı əlinə aldı. Yerə enib görməyən gözlərini məyus-məyus ona dikdi və beləcə, bir xeyli fikrə getdi. Qəfil ağlına gələn ideyadan dodağı qaçdı və onu reallaşdırmaq üçün dərhal da əmələ keçdi.

Əvvəlcə çox ehtiyatla əli ilə saatın əqrəblərini tapmağa çalışdı. Öncə üç cür - saatı, dəqiqələri və saniyələri ölçən əqrəblərin olduğunu müəyyən etdi. Sonra böyük və kiçik əqrəblərin yerini müəyyən etməyə girişdi.

Saniyələri ölçən əqrəb istədiyini rahatlıqla etməyə mane olurdu, tez-tez barmaqları ona toxunurdu. Ehtiyatla davranmalı idi, əqrəbləri zədələyə və saatı korlaya bilərdi. İndi bu, vaxtı müəyyən etmək üçün yeganə şans idi.

Bir neçə dəfə saniyəölçən barmaqlarına toxunub hərəkətindən qalsa da, tez əlini çəkməyi bacardı. Beləcə, xeyli vaxtı getdi. Sonda sevincinin həddi-hüdudu yox idi: dəqiqə və saatı göstərən əqrəblərin yerini müəyyən etməklə, uzaqbaşı bir-iki saat yanılma ehtimalı ilə vaxtı müəyyən edə, gecə və gündüzü bir-birindən ayıra, hətta günləri də saya biləcəkdi.

Bu kəşfinin hesabına müəyyən edə bildi ki, indi günortadır: saat ikiyə qalırdı. Nə qədər qaldığı isə ona maraqlı deyildi deyə, onu necə təyin etməyin üstündə baş sındırmadı.

Özündən xeyli razı qaldı. Saatı qaytarıb yerinə qoymaq istədi, amma fikrindən daşındı. Hər dəfə vaxtı bilməkdən ötrü onu yerindən çıxarıb sonra təzədən asmamaq üçün, əl altında olan münasib bir yer fikirləşdi. Sonda qərar verdi ki, ən uyğun yer

elə masanın üstüdür. Saatı orada yerləşdirib yanında əyləşdi, xeyli çıqqıltısına qulaq asdı.

"Onun səsi bitəndə, mən də bitəcəm!"

Ağlına qəfil gələn bu fikirdən içindən üşütmə keçdi.

"Bu sarsaq fikir hardan gəldi ağlıma?!"

Belə qorxulu fikirləri yaxın buraxmamaq üçün başqa bir məşğuliyyət tapmaq ümidilə qalxdı. Bir neçə addım atmışdı ki, qəfil qarnında bərk sancı hiss etdi. Bayaq içdiyi sudan ola biləcəyini, keçib-gedəcəyini düşündü. Amma ağrı getdikcə güclənirdi: içəridən gah qurultu, gah da gurultu səsləri gəlirdi. Hiss etdi ki, bağırsaqları daha sözünə qulaq asmaq istəmirlər, təcili özünü bir yerə yetirməsə, şalvar əldən gedəcək.

Tualet dəhlizin o başında idi. Tələsik ora tərəf yön aldı. Bir neçə addım atmışdı ki, sancı içindən elə bərk yapışdı ki, ağrıdan qıvrılmağa başladı. Özünü saxlaya bilməyəcəyini anlayanda şalvar qarışıq alt tumanını aşağı çəkməyi ancaq çatdıra bildi; arxasından səs-küy, gurultu ilə çıxan maye ətrafa səpələndi. Hər yeri nəcis iyi bürüdü. Elə durduğu yerdəcə çöməlib özünü tamamilə boşaltdı.

Bütün bədəni tər-su içində idi...

***

Alagöz satılan kimi Sarı ondan xəbər gözləyən şəxsə səfərə hazır olduğunu və elə sabah yola çıxa biləcəyini yazdı. Bu dəfə cavab tez gəldi: razılıq verilmişdi...

Maşını uzaqda buraxıb piyada gəlməyini xahiş etmişdilər. Hər tərəf qaranlıq idi, çox uzaqlarda evlərin işıqları gözə çarpırdı. Meşənin girəcəyinə yaxınlaşanda qəfil qaranlıqdan dolu bədənli, qara saqqallı, başı daz qırxılmış orta yaşlı bir kişi qarşısında peyda oldu; çiynindən sovetin qoşalüləsi sallanırdı.

- Adım Mirzədi, - gülümsəyərək özünü təqdim etdi, - amma hamı məni Yalquzaq çağırır, gənclikdən qalma ləqəbdi. Əsgərliyi Sibirdə çəkmişəm, olduğum yer tayqa meşələri, cəngəlliklər-

lə əhatələnmişdi, canavarları da çox idi, hərdən səs-səsə verib ulaşırdılar. Mən də onlar kimi ulamağı öyrəndim. Deyirdilər ki, səsim onlardan heç fərqlənmir. İndi də yeyib-içib keflənən vaxtlarımda hərdən bir-iki ağız ulayıram. - Güldü. - Əvvəl qonşular elə bilirdilər ki, canavarlardı, kəndə basqın ediblər, əllərində silah, yaba tökülüşüb gəlirdilər. Sonra öyrəşdilər...

Sarı gülümsündü, amma indi bütün fikri yolda idi.

- Getdiyimiz yol təhlükəli deyil ki? Birdən sərhədçilərlə rastlaşdıq? Yəqin, belə yerlərdə hər cığıra göz qoyurlar.

Bu dəfə Yalquzaq gülümsündü.

- Səni elə yolla aparacam ki, ora ancaq vəhşi heyvan ayağı dəyib. Sərhədçilərə görə də narahat olma, bu günkü növbənin rəisi bizim adamdı, mənə də uzaq qohumluğu çatır. Verdiyin pulun da üçü ona çatacaq, qalan ikisinin yarısı mənə, yarısı da səni o tərəfdə qarşılayacaq adama. Əsas odur ki, səssiz-küysüz ünvana çataq.

Yola düzəldilər. Yalquzaq qabaqda gedirdi, o da bir nəfəs aralıda ardınca.

- Baxmayaraq ki, mənə Yalquzaq deyirlər, vəhşi heyvanlardan uzaq olmağa çalışıram. Üz-üzə gəldinsə, ya gərək, sən onu öldürəsən, ya da o, sənin axırına çıxasıdı. Nə öldürmək, nə də ölmək istəyirsənsə, onlardan uzaq olsan yaxşıdı... - Fikrə getdi. - Son vaxtlar canavarlar yaman azğınlaşıblar, evlərə hücum çəkirlər. Ötən ay həyətimizə girmişdilər, mən mal-heyvan da saxlayıram axı. Hava isti olduğu üçün tövləyə salmırdım, elə çöldəcə yatışırdılar. Mən də yorğun idim, yatmışdım, yatanda da daş kimi düşürəm. Bir də, haçansa səs-küyə ayılmışam. Geyinib, silahı götürüb çıxana qədər üç qoyunumu parçalamağa macal tapmışdılar vəhşilər. Üç, ya dörd idilər, gülləm birini tutdu, ən cavanı idi. Adam kimi zarıyır, gözlərimin içinə baxıb imdad diləyirdi. Gördüm əzab çəkir, ikinci gülləni də başına çaxdım. Zingiltisinə canavarlardan biri ayaq saxlayıb geri döndü, bizə tərəf qaçmağa başlayanda atəş açdım, amma bilmirəm qaranlıqıydı, yoxsa həyəcandandı, gülləm boşa çıxdı. İkincini atmağa macal

tapmadım, qaçıb gözdən itdi. Yekəpərin biriydi, elə zəhmli görkəmi vardı ki. Gözlərinin işıltısı isə hələ də gözümün qabağından çəkilmir. O vaxtdan səksəkə içində gəzib-dolanıram, canavarlar kinli olurlar. Bir-iki dəfə də yuxuda görmüşəm. Qəribədi, özü görünmür, ancaq işıldayan gözləri mənə baxır. Hər dəfə də, vahiməsindən yuxudan qan-tər içində ayılıram. Bu qoşalüləni də, elə ona görə həmişə hazır vəziyyətdə özümlə gəzdirirəm. Amma yaxşı olar, vəhşiylə heç qarşı-qarşıya gəlməyək ki, silaha da ehtiyac olmasın. Səsi çıxsa, problemimiz yarana bilər, onda gərək, geri qayıdaq.

- Birdən qabağımıza adam çıxsa, onda necə?

- Deyəcəm ki, tanışımsan, şəhərdən gəlmisən, ova çıxmışdıq, yolu azmışıq, sən də təsdiqləyərsən. Narahat olma, dərinə getməyəcəklər, rəis xəbərdardı. Uzaqbaşı ona məlumat verəcəklər, o da hər şeyi yoluna qoyacaq. Yolda danışmasaq yaxşıdı. - Cibindən iri bir bıçaq çıxarıb yol yoldaşına uzatdı. - Tüfəngimiz var, amma hər ehtimal üçün, səndə də bıçaq olsun, ehtiyat igidin yaraşığıdı. Hə, parolu da deyim biləsən, ora çatanda soruşacaqlar. Mənim yaddaşım pisdi, ona görə, öz adımı qoymuşam. - Səsi çıxmayan yol yoldaşının onu dinlədiyinə əmin olmaq üçün ayaq saxladı, arxaya çevrilib gülümsədi. - Yalquzaq...

Saat yarım olardı ki, yol gedirdilər. Bu müddət ərzində Yalquzaq səksəkə içində o tərəf-bu tərəfə göz qoyur, hər səsə, şıqqıltıya ayaq saxlayıb dərhal da barmağını tüfəngin çaxmağına tərəf aparırdı.

Daha bir neçə dəqiqə addımlamışdılar ki, qabaqda kiçik bir daxmanın işığı göründü.

- Az qalıb, - bu dəfə Yalquzağın səsi daha hündürdən çıxdı, - on dəqiqəyə ordayıq. Bu cığır bizi düz o adama çıxarır. - Bütün yol boyu əlində hazır tutduğu qoşalüləsini çiyinlərinə atdı. - Təhlükəli yol arxada qaldı. O tərəfdə Anzor səni qarşılayacaq, o adamı deyirəm... Bizi cığırın o başında birmərtəbəli kərpic daxmanın yanındakı hündür palıd ağacının yanında gözləyəcək, biz orda peyda olanda fənəri üç dəfə yandırıb söndürəcək. Mən

o tərəfə keçməyəcəm, narahat olma, etibarlı adamdı, yanında adam başı kəs, dilindən söz çıxmaz. Dilimizi də məndən yaxşı bilir, sovetin vaxtında biz tərəflərdə əsgərlik edib.

Eşitdiklərinə sevincək olan Sarının həyəcandan ürəyi bərkdən döyünməyə başladı: daha bir neçə dəqiqə və o, tam təhlükəsizlikdə olacaqdı.

Yolu problemsiz başa vurmaları Yalquzağın da kefini açmışdı.

- Bilirsən də, gürcülər kimi yaxşı çaxır çəkən ikinci millət yoxdu. Bax, bu Anzor var ha, o, bir çaxır çəkir ki, fransızlar onun yanında qələt eləyir. Doyunca vurarsan mənim sağlığıma.

Bu yerdə yol yoldaşının astadan gülməsi Yalquzağın gözündən yayınmadı.

- Nəyə gülürsən, qardaşoğlu?

- Heç, inşallah sözü ilə bağlı bir lətifə var, o yadıma düşdü. Yəqin, eşitməmiş olmazsan.

- Bəlkə də eşitmişəm, amma axır vaxtlar yaddaşım tamam korlanıb, yadımda deyil. Nə lətifədi ki, elə?

- Biri işdən evə gəlir, arvaddan soruşur nə bişirmisən, cavab verir ki, dolma. Kişinin ağzının suyu axır, deyir, arvad, tez gətir görüm, acından ölürəm, qatığı da bəri ver, ləzzətlə ötürəcəm getsin. Arvad deyir ki, inşallah de, a kişi. Kişi təəccüblə arvadına baxır ki, nə gic-gic danışırsan, evimin içində oturmuşam, dolma qazanda hazır, əlində də çömçə artıq çəkirsən boşqaba, buna nə inşallah?! Arvad yeməyi boşqaba çəkib qoyur qabağına. Kişi elə əlini atıb dolmadan götürmək istəyir ki, bu vaxt...

Bu vaxt Yalquzaq ayaq saxladı, gözlərini irəlidə bir nöqtəyə dikib qurudu.

- Bu odu... mən hiss edirdim... o məni çoxdan izləyir... - özü ilə danışırmış kimi səsi lap astadan çıxdı; ehtiyatla əlini çiyninə atdığı tüfəngə tərəf apardı.

Sarı da ayaq saxlayıb gözünü həmin yerə zillədi və gördüklərindən dəhşətə gəldi: işıldayan bir cüt göz onlara tuşlanmışdı. Nə baş verdiyini anlamağa macal tapmamış gözlər bir anın içində bədheybət bir məxluqa çevrilib onlara tərəf götürüldü.

Bütün bunlar elə sürətlə baş verdi ki, gözünü yumub açana qədər Yalquzağı yerdə sərilmiş, vəhşini isə üstündə gördü; tüfəng altında qalmışdı, əlləri isə canavarın boğazındaydı.

- Bıçaqla vur onu! Tez vur, yoxsa indi məni də parçalayacaq, səni də! Vuur!... - Yalquzağın səsi xırıldadı; boğazı vəhşinin ağzına keçmişdi.

Sarı özünə gəlib, bıçağı əlində bərk sıxıb qorxa-qorxa arxadan yaxınlaşdı, gözlərini yumub bıçağı var gücü ilə vəhşinin kürəyinə sancdı. Tiyə dərinə doğru hərəkət etdikcə qabırğaların xırtıltısı eşidilirdi. Zərbə elə qüvvətli alınmışdı, heyvan altındakı adamın üstünə çökdü.

Mirzənin boğazının qanı dayanmırdı. Bıçağı dartıb çıxarmaq istədi, gücü yetmədi, dəhşətli qorxu bütün ruhuna hakim kəsilmişdi. Çətinliklə bir neçə addım geri atıb dayandı; bədəni tamam süstləşmişdi, ayaqları güclə sözünə qulaq asırdı. Bu an gözləmədiyi bir şey baş verdi. Vəhşi qurbanının boğazını buraxıb dikəldi, çevrilib bıçaq kürəyində səndələyə-səndələyə ona tərəf addımlamağa başladı.

Sarı qaçmaq istədi, amma qorxudan qıc olmuş ayaqları sözünə qulaq asmadı. Ölümünü göz önünə alıb gözlərini yumdu, dili topuq vura-vura tələsik kəlmeyi-şəhadətini deməyə başladı. Qorxu yaddaşını sıradan çıxarmışdı, dilindən özünün də anlamadığı qırıq-qırıq sözlər çıxdı.

Heyvan daha bir neçə addım atıb ayaqlarının altında çökdü.

Özünə gəlib hər ikisinin öldüyünü anlayanda xeyli vaxt keçdi. Nə edəcəyini bilmirdi. Geri qayıtmaq riskli idi, yolu tanımırdı, azıb qurd-quşa yem ola bilərdi. Sağ-salamat gedib çıxa bilsəydi belə, Mirzənin ölümünü də böyük ehtimalla onun üstünə yıxacaqdılar; onsuz da başdan-ayağa zibilin içindəydi, əllərinə yaxşı fürsət vermiş olardı. Bir yolu qalırdı.

İrəli bir neçə addım atmışdı ki, nəyisə xatırlayıb geri döndü, əlini sifəti qorxunc kökə salınmış, boğazının qanı qurumamış meyitin döş cibinə salıb, bayaq verdiyi pulları çıxardı və öz cibinə qoydu. Nə fikirləşdisə, onların arasından min manat ayırıb

döş cibinə qoydu, qalan dörd min manatı isə daha etibarlı yerdə gizlətdi. Yalquzağın altındakı tüfəngi də götürüb cığırla işıq gələn tərəfə qaçmağa başladı.

Qaçdıqca ona elə gəlirdi ki, yalquzaq arxadan onu qovur və indicə iti dişlərini kürəyinə saplayacaq. Vahimədən hərdən elə yüyürən yerdəcə çevrilib arxaya baxırdı.

Cığırın sonuna çatanda dayandı. Mirzə demişdi ki, o tərəfdəki adam hündür və iri gövdəli palıdın arxasında gizlənib gözləyəcək, onları görcək fənərin işığını yandırıb-söndürməklə işarə verəcək. Amma nə fənərin işığı görünürdü, nə də adam. Canını qorxu aldı: birdən adam gəlməsə, nə edəcəkdi? Nə buralara bələddi, nə də yolu tanıyırdı.

Bu vaxt kürəyinə nəsə toxundu. Ani beynindən canavar ola biləcəyi fikri keçdi, qorxudan az qala ürəyi yerindən çıxacaqdı ki, "parol?" - deyə arxadan səs gəldi. Dili topuq vura-vura "Yalquzaq" sözünü güclə deyə bildi.

- Bəs özü hardadı? - Adam şirin ləhcə ilə gülə-gülə soruşdu.

Qorxudan sarısını udan Sarı özünə gəlib baş verənləri danışıb, cibində ayrı qoyduğu min manatı çıxarıb ona uzatdı.

Az sonra iki nəfəri daşıyan köhnə sovet "Moskviç"i yolla şütüyürdü...

***

Qaranın karantində keçirdiyi doqquzuncu gün dünən tamam olmuşdu. Bu gün tezdən rəis təzə dustaqları qəbul etdikdən sonra onları kameralara bölüşdürməli idilər. Həbsi ilə bağlı məhkəmə qərarından şikayət etmək üçün ona vəkil verilməsi barədə ərizəsinə hələ cavab almamışdı.

Günortadan sonra onu yeddi başqa dustaqla birgə inzibati binaya apardılar. Hamısının əllərinə qandal taxıb dörd nəzarətçinin müşayiəti ilə ikinci mərtəbəyə, rəisin otağına qaldırdılar. Nəzarətçilərin başında duran baş leytenant Abdullanı "Drakon" deyə çağırırdılar. Hündürboy, idman cüssəli birisi idi; rəi-

sin otağının qarşısına çatanda dustaqlara üzlərini divara tərəf çevirmək əmrini verdi.

- Sizi bir-bir qəbula çağıracaqlar. İçəri girəndə rəisin masası qarşısında ayaqlarınızı bir-birinə yapışdırıb, mil kimi dayanıb adınızı, soyadınızı, hansı maddə ilə təqsirli sayıldığınızı ucadan deməlisiniz! - Bu da Darkonun səsi idi. - Rəisin suallarına bəli və xeyr deyə cavab verməlisiniz! Və nəhayət, cənab polkovnik birdən hirslənib üstünüzə qışqırsa və hətta sizi döyüb-söysə, cınqırınız belə çıxmamalıdı, əks halda, özünüzdən küsün! Bura bizim evimizdi, rəis də hamımızın böyüyü, atamız əvəzidi, bizi söyə də bilər, döyə də, qayğımıza qala da! Başa düşdüz?! - Dustaqlardan cavab verməyəni də oldu, başını yelləyəni və yavaşca "hə" və ya "bəli" deyəni də. - Drakon sifətini turşudub səsini qaldırdı: - Eşitmirəm, başa düşdüz nə deyirəm?!

Bu dəfə səslər daha hündürdən çıxdı.

Drakonun son sözləri Qaranın canına əməlli-başlı qorxu salmışdı: rəis onları niyə söyməli və ya döyməli idi, dərəbəylik-zaddı məgər, adamı heç nədən döyüb-söysünlər?! Yəqin, Drakon bu sözləri ciddi demirdi, məqsədi onları qorxutmaqdı. Suallarla beynini yormaqda idi ki, dustaqlardan birinin adını çəkib içəri çağırdılar. Otağa girməsindən heç iki-üç dəqiqə keçməmişdi ki, içəridən şillə-təpik, ardınca yalvarış səsləri eşidilməyə başladı.

Qaranı əsməcə tutdu. Hiss etdi ki, ayaqları sözünə qulaq asmır. Başını azacıq çevirib gözucu yanında dayanmış dustaqlara nəzər saldı; hamının rəngi-rufu ağarmışdı.

Bir neçə dəqiqə sonra otağın qapısı açıldı, iki nəzarətçi dustağı sürüyə-sürüyə dəhlizə çıxarıb döşəmənin üstünə atdılar. Zavallının burnundan qan axırdı.

İkinci ad səsləndi. Az müddət keçmiş, eyni şey təkrarlandı, amma bu dəfə içəridəki adam elə bağırırdı ki, sanki ətini kəlbətinlə qoparırdılar. Bağırtı qəfil kəsildi və bir neçə saniyə sonra qapı açıldı: nəzarətçilərdən birinin əllərindən, o birinin ayaqlarından yapışdığı zavallını gətirib döşəmədə sərələnmiş o biri dustağın yanında arxası üstə yerə elə atdılar ki, tappıltısı gəldi.

Qaranın yanında dayanan dustaq səsə çevrilib yavaşdan ağzından "vay, yazıq!" qaçırdı; söz təzəcə ağzından çıxmışdı ki, arxadan dəyənəklə təpəsinə endirilən zərbədən "ay, anam!" qışqırıb qandallı əlləri ilə başından yapışdı. İkinci zərbə əllərinin üstünə gəldi. Bu dəfə cınqırı da çıxmadı; əllərini aşağı salıb heykələ döndü.

Az keçmiş üçüncü adı çəkdilər. Qaranın yanında dayanmış və indicə kötək yemiş dustaq sanki dar ağacına yollanırmış kimi ayaqlarını sürüyə-sürüyə səs gələn tərəfə getdi. İçəri girməyilə indiyə qədər səsi gəlməyən rəisin bağırtısı binanı başına aldı:

- Nədi, sən hamıdan borzu[2] çıxmısan, əə?! Ay uşaq, çırpın bu götverəni!

Az sonra səslər kəsildi, dustağı yarımcan halda gətirib digər ikisinin üstünə atdılar. Adam bərkdən xırıldayırdı. Dəhlizdə dayanmış nəzarətçilərdən biri yaxınlaşıb ayaqqabısının altını ağzına dirədi:

- O murdar səsini özün kəsəssən, ya mən kəsim?!

Xırıltı xırp kəsildi. Qaraya elə gəldi ki, dustaq canını tapşırdı. Qorxudan elə ayaq üstəcə ölmək üzrə idi ki, öz adını çəkdilər.

İçəri keçib dili topuq vura-vura özünü təqdim etdi. Yanındakı nəzarətçi ayağına bir təpik ilişdirib üstünə çımxırdı:

- Ayaqlarını birləşdir!

Zərbənin təsirindən az qala ağlı başından çıxacaqdı, amma nəfəsini içinə çəkib cınqırını çıxarmadı.

Dustaqlara aid bütün sənədlər ayrıca qovluq halında bir yerə toplanmışdı. Hər dustağı otağa gətirəndə ona aid qovluğu da rəisin qarşısına qoyurdular; rəisin bir gözü həmişə sənədlərdə olurdu. Sağ tərəfində quraşdırılmış monitordan isə dəhlizdə baş verənlər görünürdü; orada nəzarətçidən biri yerə sərilmiş iki dustağı təpikləyirdi. Gah monitora, gah sənədlərə, gah da otaqdakılara göz qoyan rəis qarşısında mil kimi dayanmış dustaqla bağlı sənədləri vərəqləyə-vərəqləyə başını qaldırmadan:

---

[2] Rus sözü («борзый»), tərcüməsi "dikbaş"

- Müxalifətçisən? - soruşdu.

- Yox, rəis...

Dustaq sözünü bitirməyə macal tapmamış, bu dəfə arxadan endirilən zərbənin gücündən az qala gözləri yuvasından pırtlayıb çıxacaqdı.

- Xeyr, cənab polkovnik cavabını verməlisən! - Arxasında dayanmış nəzarətçinin nəfəsi boynunun ardını yandırdı.

- Xeyr, cənab polkovnik, müxalifətçi deyiləm, - ağrıdan hıqqana-hıqqana cavab verdi.

- Mitinqlərdə bəs necə, olmusan?

Qəfil suala hazır deyildi, bilmədi nə cavab versin; ani ağlına gəldi ki, yalan desə, daha pis olar.

- Qələt eləmişəm, cənab polkovnik... nadan olmuşam, səhv yolda olduğumu başa düşməmişəm.

Rəis bu müddətdə ilk dəfə başını qaldırıb diqqətlə onu süzdü.

- Pox da yemisən?

Dustaq duruxdu, nə deyəcəyini götür-qoy edirdi ki, arxadan boynunun ardına daha bir yumruq gəldi; zərbənin təsirindən gözləri qaraldı. Özünə gəlməsi üçün bir neçə saniyə keçdi.

- Bəli, yemişəm. - Gözlərinin dumanı hələ də çəkilməmişdi.

- Yaxşı eşitmədim, nə dedin?

Rəisin sualı ağzından çıxar-çıxmaz bu dəfə dustağın sol baldırına arxadan təpik gəldi:

- Diz üstə çök və de ki, pox yemişəm, cənab polkovnik! - Təpiyi ilişdirən də, göstərişi verən də eyni adamdı.

Qısa tərəddüdən sonra diz üstə çöküb dili topuq vura-vura Drakonun dediklərini təkrarladı:

- Dedim ki, pox yemişəm, cənab polkovnik.

Rəis məmnun-məmnun kreslosuna yaxıldı.

- Yaxşı, qalx ayağa, üzrün qəbul olundu. - Sifətində təbəssüm peyda oldu. - Bə o qızı niyə oğurlamışdın?

Təbəssüm dustağı ürəklənləndirdi.

- Mən o qızı oğurlamamışam, cənab polkovnik, mənimlə könüllü getmişdi.

Rəis qalın qaşlarını çatıb ilk dəfə görürmüş kimi dustağı aşağıdan yuxarı diqqətlə süzdü, sonra qarşısındakı sənədləri vərəqləməyə başladı; birdən gözü nəyəsə sataşdı və diqqətlə həmin yeri oxumağa başladı.

Beləcə, bir neçə saniyə keçdi və nəhayət, gözlərini kağızdan çəkib başını asta-asta qaldırdı və baxışlarını ayaq üstə güclə dayanan dustağa zilləyib:

- Qızın əmisi sənə şillə də vurmuşdu, Bəkirov? - maraq və təəccüb qarışıq sifətlə soruşdu.

Səsindən və mimikasından hətta dustağa canı yanırmış kimi görünürdü. Qara yenə çaş-baş qalmışdı, nə cavab verəcəyini bilmirdi.

"İt itin ayağını basdamaz!" - Qəfil ağlından keçən bu fikri rəisin oxuya biləcəyindən bərk qorxuya düşdü, ayaqlarını əsməcə tutdu. İçindən bir səs gəldi: "Yalan danışma!"

- Bəli, cənab polkovnik... - yazıq-yazıq dilləndi; üz-gözündən də o yağırdı ki, "yaxşı eləyib vurub, cənab polkovnik".

- Neçəsini vurmuşdu?

- İkisini, cənab polkovnik.

- Az olub!

Rəisin sözü ağzından çıxar-çıxmaz əvvəlcə sol, ardınca sağ tərəfdən endirilən qəfil şillələrdən özünə gəlməyə macal tapmamış hər tərəfdən bədəninə yumruq-təpik yağmağa başladı. Müvazinətini saxlaya bilməyib yerə yıxıldı.

Cənab polkovnik yerindən qalxanda zərbələrə ara verildi. Dustağın alt dodağı partlamışdı, qanı çənəsindən aşağı axırdı, sifətində Drakonun iri əllərinin izi görünürdü.

Yerdə sərələnmiş və nəfəsi güclə gedib-gələn yarıcan adamın başının üstündə dayanıb ona bir xeyli tamaşa edən rəis:

- Bunu təkadamlıq kameraya salın, - deyə əsabələrinə göstəriş verdi və qayıdıb qalib görkəmində yenidən kreslosuna yaxıldı. - Məncə, islaha meyllidi.

İki nəzarətçi üst-başı qan içində olan Qaranın yaxasından yapışıb sürüyə-sürüyə otaqdan çıxardılar...

***

Su heç yerdə yox idi. Dəhlizdən dəhşətli nəcis və sidik iyi gəlirdi. Oradan çox vaxt burnunu tutub keçirdi.

Həm mətbəxdəki, həm də tualetdəki kranlar qurumuşdular. Onları hər gün möcüzə baş verəcəyi ümidilə tez-tez açıb bağlayırdi. Sonra eləcə açıq saxladı. Vaxt gedir, möcüzə isə baş vermirdi ki, vermirdi.

Suyun olmayacağına qəti əmin olandan sonra dünəndən ağlına gələn və hər dəfə də beynindən qovmağa çalışdığı fikir yenidən qayıtdı. Bir xeyli düşünüb mətbəxə keçdi. Orada əllərilə axtarış aparanda iki stəkan, bir də boş plastik su qabı aşkarlamışdı. Stəkanlardan birini götürüb tualetə keçdi, onu unitazın içinə salıb orada qalmış su ilə doldurub burnuna yaxınlaşdırdı. Sidiyin iyi qalırdı, amma dözülməz də deyildi.

Plastik qabı unitazın içində tutub stəkandakı suyu dar boğazdan içəri tökməyə başladı. Hərdən maye boğazdan yan keçib unitazın içinə axırdı. Ehtiyatlı davranmasına görə özündən razı qaldı: indi hər damcının qiyməti vardı. Stəkanı ikinci dəfə unitaza saldı; bu dəfəki qazancı yarısı idi. Eyni qaydada onu da qaba boşaltdı.

Barmağı ilə unitazda suyun qalıb-qalmadığını yoxladı; dibində iki-üç qaşıqlıq qalmışdı. Mətbəxdə dolabların birində əlinə qaşığa oxşar bir şey keçdiyini xatırladı, ardınca getdi, xeyli axtarandan sonra taparaq geri döndü. Çay qaşığını unitaza salıb, dibində qalan suyu da qaşıqlayıb qaba tökdü. İşi bitirdikdən sonra kürəyini unitaza söykəyib əlindəki qabı da bərk-bərk sinəsinə basdı. Gözlərindən sel kimi axmağa başlayan damlalar əllərini islatdı. İmkanı olsaydı, onları da qaba yığardı.

Qabı bir küncə qoyub qalxdı, şalvarını aşağı çəkdi. Bundan sonra unitazdan təyinatı üzrə istifadə edə bilərdi; bu lyuksdan çox məmnun olduğunu nümayiş etdirməklə, həm də özünü boşaltdı.

"Dalımı yumağa su da olsaydı, həyat lap gözəl olardı!"

Məmnunluğunu qorumağa çalışaraq arxasını nə ilə təmizləyəcəyi barədə düşündü. İndicə qaba yığdığı unitazın suyuna heç bir halda dəyə bilməzdi. Alt tumanını və maykasını o gün dəhlizi batıranda həm özünü, həm də həmin yeri təmizləmək üçün istifadə etmişdi. İndi bir köynəyi qalırdı, bir də nəcis və sidik iyi verən şalvarı. Onlara da toxuna biməzdi.

Burada gəzişəndə əlinin asılqandan sallanan əl-üz dəsmalına toxunduğunu yadına salanda sifətinə xəfif təbəssüm qondu. Unitazla üzbəüz olmalı idi; bir balaca dikəlib əlini qarşı divarda gəzdirdi. Yanılmamışdı. Dəsmalı asılqandan götürüb bir tərəfi ilə arxasını səliqə ilə sildikdən sonra onu unitazın bir küncünə qoydu – təmiz tərəfi nədəsə karına gələ bilərdi.

Əllərindən pis iy gəlirdi, amma onları nə yumağa, nə də təmizləməyə bir şey vardı. Qalxıb, qabı da götürüb xeyli zamanını keçirdiyi yeri tərk etdi; nəcisin iyi ətrafa yayılmasın deyə, qapını da arxasınca örtdü.

İri otaqdakı masanın üstündən saatı alıb yataq otağına keçdi, onu çarpayısının sağ tərəfində stulun üstündə yerləşdirdi. İndi vaxtının çoxunu burada keçirirdi...

***

Gürcüstanda olduğu üç ayda Sarı Annanın köməyilə beynəlxalq təşkilatlardan birinin kirayə etdiyi evdə qalırdı; yemək və digər xərcləri üçün ona aylıq vəsait də ayırmışdılar. Şəraitindən narazı deyildi. Şəhərə və adamlara da tez öyrəşdi. Təşkilatdan da tez-tez hal-əhval tuturdular.

Burada olduğu müddətdə xeyli təkmilləşdirdiyi ingilis dilində indi nəinki rahat danışa, həm də yaza bilirdi. Hərdən sosial şəbəkələrdə yazdığı status və şərhlərdən əlavə, həmin dildə kiçik məqalə və araşdırmalar da hazırlayırdı. Paralel olaraq, pis bildiyi rus dilinin üzərində də işləyirdi. Bu dil burada öz ölkəsindəki qədər populyar və işlək olmasa da, onu bilənlər də, - əsasən, orta və yaşlı nəslin nümayəndələri idilər, - az deyildi.

Beləcə, sakit həyatını sürməkdə idi; ta o vaxta qədər ki, öz ölkəsində təqiblərdən yayınıb buraya sığınmış tanınmış bir müxalif fəalı Tiflisin göbəyində oğurlayıb geri qaytardılar. Sonradan bəlli olanda ki, bu oğurluğa yerli hakimiyyət qurumlarının əməkdaşları da dəstək veriblər, möhkəm qorxuya düşdü.

Anna ilə tez-tez yazışırdı. Bu dəfə ona yazdı ki, küçədə təqib olunduğunu hiss etməyə başlayıb, evdən çölə çıxmağa qorxur. Əslində, belə bir şey olmamışdı, amma son vaxtlar səksəkə içində yaşadığı bu ölkəni tezliklə tərk etmək istəyirdi. Oxuduqlarından çox narahat olan qız dərhal hərəkətə keçdi: real təhlükə səbəbilə onun Tiflisi təcili tərk etməsi üçün zəruri olan sənədləri qısa zamanda hazırlayıb öz ölkəsinin müvafiq qurumlarına təqdim etdi.

Vaxt keçdikcə narahatlığı daha da artırdı. Almaniyadan xəbər yox idi, Gürcüstandakı siyasi durumun isə təhlükəsizliyinə təminat verəcəyinə əmin deyildi. Çox düşündükdən sonra bu nəticəyə gəldi ki, buranı tez tərk etməyin yalnız bir yolu var.

Anna ilə növbəti məktublaşmaların birində onu sevdiyini və onunla ailə qurmaq, yanında olmaq istədiyini yazdı. Məktuba xeyli təsirli sözlər də əlavə etmişdi. Qızdan üç gün xəbər çıxmadı. Daim diqqət və qayğısını hiss etdiyi birisini itirə biləcəyindən çox qorxuya düşmüşdü; arada özünü asıb-kəsdi də.

Dördüncü gün həyəcanla gözlədiyi məktubu nəhayət, alıb oxuyanda sevincindən otağında atılıb-düşürdü: sən demə, qız da ona biganə deyilmiş.

Planı baş tutmuşdu...

***

Qara on yeddinci gün idi ki, təkadamlıq kamerada qalırdı. Bu müddətdə onu nə telefona çıxarmış, nə görüşə çağırmışdılar. On yeddi gündə hərdən dəmir qapının dəmir pəncərəsini açıb, "Bəkirov, sağsan?" deyə əsəbləri ilə oynayan nəzarətçidən və tırıltısı dəhlizi götürən dəmir araba ilə yekə və çirkli qazanlarda gündə üç dəfə kameralara yemək paylayan dustaqlardan başqa kimsənin

üzünü görməmişdi. Həm nəzarətçi, həm də yemək daşıyan dustaqlar onunla hər hansı ünsiyyətdən qaçırdılar.

Başqa kameralarda televizor vardı, dustaqlar həftədə iki dəfə telefona çıxır, bir dəfə yaxınları ilə görüş haqqından yararlanırdılar. Hərdən qulaqlarını dəmir qapıya dirəyib danışıqlara, gələn səslərə qulaq asırdı. Gün ərzində dayanmadan kameralara evdən gələn yeməklər daşınırdı. Sovqat alanlar bəzən nəzarətçilərə "hörmət" etməklə digər kameralardakı imkansızlara pay göndərirdilər. Onun otağının qapısını hələ ki, bu mövzuda döyən olmamışdı.

O biri kameralarda aynabəndə çıxış vardı, onun qaldığı kamera isə hər tərəfdən qapalı, adam boyundan hündürdə kiçik pəncərəsi olan təxminən dörd kvadrat metrlik, unitaz və su kranı da içində quraşdırılmış darısqal bir yerdi.

Digər kameralara həftədə iki gün yuyunmaq üçün iki saatlığa isti su verilirdisə, onun nə isti suyu gəlirdi, nə də yuyunmaq üçün yeri vardı. İçəri bürkülü və havasız idi; arada nəfəsi çatmayanda stulu ayaqları altına qoyub üstünə çıxır, ağzını iki əl boyda nəfəsciyə tuturdu ki, təmiz havadan ala bilsin.

Başqa kameralarda qapı döyəclənən kimi, bir qayda olaraq ya növbə çəkən nəzarətçilər, ya da təmizlik işlərinə baxan dustaqlardan biri, - nəzarətçilər çatdırmırdılar deyə, həmin dustaqları həm də bu cür işlərə cəlb edirdilər; bunlar əsasən, cinsi azlıqların nümayəndəsi olurdular, - yaxınlaşırdılar. Bir neçə dəfə qapını taqqıldadıb bayıra səslənsə də, kimsə yaxın durmamışdı.

Kamerada tarakan əlindən tərpənmək olmurdu, bit-birə də bir tərəfdən; yatağına uzanan kimi bədəninə daraşırdılar. Havasızlıq, bürkü və natəmizliyin bir tərəfdən, ünsiyyət yoxluğu və məlumatsızlığın isə digər tərəfdən psixikasını tədricən sıradan çıxardığını hiss edirdi. Hərdən ona elə gəlirdi ki, yavaş-yavaş dəli olmaqdadır. Belə yerdə bundan qorunmağın ən yaxşı yolu özünü nə iləsə məşğul etməklə vaxtı öldürməkdi. Ona oxumağa kitab da vermirdilər ki, barı, başını qatıb vaxtını öldürə bilsin.

Su kranının üst hissəsində divara hörülmüş əl boyda köhnə və qırıq güzgüdə özünə baxanda qorxurdu: üz-gözünü tük bas-

mış, sağ qulağı, burnunun üstü qaşınmaqdan yara olmuşdu. Bədənindən vuran üfunət iyindən özü özündən iyrənirdi.

Su gün ərzində iki dəfə yarım saatlığa verilirdi. Çox vaxt gecə vaxtları olurdu ki, imkanı buraxmamaq üçün gecələri ayıq yatmaq lazım gəlirdi. Otaqda aftafa yerinə istifadə olunan bir litrlik plastik koka-kola qabından və çay içmək üçün dəmir fincandan başqa elə bir şey yox idi ki, yetərincə su ehtiyatı götürə bilsin. Çox zaman böyük tualetə getdikdən sonra arxasını təmiz yuya da bilmirdi. Buraya gətirildiyi gün yarımçıq köhnə bir sabun vermişdilər, o da çoxdan qurtarmışdı. Nəzarətçilərdən bir neçə dəfə su ehtiyatı yığmaq üçün əlavə qab, sabun, üzqırxan, diş pastası və gigiyena üçün vacib bir-iki şey istəsə də, həmişə olduğu kimi, nə hə, nə də yox deyib, dəmir pəncərəni örtüb getmişdilər.

İki gün idi ki, kameraya ümumiyyətlə su vermirdilər. Nəcis və sidiyin iyindən onsuz da havası ağır olan otaqda dayanmaq mümkün deyildi. Su kəsilən gündən nəzarətçinin hər dəfə dəmir pəncərəni açıb əsəblərinə toxunan "Bəkirov sağsan?" sualına "Su nə vaxt gələcək?" sualı ilə cavab verirdi. O da hər dəfə özünü eşitməzliyə vurub, pəncərəni örtüb gedirdi.

Bu gün növbəti dəfə krana yaxınlaşdı. Açıq kranı bir neçə dəfə hirslə açıb-bağladı. Əsəbdən barmaqları sözünə qulaq asmırdı. Özünə qarşı belə pis münasibətin səbəbini anlaya bilmirdi. Ondan qat-qat ağır cinayət törətmiş adamlarla heç bu cür davranmırdılar. "Niyə belə etsinlər ki?" - deyə elə hey baş sındırsa da, sualına ağlabatan cavab tapa bilmirdi.

Tərslikdən işıq lampası da yanmışdı. Günorta yoxlamasında nəzarətçidən lampa istəyəndə "Gözlə, lampa zavodumu işə salanda verərəm" deyə irişmişdi. Bir azdan qaranlıq düşəcəkdi: susuz, işıqsız, tarakanlar və bit-birə ilə birgə bu havasız otaqda necə qalacaqdı; bunları düşündükcə, əsəbi əsəb üzərinə gəlir, getdikcə üzərində nəzarəti itirdiyini fərq edirdi.

Dəmir qapını əvvəlcə yavaşdan bir neçə dəfə döyəclədi, səs verən olmadığını görüb yumruq, təpiyini işə saldı.

- Açın qapını, açmasanız, özümə qəsd edəcəm, qanım üstünüzdə qalacaq! Açın!

Qapının o tərəfində sakitlik idi. Bu, onu daha da özündən çıxardı. Zərbələrdən əlləri, ayaqları zoqquldayırdı; ətrafına baxdı, gözünə dəmir stul sataşdı, əlləri ilə iki ayağından yapışıb onu bir neçə dəfə dəmir qapıya çırpdı.

Qapının pəncərəsi arxadan səs-küy sala-sala açıldı, nəzarətçinin əyilmiş başı göründü. Heç nə olmayıbmış kimi sakit səslə:

- Sağsan, Bəkirov? - soruşdu.

Tamam fərqli reaksiyaya köklənmiş dustaq özünü itirdi.

- Yox, sağ deyiləm, ölüyəm! - deyə bağırdı; imkanı olsaydı, əlindəki stulu elə balaca deşikdəncə nəzarətçinin təpəsinə çırpardı. - Niyə kameraya su ver...

Sözü ağzında qaldı, pəncərə eyni səs-küylə bağlandı. Arxadan nəzarətçinin səsi gəldi:

- Allah rəhmət eləsin!

İndicə nə baş verdiyini tam dərk edə bilmədi, gözlərini döyərək bir xeyli pəncərənin qapalı deşiyinə baxdı. Birdən ayaqlarının sözünə qulaq asmadığını, süstləşdiyini hiss etdi. Stulu əlindən yerə qoyub üstündə əyləşdi. Bütün bədəni əsəbdən əsirdi. Beləcə, bir neçə dəqiqə keçdi.

Ümidsizlik və çarəsizlik bütün ruhuna hakim kəsilmişdi. Nə edəcəyini düşünürdü ki, ağlına gələn qəfil fikirdən səksəndi. Yox, o, bunu edə bilməzdi! Bayırda gözləyəni, bu həyatda hamıdan çox sevdiyi bir insan vardı, onu taleyin ümidinə tək qoyub gedə bilməzdi. Burada elə bir anı olmurdu ki, onu xatırlamasın, barəsində düşünməsin...

Bu cür düşüncələrdə ikən kranın fısıltısı eşidildi; su gəlməzdən öncə bu cür səslər çıxarmaq kimi adəti vardı. Yerindən tez qalxıb ona yaxınlaşdı, əlini altına tutdu. Bir neçə saniyədən sonra su gəlməyə başladı. Sevincək ağzını borunun deşiyinə yapışdırıb sudan doyunca içdikdən sonra ovcunu da bir neçə dəfə doldurub üz-gözünə çırpdı. İmkanı olsaydı, bütün bədənini kranın altına soxardı.

Tez paltarlarını soyunmağa başladı. Alt paltarı nəcisin içində idi, - sonuncu dəfə böyük tualetə gedəndən sonra koka-kola qabının dibində qalan su arxasını təmiz yumağa yetməmişdi, - onu çıxarıb kranın altına atdı. Orasını təmizləməyə kamerada münasib bir şey olmadığı üçün, özünü birtəhər sıxıb bu gün böyük bayıra da getməmişdi. Suyun gəlməsinə bəndmiş kimi bağırsaqları da həyəcan təbili çalmağa başladılar. Unitaza oturub özünü ləzzətlə boşaltdı. Xeyli rahatlandı və sakitləşdi; əsəblərinin çox gərilməsinin bir səbəbinin bu bayır problemi olduğunu düşündü.

"Hədər yerə bu işin görüldüyü məkana mədəniyyət evi demirlər ki!"

Hardansa ağlına gələn bu fikirdən son neçə gündə ilk dəfə tük basmış sifətinə xəfif təbəssüm qondu. Arxasını yumaq üçün ayağa qalxıb plasmas qabı götürdü, onu kranın altına təzəcə tutmuşdu ki, su azalmağa başladı və qəfil də kəsildi. Məyusluğunun həddi-hüdudu yoxdu, hirsindən başını divara çırpmağa hazır idi. Ağlını itirmiş halda kranı təkrar-təkrar açıb bağladı, yenə, yenə... Su gəlmirdi ki, gəlmirdi.

Nə edəcəyini bilmirdi. Plasmas qabdakı su ilə birtəhər arxasını yuyub təmizləsəydi, başqa ehtiyacları bir tərəfə, heç əllərini yumağa su qalmayacadı. Arxasını yumasaydı, bu cür iy verə-verə necə oturub-duraydı, yemək yeyəydi, yataydı? Tərslikdən unitaza da su tökməmişdi, iydən başı çatlayırdı.

Nə edəydi, başına haranın külünü tökəydi?

Beləcə, tumançaq kranın qarşısında gözləməyə başladı. Beş dəqiqə keçdi, su gəlmədi, on beş, iyirmi dəqiqə...

Vaxt ötdükcə hiss edirdi ki, başı da yenidən çönür. Daha beşmi, yoxsa on beşmi dəqiqə gözləyib ümidləri tamam öləndən sonra elə lüt-lüt də qapıya yaxınlaşdı. Əyilib stulun ayağından yapışdı, onu yuxarı qaldırıb var gücü ilə qapıya çırpdı. İkinci... üçüncü... Elə dördüncü zərbəni də endirməyə hazırlaşırdı ki, çəftənin səsi eşidildi, nə baş verdiyini anlayana qədər qapı cırıltı ilə açıldı.

Nəzarətçi bir əlində koka-kola qabı, o birində stulun qıçından yapışmış lüt adama təəccüblə baxa-baxa sakit səslə:

- Bəkirov, sağsan? - soruşdu.

Elə bil var-yoxunu söydülər, əlindəki stulu qəzəblə göyə qaldırmışdı ki, dəmir qapı arxadan örtüldü. Stul zərblə qapıya necə çırpıldısa, oturacağı qırıldı. Bu vaxt qapı yenidən açıldı və içəri hündürboylu iki maskalı girdi. Onlardan biri ayağını kameraya qoyar-qoymaz "Qudurmusan, ə, küçük!" - deyib sol əli ilə sifətinin sağ tərəfinə yumruğu necə ilişdirdisə, gözündən qığılçım çıxdı. Əli ilə gözünü tutmağa macal tapmamış ikinci maskalının qarnına ilişdirdiyi təpikdən "Vay öldüm!" - qışqırıb beton döşəməyə sərildi, bir əli ilə qarnını, o biri ilə sağ gözünü tutub inildəməyə başladı. Arxadan yumşaq yerinə ağır ayaqqabının ucu ilə dəyən zərbədən isə qıvrıla-qıvrıla zarımağa başladı.

Maskalılar otağı tərk etdikdən heç bir dəqiqə keçməmişdi ki, dəmir pəncərə aralandı. Oradan içəri bir baş boylandı və dəmir betonun üzərində lüt uzanıb gah zarıyan, gah da inildəyən adama təəccüblə baxmağa başladı.

- Bəkirov, sağsan? - Baş sakit səslə soruşdu.

Səsi eşitmirmiş kimi zarımağında davam edirdı.

- Hazırlaş, görüşə gedirsən. - Baş yox oldu, pəncərə də qapandı.

Zarıltı da, inilti də dərhal kəsildi...

***

Sarının Almaniyaya köçməsinin səkkizinci ayı tamam olmaqda idi. Bura gələndən iki ay sonra Anna ilə toyları olmuşdu; ona qədər qızın evində və faktiki ər-arvad kimi yaşayırdılar. Əsasən, Annanın yaxınlarından, dost-tanışlarından ibarət təxminən yüz nəfərlik xudmani məclis idi. Burada yaşayan və onu internetdəki çıxışlarından tanıyan bir neçə azərbaycanlı da məclisə təşrif buyurmuşdular. Onların çoxu həm də Annanı tanıyırdı. Sarıdan xəbərsiz gəlinlə görüşüb bəyə sürpriz də hazırlamışdılar: həmin vaxt Almaniyada qastrolda olan məşhur müğənnilərin də məclisdə iştirakına razılıqları alınmışdı.

Möhtəşəm toy alındı. Anna Azərbaycanda olanda bu ölkənin milli musiqisinə yiyələnməklə yanaşı, dərnəklərdən birinə yazılmaqla yerli rəqsləri də öyrənmişdi və onları çox gözəl ifa edirdi. Əvvəlcə almanlar üçün çətin idi, amma məclis qızışandan sonra onlar da bəylə gəlinə və onların azərbaycanlı qonaqlarına qatılıb əcnəbi musiqinin sədaları altında şıdırğı rəqs edirdilər...

Təzə vaxtlar çox darıxırdı, evlə, dost-tanışla tez-tez əlaqə saxlayır, saatlarla telefonla danışırdı. Darıxmasın deyə, Anna istirahət günlərini demək olar tamamilə ona həsr edirdi; bir yerdə gəzməyə çıxır, qonaq gedir, səyahətə yollanırdılar. Arvadının təkidilə alman dilini də öyrənməyə başlamışdı; həftədə iki dəfə kursa gedir, əlavə olaraq, Anna işdən sonra onunla məşğul olurdu. Dördüncü ay artıq çöldə-bayırda qızsız da çulunu sudan çıxara bilirdi. Evdə isə daha çox azərbaycanca danışırdılar; arvadının arzusu idi - dili yadırğamasın deyə.

Anna Azərbaycanda olanda yerli mətbəxi də yaxşı öyrənmişdi; hər cür yeməklərindən bişirə bilirdi, o sıradan Sarının çox sevdiyi plov, dolma, küftə və dovğanı da.

Anna çox yaxşı həyat yoldaşı idi, ərini də çox sevirdi.

Bir gün Sarı evə gələndə arvadını çox həyəcanlı gördü. Nə baş verdiyini soruşanda üzündən xoşbəxtlik yağan qadının "Həkimə getmişdim, uşağımız olacaq!" cavabını eşidəndə fərqli hiss keçirdi. Sevinməkdən daha çox, məyus oldu, özü də səbəbini bilmədi. Amma bunu arvadına hiss etdirmədi, xəbərdən çox xoşbəxt olduğunu nümayiş etdirməyə çalışdı...

***

Gözünü açanda saatı bilmək üçün əlini sağ tərəfə uzadıb barmaqlarını işə saldı. İndi bu işi daha ustalıqla görə bilirdi. Yeddiyə təxminən beş-on dəqiqə qalırdı; yataqdan durmaq üçün çox tez idi. Mədəsi acından zoqquldayırdı, susuzluq da xroniki dərd kimi o biri tərəfdən güc gəlirdi.

Özünü yenidən yuxuya verməyə xeyli cəhd etsə də, bir şey alınmadı. Yerindən qalxdı, indi yolu tanıyır, divarlara toxunmadan da sərbəst hərəkət edə bilirdi. Tualetə keçdi. Əslində, buralıq bir işi yoxdu; nə yeyib, nə içmişdi ki, çölə də nəsə ötürəydi; amma vaxtı öldürmək lazım idi. Qapağı qaldırıb, iy vurmasın deyə, tez də dalını oturacağa yapışdırdı. Xeyli gücənsə də, bir neçə səsdən başqa bağırsağından bir şey çıxmadı.

Fikirləşdi ki, nə yaxşı ki, buranı gec tapıb, yoxsa tamam susuz qalacaqdı. Düzdür, özünü dəhlizdə boşaltdığına görə oralar üfunət qoxuyurdu, amma əvəzində, indi stəkan yarımdan çox əlavə su ehtiyatına malik idi. Unitazda qalmış sidiyin iyindən yaxa qurtarmaq üçün suyu boşaltdığına görə isə özünü çox qınayırdı; o cür israfçılıq etməsəydi, bəlkə də, bir neçə günlük su ehtiyatı idi...

Məyusluq ona elə bərk güc gəldi ki, qalxıb, "İçinə pox olsun!" - deyib qapağı acıqla çırpdı, oranı tərk edib mətbəxə doğru yön aldı.

Bir ovucluq düyü ehtiyatı hələ toxunulmamış qalırdı. Onu boşqablardan birinə tökdü, unitazdan yığdığı suyun yarısını üzərinə əlavə edib yenidən yatağına qayıtdı.

Barmaqlarının köməyilə saatı yenidən yoxladı: yatağa dönməsindən iki saatdan çox keçmişdi. Daha səbri çatmadı, qalxıb mətbəxə döndü, əli ilə düyüləri yoxladı, xeyli şişmişdilər. Buna sevinsə də, suyu tamam canlarına çəkmələrinə məyus oldu. Su ehtiyatından qalanı çox az idi, ona toxuna bilməzdi.

Elektrik çaydanını yoxlamışdı, işləyirdi. Düyüləri ehtiyatla içinə boşaltdı, çaydanı cərəyana qoşub qulağını aparata yaxın tutdu. Az keçmiş əvvəlcə fısıltı, sonra isə pıqqıltıya oxşar səslər eşidilməyə başladı. Suyu az olduğu üçün düyünün də, çaydanın da yana biləcəyindən ehtiyatlanırdı. Beləcə, bir neçə üzücü dəqiqə keçdi, yanıq iyi burnuna dəyən kimi cəld aparatı cərəyandan ayırdı.

Çaydanın soyumasını gözləməyə səbri çatmadı, içindəki düyüləri ehtiyatla boşqaba boşaltdı; aclıq o qədər güc gəlmişdi ki,

bir neçəsini qaynar-qaynar barmaqları arasına alıb ağzına atdı. Tam bişməsələr də, yumşalmışdılar. O, indi bu yarıbişmiş, dad-sız-duzsuz düyünün hamısını birnəfəsə ləzzətlə içəri ötürərdi. Amma nəfsinə güc gəlməli idi. Düyülərdən bir neçəsini ağzına atıb uzun-uzadı çeynədi; bu anda ən böyük arzusu bu həzz prosesinin mümkün qədər çox uzanması idi.

Nə qədər özünü saxlamağa çalışsa da, qab yarı olmuşdu. Ağlından onu kiminsə oğurlaya biləcəyi fikrinin keçməsindən az qala dəli olacaqdı. Qalxıb qalan yeməyi dolablardan birində gizlətdi...

***

Türkiyədə hakim partiyanın təşəbbüsü ilə parlamentli idarə üsulundan prezident idarəçiliyinə keçidi nəzərdə tutan Ana Yasa dəyişiklikləri ilə bağlı referenduma hazırlıq gedirdi. Rəy sorğularına görə, Almaniyada yaşayan üç milyon yarımlıq türk icmasında dəyişikliklərin tərəfadarları əleyhinə olanları xeyli üstələyirdi. Bu, həmin dəyişiklikləri, əhalisinin xeyli hissəsinin vətəndaşı olduğu ölkədə - burada yaşayan türklərin çoxunun ikili vətəndaşlığı vardı, - demokratiya üçün təhlükə görən alman toplumunu və idarəçilərini narahat edirdi: orada güclənən bir sıra təhükəli meyllərin həmin insanların vasitəsilə buraya transferi təhlükəsi vardı.

Ölkənin müxtəlif şəhərlərində dəyişikliklərə həm dəstək, həm də etiraz edənlərin kütləvi aksiyaları keçirilirdi. Yerli hakimiyyət qurumları Türkiyədəki siyasi mübarizənin Almaniyaya keçməsindən və bir neçə milyonluq türk icması daxilində qarşıdurmaya gətirə biləcəyindən narahat idi və ciddi təhlükəsizlik tədbirləri görürdü. Kütləvi çıxışlarda üstüörtülü millətçilik, türkçülük, dinə, o cümlədən Osmanlı dövrünə qayıdış notları tez-tez səslənirdi ki, bunlar əks effekt verə, ölkədə irqçiliyin, milli, dini zəmində qarşıdurmanın güclənməsinə təkan verə bilərdi. Baş verənləri təkcə türk icmasının məsələsi kimi deyil, həm də

ölkədə demokratiya üçün təhdid kimi dəyərləndirənlər və bundan rahatsız olanlar az deyildi.

Bunları nəzərə alan yerli hakimiyyət qurumları Türkiyənin iqtidar partiyasını təmsil edən yüksək ranqlı siyasilərin Almaniyadakı türklərin dəyişikliklərə dəstək məqsədilə keçirmək istədikləri toplantıda iştirakına yox demişdi. Bu cavab aranı qatmış, iki ölkənin rəhbərliyi arasında gərginliyə, qarşılıqlı ittihamlara yol açmışdı.

Qarşıdan gələn şənbə günü "xeyr"çilərin Türkiyənin Almaniyadakı Səfirliyi qarşısında toplantısı nəzərdə tutulmuşdu. Toplantı öncəsi sosial şəbəkələr üzərindən "əvət" tərəfdarlarına belə bir məzmunda çağırış yayıldı.

"...Türkiyənin dövlət rəhbərləri, nazirlər də daxil, hakimiyyət partiyasına mənsub türk siyasətçilərin Almaniyada yaşayan türk seçiciləri ilə bir araya gəlməsinin qadağan edilməsi heç bir hüquqa və məntiqə sığmır. "Xeyr" kampaniyası tərəfdarlarının müxtəlif tədbirlər keçirməsinə icazə verilirkən, Ana Yasaya dəyişiklikləri dəstəkləyənlərin nədənsə eyni haqqı tanınmır. Alman mediası və siyasətçiləri Türkiyədə toplaşma azadlığına qəsdlər barədə iddialar irəli sürürkən, özləri ölkələrində türk siyasətçilərinin öz vətəndaşları və vətənsevərləri ilə toplantı keçirməsinə izn vermədilər. Daha da pisi, uzun illərdir Türkiyəni hədəfə alan əsas terror təşkilatının və ölkəmizin digər düşmənlərinin, təkcə "xeyr" kampaniyasını dəstəkləmək üçün deyil, həmçinin öz terrorçu ideologiyalarını və fəaliyyətlərini qanuniləşdirmək məqsədilə təbliğat aparmaq üçün açıq toplantılar keçirib və böyük salonlarda yığıncaqlar təşkil ediblər. Şənbə günü Türkiyəni sevməyən qüvvələr ölkəmizin Almaniyadakı böyük elçiliyinin qarşısında növbəti təxribat yönlü toplantısını keçirməyə hazırlaşır. Biz dinindən, dilindən, kimliyindən asılı olmayaraq Türkiyəni sevən hər kəsi həmin qüvvələrin sabah böyük elçiliyimizin qarşısında keçirməyi nəzərdə tutduğu tədbirinə etiraz etmək üçün eyni məkanda toplaşmağa dəvət edirik. Tanrı türkü qorusun!"

Bu çağırışın mətnini Almaniyada yaşayan çox sayda azərbaycanlılar da paylaşıb həmvətənlərini "türk qardaşlara dəstək vermək üçün" həmin toplantıya səsləyirdilər. Onların arasında xeyli siyasi mühacir vardı. Sarı da bu sırada idi...

***

Qaraya kiminlə görüşə getdiyini deməmişdilər. Soruşsa da, "yerində bilərsən" cavabını vermişdilər.

Onu iki nəfərlik boş kameralardan birinə apardılar. Heç kimin yaşamadığı kamerada yuyunmaq üçün ayrıca yer var idi; bu iş üçün ona on dəqiqə vaxt verildi.

İçəridə duş, sabun, şampun, hətta can kisəsi vardı. Krandan həm soyuq, həm də isti su gəlirdi; təzyiqi də lap evlərindəki kimi idi. Həbs olunandan ilk dəfə idi ki, vücudu isti su görürdü. Bu istidə az qala qaynar suyun altına girib gah sabunlanır, gah şampunla başını təkrar-təkrar yuyur, gah da kisələnirdi. Şırhaşırla üstünə tökülən suyun və onun gətirdiyi təmizliyin dadını çıxara-çıxara hərdən ona elə gəlirdi ki, baş verənlər yuxudur. O, bu röyanın bitməsini heç istəmirdi.

- Bəkirov, sağsan? Çıx daha, kurortda deyilsən!

Duşun altından elə əhvalla çıxdı ki, sanki dar ağacına yollanırdı.

İnzibati binaya yol həyətdən keçirdi. Bu müddətdə ilk dəfə idi ki, ayağı torpağa dəyirdi. Təzə paltarda və həm də təmiz bədənlə özünü quş kimi hiss edirdi. Yol boyu ağaclara, güllərə, uçuşan quşlara elə maraqla tamaşa edirdi ki, sanki onları həyatında ilk dəfə idi görürdü. Həyatın, azadlığın necə gözəl bir nemət olduğunu düşündü, bunu çox gec dərk etdiyinə görə özünü qınayırdı; azadlığın dadını çıxarmaq üçün ona Tanrı bir daha şans verəcəkdimi, bilmirdi. Özü də hiss etmədən nəzərləri ümidlə göylərə dikildi. Qaynar günəş gözlərini yandırdı.

Yolda nəzarətçidən hara getdiklərini soruşdu.

- Qəbula. - Cavab qısa oldu.

- Kimin qəbuluna? - Marağı güc gəldi.

- Sənə deməyiblər ki, burda nə qədər az danışsan, başın bir o qədər dinc olar?!

Söhbət bununla da bitdi.

İkinci mərtəbədə üstündə "Rəis müavini mayor Qədir Nəsirov" yazılan otağın qarşısında dayandılar.

- Bayaq dediklərim yadında qaldı da, - onunla üz-üzə dayanan nəzarətçi yoldakı söhbətə qayıtdı, - nə qədər az danışsan, o qədər xeyrinədi. Yalnız söz soruşanda cavab verirsən, sualları ancaq sənə verə bilərlər. Bir də, burda olduğu müddətdə adamın üz-gözündə, bədənində peyda olan xəsarətlər, yaralar bilirsən də nədən olur? - Cavabı gözləmədən özü cavab verdi. - Yıxılmaqdan! Anladın da, nə deyirəm?!

Dustaq dinməzcə başı ilə təsdiqlədi.

Müdir müavininin otağında, gözlədiyinin əksinə, onu mülki geyimli şəxs qarşıladı. Bu adam rəis müavini deyildi, mayoru karantin vaxtı onların kamerasına gələndə görmüşdü - orta yaşlı, idman bədənli, yekəpər və qaba birisi idi. Dəyirmi masanın arxasında oturmuş bu adamsa daha yaşlı idi, orta boyu və kübar görkəmi vardı. Həmin şəxs onu görcək ayağa qalxıb qarşısına gəldi, əl verib görüşdükdən sonra nəzakətlə otaqda qarşı-qarşıya qoyulmuş iki kreslodan birində yer təklif etdi; tərəddüd etdiyini görüncə yaxınlaşıb əlini ehmalca çiyninə qoydu.

- Xahiş edirəm əyləşin, Qara bəy, özünüzü də rahat hiss edin.

Bura düşdüyü gündən ilk dəfə idi ki, onunla "siz"lə danışırdılar. Üzündən alicənablıq yağan bu adama ürəyində minnətdarlıq edib əyləşdi. Şəxs də keçib qarşıdakı kresloda özünə yer elədi.

- Gözünüzün altına nə olub? - İri və qonur gözlərini azacıq qıyıb narahat olurmuş kimi soruşdu.

- Yıxılmışam...

- Təəssüf edirəm, - mülki şəxs başını buladı, - bir az ehtiyatlı olun, biz sizin sağlamlığınıza görə məsuliyyət daşıyırıq. - Qarşısındakı kağızların arasından birini çıxardı. - Vəkil verilməsi ba-

rədə ərizənizlə bağlı sizi dəvət etmişik. Sizə şad xəbər vermək istəyirəm, müraciətiniz artıq təmin olunub, bu gün vəkil sizinlə görüşəcək. Bu başdan ümid vermək istəmirəm, amma onu deyim ki, bəxtiniz gətirib, vəkiliniz ölkədə barmaqla göstərilən peşəkarlardandı. Özü də, təkcə işini yaxşı bilmir, həm də çox vicdanlı və mübariz insandı, tezliklə özünüz də şahidi olacaqsınız.

Xoş danışıqdan ürəklənən dustaq "Siz kimsiniz ki?" sualını verməkdən özünü güclə saxlaya bildi; nəzarətçinin artıq suallar verməmək barədə xəbərdarlığı qarşısını kəsdi.

- İşinizlə diqqətlə tanış olmuşam, nə gizlədim, çox da asan gəlmədi mənə. Amma sizə yardımçı olmaq da istəyirəm. Sizin kimi ağıllı, vətənini, dövlətini sevən gənclərin yeri bura deyil. Hər kəs səhv edə, yanlış addım ata, hətta səhv yola düşə bilər. Ağıllı o adamlardı ki, səhvlərindən nəticə çıxarır. Sizi də elələrindən sayıram, Qara bəy. - Ara verdi. - Yeri gəlmişkən, şəraitiniz necədi?

Hələ ki, eşitdiklərini tam həzmdən keçirməkdə çətinlik çəkən dustaq üçün bu sual gözlənilməz oldu, özünü itirdi, bilmədi nə cavab versin.

"Ola bilsin, məndən söz alır", - düşünüb:

- Pis deyil... - cavabını verdi; amma nə fikirləşdisə, tez də dediyinə düzəliş etdi. - Yaxşıdı, heç bir şikayətim yoxdu.

Mülki şəxs gülümsündü.

- Deyəsən, kameranızda su problemi olub. Xəbər tutan kimi tapşırıq verdim, artıq aradan qaldırıblar. Hər bir dustağın qayğısına qalmaq bizim borcumuzdu, - gülümsündü, - bəzilərinin isə xüsusilə. Çox yaxın zamanda sizi başqa, daha yaxşı şəraiti olan kameraya köçürəcəklər. Orada tək olmayacaqsız... - ciddiləşən kimi oldu, - yoxsa tək qalmaq istəyirsiz?

Qara eşitdiklərindən elə duyğulanmışdı ki, qarşısındakı adamın ayaqlarına düşməyə hazır idi.

- Heç bilmirəm sizə necə təşəkkürümü bildirim... - Çəkinə-çəkinə davam etdi: - Tək qalmaq istəmirəm... Başqa kameraya köçürülmək mümkün olsaydı, sizə çox minnətdar olardım.

Bu zaman masanın üstündəki telefona zəng gəldi. Mülki geyimli şəxs dəstəyi qaldırdı, ona nəsə dedilər, təşəkkür edib dəstəyi yerinə qoydu.

- Minnətdarlıq etməyin, lütvən, borcumuzdu. İndicə mənə məlumat verdilər ki, vəkiliniz də artıq sizi gözləyir. Sizinlə söhbət etmək çox xoşdu, amma getməyiniz lazım. - Dustaq ayağa qalxanda o da qalxdı, əlini uzatdı. - Tanışlığımıza şadam, Qara bəy. Ümid edirəm bu, son görüşümüz deyil, çalışacam imkan tapan kimi sizə yenə baş çəkim. Amma bu arada hər hansı probleminiz olarsa, nəzarətçilər vasitəsilə müdiriyyətə bildirməyiniz yetər ki, mənə çatdırsınlar.

Dustaq istədi desin ki, nəzarətçilər onu saya salmırlar, amma dilini saxladı; bunun onun ziyanına ola bilməyəcəyinə əmin deyildi. Qarşısındakı şəxs sanki onun fikirlərini oxudu:

- Həbsxana rəhbərliyindən xahiş etmişəm ki, sizin xahiş və müraciətlərinizi dərhal mənə çatdırsınlar, - çoxmənalı gülümsündü, - sizə də dostyana tövsiyəm budur ki, onlarla münasibəti yaxşı saxlamağa çalışasınız...

Qara otaqdan minnətdarlıq duyğusu ilə çıxdı...

***

Hər gün ayılanda əli ilə saata baxırdı. Son günlər onun yardımı olmadan da günün hansı hissəsi olduğunu təxmin edə bilirdi. Sübh olduğuna saat əqrəblərinin köməyilə bir daha əmin olduqdan sonra cibindən çıxardığı boş kibrit qutusuna daha bir yumru kağız əlavə etdi; hər günü yola verdikcə haradansa əlinə keçmiş dəftər vərəqindən çırdığı kağız qırıqlarından birini yumrulayıb qutunun içinə salırdı.

Növbəti yumrunu əlavə etdikdən sonra qutunu ovcuna boşaldıb oradakıları bir də saydı. Bu hesablama üsulunu kəşf edənə qədər, təxmininə görə, daha iki ya üç gün burada olmuşdu; başqa sözlə, səkkiz ya doqquz gün idi ki, buradaydı.

Su ehtiyatı tükənməkdə idi. Aftafadakı sudan bir neçə qur-

tumluq qalmışdı. Gün ərzində ona bir neçə dəfə yaxınlaşsa da, hər dəfə də ehtirasına güc gəlib geri qayıtmışdı. Yalnız yanğısı dözülməz həddə çatanda iki və ya üç kiçik qurtum almaqla kifayətlənirdi. Getdikcə qurtumların sayını da azaltdı. Bu ehtiyatı qurtarandan sonra unitazdan yığdığı, yarısına düyü bişirdiyi suyun ümidinə qalacaqdı.

Aclıq da güc gəlməyə başlamışdı. Son günlər beynində ancaq bir fikir fırlanırdı: su və yemək. İndi hətta korluğuna belə, onların yoxluğu qədər üzülmürdü. Yemək istəyi o qədər güclü idi ki, kənara atdığı çürük kartofları da yenidən bir yerə yığıb hərdən ağıza gələn yerlərindən bir-iki diş vurmaqla mədəsini aldatmağa çalışırdı. Axırıncı çürük kartofun axırına srağagün tezdən çıxmışdı.

Mədəsi acından sıyrılırdı. Dünən yatmazdan öncə ağzına aldığı iki qurtum suyun üzərində idi. İndi də yuxusu gəlirdi; bu, o deməkdi ki, azı, on, on iki saat keçib.

Çarpayıda kor gözlərini tavana dikib yarıhuşsuz uzanmışdı ki, qulağına yenə həmin ciyilti səsi gəldi. Bu səs son bir neçə gün idi peyda olmuşdu. O, nə idisə, bir neçə dəfə yatan və ya yarıhuşsuz döşəmədə uzandığı vaxt ona lap yaxınlaşmış və hətta bədəninin ayrı-ayrı hissələrinə toxunuşunu da hiss etmişdi; amma hər dəfə də, bu baş verəndə əl-ayağını tərpədib, "kiş!", "rədd ol burdan!" deyə səs çıxaran kimi qaçıb gizlənir, bir müddət sonra yenidən ciyiltisi eşidilirdi. Əvvəl fərqinə varmamışdı, amma indi siçan yoxsa siçovul olduğunu, onun ya da onların bura necə düşə biləcəyi barədə tənbəl-tənbəl düşünməyə başladı.

"Yeməyə bir şey olmadığı halda, bunların burda nə işi var?"

Lap yaxınlığında idi, hətta ona elə gəldi ki, ayaqlarına toxundu. Bu təmasdan əti ürpəşən kimi olsa da, tərpənməyə heyi olmadı. Siçovul olarsa, bədəninin hansısa hissəsini gəmirə biləcəyini düşündü; bu barədə haradasa oxumuşdu. İçindən qorxuya oxşar nəsə bir hiss keçdi, amma sıradan çıxmış sinirləri qorxu deyilən şeyə reaksiya verəcək halda deyildilər.

Ümidsizlik biganəliyə qarışıb getdikcə ruhuna daha çox hakim kəsilməkdəydi. Axır günlər ölüm barədə tez-tez düşünürdü. Amma kim olduğunu, başına nə gəldiyini bilmədən tanımadığı bu yerdə təklikdə ölməyi heç istəmirdi. O, indi korluğu, hələ üstəlik, ölümü ilə də barışmağa hazırdı, təki, buradan çıxıb adamların içində öləydi. Onun da yəqin ki, kimsəsi vardı - atası, anası, sevgilisi, arvadı... Kimi isə olmalıydı. Bunları bilməmiş ölmək istəmirdi. Yaddaşını çox çək-çevirə salır, oyaq və hətta yarıhuşsuz vaxtlarında da beyni bu suallara cavab axtarışında rahatlıq tapa bilmirdi. Amma bütün cəhdləri əbəsdi...

Qəfil onu sağ ayağının üstündə hiss etdi. Çox da böyük deyildi, yəqin, siçandı, - deyə düşündü. Canlı bir anlığa dayandı, ciyildəyib ehtiyatla daha bir neçə addım atdı, narahat ola biləcəyi bir şey hiss etməyib irəliləməkdə davam etdi. Budur, indi də qarnına tərəf adladı. Orada dayanıb köynəyinin alt düyməsini didişdirməyə başladı; görünür, onu dişinə vurub yeməli olub-olmadığını yoxlayırdı.

"Bu da mənim kimi acdı yəqin!".

Siçan düyməni boş verib bir neçə addım da irəlilədi.

"Rədd ol burdan, murdar, indi səni vurub əzəcəm!"

Beynindən keçən bu fikri dilinə gətirməyə macal tapmamış qəfil ağlına gələn başqa bir fikirdən əvvəlcə dəhşətə gəldi, amma bir anın içindəcə sifəti dəyişdi, kor gözlərinə sanki işıq gəldi. Nəfəsini içinə çəkib qurudu. Üstündəki məxluq bir neçə addım da irəlilədi. Köynəyin yuxarı düymələri açıq idi, sinəsinə tərəf addımlayıb, düymələrdən birini dişləri ilə dartışdırdı, yeməli olmadığına əminlikdən sonra başını köynəyin içinə saldı; görünür, içəridə nə olması ona çox maraqlı gəldi, ola bilsin, tərə hopmuş ətin iyi idi heyvanı cəlb edən.

Bayaqdan tərpənməyə belə heyi olmayan adama qəfildən elə bir güc gəldi ki, bütün qüvvəsini sağ əlinə verib yumruğunu zərblə sinəsinə endirdi. Köynəyin altından çıxan bərk ciyilti səsilə eyni vaxtda nəsə bədəninə yapışdı. Tez onu götürüb barmaqları ilə ora-burasını yoxladı və dişə gələ biləcək hissəsini ac-

gözlüklə didişdirməyə başladı. Canlı hələ ölməmişdi, dişləri ilk dəfə ətinə keçəndə yavaşdan ciyildəyib barmaqları arasında çırpınan kimi oldu. Şikarının əlindən çıxa biləcəyi qorxusundan bir əli ilə baş, o biri ilə quyruq tərəfindən möhkəm yapışıb dişinə gələn ətdən daha böyük hissəni qopardı; ilk tikələri əməllibaşlı çeynəmədən az qala diri-diri uddu. Nə yediyini kor gözlərinin qabağına gətirəndə ilk anda ödü az qala ağzına gələcəkdi, amma bu hiss tez də keçdi: aclıq ona elə güc gəlmişdi ki, normal insana xas bütün başqa hisslər qarşısında acizdi.

Ət hissəsini didişdirib içalata çatanda kənara tulladı. Siçanın qanına və içinin zir-zibilinə bulaşmış əllərini şalvarına, döşəməyə, divara sürtməklə təmizlədi.

Gözlərinə işıq gəlmişdi...

***

Anna “xeyr” tərəfdarlarının toplantısına qatılmaq üçün səhər tezdən Türkiyə Səfirliyinin qarşısında idi. Burada xeyli adam yığışmışdı. Yaxınlıqda çox sayda polis maşınları və polislər keşik çəkirdilər. Etirazçıların əllərində “Tək adama xeyr”, “Diktatora təslim olmayacağıq”, “Xeyr, biz qazanacağıq”, “Tək adamlı idarəçiliyə, asılı məhkəməyə, partiya dövlətinə, başqanlığa xeyr”, “Demokratik cümhuriyyət və ortaq vətən üçün xeyr” kimi şüarlar yazılmış plakatlar vardı. İzdiham arada onları bir ağızdan və ucadan səsləndirirdi.

Tədbirin başlanmasına iki-üç dəqiqə qalmış Səfirliyin sağındakı gen küçədən əllərində Türkiyə bayraqları tutmuş, “Sevdam millət, qərarım əvət”, “PKK, FETÖ xeyr deyir, biz də ona görə, əvət deyirik”, "Türkiyəni sevirəm, cümhurbaşqanlığı sisteminə əvət deyirəm”, “Millət üçün, dövlət üçün, cümhuriyyət üçün əvət” şüarları səsləndirə-səsləndirə irəliləyən izdiham Səfirliyə tərəf yön aldı. Onları görcək binanın önündəki izdihamdan etiraz qışqırtıları, fit səsləri eşidilməyə başladı.

Polislər buna hazırmış kimi dərhal iki etirazçı kütlə arasında

keçilməz canlı sədd yaratdılar. Hər iki tərəfdən qışqırıq, qarşılıqlı ittiham, söyüş və hədə-qorxu səsləri bir-birinə qarışdı.

Anna sakitcə durub baş verənləri seyr edirdi. Birdən baxışları orta cərgələrdə əlində Azərbaycan bayrağı tutmuş bir gəncə sataşanda əvvəlcə gözlərinə inanmadı, yanıldığı ümidilə bir də, bir də diqqətlə baxdı. Yox, gözləri onu aldatmırdı, bu, o idi...

Həmin gün Sarı evə çox gec gəldi. Yorğun görünürdü. Anna yeməyini bitirməsinə imkan verib söhbəti açdı.

- Səni mitinqdə gördüm, Sarı.

- Sən də ordaydınmı, Anna, - ərinin yorğun sifəti işıqlandı, - necə olub ki, mən səni görməmişəm?! Getmək fikrində olduğunu desəydin, bir yerdə gedərdik. Amma möhtəşəm alındı direnişimiz! - Yorğun-arğın adama sanki yeni enerji, güc gəlmişdi. - Səslərini əməlli-başlı batırmışdıq, polislər imkan versəydilər, yaxşıca dərslərini də verərdik. - Sanki kimlərisə əzişdirməyə hazırlaşırmış kimi yumruğunu havada oynatdı. - Fikir verdinmi, qorxudan polislərin arxasında necə gizlənmişdilər.

- Hər şeyi yaxşı görürdüm, Sarı, - Annanın çöhrəsindən xəfif təbəssüm keçdi, - çünki mən də onların arasında idim.

- Səən?... - Ərinin təəccübdən gözləri bərəldi. - Sən Türkiyənin düşmənlərinin arasında idin?

- Düşmən?! - Bu dəfə Anna təəccübünü gizlətmədi. - Sənə nə olub, Sarı? Nə vaxtdan etiraz edənləri düşmən saymağa başlamısan?

- Nəyə etiraz edirlər ki, Anna?! Bütün bu etirazları təşkil edənlər də, səfirliyin qarşısındakı o adamların əksəriyyəti də Türkiyənin güdrətli, dünyada söz sahibi olmasını istəməyən türk düşmənləri, ya da qarışığı olan milli satqınlardı!

Son söz qadını tutdu, amma təmkinini qorumağa çalışdı.

- Mən türkün düşməni deyiləm, Sarı, əksinə, mən Türkiyəni və türkləri çox sevirəm, çoxlu dostlarım var bu ölkədə. Səfirliyin önünə də son illər orda güclənməkdə olan diktatura meyllərinə və bunu yeridənlərə etiraz etmək üçün getmişdim. Başqaları da mənim kimi. Çünki biz də Türkiyənin güclü olmasını is-

təyirik. Amma yanaşmalarımız fərqlidi. Bir də ki... - ara verdi, deyib-deməməklə bağlı tərəddüd etdiyi hiss olunurdu, - ordakı türklər satqındılarsa, onda belə çıxır ki, sən də...

- Anlamadım... - Sarı tutuldu; arvadı sözünü bitirməsə də, onun nə demək istədiyini anlamaq üçün elə də böyük ağıl lazım deyildi, o isə özünü ağılsız saymırdı.

- Oradakı etirazçı türklərin əksəriyyəti repressiyalardan qaçıb bura sığınanlardı. Sən də eyni səbəbdən öz ölkəni tərk etmisən, burdakı verilişlərin də hökumətin əleyhinə etiraz və çağırışlarla doludu. Eyni məntiqlə sən də satqın olmalısan onda...

Eşitdikləri Sarını bu dəfə daha möhkəm tutsa da, yenə pərtliyini gizlətməyə çalışdı.

- Bağışla, amma müqayisən çox uğursuzdu, tamam fərqli durum və şərtlərdi!

- Elə də ciddi fərq görmürəm. Oranın həbsxanaları fərqli düşündüklərinə görə repressiya olunanlarla doludu. Hətta düşünürəm ki, bir çox məsələlərdə durum sizdəkindən xeyli pisdi...

- Səninlə razılaşa bilmərəm, amma tutaq ki, sən deyənlər doğrudu, qoy gəlib sözlərini desinlər də, niyə buna imkan verilməsin ki? Nə oldu bəs sizin o, ağızdolusu danışdığınız demokratiyanız, hər zaman qürrələndiyiniz söz azadlığınız?!

- Öz ölkəsində insanların söz demək haqqını ən iyrənc üsullardan yararlanmaqla pozan biriləri başqa bir ölkədə özlərinə yönəlik bunu nə haqla tələb edə bilirlər, Sarı? O adamlar hansı dəyərləri burda təbliğ etmək istəyirlər, anlat mənə, lütvən. Onlara dəstək verənlər həmin o dəyərləri bölüşürlərsə, niyə öz ölkələrini tərk edirdilər və ya nədən geri dönmürlər?!

- Qayıdanlar da var, qalanlar da. Bir də ki, öz ölkəsini tərk edən dünyada nə qədər insan var, hamısı bunu təqib səbəbindən etmir ki. Başqa səbəblər də ola bilir.

- Ola bilir. Amma söhbət bir neçə milyondan gedir və ən maraqlısı, ölkəni tərk etmək istəyənlərin sayı da azalmır. Bu qədər insan vətənini niyə tərk etmək istəsin ki? Cavabı çox sadədi, əksəriyyət başını götürüb qaçır.

- O bir neçə milyonun böyük bir hissəsi bura nə indi köçüb, nə də on, on beş il əvvəl. Çox-çox öncə və sənin dediyin kimi, başlarını götürüb bura qaçıblarsa da, buna görə məsuliyyəti indikilərin boynuna yıxmaq nə dərəcədə ədalətlidi? Sən qərəzlisən, Anna!...

Həmin gün evlilik həyatı dövründə ilk gecə idi ki, ərlə arvad ayrı-ayrı otaqlarda yatdılar...

***

Anna səhərlər işə gələndə öz ölkəsinin gündəminə nəzər salmaqla yanaşı, imkan olduqca iki ilini keçirdiyi ölkədə baş verənlərlə də maraqlanırdı. Bu, həm də azərbaycan dilini yadırğamamasına kömək edirdi. Bu gün ölkə saytlarının əksəriyyəti əri ilə bağlı bir məlumatı günün əsas hadisəsi kimi yaymışdılar. Xəbər hüquq-müdafiə təşkilatlarından birinin məlumatına əsaslanırdı. Bildirilirdi ki, bir müddət öncə rayon polis idarələrindən birinin rəisi xaricdə siyasi mühacirətdə olan Sarı Cəfərlinin yaxın qohumlarından bir neçəsini quruma çağırrıb, onlara hədə-qorxu gəlib ki, "öz itlərinə yiyə dursunlar". Çağırılanlar nə qədər and-aman etsələr də ki, onların Sarı ilə heç bir əlaqələri yoxdur, bu adamın fikirlərini bölüşmürlər və qohum kimi ondan imtina ediblər, rəisin son sözü bu olub: "O gədə iftiralarına son qoymasa, hamınız üçün pis qurtaracaq!"

Sarı çıxışlarını dayandırmadığı üçün iki gün öncə anasını polisə dəvət edib yaşlı qadını dörd saat ac-susuz orada saxlayıblar; onun qarşısında daha sərt tələb qoyublar və xəbərdarlıq ediblər ki, oğlu özü könüllü ağzını yummasa, bunun başqa yolunu tapmalı olacaqlar. Bərk qorxuya düşən xəstə qadının axşam halı pisləşib, evə həkim çağırmalı olublar.

Həmin vaxt yığışıb mühacirin evinə gedən qohumlar arasında qəzəbliləri də olub. Sarının əmisi özünü xüsusilə aqressiv aparıb; yatağa düşmüş qardaşı arvadından tələb edib ki, oğluna ağıl qoysun, ona çatdırsın ki, "əgər belə ürəkli idisə ölkədən ni-

yə qaçırdı, elə o dediklərini burada danışardı da". Çıxanda da arvada beləcə də deyib: "Oz küçüyünə tapşır ki, dilini bir yerinə soxsun, yoxsa gəlib nemeslərin içində onu təpiyimin altına salıb itin balası kimi əzişdirəcəm!"

Ana həmin gün axşam bu söhbəti ağlaya-ağlaya oğluna danışıb və ona yalvarıb ki, barı, bu arada sakit dursun. Telefon danışığından iki saat sonra Sarı internet üzərindən yayımlanan "Xilas" adlı proqramında yenidən od püskürüb:

"...Mənim anam da daxil, bütün qohum-əqrəbamı həbs etsəniz belə, yenə də əqidəmdən dönən deyiləm, nəslim-kökümdə sonuncu adama qədər hamını qırsanız da, tutduğum haqq yolundan geri çəkilmə yoxdur..."

Anna həmin çıxışa səhər işdə qulaq asanda iki yüz min baxış sayı vardı. İş günü başa çatana yaxın xəbərlərə göz gəzdirəndə ərinin bacısı oğlunun həbsi barədə məlumatı gördü; iyirmi bir yaşlı gənci küçə ilə gedəndə saxlayan polislər cibində beş qram narkotik aşkarlamışdılar.

Qadın işdən evə dönəndə gözlədiyinin əksinə, ərini məyus görmədi. Hətta ona elə gəldi ki, üz-gözündə gizlətməyə çalışdığı bir məmnunluq var.

Söhbəti əri özü açdı.

- Anna, xəbərin var, mənim bacım oğlunu bu gün həbs ediblər. Polislər küçədə cibindən narkotik tapıblar. Uşaq heç siqaret də çəkmir... Hamısı mənə görədi. Gücümü hiss ediblər, ona görə, qorxmağa başlayıblar məndən, onlar üçün əməlli-başlı başağrısına çevrilmişəm! Əvvəl qəzetlərdə, televiziyalarda söyürdülər, indi qohumlarımı tuturlar. Amma nahaq əziyyət çəkirlər, bu gün səhərki çıxışımda da dediyim kimi, hətta bütün qohum-əqrəbamı repressiya etsələr belə, yenə yolumdan dönən deyiləm. Mənim çıxışlarımı yüz minlərlə izləyir, dünənki çıxışıma isə artıq dörd yüz mindən çox adam baxıb... Sən de, mən necə geri çəkilə bilərəm, Anna və bu, qorxaqlıq olmazmı mənim tərəfimdən?! İnsanlar məni qəhrəman kimi qəbul edirlər, onların üzünə necə baxa bilərəm yolun yarısından dönsəm?!

- Sən özün də belə düşünürsənmi, Sarı? - Anna təmkinli olacağına özünə söz vermişdi.

Sual ərin xoşuna gəlməsə də, özünü sındırmadı.

- Niyə də yox?! Mənim dilə gətirdiyimi deməyə cəsarəti çatan nə qədər adam var ki?!

- Harda?

- Necə yəni harda? Ölkəmdə.

- Amma sən öz ölkəndə deyilsən, Sarı və özün də yaxşı bilirsən ki, orda bunları danışa bilməzdin. Əks halda, tərk etməzdin vətənini. Xaricdə, təhlükəsiz yerdə oturub bunları dilə gətirmək isə o qədər də böyük cəsarət istəmir. Qəhrəmanlar orda real risk və təhdid altında qalıb susmayanlardı... Amma məni indi ən çox narahat edən bu deyil, sənin yaxınların və sənə görə həbs olunan o cavan oğlandı. Onların heç bir günahı yoxdu.

- Bu iş qurbanlarsız ötüşmür, Anna!

- Qurban getmək yaxşı şeydirsə, özün niyə getmirdin? - Qadın yenə təmkinini qorumağa çalışaraq gülümsündü. - Heç indi də gec deyil, ora qayıdıb qabağa düşə bilərsən. İndi daha rahat olar sənin üçün, tanınmış adamsan artıq...

Söz və onun deyilmə təhəri kişini tutdu, - arvadı nə qədər gizlətməyə çalışsa da, dediklərində istehzanı duymamış deyildi, - amma pərtliyini büruzə verməməyə çalışdı.

- Sənin deməyindən belə çıxır ki, onda xaricdə yaşayanlar ağızlarına su alıb oturmalıdılar?! Bizim hamımızın orda qohumlarımız var, onları düşünməyə başlasaq, onda nə yazan olacaq, nə danışan! Bizimkilərin istədiyi də elə budu, səndəmi bunu istəyirsən? Amma burdakılar geri çəkilməsə, bu üsulun effektli olmadığını görüb özləri geri çəkiləcəklər. Əks halda, ayaqları yer alacaq!

- Mən heç nə istəmirəm, Sarı, - məyus olduğu aşkar sezilən qadın dilləndi, - mən sadəcə, heç bir günahı olmadıqları halda, ağır duruma düşmüş adamları düşünürəm, onlara görə narahatam. Bir də məni narahat edən onların sənə görə əzab çəkmələrinə bu cür etinasız yanaşa bilməyindi. Hətta... - tərəddüd etdi-

yi hiss olunurdu, - incimə, mənə elə gəlir ki, sən bundan öz maraqların üçün yararlanmağa çalışırsan...

- Açıq danış, mən də bilim, mən nədən və necə yararlanıram ki?

Ərinin sağ yanağının atmasının bərk əsəbləşdiyinə işarə olduğunu Anna artıq bilirdi. Bu, qadını üzürdü, o, sevdiyi adamı incitmək istəmirdi. Amma yastığa baş qoyduğu birinin kimliyi də onun üçün çox önəmli idi; o, yalan və riyakarlıq mühitində yaşamaq istəmirdi.

- Mən sənin siyasi sığınacaq almaq üçün qaldırdığımız işlə bağlı son izahatını oxumuşam. Orada tez-tez vurğulayırsan ki, sənə görə qohumlarını incidirlər və geri dönəcəyin halda, səni ciddi təhlükələr və uzun müddətə həbs cəzası gözləyir.

- Yalanmı yazmışam?

- Yox, doğru yazmısan. Amma nə gizlədim, başqalarının faciəsindən özünə rahat həyat qurmaq üçün bu formada yararlanmaq istəyin məni düşündürür. Hər halda, o yazdıqlarını oxuyanda məndə bu cür qənaət formalaşdı.

- Ölkəyə qayıdıb həbsxanayamı girim? Bunumu istəyirsən, mənim əziz arvadım?!

Anna ərinin son sözlərində aşkar kinayəni sezməyəcək qədər sadəlövh deyildi.

- Həbsxanaya niyə girirsən, mübarizəni davam etdirmək olar. - Eyni təbəssüm və kinayə ilə cavab verdi.

- Anna, axı kim də olmasa, sən yaxşı bilirsən ki, orda qalsaydım məni nə gözləyirdi, - ər ortadakı gərginliyi aradan qaldırmağa çalışdı, - yaxşı halda həbsə gedirdim, amma daha pisi də ola bilərdi.

- Amma həbsə bacın oğlu getdi! - Anna düz ərinin gözlərinin içinə baxdı. - Deməli, sən bütün bunların təhlükəli olduğunu bilirsən, özün həbsə düşmək və ya ölmək istəmirsən, amma başqalarını passivliyə, küçələrə çıxıb etiraz etmədiklərinə görə öz çıxışlarında az qala ittiham edirsən...

- Tutaq ki, sən haqlısan. - Kişinin səsində yenidən əda və kinayə notları peyda oldu. - Bu, sevimli arvadımın yanında qal-

mağım üçün vasitələrdən biridisə, ondan bəhrələnmək istəyimdə pis nə var ki?

Qadın qulaqlarına inanmadı.

- Deməli, sənin danışdıqların, yazdıqların hansısa dəyərlər üçün deyilmiş, - səsində və çöhrəsində məyusluq, üzüntü, təəssüf bir-birinə qarışmışdı, - bütün bunları məqsədli şəkildə edirmişsən.

- Tutaq ki, yenə sən deyəndi.

- Onda, sən... sən mənimlə də məqsədli şəkildə ailə qurmusan. - Qadının səsi çox sakit çıxdı və özü də buna təəccübləndi. - Belə çıxır ki, əslində ortalıqda sevgi olmayıb.

- Tutaq ki, bu da sən deyəndi. Sonra?

Qız diqqətlə onun gözlərinin içinə baxdı, bunları ciddi demədiyinə inanmaq istəyirdi. Amma əri cidd idi. Özünü itirdi, eşitdikləri ona o qədər dəhşətli gəldi ki, bir anlığa bilmədi nə desin. Bütün içi əsirdi. Özünü ələ almağa çalışdı, o, bu adamı daha da yaxından tanımaq istəyirdi.

- Qorxmursan, bütün bunları sənin sığınacaq işinə baxan qurumlara danışa bilərəm. Onda bilirsən də, səni nə gözləyə bilər?

- Onlar sənə inanmazlar. Çıxışlarım, qohumlarımın təqiblərə məruz qalması, məndən imtinaya məcbur edilmələri, əleyhimə aparılan kampaniyalar... Bunları nəzərə almaya bilməzlər! - Gözləri oynadı. - Bir də ki, sən bunu heç vaxt etməzsən!

Annaya əvvəl elə gəldi ki, ərinin gözərindən ona canavar baxır. Amma diqqətlə baxanda yanıldığını anladı: ona baxan bir cüt tülkü gözü idi. Ürəyi sıxıldı.

- Niyə bu cür düşünürsən?! - Təmkinini qorumaq qadına getdikcə daha çətin başa gəlirdi.

- Bizdə belə bir məsəl var, islanmışın yağışdan nə qorxusu. - Kişinin səsində bu dəfə həm də müştəbehlik vardı. - Mən də sənin mənimlə bağlı onlara yalan məlumatlar ötürdüyünü, bunu məqsədli şəkildə, mənimlə evlənmək üçün etdiyini söyləyə bilərəm.

Annanı sanki ildırım vurdu.

- Sən... sən... - Diqqətlə ərinin sifətinə baxdı, sanki tapıb demək istədiyi sözləri orada axtarırdı. Birdən diksindi; sözlər alnında görünən kimi oldu. Tez gözünü çəkdi. Yenidən ora dönmək istədi, qorxdu. Başını endirdi və ixtiyarsız dilindən indicə gördüyü həmin sözlər çıxdı: - Sən əclafsan, Sarı!

Sözlərin ağzından çıxmağı ilə qulağının dibinə dəyən qəfil şillənin zərbəsindən içi silkələndi; bir anlığa ona elə gəldi ki, orada nəsə qırılıb düşdü.

Araya sakitlik çökdü. Anna üzünü əli ilə tutaraq donub qalmışdı.

- Mən sənin ərinəm! Qulağında da birdəfəlik sırğa et, mən alman kişisi deyiləm ki, sən nə desən onu həzm edəm, mən azərbaycan kişisiyəm! - Sarı hökmlə danışırdı; qadını evlilik dövründə ilk dəfə idi ki, onu bu sifətdə görürdü. - Bundan sonra mənimlə danışanda həddini bil!

İndi eşitdikləri qadına az öncə yediyi şillədən daha betər, daha alçaldıcı idi. Ağlına gələn ilk fikir əlinə keçəni bu adamın başına çırpmaq, sonra əlləri, dişləri ilə didib-parçalamaqdı. Amma bunların heç birini etmədi, dikəlib qalxdı və qapıya yaxınlaşdı.

- Evimi tərk elə, sən daha mənim ərim deyilsən!...

Ertəsi gün Annanın şiddətlə bağlı şikayəti əsasında Sarını həbs etdilər. Həbsinin üçüncü günü saxlandığı yerin müdiriyyətindən arvadı ilə telefon danışığına imkan yaradılmasını xahiş etdi. Ona bu imkanı təmin etdilər, amma Anna səsini eşidən kimi telefonu qapatdı. Vəkillə ilk görüşündə arvadına səhvini anladığını, onu çox sevdiyini və bağışlanmasını, görüşmək istəməsə də, barı, zənğ etməsini çatdırmağı xahiş etdi.

Anna nə görüşə gəlmək istədi, nə də zəng etdi.

Həbsinin ikinci həftəsinin sonu məhkəmə Sarını cərimələdi və o, azad olundu. Anna şikayətini geri çəkmişdi. Amma elə həmin gün öz ölkəsinə deport olundu; həbsinin ertəsi günü arvadının verdiyi izahat əsasında yerli miqrasiya bürosunun əməkdaşları tədqiqata başlamışdılar.

Anna işlədiyi təşkilata ərizə yazıb ərinin, - ərizəsində bu ifa-

dənin qarşısında "keçmiş" sözünü işlətmişdi, - təqdim etdiyi məlumatları yoxlamadan öz ölkəsini tərk etməkdə ona yardımçı olduğunu göstərməklə etik qaydaları pozduğunu etiraf etdi və işindən getdiyini bildirdi.

İki aydan sonra isə qızları dünyaya gəldi.

Adla bağlı ərlə arvad arasında müzakirə olanda Sarı anasının şərəfinə uşağın adını Gülarə qoymaq istəyini bildirmişdi. Anna o vaxt alman soyuqqanlığı ilə gülümsünüb "onda gəl Klara qoyaq, Gülarənin alman variantı, həm sən deyən olsun, həm də mən deyən" - demişdi. Arvadının biclik işlədib, əslində, dediyini yeritdiyini düşünən Sarı ürəyində etiraz etsə də, üzə vurmamış, uşaq doğulandan sonra mövzuya bir daha qayıtmağı düşünmüşdü. "Arvadın kimliyindən asılı olmayaraq, evdə son söz kişinin olmalıdı!" O, özünə arxayın, arvadını yola gətirəcəyinə isə əmindi...

Anna qızının adını Klara qoydu...

***

Son bir ilə qədər Kənanın biznesi gözlədiyindən də yaxşı gedirdi. Şirkəti gündən-günə genişlənirdi: şəhərin altı yerində supermarket tipli dükanları fəaliyyətdə idi, bu yaxınlarda iki rayonda mağazaları işə düşmüş, daha üç rayonda isə təmir-tikinti işləri başa çatmış, obyektlərin açılışına hazırlıq gedirdi. Ötən il bankdan yarım milyonluq kredit götürmüşdü. Bu, ona biznesini genişləndirmək, qərb rayonlarından birində aldığı yüz hektarlıq sahədə qurduğu təsərrüfatı qısa zamanda tam gücü ilə işə salmağa imkan verəcəkdi. Amma atalar demiş, sən saydığını say, gör fələk nə sayır. Heç gözləmədiyi halda, ölkədə bütün planlarını alt-üst edən ciddi hadisələr baş verdi. İqtisadi krizisdən dolayı ard-arda baş verən bir neçə devalvasiyadan sonra digər sahələrdə olduğu kimi biznesdə də aləm bir-birinə dəydi. Manat aparıcı xarici valyutalara nisbətdə iki dəfədən çox dəyərdən düşdüyü halda, əmək haqları cüzi artırılmışdı; adamlar in-

di həmin pula əvvəlkindən qat-qat az ərzaq ala bilirdilər. Bu səbəbdən alver sürətlə zəifləməkdə idi.

Manatın dəyərdən düşməsi və ticarətin zəifləməzi səbəbindən banklara borcunu vaxtında ödəyə bilmədiyi üçün, bir çox sahibkarlar kimi Kənanın da ciddi problemləri yaranmağa başladı; gecikən borcla bağlı bank cərimələri sürətlə artmaqda idi.

Bu arada, dövlət büdcəsində yaranmış kəsirlə bağlı vergi orqanları qapı-qapı düşüb iş adamlarından növbəti il üçün vergiləri ödəməyi xahiş edirdilər; bu cür xahişlərin tələbə bərabər olduğunu biznes sahəsinə az-çox bələd olan hər kəs bilirdi. Bütün bunlar bir tərəfə, sahibkarların çoxu bu cür ağır durumdan çıxmaq üçün yol aradıqları halda, qapılarını başqa bir fəlakət kəsdi. Onlardan az qala dövlət içində dövlətə çevrilən bir fonda könüllü vəsait köçürmək xahiş olunurdu. Söhbət elə böyük məbləğlərdən gedirdi ki, ağlı başında olan kimsə onu könüllü vermək istəməzdi. Amma həmin fondun kimlərə bağlı olduğunu bilən hər kəs bu xahişin də əslində, tələb olduğunu və tabe olmayanların üzləşə biləcəyi risklərdən də xəbərsiz deyildi. Sahibkarlar odla su arasında qalmışdılar.

Bu arada ölkənin ən böyük saraylarından birində dövlət xətti ilə yerli və xarici iş adamlarının da dəvət aldığı iqtisadi forum keçirilirdi. Uğurlu iş adamlarından biri kimi Kənanı da həmin tədbirə dəvət etmişdilər. Ölkənin bütün rəhbər şəxsləri orada idi. Forumda iştirak edən ölkə rəhbəri çıxışında iş adamlarının məruz qaldığı qanunsuz vergi və digər yoxlamalar, onlardan tələb olunan qanunsuz yığımlar barədə ona çox sayda şikayətlər gəldiyini bildirdi, cavabdeh dövlət qurumlarından və vəzifəli şəxslərdən bunlara son qoyulmasını tələb etdi. Dövlət başçısı üzünü iş adamlarına tutub çıxışını bu sözlərlə bitirdi:

"Sizin arxanızda mən dayanmışam, kimsə sizi incitsə, sizdən qanunsuz nələrisə tələb etsə, mənə yazın və əmin olun ki, həmin şəxslərə qarşı ən sərt tədbirlər görüləcək!"

Həmin toplantıdan sonra bir müddət sakitlik oldu. Bu sükut təxminən beş ay çəkdi. Altıncı aya keçəndə yenə emissarlar sa-

hibkarların qapısını kəsdilər. Kənangilə də gəlmişdilər. Tələblər yerində qalırdı.

Ona yaxın iş adamı, - onların arasında Kənan da vardı, - tikinti materialları biznesi ilə məşğul olan Osmanın ofisində toplaşdılar. Şərtlər o qədər ağır idi ki, onları qəbul etmək indiki durumda müflis olmağa bərabərdi. Sonda çıxış yolunu ölkə rəhbərinə yazılı müraciətdə gördülər; o, özü iş adamlarından bunu xahiş etmişdi axı. Müraciətin mətnini Kənan hazırladı, on nəfərin hamısı sənədə imza atdı. Etirazçılar odla oynadıqlarını anlamamış deyildilər, amma durumun ağırlığı riskə getməyi tələb edirdi.

Sənədi ünvanına göndərdikdən sonra səksəkə içində gözləməyə başladılar. Daha üç ay keçdi. Gözlədiklərinin əksinə, bu müddətdə nə qapılarını döyən oldu, nə də onlara gözün üstə qaşın var deyən...

Lalə son vaxtlar ərinə görə çox narahat idi. Kənan qaraqabaq olmuşdu, işdən gec gəlirdi, evdə olanda da vaxtının çoxunu iş masasının arxasında keçirir, çox vaxt da fikirli olurdu. Bir neçə dəfə səbəbini öyrənməyə çalışsa da, əri söhbətdən yayınmışdı. Ona etibar etsə də, hərdən qəlbinə qara fikirlər də gəlirdi. Kənan yaraşıqlı kişi idi, özü də biznesmen idi; belələrinə tamah salanlar az olmazdı yəqin. "Kişinin cavanına da lənət, qocasına da, ipini əldən verdinsə, artıq səninki deyil!" - deyə anası ərini nəzarətsiz buraxmamağı tez-tez ona nəsihət edərdi.

Lalə ailəli olduqları dönəmdə Kənanın, ondan şübhələnməyə əsas verən hər hansı hərəkətini görməmişdi...

***

Təyyarə Bakıya axşam səkkizdə endi. Sarı ayağını trapdan yerə qoyan kimi iki mülki geyimli şəxs yaxınlaşıb onlarla getməli olduğunu söylədilər. Kim olduqlarını soruşdu, cavab vermədilər. Yaxınlıqda polis maşını onları gözləyirdi.

Sarını maşına mindirib aeroportdan birbaşa məhkəməyə gə-

tirdilər. Burada ona bildirildi ki, barəsində sərhəddi qanunsuz keçmə maddəsi ilə cinayət işi qaldırılıb və prokurorluq üç aylıq həbsi üçün məhkəməyə təqdimat verib.

Hakim müttəhimin öz vəkili olmadığını nəzərə alaraq və "humanizm prinsipindən və ədalət mühakiməsinin marağından çıxış edərək" ona dövlət hesabına vəkil təyin olunduğunu elan etdi. Bu, zalda oturmuş altmış-yetmiş yaşlı bir adam idi. Başı əlindəki telefona qarışmışdı; hərdən azacıq masaya tərəf əyilib, üzünü də əli ilə gizlədib kiminləsə astadan danışırdı. Növbəti telefon zəngi ilə bağlı hakimin iradından sonra əsasını əlinə alıb bir bəhanə ilə bayıra çıxmağa fürsət də tapdı.

Sarı azadlıqda olanda "paykavoy vəkillər" sözünü çox eşitmişdi. Belələrindən bir qayda olaraq, sifarişli işlərdə və daha çox saxta ittihamlı həbslərin ilk günlərində istifadə olunurdu; paykavoylar müstəntiq, prokuror, hakimdən aldıqları müəyyən haqqın müqabilində məhkəmə proseslərində, istintaq hərəkətlərində formal iştirak edir və onlara təqdim olunan istənilən sənədə imza atırdılar.

"Yəqin ki, bu da onlardandı", - deyə düşündü və Almaniya məhkəmələrini, oradakı mühiti, hakimləri, vəkilləri, polisi, onların insanlara münasibətini xatırladı. Baxmayaraq ki, onu deport etdiklərinə görə hamısına acıqlı idi, amma fərqləri görməyə və dəyərləndirməyə bilmirdi. Orada ona tutulduğu andan özünün seçdiyi vəkilin xidmətindən yararlanmaq hüququ izah edilmiş və həm onu tutanlar, həm də məhkəmə bu məsələdə ona hər cür yardımçı olmuşdular. Burada isə ona bu fürsət verilmədi; halbuki həm tutulanda, həm də məhkəmədə vəkillə bağlı məsələnin həlli üçün yaxınları ilə əlaqə saxlamağa imkan yaradılmasını təkidlə xahiş etmişdi.

Gənc yaşlarında olan dövlət ittihamçısı prokurorluğun verdiyi təqdimatı dəstəkləməyi məhkəmədən xahiş etdi. Tez-tez saata baxmasından tələsdiyi hiss olunurdu.

Vəkilə söz veriləndə isə yaşlı kişi tənbəl-tənbəl ayağa qalxıb bircə cümlə ilə kifayətləndi:

"Məhkəmənin mülahizəsinə buraxıram".

Sarı hakimin dediyi "humanizm" və "ədalət mühakiməsinin maraqları" ifadələrinin arxasında nə dayandığını indi bütün çılpaqlığı ilə anlayırdı. Verilişində paykavoy vəkillər probleminə niyə diqqət ayırmadığına təəssüfləndi. "Əslində, adamları inqilaba, küçələrə yox, belə xırda, əhəmiyyətsiz saydığımız şeylərin arxasınca getməyə, onların həllinə nail olmağa çağırmaq lazım. Əsl inqilablar kiçik uğurlardan doğur!" - acı-acı düşündü.

Hakim iki-üç dəqiqədən artıq çəkməyən müşavirədən qayıdıb üç aylıq həbsi təsdiqlədi.

Proses bitdikdən sonra Sarı fürsətdən yararlanıb vəkilə anasının telefon nömrəsini dedi, ona zəng edib həbs edildiyini, günahsız olduğunu, onu axtarmalarını və vəkil tutmalarını çatdırmağı xahiş etdi. Vəkil çoxmənalı gülümsünüb, "narahat olma, edərəm", - dedi.

Həbsdə keçirdiyi sonrakı günlər Sarını nə anası, nə də dost-tanışından kimsə aradı...

***

Vətənə dönməsinin və həbsdə atımasının həftəsi bu gün tamam olmuş Sarını hələ də birnəfərlik kamerada və tək saxlayırdılar.

Səhər yeməyi adı ilə verilən yağsız-duzsuz perlova şorbasından iki qaşığı az qala ödü ağzına gələ-gələ güclə uda bildi. Yeməyi acıqca aparıb hər tərəfini çirk və ərp basmış unitaza boşaltdı. Buranın yeməklərini it yeməzdi; iylənmiş toyuq və ya mal ətindən, göyərmiş kartofdan və marqarindən hazırlanmış şorbanı kif iyi verən qara çörəklə acından ölməsin deyə yemək zorunda idi. Qonşu kameralardakı dustaqlara evdən gətirilən yeməyin iyi hər dəfə burnuna dəyəndə həsrətlə Annanın bişirdüşürünü xatırlayır, ağılsızlığı və nadanlığı ucbatından düşdüyü duruma görə özünü elə hey lənətləyirdi; bu cür məqamlarda bəzən göz yaşlarına sahib ola bilmirdi.

Onun nə görüşə gələni var idi, nə zəng edəni, nə də ki, ona

zəng etməyə icazə verirdilər. Dövlətin verdiyi vəkilin anasına zəng etdiyinə ümidini tamam itirmişdi; əks halda, bu vaxta qədər onu axtarardılar.

Çox ölçüb-biçəndən sonra rəisin adına ərizə yazmaq qərarını verdi. Yuxusuna haram qatıb bütün gecəni üzərində işlədi. Ərizədə günahsız olduğunu, dövlət tərəfindən təyin olunan vəkilin onun müdafiəsi üçün heç bir şey etmədiyini, məhkəmə qərarından şikayət etmək və bu məqsədlə yaxınları ilə əlaqə saxlamaq istədiyini, lakin ona heç kimə zəng etməyə icazə verilmədiyini, buranın yeməkləri keyfiyyətsiz olduğu üçün onları yeyə bilmədiyini, təkadamlıq kamerada saxlanmasının psixikasına pis təsir etdiyini bildirir, yaxınlarına zəng etməyə icazə verilməsini, çoxadamlıq kameraya köçürülməsini xahiş edirdi. Sübh açılanda sənədi nəzarətçiyə ötürdü.

Ertəsi gün günorta onu rəisin qəbuluna apardılar.

Polkovnik rütbəli, başı daz qırxılmış, idman bədənli şəxs otağın o başında, qoz ağacından hazırlanmış iri masanın arxasında əyləşmişdi. Sarı onu bura gətirən nəzarətçinin tapşırığına uyğun olaraq, içəri girəndə ayaqlarını bir-birinə bitişdirib özünü təqdim etdi və çaşıb salam da verdi; bunu ona deməmişdilər. Salamı havada qaldı.

- Nədən şikayətçisən? - Otaq yiyəsi astadan soruşdu.

Sualda qəzəb və ya ona oxşar bir şey hiss etmədiyi üçün ürəkləndi; şikayətində yazdıqlarını səsləndirməyə başladı.

Rəis diqqətlə ona qulaq asdığı yerdə qəfil sözünü kəsdi:

- Sən bilirsən hardasan?

Sual gözlənilməz oldu, dustaq bilmədi nə cavab versin.

- Anlamadım, cənab polkovnik. - Ona bu bu cür müraciət etməyi tapşırmışdılar: “cənab polkovnik”. Onu da xatırladı ki, “cənab polkovnik sual verəndə hə və ya yox cavabı vermək lazımdır, ona isə sual vermək olmaz”; tez də dediyinə düzəliş etdi: - Bəli, cənab polkovnik, bilirəm... həbsxanadayam.

- Yoox... - Rəis yerindən qalxıb ona tərəf gəldi, düz qarşısında dayandı, - yoox, sənə hələ də çatmayıb ki, sən harda-

san. - Səsinin tonu dəyişməsə də, son sozləri uzada-uzada və xüsusi intonasiya ilə söylədi.

Canını qorxu alan dustaq başını aşağı saldı.

- Başını qaldır və gözlərimin içinə düz bax!

Sarı içindəki qorxunu boğub deyiləni etdi: ürkək baxışları zəhmli gözlərə dikildi və birdən diksindi - o, bu gözləri nəvaxtsa görmüşdü. Amma nə vaxt, harada? Bir an ona elə gəldi onlarda işıltı gördü, dərhal da xatırladı: qaranlıq meşədə, kolluqdan onlara baxan həmin o gözlər idi!

- Sən hələ də anlamamısan ki, hardasan. Anlasaydın, özünü belə arxayın aparmazdın. Görünür, Almaniyanın havası hələ də başından çıxmayıb. - Dustağın yenidən aşağı əyilmiş başını yarıyumulmuş iri əl çənənin altından asta-asta yuxarı qaldırdı. - Yaxınlarına zəng etmək istədiyini deyirsən. Sən onu bilirsən ki, bütün qohum-əqrəban səndən imtina edib, nə sənə zəng etmək istəyən var, nə görüşünə gəlmək istəyən. Bilirsən bunu? - Səsin tonu dəyişmişdi. - Səndən soruşuram, bilirsən?!

- Yox, bilmirəm, cənab polkovnik, - dustaq dili topuq vura-vura cavab verdi; ona elə gəlirdi ki, çənəsinin altındakı əl indicə boğazından yapışıb onu boğmağa başlayacaq.

- Bilmirsənsə, onda deyim bil! - Yumruq alt çənəni aşağıdan yuxarı doğru sıxmağa başladı. - Səndən hamı imtina edib, anan, qardaş-bacın, qohumların, dostların, hətta sənin o arvadın... adı nədi onun, hə, Anna... hətta alman qızı Anna da. Anladın indi?

Altına daş kimi yumruq dirənmiş ağız tərpənə bilməsə də, rəis dustağın gözlərində yazılanları sanki oxudu.

- Demək istəyirsən ki, Annanı hardan tanıyıram? Bizə sənin barəndə hər şey bəllidi, oğlan! O agent olan alman qızı ilə necə və harda tanış olmağın, Yalquzağın səni sərhəddən necə keçirməyi, özünün yalquzaqlara yem olmağı, Anna ilə evlənməyin, onun səndən şikayət etməyi və başqa çox şeylərdən xəbərdarıq. Sən təkcə özünü yox, bütün qohum-əqrəbanı da çox pis vəziyyətdə qoymusan. Bacın uşağını da sənə görə tutduqlarını bilməmiş olmazsan... - Sakit danışırdı, səsindəki bayaqkı qəzəb yoxa

çıxmışdı; əlini də dustağın çənəsinin altından çəkdi. - Sənin bircə yolun qalır, oğlan.

- Nə yol, cənab polkovnik? - dustaq qorxa-qorxa soruşdu.

- Müraciət yazmalısan, səhv etdiyini, səni bəzi qüvvələrin yoldan çıxardığını, buna görə onlardan pul aldığını bildirməlisən, üzr və bağışlanmağını diləməlisən.

- Mən belə şey yaza bilmərəm, cənab polkovnik, - dustağın dili topuq vururdu, - mən heç kimdən pul almamışam...

Sözü ağzında yarımçıq qaldı.

- Niyə yaza bilmərsən ki?! - Bu dəfə yekə əl dustağın çənəsi qarışıq, ovurdlarından yapışdı, amma səsin tonu dəyişməmişdi, sakitdi. - Səni axırıncı dəfə həbsdən buraxanda nə söz vermişdin, yadındadı? Sənə deyilmişdimi ki, oyun qaydalarını pozanlar bağışlanılmır?! Gözümün içinə bax! - Səsin tonu qalxdıqca ovurdlardan yapışmış barmaqlar da daha bərk sıxılırdı. - Elə bilirdin qaçıb Almaniyada gizlənməklə əlimizdən qurtara biləcəksən?! Hələ, üstəlik, özünü qəhrəman sanırdın, veriliş açıb orda dövlətin əleyhinə bülbül kimi ötürdün... Bə indi niyə danışmırsan?! Səninləyəm, danış da, niyə danışmırsan, küçük!...

Sarının ovurdları polkovnikin kəlbətin kimi güclü barmaqları arasında o qədər sıxılmışdı ki, qabağa çıxmış dodaqlar eybəcər görünüş almışdılar; mənzərə qıraqdan çox gülməli görünürdü. Dustağın özü isə güləcək halda deyildi, ağrıdan gözlərindən yaş axırdı. Amma qorxusundan cınqırı belə çıxmırdı.

- Yaxşı, madam ki, özün danışmaq istəmirsən, onda səni dilə gətirməyin yolunu taparıq. - Rəis əlini dustağın sifətindən çəkib yenidən masasına qayıtdı, yerində rahatlanıb selektorun düymələrindən birini basdı. Həmin andaca içəri üç nəfər daxil oldu və dustağı əhatəyə aldılar.

- Tanıyırsız bunu? - Otağın sahibi gələnlərdən soruşdu.

- Bəli, rəis, tanıyırıq. - İşçiləri bir ağızdan cavab verdilər.

Otağın sahibi təəccüblənirmiş kimi oturduğu yerdə bədənini irəli verib gözlərini qıydı:

- Hardan tanıyırsız?

- İnternetdə çıxışlarını görmüşük.

- Nə çıxışlar edirdi ki? - Sualda əda, təəccüb, istehza bir-birinə qarışmışdı.

- Çox pis sözlər danışırdı, rəis, - bu, Sarının arxasında dayanmış yekəpərin səsi idi, - şər, böhtan yağdırırdı...

- Kimə yağdırırdı ki, şər-böhtanı, Drakon?

- Hamıya... Bir də ki, ən əsası, - nəzarətçinin səsi titrəyən kimi oldu, - ona.

Son sözü elə vurğu ilə dedi ki, kreslosuna yaxılmış türmənin yiyəsi özünü yığışdırdı.

- Bə indi niyə danışmır? Bayaqdan sual verirəm, cavab vermir.

- Bəlkə, mikrafonu çatışmır, rəis? Deyəsən, əli öyrəşib ona. Verəkmi əlinə? - Rəisin Drakon deyə müraciət etdiyi adam irişdi. Digərləri ilə müqayisədə özünü daha sərbəst aparmasından bu adamın otaq sahibinə daha yaxın olduğu hiss olunurdu.

- Tələsmə, Drakon, hələ ki, başa düşə biləcəyi dildə anladaq, alınmasa, onu da edərik.

Rəisin sözü ağzından çıxar-çıxmaz Drakon əlini Sarının kürəyinə yavaşca döyəcləməyə başladı və mülayim səslə:

- Cənab polkovnik söz soruşanda cavab vermək lazımdı, qəşəng oğlan, - deməyi ilə yumruğunu var gücü ilə dustağın boynunun ardına endirməsi bir oldu. - İndi isə diz üstə çök və rəisdən üzr istə! - Bu, artıq hökm idi.

Dustaq tərəddüd edirdi, nə edəcəyini götür-qoy etməkdə idi ki, şillə-təpiklər üstünə yağmağa başladı. Zərbələrə duruş gətirə bilməyib yerə çökdü; ağrıdan qıvrıla-qıvrıla gah zarıyır, gah da inildəyirdi. Rəis yerindən qalxıb ona tərəf addımlayanda Drakon çiyinlərindən yapışıb quş kimi havaya qaldırdı, o biri nəzarətçi isə qıçlarından tutdu, birlikdə gətirib düz rəisin qarşısında dizləri üstə yerə qoydular.

Rəis burnundan qan axan, sifətində şillələrin izi qalmış və başı bədənində güclə dayanan dustağa ikrahla baxdı.

- Aparın bunu basın karsa, qoy ağlı başına gəlsin, iki gündən sonra yenə gətirərsiz yanıma!

Dustağın yaxasından tutub darta-darta otaqdan çıxardılar. Qapı bağlanan kimi polkovnik telefonu yığdı.

- Çənab general, məncə, çox əziyyət çəkməyə ehtiyac olmayacaq. Adam artıq ovcumuzun içindədi.

Xəttin o başından nə dedilərsə, yaltaq-yaltaq irişdi.

- Baş üstə, cənab general... Narahat olmayın, uşaqlar peşəkardılar, hər şey nəzarətdədi. Özünün də canı möhkəmdi, alman qızı yaxşı baxıb buna orda, top kimidi...

Dəhlizdən gələn bağırtı qəfil kəsildi. Monitorda iki nəzarətçinin huşunu itirmiş dustağı pilləkənlərlə sürükləyə-sürükləyə apardığı görünürdü...

***

Son vaxtlar Kənanın sağlamlığında ciddi problemlər yaranmışdı; baş gicəllənməsi, təngnəfəslik, ürək bulanmaları olurdu, döş qəfəsində xəncər yarasına bənzər ağrılar peyda olur, kürəyinə, çiyninə, sol qoluna vururdu; bir neçə dəfə işdə soyuq tər basmışdı. Hələ uşaqlıqdan iynədən çox qorxurdu deyə, hər dəfə bir bəhanə tapıb həkimə getməkdən yayınırdı. Amma sonuncu dəfə mətbəxdə oturub söhbət etdikləri yerdə huşunu itirməsindən sonra Lalə təcili yardım çağırmış və onu az qala güclə xəstəxanaya aparmışdılar. Tanınmış həkim müayinələrin nəticələri ilə tanış olduqdan sonra “Xəstəliyin başını buraxmısan, cavan oğlan, ürəklə zarafat etmək olmaz!” deyə başını yellədib, həyat tərzini dəyişməsə onu itirə biləcəyi barədə ciddi-ciddi xəbərdar edəndə lap qorxuya düşmüşdü. Belə tezliklə ölmək Kənanın planlarında heç yox idi. Həkimin və Lalənin təkidli etirazlarına baxmayaraq xəstəxanada bir həftədən artıq qalmadı. Amma oranı tərk edəndə hər ikisinə söz verdi ki, yazılan dava-dərmanı vaxtında qəbul edəcək və həyat tərzini dəyişmək barədə tövsiyələrə ciddi əməl edəcək.

Siyahı isə yetərincə böyük idi: siqareti atmaq, içki içməmək, stresdən kənar olmaq, oturaq həyatdan imtina etmək, daha çox

təbiətin qoynunda və hərəkətdə olmaq, qida rasionundan ürəyi zəiflədə biləcək zərərli yeməkləri çıxarmaq, istirahətə daha çox vaxt ayırmaq, mümkün qədər tez-tez mühiti dəyişmək, şəhərdən kənara çıxmaq... Bunlar siyahının az bir hissəsi idi. Çox qısa zamanda anladı ki, bunları etmək sadəcə, imkanı xaricindədir: onda, gərək, biznesinin başını buraxaydı. Arvadı burax deyirdi:

"Bütün bu mal-dövlət canından artıq deyil, sən olmayandan sonra onlar bizim nəyimizə gərəkdi!"

Kənan illərini həsr etdiyi, min bir zəhmət və əziyyət hesabına qurduğu biznesinin başını buraxa bilməsə də, həkimin dediklərini mümkün qədər yerinə yetirməyə çalışırdı. Qida rasionuna əl gəzdirdi, böyük iradə hesabına və bir neçə uğursuz cəhddən sonra nəhayət, siqareti ata bildi. Dərmanları vaxtında qəbul edir, iynələri isə yaxın klinikalardan birində çalışan tibb bacısı gəlib ofisdə vururdu; evdə isə bu işi Lalə görürdü. Daha iynələrə öyrəşmişdi, arvadının sözü olmasın, "can şirin şeymiş". Edə bilmədiyi bir neçə şey vardısa, onlardan biri stresdən uzaq durmaq, o biri isə tez-tez təbiət qoynunda olmaqdı.

Bu arada Muradın yay tətilləri başlamışdı. Uşaq yayın gəlməsini həm də ona görə səbirsizliklə gözləyirdi ki, atası ailəlikcə kəndə gedəcəklərinə söz vermişdi. Kənd havası tez-tez xəstələnən uşağa düşürdü deyə, ailə imkan düşdükcə hər yay ya Kənanın şimalda yaşayan dədə-baba yurdunda, ya da Lalənin cənubda yaşayan ata-anasıgildə beş-on günlüyə qonaq olurdu.

Muradın tətilə çıxması atasına həkimin daha bir tövsiyəsini yerinə yetirmək üçün fürsət verdi; işlərinin çoxluğuna baxmayaraq, Kənan onu əldən verməmək qərarına gəldi. Son bir ildə yaşadıqlarının stresindən xilas olmaq, şəhərin səs-küyündən, toz-torpağından az müddətə də olsa qaçmaq üçün kənd ideal məkan idi; həm də ailəsi, xüsusən də, son vaxtlar çox az vaxt ayırdığı oğlu ilə bir yerdə olmaq istəyirdi.

Gözlənildiyi kimi, planını arvadı da, oğlu da sevinclə qarşıladılar. Lalə dərhal kəndə, evlərinə zəng açdı. Atası vaxtilə kolxoz sədri işləmişdi; elə o vaxtlardan özünə yaxşı baxırdı, yaşı

yetmişi haqlasa da, canı sulu idi, bir yeri ağrıyan kimi tez həkimə qaçırdı. Fövqəladə bir şey baş verməsə, hər il yayda, özü demişkən,  arvadını da qoltuğuna vurub sanatoriyalardan birinə yollanırdı. Pensiyası babat idi, həm də təsərrüfatla məşğul olurdu deyə, qazancı iki nəfərlik ailəyə artıqlaması ilə yetirdi; hələ üstəlik, arada qızına pay-puş da göndərirdi. Bu il də qonşu ölkələrdən birinə istirahətə getməyi planlayırdılar, amma ev-eşiyi başlı-başına qoya da bilmirdilər. Qocalar evdə müvəqqəti qalmaq üçün münasib adam axtarışında ikən Lalənin bu zəngi lap yerinə düşdü.

Vaxtı vədələşdilər...

***

Sarı özünə gəlib ayılanda ağrıdan inildədi. Ətraf zülmət qaranlıq idi. Heç nə görmürdü. Hər iki əli biləklərindən yuxarı doğru zəncirlənmişdi. Zəncirlər tavan tərəfdə nəyəsə bərkidilmişdi, xeyli baxsa da, nə olduğunu görə bilmədi. Dartınmadan və sürtünmədən biləklər qançır-qançır olmuşdular, yerləri bərk ağrıyırdı.

Harada olmasını, nə baş verdiyini dərhal xatırlaya bilmədi. Ağız-burnu, dodaqları göynəyirdi. Burnundan axan qan partlamış üst dodağının qanına qarışıb laxtalanmışdı. Yaddaşı qayıdınca və baş verənləri xatırladıqca yumruq-təpikləri təzədən canında hiss edirmiş kimi qıvrıldı...

Lüm-lüt idi. Hansı paltar geydiyini xatırlamağa çalışdı. Bunun indi heç bir mənası olmadığını düşünüb özünü çox da yormadı. Çiyinləri ilə ehtiyatla sifətinin qanını təmizləmək istədi, amma ağrıdan bu işi də yarımçıq qoydu. Ağzının içinə dolmuş qanla tüpürcəyin qarışığı olan qurumuş maye kütləsini dili ilə hərəkətə gətirib bir neçə cəhddən sonra ondan xilas ola bildi.

Mədəsi bərk sancırdı. "Yəqin, aclıqdandı", - düşündü; iki gün idi, ağzına nəsə dəymirdi. İndi həm də fərqinə vardı ki, üşüyür. Hava soyuq olmasa da, betonun soyuğu yalın ayaqla-

rından canına işləyirdi. Baldırları, ayaqlarının altı bərk ağrıyırdı; dünən nəzarətçilər onu rəisin otağından çıxarıb dəhlizdə üzü üstə yerə yıxıb çırpanda Drakon adlı yekəpər nəzarətçi baldırlarının üstünə çıxmış, başqa biri isə dubinka ilə dabanının altına zərbələr endirmişdi.

Ağrılardan ufuldaya-ufuldaya keyimiş ayaqlarını əvvəlcə yerində, sonra sağa-sola, irəli-geri oynatmağa başladı; hərəkətlər ağrıları tərpətsə də, bədəni bir balaca isinmiş kimi oldu.

Gözləri yavaş-yavaş qaranlığa alışırdı. Partlamış qaşlarını bir neçə dəfə yuxarı-aşağı hərəkət etdirib gözlərini tam açdı və diqqətlə ətrafını gözdən keçirməyə başladı. Bir addım eni, addım yarım uzunu olan kiçik bir yerdi.

Qarşısındakı dəmir qapını gözü alınca ehtiyatla bir ayağını irəli uzadıb barmaqları ilə itələdi. Qapı tərpənmədi, böyük ehtimalla arxadan kilidlənmişdi. Sol tərəfində, beton döşəmənin bir küncündə əl boyda bir deşiyi çətinliklə ayırd edə bildi. Diqqətlə baxanda yerdə quraşdırılmış unitaz olduğunu anladı. Buranın tualet olduğu indi ona çatdı; görünür, burnunu laxtalanmış qan tutduğu üçün iyini hiss etməmişdi.

Özünə təsəlli verməyə çalışdı:

"Sakit ol, Sarı. İnsanlar bundan qat-qat çətin duruma düşürlər. Bir anlığa elə təsəvvür et ki, qəzaya düşmüsən. Xəstəxanada səni təmiz bir palatada yerləşdiriblər, böyür-başında da qulluğunda duran həkimlər, doğmaların. Dolabda da hər cür yeməklər, mer-meyvə, sular. Tualet-hamami də öz yerində. Amma başın yarılıb, sir-sifətin dağılıb, bir qolun sınıb, ayağının da biri amputasiya olunmalıdı. Nə yemək yeyə bilirsən, nə su içə. Burda kimsə yox, əlin-qolun zənçirdə, amma hər yerin salamatdı..."

Dedikləri ağlına batdı. Üzünü göyə tutdu:

"Şükür, bu günümə, ya Rəbb... Sən hər şeyin ən doğrusunu bilənsən... Sən ki, məni cənnətin göbəyindən çıxarıb yenidən bu cəhənnəmin içinə atmısansa, nəyisə bilib bunu etmisən. Mən qanmaza, mən nadana, mən heyvana bu da azdı!.."

Birdən ona elə gəldi ki, qaranlıqdan Tanrının ona zillənən

qəzəbli baxışlarını gördü. Başını tez aşağı saldı...

Həndəvərdə səs-səmir yox idi. Bir anlığa düşünəndə ki, dünya dağılıb və o, bu qapalı məkanda tək qalıb, dəhşətə gəldi.

- Kimsə var burda? - özündən asılı olmayaraq qışqırdı. Səsi ümidsiz və boğuq çıxdı; elə bil məzarda idi.

Dünəndən tualetə getmək imkanı olmamışdı. Ehtiyacları dözülə biləcək həddi keçmişdi, özü də, ikisi də birdən.

- Eyy, var burda kimsə? - Bu dəfə səsi daha hündürdən çıxdı. - Mənim təbii ehtiyaclarım var, eşidirsiz?! - Səs gəlmədiyini görüb qulağı batana qədər bağırdı: - Daha dözə bilmirəm, zəncirləri açın, tualetə getməliyəm! Eyyy!..

Yenə cavab gəlmədi. Unitaz lap yaxınlığında idi, bir neçə dəfə arxasını mümkün qədər onun dəliyinə yaxın tutmağa cəhd etdi, amma qollarındakı zəncirlər imkan vermirdi. Daha dözə bilmirdi. Başqa seçimi qalmırdı, ayaqlarını araladı və zəncirlərin imkan verdiyi həddə əyilərək çöməldi.

Bir-birinə qarışmış maye kütləsi ayaqlarına toxunanda bütün bədəni ürpəşdi. Çarəsiz halda gah bir, gah da o biri ayağını qaldırmaqla bu xoşagəlməz hissdən yaxa qurtarmağa çalışırdı. Bir neçə saniyə sonra ətrafı bürüyən üfunət qoxusu burun pərlərini tutmuş qan laxtalarını yarıb beyninə vurdu.

Boşalması ilə bədəni süst düşdü: başı hərlənir, ayaqları titrəyir, qolları daha sözünə qulaq asmırdı. Bir neçə saniyədən sonra zəncirlər ağırlığa davam gətirməyib aşağıya doğru gərildilər. Dustaq daha ağrını hiss etmirdi: o, özündə deyildi...

Üstünə çırpılan suya ayıldı. Ayılan kimi də, biləklərinin ağrısından inildədi. Gözlərinin açılmağı ilə yumulmağı bir oldu: qəfil gözünə düşən işıqdan sanki kor olacaqmış kimi tez də onları yumdu.

- Qalx ayağa!

Drakonun səsinə oxşayırdı; gözlərini ehtiyatla açdı, yanılmamışdı. Yanında dayanmış kiçik boylu, dolu bədənli bir dustaq indicə üstünə boşaltdığı vedrəni yerə qoydu; yanında ağzına qədər su ilə dolu daha birisi vardı.

- Buraları niyə sıçıb-batırmısan, əə, götüpoxlu, korsan, unitazı görmürsən?! - Drakon indicə qəbul etdiyi soyuq duşdan bütün bədəni titrəyən dustağın üstünə bozardı.

- U...u... unitaz uzaqdadı... - Əlləri ilə ayıb yerini örtməyə çalışan dustaq dili topuq vura-vura cavab verdi.

- Canına azzardı! Nəyi uzaqdı, əə, bir addımlığındadı da! - Üzünü yanında dayanıb irişən dustağa tutdu: - Şəkili, bunu tapşırıram sənə, pox-püsürünü yaxşıca yu təmizlə, rəisin yanına aparmalıyam. Bax haa, - ciddi-ciddi göstəriş verirmiş kimi əlavə etdi, - birdən çaşıb barmaq-zad eləyərsən, rəis ikimizə də paz çalar!

- Rəisin özünə də canım qurban, pazına da! - Dustaq yaltaq-yaltaq qımışdı.

Drakon gülə-gülə kameranın qapısına tərəf yön aldı. Çıxışda ayaq saxlayıb içəridəki danışığa qulaq verdi.

- Dalını çevir.

- Nə?

- Deyirəm dalını çevir!

- Yoox!

- Dalını çevir, əə, petka[3]. Mən hələ o günə qalmamışam ki, sənin poxlu dalına tamah salım!

Çırpılan suyun şappıltısı və şırıltısı, ardınca da dustağın çığırtısı ətrafa yayıldı...

Ertəsi gün Sarını rəisin otağına az qala sürüyə-sürüyə gətirdilər. Ayaq üstə dayana bilmirdi, yıxılmasın deyə, gətirənlər qoluna girmişdilər. Drakon da yanlarında dayanmışdı.

Onlar otağa girəndə rəisin diqqəti kompüterdə idi; başını qaldırıb qarşısındakı mənzərəni görcək sifətinə təəccüb verib oturduğu yerdə dikəldi.

- Nə olub, əə, buna, Drakon?

- Bilmirik rəis, - işçisi günahkar-günahkar çiyinlərini çəkdi, - dünən burdan çıxandan sonra sağ-salamat aparıb kamerasına ötürmüşük, səhər yoxlamasında nəzarətçi bu kökdə aşkarlayıb.

---

[3] Bu ifadə cinsi azlıqlara münasibətdə təhqir kimi işlədilir.

Nə qədər soruşduq, heç nə demədi.

- Nə olub, a bala, sənə? - Rəis bu dəfə dustağa üz tutdu; tanıyan, bilən olmasaydı, elə bilərdi canı yanır.

- Yıxılmışam, cənab polkovnik... - Sarı başını qaldırmadan cavab verdi.

Qoluna girənlərin sifətində təbəssüm peyda oldu, rəisin də ani dodağı qaçdı, amma tez də ciddi görkəminə qayıtdı.

- Ehtiyatlı ol, bala, biz sənə görə cavabdehik. - Təzədən işçilərə çevrildi: - Dustağa əziyyət verib bu halda niyə gətirmisiz bura, ay uşaq?

Drakon bic-bic gülümsündü.

- Özü bizdən xahiş elədi, rəis, dedi ki, sizə sözü var.

- Həə? - Rəis yenə dustağa çöndü: - Buyur, oğlum, nə sözün var de.

- Cənab polkovnik, mən hər şeyi başa düşmüşəm, siz nə desəniz, onu da etməyə hazıram. Mən... - Qəhər danışmağa imkan vermirdi. - Mən yıxılanda bərk əzilmişəm... həkimə ciddi ehtiyacım var... çox xahiş edirəm... - Əlləri ilə üzünü tutub gözlənilmədən hönkürməyə başladı.

Rəis, - həmin an sifətində peyda olan sevincdimi, ikrahdımı, təkəbbürdümü, nə idisə, ayırd etmək çətindi, - telefonu götürüb kimisə yığdı.

- Həmzəyev, indi ora bir nəfər gətirəcəklər, kamerada yıxılıb, bərk zədələnib. Qoy bir həftə qalsın yanında, amma yaxşı bax ha ona, nə müalicə lazımdısa da, elə. - Telefonu qoyub hələ də hıçqırtısı kəsilməyən dustağa üzünü tutdu: - Tapşırdım, indi səni aparacaqlar tibb məntəqəsinə. Müalicə alıb bir az özünə gələrsən, tapşıracam ordan da səni köçürsünlər ən yaxşı kameralardan birinə...

***

Kənangilin kəndə gəldiklərinin üçüncü günü idi. Buralarda gəzməli yerlər çox idi. Hər gün səfalı məkanlardan birinə - gah

dağın başına, gah meşəyə, gah da dənizə gedirdilər. Arvadı evdə bişir-düşürlə məğul olanda Kənan oğlunu götürüb balıq tutmağa, böyürtkan yığmağa, bazarlıq etməyə gedirdi. Onlar dost idilər və birgə olanda hər ikisi zövq alırdılar.

Lalənin uşaqlığı kənddə keçmişdi deyə, buranın iş-gücünü yaxşı bilirdi. Anası Qəmərin təndirdə bişirdiyi çörəyi kənddə qoxusundan tanıyırdılar. Atasının ovda vurub gətirdiyi quşların içini qoz, turşu, müxtəlif ədviyyatların qarışığı ilə doldurub təndirdə elə qızardardı ki, ləzzəti uzun müddət yeyənin damağından getməzdi. Qəmər nə tökmüşdüsə, qızı da onu yığmışdı; Lalənin hazırladığı yeməklərin dadı-tamı anasınkından geri qalmırdı. Təndirdə bişirdiyi çörəyin isə tayı-bərabəri yox idi; əri və oğlu qarpız və pendirlə, bəzən də yavan-yavan bəh-bəhlə dişlərinə çəkirdilər.

Kəndin camaatı kasıb idi, əkin-biçinlə birtəhər başını girləyirdi. Havaların isti keçməsi, yazda şum və əkin işlərinin başlanması ilə yurd-yuvasından didərgin düşən ilanların həyət-bacalara üz tutması çoxları üçün əlavə qayğı yaratmışdı. İndi hər yerdə - çayxanada, evdə, mağazada, çöllükdə əsas müzakirə mövzusu bu idi. Hər yerdə olduğu kimi buranın da adamlarının birinin üstünə beşini qoymaq şakəri vardı: ilan çalanların sayı ilə bağlı elə qorxunc rəqəmlər səsləndirilirdi ki, eşidənlər vahiməyə düşürdülər. Deyilənlərə beşi inanmayanda, üçü inanırdı.

Üzə vurmasalar da, Kənangildə də bu təhlükədən dolayı bir gərginlik yaşanırdı. İki gün öncə qonşuluqda həyətdə oynayan iki yaşlı qızı ilan çalmışdı. Uşaq doğmalarının gözü qarşısında yarım saatın içində əldən getdi; xəstəxanaya çatdırılana qədər maşında anasının qucağında keçinmişdi. Gənc qadının naləsi hələ də qulaqlardaydı.

Ailə sübh yeməyinə əyləşmişdi.

- Bazarda yarpız az qala qızıl qiymətinə qalxıb, kimin imkanı varsa, həyətini hər tərəfdən yarpızla çəpərləyib, - nəhayət, narahatlığı ilk Lalə dilə gətirdi.

- Mağazada isə danışırdılar ki, Hacı Mehrəm İrandan bir yekə maşın ilanotu sifariş verib, iki-üç günə gəlib çıxasıdı. - Əri də söhbətə qatıldı. - Havayı paylayacaqlar kənd camaatına. Əvvəlcə şəhid ailələrinə, kasıb-kusuba verəcəklər, nə qalsa başqalarına. Deyilənə görə, həmin otu həyətin dörd tərəfinə səpəndə ilanlar yaxın gəlmir.

Lalə ərinin bunları ciddi ya zarafatla dediyini ayırd edə bilmədi.

- Ciddisən? Otun adında ilan sözü varsa, ilanın həmin ona yaxın düşməyəcəyi ancaq bizim molla-mullanın ağlına gələ bilər... - Axır ki, mətləbə keçdi. - Bu qonşu Fəxrəndə var ha, onun səsi adamın başına düşürdü, uşaqlarını evdən çölə buraxmırdı, ilan sözünü eşidən kimi çığır-bağır salırdı ki, onun adını tutmayın, adını çəkəndə evə gəlir. Srağagün əri bazardan kirpi alıb gətirib. Onun hesabına indi həyət-bacada rahat gəzirlər, uşaqların bir-birilərini qorxutmaq üçün hər iki dəqiqədən bir ilan deyib qışqırmaları da daha analarının vecinə deyil. Bəlkə sən də gedib alasan, həə?

Arvadın sözü ərin ağlına batdı. İlanın birinci düşməninin kirpi olduğunu bilirdi. Dünən ət üçün bazara gedəndə bir yerdə kirpi satıldığını, o ətrafda xeyli adam toplaşdığını da görmüşdü...

Bazar günü olduğu üçün bazar da tünlük idi. Kirpi satılan yerdə yenə xeyli adam heyvanların başına yığışmışdı. Kənan dünən qəfəsdə iyirmisini saymışdı, bu gün səkkizi qalmışdı. Daha ikisini gözünün qabağındaca alıb apardılar.

Kirpilərin axşam həyatı sürüb gündüzlər yuxuya getdiklərini eşitmişdi. Amma bunlar oyaq idilər; görünür, bu qədər adamın gözü önündə və hay-küydə yatmaq asan deyildi. Həm də, mühitə alışmış kimi görünür, dünənkindən fərqli olaraq, bu gün özlərini daha rahat hiss edirdilər: qəfəs boyunca var-gəl edəni, qarşılarına tökülən mer-meyvəni, xırda ət tikələrini iştahla yeyəni, onlara uzadılan çubuqlardan yığılıb-açılanı...

Satıcı işini yaxşı bilənlərdən idi, potensial alıcını uzaqdan

duya bilirdi. Əksər ticarət adamlarında olduğu kimi bunun da yaxşıca basıb-bağlamağı vardı. Elə maraqlı danışırdı ki, diqqət verməyə bilmirdin.

Gözü Kənanı dərhal tutdu; daha canfəşanlıq etməyə başladı:

- Camaat, bilin, ilanın qorxduğu yeganə canlı varsa da, o da kirpidi. Bunlar olan həyətə heç vaxt ilan yaxın durmaz. Dursa, başı gedər. Özü də heç fərq etməz hansı növ ilandı, istər qızılı olsun, istər gürzəsi, hətta lap elə kobrası. Bu gördükləriniz elə-belələrindən deyil ha, ilanlara qarşı xüsusi təlim keçmiş kirpilərdi... - Gülüşmədən barıtın çox olduğunu özü də hiss etdi, gülümsəyə-gülümsəyə üzünü Kənana çevirdi: - Deyəsən, almaq fikrin var, bacioğlu. Yəqin ilana görə istəyirsən.

- Nə bildiniz? - Kənan təəccüblə gülümsündü.

- Kirpiyə necə baxmağından bilinir, - satıcı da eyni təbəssümlə cavab verdi, - bir də ki, kənd yerində kirpi özgə kimin nəyinə gərəkdi. Camaat qarnına yeməyə çörək tapmır, alan ilana görə alır... - Əlini uzadıb barmağı ilə qəfəsin küncündə sakit oturmuş kirpini göstərdi. - Onu görürsən, əla kirpidi! Əsl ovçudu, bir gecədə dörd-beş ilan boğan vaxtları olub. Onun adı gələndə bu zonadakı bütün ilanlar tük tökürlər, o olan yerə qorxudan heç biri həyət-bacaya yaxın düşməz...

Ətrafdan yenidən gülüş qopunca barıtı yenə çox etdiyini anlayıb gülümsünə-gülümsünə:

- Bir sözlə, məsləhətli maldı, qardaşoğlu, alsan, peşman olmazsan! - dedi.

Bir dəqiqənin içində onu gah özünə bacıoğlu, gah da qardaşoğlu edən tacirin ərkyana və şirin danışığı Kənana xoş gəldi, qiymətdə razılaşıb kirpini götürdü.

Murad atasını qapıda əlidolu görcək sevincək ona tərəf götürüldü. Heyvanlara aşırı sevgisinə və onları sığallamaq kimi mərəzinə bələd olan ata oğlunu uzaqdan təbəssümlə qarşıladı.

- Murad, bax ha, bu sənin üçün it-pişik, ya da toyuq-cücə deyil ki, qucağına alıb sığallayasan. Bunun üstündəkilər ki var, tikandı, özü də ən müxtəlif virusların, o cümlədən vərəm çöplərinin

daşıyıcılarıdı... - Vərəm sözünü eşidəndə uşağın üstündə əsən arvadının narahat baxışlarını hiss edib sözlərini malaladı: - Belədə, toxunmasan, heç bir təhlükəsi yoxdu...

- Sağ ol ki, üstündəkilərin tikan olduğunu anlatdın, yoxsa mən elə bilirdim, xəzdi. - Muradın böyüklərlə bu cür atmacalı danışmağı vardı. - Bu heyvan barədə mən səndən çox bilirəm, a kişi. Özünüzü yaxşı aparsanız və məni tez-tez gəzməyə çıxarsanız, hətta biliklərimi sizinlə bölüşməyə də hazıram.

- Atanın da adından söz verirəm ki, özümüzü yaxşı aparacıq, oğul. Danış, qoy atan da savadını artırsın, - Lalə oğlunun atmacasına atmaca ilə cavab verdi.

Gülüşdülər.

Murad nitqinə keçməzdən boğazını bərkdən arıtladı. Bununla onun, heç sevmədiyi və az qala hər cümləsini boğazını arıtlamaqla başlayan özündənrazı məktəb direktoruna lağ etdiyini bilən valideynlərin yenə dodaqları qaçdı.

- Hə, dostlar, - nəhayət, Murad çıxışına başladı, - qarşınızdakı bu kirpi var ha, məməlilər növünə aiddi, adi latın sözündən götürülmədi, mənası tikanlı sədd deməkdi. Ağaca çıxa, üzə bilir, gecə həyat tərzi sürür və noyabrdan başlayaraq marta qədər qış yuxusuna gedir, on ilə qədər ömür sürür. İlan zəhərinə qarşı davamlıdı, ildə bir dəfə hər üç tikanından birini dəyişir. Cavanların üç min, yetkin olanların isə beş-altı min tikanı olur...

Ana, atası kimi əl-qolunu ölçə-ölçə danışan oğlunun aydın və rəvan nitqinə qulaq asa-asa "Oğlum, inşallah, prezident olacaq!" - beynindən keçirdi. Qəfil ağlına gələn fikirdən əndişələndi, kənar qulaqların eşidə biləcəyindən narahat olub özü də hiss etmədən o tərəf-bu tərəfə baxdı. Qorxaqlığına görə ürəyində özü özünə lağ edib güldü.

Ata isə oğlunun siyasətlə maraqlanmağını çoxdan hiss etmişdi. Evlərində yaxın dostları toplaşanda, - aralarında hər peşə sahibləri vardı: biznesmen, jurnalist, siyasətçi, müəllim, həkim, fəhlə..., - söhbətin bir ucu hökmən siyasətə gedib çıxırdı. Uşaq da istər-istəməz bu müzakirələrə qulaq olurdu. Bir dəfə

axşam evə gələndə Murad ona qəribə bir sual vermişdi: "Ata, prezidentlə padşahın fərqi nədədi?". Gülümsəyərək əvvəlcə "Baxır harda və kimdən söhbət gedir", - demişdi; o, hər şeylə maraqlanan Muradın bu sualı təsadüfdən vermədiyini və ondan hansı səpkili izah eşitmək istədiyini təxmin edirdi, cavabı da gözləntiyə adekvat olmuşdu. Amma uşağın təəccüb və maraq dolu baxışları qarşısında sonradan dəbbələmişdi: o, oğlunu indidən bu cür söhbətlərə qatmaq istəmirdi. Görünür, uşaq bunu hiss etmiş, bic-bic gülümsünüb dərinə getməmişdi. Kartotekasında tanınmış siyasətçilər, diplomatlar, dövlət adamları barədə xeyli film və kitab toplamış Muradın ən çox sevdiyi siyasətçilər Lüter Kinqlə Nelson Mandella idi. Bir dəfə söhbətlərində "Siyasətçi ya ölməlidi ya da həbsdə olmalıdı", - deməsindən çox narahat olsa da, "uşaqdı, keçib gedər" deyə hər zaman düşüncə və seçim azadlığı verilmiş oğlunun üzərinə getməmişdi...

Murad isə danışdıqca, xüsusilə də, auditoriyanın aşırı marağını görüncə daha da ilhamlanırdı.

- Otuz altı dişi olur, yuxarı çənədə iyirmisi, aşağıda on altısı. Güclü iybilmə və eşitmə qabiliyyəti var, amma zəif görür. Tək yaşamağa üstünlük verir, amma çalışır ki, digərləri ilə yaxın yerdə məskunlaşsın. Hamiləliyi qırx doqquz gün davam edir və dördə yaxın bala verir, körpələr gözüyumulu dünyaya gəlirlər və tikanları iti olmur. Ət, soxulcan, quş, yumurtanı çox sevirlər, meyvə və tərəvəzi də unutmurlar. Çünki adamlardan fərqli olaraq sağlamlıqlarının qədrini bilirlər...

Bunu elə ciddi-ciddi söylədi ki, Kənan zarafatla ya tam ciddi deyildiyini ayırd edə bilmədi. Amma xatırlayanda ki, onun da uşaq vaxtı böyüklərlə bu cür məzə tutmağı vardı, dodaqları qaçdı; oğlu özünə oxşayırdı və bununla fəxr edirdi.

- İynələrinə siqaret parçalarını keçirməyi sevirlər, - Murad öyrəndiklərini üyütməkdə həvəslə davam edirdi, - elm hələ ki, niyə belə davrandıqlarını aydınlaşdıra bilməsə də, bunu parazitlərdən qorunmaq üçün etdikləri güman edilir. - Üzünü atasına tutdu. - Heyif siqareti atmısan, yoxsa arvadının qorxusu ol-

madan siqaret kötüklərini hara gəldi tullaya bilərdin, - anasına göz vurdu, - kirpimiz də onları yığışdırardı.

Ərlə arvad gülüşdülər.

- Daha nə öyrənmisən, oğul? - Anaya maraq güc gəlmişdi.

- Yuxuda kirpi görsəniz, bilin ki, uğur sizi gözləyir. Amma əlinizə götürməyin, haa... - Fasilə verdi, bunu bilərəkdən edirdi; doğmalarının təəccüb və maraqdan qaşlarını eyni vaxtda qaldırıb səbirsizliklə nə deyəcəyini gözləmələrindən zövq alırdı.

Ata bunu bilirdi:

- Yaxşı da, ay diplomat, fəndgirlik eləmə, de görək niyə?

- Bu pis insanla əlaqəyə işarədi. Ən pisi də, ailədaxili mübahisələr ola bilər. - Ciddi-ciddi cavab verib yenə ara verdi, ardınca bic-bic əvvəl anasına, sonra atasına baxdı. – Fikir vermişəm, siz də axır vaxtlar tez-tez dalaşırsız, yuxuda təsadüfən əlinizə kirpi almamısız ki?

Ərlə arvad yenə gülüşdülər, Muradsa məmnun idi.

- Yuxuda adamı kirpi tikanı sancsa, - davam etdi, - bu, o deməkdi ki, yaxın çevrənizdə sizə tələ quran birisi var.

- Bunları sənə dərsdəmi öyrədiblər, oğul? - Ata təəccübünü gizlədə bilmədi.

- İnternetdə baxmışam, - oğul bic-bic qımışdı, - dərsdə adama ancaq axmaq-axmaq şeylər öyrədirlər.

Kənan bu daşın "Ay bala, dərsini oxu!" deyə uşağa gün verib işıq verməyən arvadının bostanına atıldığını tutmamış deyildi. "Heyif bizim vaxtımızda internet olmayıb, nə qədər geri düşmüşük", - bir az da təəssüfləndi. "Yaxşı ki, olmayıb. Yoxsa bu uşaqlar kimi futbolu həyətdə yox, kompüterdə oynayardıq, gizlənpaç əvəzinə oyun zallarında əlimizdə tapança adam öldürməkdən zövq alardıq. İndiki uşaqlar o səs-küyün, saçyolduların, torpaqda süpürləşmələrin, küsüb-barışmaların, şirin-şirin söhbətlərin ləzzətini heç vaxt bilməyəcək", - həm də, o günlər üçün bir balaca darıxdı...

Murad internetdən kirpi yuvasının şəklini tapıb gətirdi. Ata ilə bala xeyli əlləşib həyətdəki taxtalardan evin yeni sakininə

qəşəng bir yuva düzəltdilər. Kənan işləyə-işləyə hərdən gizlicə oğluna göz qoyurdu. Onun insanlara, təbiətə, heyvanlara sevgisindən məmnun olmaya bilmirdi.

Yuva hazır olandan sonra kirpini ora qoyub yeməyə yollandılar. Murad arada yuvaya baş çəkirdi; ovçu yeni mənzilində mışılmışıl yatmağında idi. Axşam tərəfi növbəyi başçəkmədə onu yuvasında görmədi.

Həyətdə qoruyucunun olmasından evdəkilər xeyli ürəklənmişdilər, rahat çölə-bacaya çıxa bilirdilər. Amma eyni zamanda, hər kəsin bir gözləntisi vardı...

***

Sarı üç gün idi ki, təcridxananın tibb məntəqəsində müalicə alırdı. Palatalarda adətən beş-on xəstə olurdu. Əksəriyyəti imkanlı dustaqlardı və aralarında hər cürü vardı: nazir, biznesmen, deputat, zavod direktoru, general... Çoxunun xüsusi müalicəyə ehtiyacı olan bir xəstəliyi də yox idi, şəraiti daha yaxşı olduğuna görə, aylıq haqqını verib burada qalırdılar.

Burada olduğu müddətdə həkimlərdən başqa kimsə ilə ünsiyyətə girməmək tapşırığını almışdı və çalışırdı ki, ona riayət etsin; belə yerlərdə çuğulluğun geniş yayıldığını artıq bilirdi. Oxumaq üçün kitabxanadan kitab sifariş verməsinə də icazə verilmişdi; buranın zəngin kitabxanası vardı, amma hər dustağın ona çıxışı yoxdu, yalnız özlərini "yaxşı aparanların" bu imtiyazı tanınırdı.

Gününü əsasən mütaliə ilə keçirirdi, şəraitindən də, münasibətdən də çox razı idi: həbsdə olduğu ilk günlər yaşadıqlarının müqabilində bura ona cənnət kimi görünürdü. Hər gün yaralarına dərman qoyulur, iynə vurulur, digər tibbi prosedurlardan keçirdi. Drakon tez-tez yanına gəlib-gedirdi və onunla elə davranırdı ki, sanki bir neçə gün öncə təpiyinin altına salıb əzişdirən bu deyildi. Hərdən yanına mülki geyimli bir nəfər gəlir, qapını arxadan bağlayır və söhbətləri iki-üç saatdan az çəkmirdi.

...Tibb məntəqəsində olduğu beşinci gün Drakon yanına gəlib görüşə getmək üçün hazırlaşmağı tapşırdı. Kiminlə görüşəcəyini demədi. İlk ağlına gələn anası oldu.

Güzgüdə özünə baxdı; gözünün altındakı qaraltılar hələ tam çəkilməmiş, tikiş qoyulan partlamış qaşının sapları da üstündə idi. Anasının onu bu kökdə görməsini heç istəməzdi, həkim isə tikişləri sökməyi sabaha söz vermişdi. Amma getməyə bilməzdi, həm də anası, doğmaları üçün çox darıxmışdı...

Drakon onu otağa ötürüb özü çıxdı.

Çox həyəcanlı idi, anasının qarşısında özünü çox günahkar sayırdı. Ölkəni tərk edəndən sonra arvad bərk xəstələnmişdi, o, isə Almaniyada olduğu səkkiz ayda ona cəmi iki dəfə zəng açmışdı. Müalicə üçün pula ehtiyacı olduğunu bilə-bilə və imkanı ola-ola anasına yardım etməmiş, satdığı inəyin pulunu tezliklə qaytaracağı barədə verdiyi sözü tutmamışdı. Bunlara görə çox xəcalət çəkirdi...

İçəri girən adamları görcək özünü itirdi. Əmisi, bibisi və xalası qızı idi.

Qapının ağzında dayanan Drakonun qulağı içəridə idi. Çox az keçmiş otaqdan hay-küy səsləri eşidilməyə başladı. "O uşağı sənə görə tutdular!", "Almaniyada şirə-aslana dönmüşdün, hardadı o dilin?!", "Sənə görə başımız nə bəlalar çəkdi, gözündən gəlsin sənə etdiyimiz yaxşılıqlar!".

Drakon bir-birinə qarışmış nalə, söyüş, təhqir səslərinə qulaq asa-asa ürəyində gülürdü. Gur kişi səsinin "Tfu, sənin sifətinə, qancığın oğlu!" deməyi ilə eyni vaxtda açılan şillənin səsindən az qala otaq titrədi, ardınca qopan hay-küyə nəzarətçi özünü içəri atdı və üz-gözü qana bulaşmış dustağı qohumlarının əlindən çətinliklə ala bildi.

Tibb məntəqəsində əlavə üç gün də qalmalı oldu. Sağ gözünün altı qaralmışdı, sifəti cırmaq-cırmaq idi, sol qaşına isə yenidən tikiş qoyası oldular...

***

İki həftəyə yaxın idi ki, bayırda Sarıdan xəbər yox idi. Onu Azərbaycana təhvil verdiyinə görə Almaniya hökumətini tənqid edənlərin sayının kənarda artmasına baxmayaraq, öz ölkəsində həm özünə, həm də ətrafında baş verənlərə münasibət birmənalı deyildi. Amma həbsini hökumət əleyhinə çıxışlarına bağlayıb adının siyasi məhbusların siyahısına salınmasını tələb edənlər az deyildi. Buna isə özünün də razılığı tələb olunurdu.

Yerli hüquq-müdafiə təşkilatları siyasi işlərdə ixtisaslaşmış tanınmış bir vəkili müdafiəsinə cəlb etsələr də, o, hələ də görüşə icazə ala bilməmişdi. Sosial şəbəkələrdə onun ağır işgəncələrə məruz qalması barədə xəbərlər yayılırdı ki, bunlar toplumda narahatlıq doğururdu: adamları həbs etdikdən sonra uzun müddət barələrində məlumat gizli saxlanırdısa, vəkili, yaxınları görüşünə buraxılmırdısa, telefona çıxarılmırdısa, bir qayda olaraq, ortada işgəncə faktoru olurdu.

Anasını da Sarı ilə görüşə buraxmamışdılar. Qadın xəstə-xəstə iki dəfə durub o qədər yolu rayondan Bakıya gəlsə də, hər dəfə "oğlunuz heç kimlə görüşmək istəmir", - deyib geri qaytarmışdılar. Bir ara məlumat yayıldı ki, bəzi qohumlarına, görüş verilib, - əmisinin və daha iki yaxın qohumunun adı hallanırdı, - amma qohumlar bu faktı dandılar...

Sarının tibb məntəqəsində olduğu sonuncu gün yanına həmin mülki geyimli şəxs gəldi. Bağlı qapı arxasında iki saatdan çox davam edən görüşün ardınca onu vəkillə görüşə çağırdılar.

Vəkil orta yaşlı, qara saçları olan yaraşıqlı birisi idi. Şux geyinmişdi, bahalı odekalonin iyi adamı uzaqdan vururdu. Üzü tanış gəldi, amma heç cür yadına sala bilmədi; türmə adamın yaddaşını da sıradan çıxarırdı.

Vəkil cibindən çıxardığı təzə Marlboro qutusunun ağzını açıb əvvəlcə dustağa uzatdı:

- Yəqin siqaret çəkənsən, götür, təmiz maldı, Almaniyadan gəlib. Mən ancaq bundan çəkirəm...

Vəkilin "Almaniya" ifadəsini sözgəlişi ya məqsədli işlətməsi barədə sualın yaratdığı qısa tərəddüddən sonra dustaq əlini qutuya tərəf uzatdı. Almaniyaya köçəndən ancaq Marlboro çəkirdi; axırıncı dəfə, deport olunduğu gün oranın aeroportunda ağzına dəydiyi idi.

Vəkil cibindən çıxardığı qara rəngli alışqanla hər ikisinin siqaretini yandırdı. Tüstünü də gah ağzından, gah da burnundan buraxa-buraxa onun müdafiəsini üzərinə götürməyi dostlardan birinin xahiş etdiyini söylədi, ardınca da etirazının olub-olmadığını soruşdu. Qarşısındakı adamın "dostlardan biri" deyəndə kimi nəzərdə tutduğunu Sarı bilmirdi, maraqlı gəlsə də, kimliyini də soruşmadı - indiki halda bunun heç bir mənası yox idi. Gülümsünərək etirazının olmadığını bildirib təşəkkür etdi.

Bu vaxt Sarını qapının ağzında qarşılayan, kobud formada göstərişlər verə-verə üzərində axtarış aparan Sərxan adlı nəzarətçi başını qapıdan içəri salıb sifətində yaltaq təbəssümlə:

- Müəllim, çay göndərimmi? - soruşdu.

- Göndər, qardaş, özü də yanında zoğal mürəbbəsi olsun, deyəsən soyuqlamışam. Qapı örtülmüşdü ki, arxasınca səsləndi: - Sərxan, iki dənə də Snikers qoy böyrünə...

- Mənim xətrimi hamısı çox istəyir burda. Narahat olma, səni də tapşıracam hamısına. Özüm də çalışacam ki, burdan tez çıxasan. Amma sən də çalış müdiriyyətlə yaxşı münasibətdə olasan. - Sifətinə ciddi görkəm verib dustağa tərəf əyildi. - Bura elə yerdi ki, adamı... özün başa düşürsən də... heç kim də bilməz nədən oldu...

Bu vaxt qapı açıldı, qara köynəkli gənc yaşlarında bir dustaq əlində məcməyi içəri girdi. İri çayniki, armudu stəkanları, mürəbbəni və qənddanda bahalı konfetlər və üstündə də iki Snikers olan qənddanı masanın üzərinə qoydu. Vəkil qara rəngli portmanatını çıxarıb, - Sarı ilk dəfə fikir verdi ki, adamın pencəyi, ayaqqabısı, qalstuku, hətta qolbağı qarışıq saatı da qara rəngdədir, - oradan bir onluq çıxarıb dustağa uzatdı:

- Bunu Sərxana verərsən, - ardınca pulqabısını eşələyib topa

pulların arasından tapdığı manatlığı dustağın cibinə saldı, - bu da sənin.

Dustaq minnətdarlıq edib çıxdıqdan sonra təzəcə söhbətə başlamışdılar ki, qapı yenidən açıldı.

- Dəyərli vəkilimiz, icazə olar?

Arxası qapıya tərəf olan vəkil səsi eşitcək çevrildi, üzündə təbəssüm ayağa qalxıb gələnə tərəf getdi, qucaqlaşıb öpüşdülər.

- Bu tərəfdən keçirdim, işçilərim dedilər ki, burdasız, dedim gəlim həm hal-əhval tutum, həm də bu günkü müsahibənizə görə təşəkkür edim. Əla yazıdı, məhv etmisiz bu qaraguruhu...

Bu sözləri deyəndə gözücu ayaq üstə durmuş dustağa tərəf baxdı. Sarı bu adamı bircə dəfə, tibb məntəqəsində görmüşdü. Kimliyini oradakı həkimlərdən birindən soruşanda "rəis müavini Qədir müəllim" cavabını verib, astadan "burda rəisdən çox, ondan qorxurlar" deyə əlavə etmişdi. Bunları xatırlayınca narahat-narahat yerində qurcalandı.

Rəis müavini isə dilxoşluğunda idi.

- Elə bilərsən tərif üçün deyirəm. Bilirsən ki, məndə yaltaqlıq deyilən şey yoxdu. Yaxşı cavablarını vermisən həm burdakı və ordakı nökərlərin, həm də ağalarının...

Sarıya elə gəldi ki, rəis müavini bu sözləri deyəndə həm də onu nəzərdə tutur, baxışları toqquşmasın deyə tez başını endirdi.

Vəkilin sifətindən məmnunluq yağırdı.

- Təşəkkür edirəm, Qədir müəllim, elə bir şey deyil, borcumuzdu...

- Bizim də borcumuz sizin kimi yaxşı oğlanların qulluğunda durmaqdı. Bura yolunuz düşəndə bir biz tərəfə də təşrif buyurun, həm sizi çaya qonaq edim, həm də rahat söhbətləşək. Sizin kimi insanlarla ünsiyyətdə olmağın özü də elə ibadətə bərabərdi... Yaxşı, mane olmayım, işinizdə olun, mənim də namazımın vaxtıdı...

Rəis müavini çıxanda vəkil Marlboro qutusundan bir siqaret çıxarıb alışdırdı.

- Çox dəyərli adamdı, mənimlə də yaxın dostdu. - Qutunu dustağa uzatdı. - Bunu da qoy cibinə. Mən də dustaq olmuşam, türmədə Malboronun ayrı ləzzəti olur.

Sarı ikili hiss keçirirdi, bir tərəfdən bu adamın onunla özünü belə sadə aparmasından, diqqətindən duyğulanmışdı, o biri tərəfdən isə, içində səbəbini özü də bilmədiyi bir narahatlıq vardı. Amma başqa seçimi də yox idi...

Vəkil ona sualları olduğunu deyib qara üzlü bloknotunu qarşısına qoydu, cibindən qələmini çıxaranda dustaq şoka düşdü: perosu qızıl suyuna çəkilmiş, par-par parıldayan bu mürəkkəbli qələmin rəngi də qara idi.

Öncə vəkil burada olduğu müddətdə ona işgəncə verilib-verilmədiyini soruşdu. Belə bir şeyin olmadığını söylədi.

Hüquq-müdafiə təşkilatlarının ona vəkil tutduğunu, həmin adamın da onunla görüşmək istədiyi barədə deyilənlərə də cavabı belə oldu: vəkil kimi ancaq onu istəyir, başqa kimsənin yardımına ehtiyac duymur.

Adının siyasi məhbusların siyahısına salınması barədə bir sıra təşkilatların qərarına etiraz etdi: həbsində heç bir siyasi motiv görmürdü və qanunları pozduğu üçün tamamilə haqlı olaraq həbs olunmuşdu.

Onunla görüşə gələn anasına təcridxana rəhbərliyinin qanunsuz imtina cavabı verdiyi barədə iddiaların da yalan olduğunu, görüşü özü istəmədiyini, həmçinin əmisi, bibisi və xalası qızı ilə gizli görüşünün təşkil olunması və orada təzyiqə məruz qalması barədə gəzən söz-söhbətin də həqiqət olmadığını, həmin şəxsləri iki ilə yaxındır görmədiyini söylədi.

Vəkil indi söylədiklərini kağıza köçürməsi üçün çantasından ağ vərəq çıxarıb qarşısına qoyanda ürəyində istehza ilə gülümsündü: "Şükür ki, heç olmasa kağızı qara rəngdə deyil!"

Vəkil onun yazdığı kağızı götürüb getməyə hazırlaşanda nəhayət, özünü təqdim etdi. Sarı bilmədi ki, sevinsin ya kədərlənsin: bir tərəfdən, bu adamın pis reputasiyası vardı, bu işə qatılması da böyük ehtimalla öz təşəbbüsü ilə bağlı deyildi. Amma

başqa tərəfdən də, Mahmud bir arzusunun reallaşmasında ona yardımçı ola bilərdi - o, azadlığa çıxmaq istəyirdi...

"Onlar məni təkidlə əclaf etmək istəyirlər. Burdan çıxmağın başqa yolu yoxdursa, olsun! Mən bunun kimi beş ilini yatıb sonra əclaflığa razı olacaq qədər axmaq deyiləm. Bu onların adamıdırsa, lap yaxşı, qoy gedib ağalarına çatdırsın ki, mən elə günü sabahdan əclaf olmağa hazıram. Amma azadlıqda!".

Mahmud çıxanda dustağa onun vəkili olmasını heç kəsə deməməyi məsləhət gördü:

"Bura elə yerdi ki, barəndə nə qədər az bilirlərsə, bir o qədər başın dinc olar".

"Görəsən, yenə nə hiyləsi var? - Ürəyində gülümsündü. - Olsun, heç kimə demərəm, işində ol!"

Elə həmin gün Sarının həbsdən öz xəttilə yazdığı məktubu, deyib-gülən yerdə şəkillərini, qısa görüntülərini hökumət mediası yayınladı...

***

Kirpinin həyətə gelişinin üçüncü günü idi. Heyvan bir qayda olaraq gündüzü yuvasında yuxuda keçirir, axşamlar ova çıxırdı. Adəti üzrə gün ərzində yuvaya bir neçə dəfə baş çəkən Murad günortaya yaxın kirpini orada görmədi.

Günortadan xeyli keçmişdi. Kənan kompüter arxasında durmadan keçirdiyi bir neçə saatdan sonra yorğunluğunu almaq üçün pəncərəyə yaxınlaşdı. Buradan ətrafı seyr etməkdən zövq alırdı. Kəndin təbiətini, havasını, qoxularını, hətta peyinin iyini də çox xoşlayırdı. Müxtəlif qoxuların dad qatdığı təmiz havanı ləzzətlə ciyərlərinə çəkdi. Kiçik göldə üzən ördəklərə xeyli tamaşa etdi. Sonra diqqətini gölün söyüd ağacları, kolluqlarla örtülmüş sahilində, hansı yollasa oralara gəlib çıxmış iri bir çay daşının üstündə oturmuş uşaq cəlb etdi; başında yekə həsir papaq, əlində tilovun uzun qarğısı vardı. On-on iki yaşı ola, ya olmazdı. Gözünü tilovun suyun üzündə lövbər salmış qırmızı şa-

rına zilləyib fikrə getmişdi. Kənan da gözünü ora dikib uşaqla birgə, ondan xəbərsiz, intizarla şarın nə vaxt hərəkətə gələcəyini gözləməyə başladı. Az keçmiş, şar tərpənməyə, suya batıb-çıxmağa başladı, balıqçı yerində dikəldi. Şar suya girib yoxa çıxanda uşaq tilovu elə sevinclə dartdı ki, o anda Kənanın ən böyük arzusu qarmaqda iri bir pullu balığı yellənən görməkdi. Tilovu boş görəndə, məyusluğunun həddi-hüdudu yox idi; uşaq kimi, o da pərt olmuşdu.

Uşaq əvvəlcə təəssüflə başını yırğaladı, sonra qalxıb topuğuna qədər çaya girdi, əlini qabağa uzadıb kimisə hədələyirmiş kimi şəhadət barmağını havada yellətməyə başladı. Sonra deyinə-deyinə geri qayıdıb konserv qabındakı soxulcanlardan birini götürüb ovcuna qoydu və o biri əlinin içi ilə bərkdən şilləməyə başladı; sanki qarmaqdakı soxulcanı götürüb aradan çıxmış balığın acığını bu soxulcandan çıxırdı. Şillələri hər dəfə ovcuna endirdikcə çıxan şappıltının səsindən öz sifəti də haldan-hala düşürdü. Sonra cansız bədəni qarmağa taxdı, ipi suya vızıldadıb yenidən gözünü qırmızı şara dikdi.

Kənan gülümsəyərək gözlərini ondan çəkib həyətdə gəzintiyə çıxdı. Nəzərini göl tərəfdə hasarın yanındakı çəmənlikdə bir qaraltı çəkdi. Diqqətlə baxdı, kirpi idi. Tikanlarını qabardıb nəyinsə ətrafında dövrə vururdu. Həmin nöqtəyə daha diqqətlə göz qoyanda diksinən kimi oldu: yekə bir ilan gah kirpi ilə qabaq-qabağa dayanır, gah da onun hərəkətinə uyğun o tərəfə-bu tərəfə çevrilir, tez-tez boynunu irəli uzadıb sürətlə də geri atırdı. Bu yolla hücuma keçdiyini, yoxsa müdafiə olunduğunu ayırd edə bilmədi. Amma kirpi daha çox hücum mövqeyində və daha çox hərəkətdə idi. Onun ilanın baş tərəfindən yapışmaq istəyini aydın görmək olurdu; özünü sancmalardan qorumaq üçün hərdən yumağa çevrilir, amma tez də açılıb yenidən hücuma keçirdi.

İçəridən, qonaq otağından döyüş səhnələrinin səsi gəlirdi; Murad Napolyonla bağlı filmə baxırdı. Kənan gözlərini bir anlığa səhnədən ayırıb yavaşdan oğluna səsləndi:

- Murad, o yalançı döyüşü boş ver, tez gəl bura, əsl savaş burdadı.

Uşaq bu cür qəribə çağırışın ancaq çoxdan gözlədiyi bir şeylə bağlı ola bilcəyini hiss edib qaça-qaça gəldi və atasının əlini uzatdığı istiqamətə diqqət kəsildi. Ata və oğul birlikdə nəfəs kəsən bu döyüşün necə sonlanacağını qorxu və həyəcan içində gözləməyə başladılar.

İlanın növbəti hücumu da uğursuz oldu, kirpi tikanlarını irəli verib zərbədən ustalıqla yayınmağı bacardı; ağzı tikana toxunan kimi ilanın başı dərhal geri atıldı və müdafiəyə çəkildi. Bu dəfə kirpi hücuma keçib rəqibinin başından yapışmaq istədi; ilan cəld tərpənib hücumdan yayındı və kirpinin irəli uzanmış, açıqda qalan sifətinə zərbə endirdi.

Ata bərkdən içini çəkib:

- Deyirlər kirpinin ilan zəhərinə immuniteti var, yəqin ona görə belə arxayındı hə, oğul? - gözünü döyüşdən çəkmədən oğlundan soruşdu.

- Hər ilanın yox. Gürzə olsaydı, işi çətin olardı. - Oğulun da bütün diqqəti ölüm-dirim savaşında idi. - Gürzə dünyanın ən zəhərli ilanlarından biri sayılır. Çalsa, kirpi çətin sağ qala...

Elə bu vaxt manevrləri ilə ilanı çaş-baş salmış kirpi anı tutub rəqibinin başını ağzına keçirdi. Bir metr uzunluğunda bədən nizamsız çırpınmağa başladı; quyruq sanki rəqs edirmiş kimi gah qalxır, gah enir, gah kirpiyə zərbələr endirib tikanlara dəyən kimi geri atılır, gah da xaotik şəkildə ətrafdakı kol-kosu qamçılayırdı. Quyruğun rəqsi beləcə, bir dəqiqəyə yaxın çəkdi. Ata ilə balaya elə gəlirdi ki, indicə ilan rəqibini böyrü üstə aşırıb caynağından qurtula biləcək, amma kirpi başdan bərk yapışmışdı və görünən o idi ki, buraxmaq fikri də yoxdur. Heyvan xeyli çırpınıb, nəhayət, tamam söndü. Kirpi başı ağzından buraxıb qalibanə görkəmdə ətrafa nəzər saldı.

Onun pəncərədən boylanan fanatlarına bir an elə gəldi ki, həmin baxışlar onlara zillənib və... ikisi də sevinc içində qışqırışa-qışqırışa və əllərini bir-birinə bərkdən şappıldada-şappılda-

da qalibi alqışlamağa başladılar. Kirpi minnətdarlıq edirmiş kimi başını bir neçə dəfə yellədib, şikarını da alıb kolluğa tərəf üz tutdu.

Ertəsi gün sübh tezdən Lalə çörək bişirmək üçün həyətin o başındakı təndirxanaya gedəndə ilan görüb qorxudan əsə-əsə evə qaçmışdı. Səs-küyə duran əri ilə oğlu birtəhər onu sakitləşdirib həmin yerə getdilər. Bu, kirpi tərəfindən basılmış həmin ilan idi, təndirin yaxınlığında atılıb qalmışdı; başı yerində olsa da, bədəninin quyruq tərəfdən bir hissəsi yox idi.

Kənan bel götürüb onu basdırmaq üçün həyətdə çala qazmaq istəyirdi ki, kənarda dayanıb ilanın ölüsünə belə baxmaqdan qorxan Lalə ərinə səsləndi:

- Atalar yəqin nəsə bilib deyiblər ki, ilna ulduz görməsə ölməz. Həm də onu deyirlər ki, ilanın yeddi qardaşı olur, birdən gəlib onu burda görsələr... Yeddi ilana bir kirpi neyləyəsidi ki! Sən öz canın, götür onu apar, kanal tərəflərdə bir yerdə basdır, xəta-bəlası qoy bizdən uzaq olsun.

- Ataların bu gic-gic sözləri olmaya da... - Kənan arvadının bu cür məsələlərdə inanclara bir xeyli meylli olduğunu bilirdi; ona görə, zarafat, lağlağı yolu ilə qorxunu canından çıxarmağa çalışırdı. Üzünü oğluna tutdu. - Murad, sən ananın qiymətli canı, get gör evdə balaca kisədən-zaddan nə tapa bilirsən, götür gəl.

- Onu neynirsən? - Lalə təəccüblə ərinə baxdı.

- İlanı əlimizdə aparası deyilik ki, birdən yolda qardaşları gördü! - Oğluna gizlicə göz vuran kişi ciddi-ciddi əlavə etdi: - Hə, bir də, hələ ulduz çıxmayıb, gərək ehtiyatlı olaq, ola bilsin ki, bu, hələ diridi.

Lalə qarışıq, üçü də gülüşdü.

Kanal yaxınlıqda yerləşirdi. Ata çalanı qaza-qaza bir gözü də ölü ilanın yanında əyləşib qüssə içində ona baxan oğlunda idi.

- Nə fikrə getmisən, oğul?

Uşaq başını qaldırdı.

- Ata, biz onu niyə öldürdük? - fikirli-fikirli soruşdu.

Kənan tutuldu. Beli kənara qoyub oğlunun yanında çöməldi.

- Onu biz öldürmədik, oğul, kirpi öldürdü.

- Fərqi nə, onu öldürməyi kirpidən biz istəmişdik də.

- Hə, doğrudu, bunu biz istəyirdik, kirpini də elə o məqsədlə almışdıq. Amma bir şey də var, biz onu öldürməsəydik, ondan bizə xətər dəyə bilərdi, səni, məni, ananı, bir başqasını çala bilərdi və biz də ölə bilərdik.

- Amma o, heç kimi çalmaya da bilərdi.

Kənan əvvəlcə tutuldu, sonra gülümsünərək oğlunun daraq batmayan qıvrım saçlarına əlini çəkdi.

- Hə, onu da doğru deyirsən, çalmaya bilərdi... Həyatda da belə şeylər olur, oğul, heç bir pisliyin dəymədiyi, əksinə, hətta yaxşılıq etdiyin adamlardan pislik görə bilərsən, heç gözləmədiyin yerdə səni elə pis vurarlar ki...

İlanı ehtiramla çalaya qoyub üstünü torpaqladılar.

Lalə bu gün çörək bişirməli idi, amma iki ayağını bir başmağa dirədi ki, hələ ulduz çıxmayıb, məni öldürsəniz də, təndirə yaxın durmaram. Ertəsi gün çox yalvar-yaxardan sonra bir şərtlə razılıq verdi ki, kimsə yanında dursun. Bu işi oğlunun görməsinə razı deyildi, yük ərinin üzərinə düşdü...

***

Sarıya bu gün axşamtərəfi kameraya köçürüləcəyi bildirilmişdi. Günorta mülki geyimli şəxslə rəis müavininin otağında görüşmüşdü. Tibb məntəqəsində olduğu on gün ərzində ikinci dəfə görüşmələrinə rəğmən, nə adını bilirdi, nə də vəzifəsini. Amma hökmlü müavinin ona göstərdiyi münasibətdən sıradan biri olmadığını anlamamış da deyildi. Bu müddətdə müəmmalı adam onunla ancaq "siz"lə danışırdı və bircə dəfə də etik qaydalardan kənara çıxan hər hansı sözə, hərəkətə yol verməmişdi. Bunun məqsədli edildiyini ya da adamın səmimi olduğunu, ona həqiqətən hörmət etdiyini müəyyən etməkdə çətinlik çəkirdi.

Bu günkü görüşdə də onunla əsasən mülki geyimli şəxs danışırdı. Hərdən rəis müavininə tərəf çevrilib nəsə deyəndə "baş

üzrə", "oldu" kimi cavablar gəlirdi. Müavin də söhbət ərzində bircə dəfə olsun onun adını çəkmədi, halbuki həmkarı az qala hər müraciətini "Qədir müəllim"lə başlayırdı.

Bu dəfə söhbət tez yekunlaşdı. Dustaq getmək üçün qalxanda mülki şəxs də qalxıb əlini ona tərəf uzatdı:

- Sarı bəy, sizin doğru qərarlar verdiyinizə şadam. Əminəm ki, çox qısa zamanda əməkdaşlığımızı bayırda davam etdirmək imkanımız olacaq. Sizin kimi adamlar xalqa burda yox, azadlıqda daha çox lazımdı. Hansısa probleminiz və ya yardımıma ehtiyacınız olsa, Qədir müəllimə çatdırın, çalışarıq həll edək...

Rəis müavini yaltaqcasına başını yellədi. Söhbətin çox da ürəyindən olmadığı sifətinin qaba cizgilərindən sezilsə də, bunu üzə vurmamağa çalışırdı...

***

Kənddə olduqlarının səkkizinci günü Kənana vacib zəng gəldi. Şəhərə qayıtmalı oldu. Arvadına və oğluna qalmalarını təklif etsə də, onsuz maraqsız olacaqdı deyə ana-bala da geri dönmək istədilər. İki gündən sonra Muradın ad günü idi. Yolda ondan nə hədiyyə gözlədiyini soruşanda uşaq çox fikirləşmədən "Tutuquşu!" - dedi. Ata gülümsünüb fikrə getdi.

...Doqquz yaşının tamamında atası Kənana ad günündə tutuquşu almışdı. Bu, onun həyatında ən xoşbəxt günlərdən biri idi. Quşu danışdırmaq üçün bəzən saatlarla qəfəsin qarşısında dayanıb "salam", "necəsən", "mənim adım Qeşadı" sözlərini deməkdən bezmirdi. Amma günlər, aylar keçir, Qeşa isə danışmırdı ki, danışmırdı. Bir gün atasının uşaqlıq dostu Yusif onlara gəlmişdi, bu tərəflərə təzə ayaq açmış alman pivəsindən vururdular. Yusif həmişə olduğu kimi, əl-qolunu ölçə-ölçə gic-gic söhbətlər edir və tez-tez də şit-şit hırıldayırdı. İki sözündən biri də "maygülü" idi. Etibarlı dost olduğu üçün atası xətrinə dəymirdi, hərdən özü də ona qoşulub şitlənirdi. Ağzı bir an da dayanmayan qonaq arada çevrilib qəfəsində mürgü vuran Qeşaya

üzünü tutub “Düz demirəm, alə, Qeşa?” - deyə az qala çığırırdı. Quş hər dəfə səsə diksinir, hərdən də narazı-narazı öz dilində deyinirdi. Növbəti dəfə yenə eyni şey təkrarlananda heç kimin gözləmədiyi bir hadisə baş verdi: Qeşa pəncələri üstə qalxıb, boynunu də irəli verib bütün qəzəbini qəfəsdən çölə tökdü:

- Kəs də, alə, maygülü!

O vaxtdan yazıq Yusifin qara günləri başladı. Həyət-bacada nəsə danışmaq istəyəndə məhəllə uşaqları “Kəs də, alə, maygülü!” - deyib binəvanı hər dəfə ağzını açmağa peşman edirdilər.

Qeşa isə həmin gündən məhəllənin sevimlisinə çevrildi. Bəzən uşaqlar saatlarla onların eyvanının qabağında dayanıb o məşhur kəlməni eşitmək üçün quşu cırnadırdılar.

Bir gün Kənan evə gələndə qəfəsi yerdə, qapısını da açıq gördü; tutuquşu isə yoxa çıxmışdı. Ertəsi gün Qeşanın başını bir mərtəbə yuxarıdakı qonşunun uşağı Fərid həyətdən tapıb gətirdi.

Bu itkidən uzun müddət özünə gələ bilməyən Kənan sevimli quşunun faciəli ölümü ilə bağlı öz araşdırmasına başladı. Qeşanın yoxa çıxdığı gün qonşunun pişiyi Satananı onların eyvanında gəzişdiyini bir neçə nəfər görüb; həmçinin Kənangillə üzbəüz binadakı üçüncü mərtəbədə yaşayan və gününün çoxunu aynəbənddə keçirən Nisə nənə pişiyin ağzında nəsə qaraltı görüb və dediyinə görə, onun “sərçə olduğunu” güman edib. Satananın eyvanlarda sülənmək, pəncərə açıq olanda mənzilə tullanmaq kimi xasiyyətinə qonşular bələddilər. Heç kimə ziyan vurmazdı deyə, xətrinə dəyən də olmazdı; ev yiyəsinin ona verdiyi payı içəri ötürüb, hansı yolla gəlirdisə, o yolla da sakitcə geri dönürdü. Qeşanın Satananın güdazına getdiyinə Kənanın şübhəsi qalmamışdı, bu səbəbdən pişiyə çox qəzəbli idi və ondan hayıfını çıxmaq üçün fürsət axtarırdı. Bir dəfə Satana açıq pəncərədən miyoldaya-miyoldaya və heç nə olmayıbmış kimi onların mənzilinə tullananda divanda əyləşib televizora baxan Kənan yerindən sıçrayıb hirslə təpiyi pişiyə necə ilişdirmişdisə, heyvanın çığırtısına bütün qonşular çölə tökülüşmüşdülər. Tə-

piyi nəyə görə yediyini Satananın bilib-bilmədiyi kimsəyə agah olmadı, amma o hadisədən sonra Kənanı hətta uzaqdan görəndə dabanına tüpürürdü...

Kənan bunları oğluna danışmışdı və uşaq quşun ölümünə çox pis olmuşdu; ola bilsin ki, Qeşaya bağlı sərgüzəştlər və onun faciəli sonluğu ilə Muradın tutuquşu arzusu arasında hansısa bağlar vardı. Bunları düşünə-düşünə gözlərini güzgüyə zilləyib "Ad günündə sənin tutuquşun olacaq!" - deyə bəyanat verəndə Murad maşının arxasında sevincindən atılıb-düşürdü.

Ertəsi gün ata yolunu tanınmış zoomağazalardan birindən saldı. Burada hər növ quş vardı; onların səsləri bir-birinə qarışmış və mağazanı başına götürmüşdü. Satıcı ahıl yaşlarında nurani bir kişi idi, başı orta yaşlı xanım müştəriyə qarışmışdı; quşlardan birini ağızdolusu ona tərifləyirdi.

Kənan tutuquşular olan hissəyə yaxınlaşdı. Qəfəslərin qabağında hər ölçüdə və rəngdə olan bu gözəl quşların adları qiymətləri ilə yanaşı kiçik lövhədə asılmışdı. Diqqətini Zara adlı birisi çəkdi, qeyri-adi, göz oxşayan rəngləri vardı; qəfəsin bir küncünə qısılıb gözləri yol çəkirmiş kimi baxışlarını uzaqlara zilləmişdi. Ona tərəf gedib qarşısında dayandı və maraqla bu gözəlliyə tamaşa etməyə başladı. Quşun heç tükü də tərpənmədi. Barmaqlarını qəfəsin tellərinə yavaşca toxundurub "ey, Zara, nə fikrə dalmısan?" - deyə dilxoşluq etdi. Quş tənbəl-tənbəl başını çevirdi, qarşısındakı adamı laqeyd-laqeyd süzüb yenidən əvvəlki halına döndü.

- Bunu üç ay öncə bir nəfər gətirib bura, - xanımı yola salan satıcı ona yaxınlaşdı, - quşu satmaq fikri olmadığını, bir neçə aylığa səfərə çıxmalı olduğu üçün onu etibarlı bir yerdə qoyub getmək istədiyini söylədi, elə yerdə ki, vaxtlı-vaxtında dəninisuyunu versinlər. Məndən aylıq yeməyin pulunu soruşdu. Dedim, port-manatından iki şax yüzlük çıxarıb uzatdı. Pulu çıxaranda ciblərdən birində gözümə bir foto sataşdı, təbiətin qoynunda çəkilmiş şəkildə beş adam vardı, hamısı da xoşbəxt görünürdülər. Adamın qəmli nəzərləri bir anlıq şəkilin üzərində

dayandı, sonra pulqabını cibinə qoydu. Yüzlükləri mənə quşun altı aylıq qulluğunun haqqı kimi vermişdi. Onu da əlavə etdi ki, ölkəyə qayıdan kimi gəlib Zaranı götürəcək və başqa xərclərim olsa, onları da artıqlaması ilə qarşılayacaq. Altı ay keçdi, amma adam gəlib çıxmadı. Zaranı satmağa əlim gəlmirdi, əslində sahibinin verdiyi pul da lazım olandan xeyli artıq idi, ona görə, daha altı ay gözlədim. Adamdan yenə xəbər-ətər çıxmadı. Sonra öz durumum da pisləşdi, heyvan da mənim üçün əlavə yükə çevrildi. Fikirləşdim ki, yəqin başına bir iş gəlib, ya da quşa marağı itib, bu səbəbdən də satmaq qərarı verdim. Pulunu da saxlayıb özünə verəcəm... Hə, onu da deyim, nə gizlədim, Zaranın ayağı da mənə düşmədi, o gələndən mağazanın işləri geri getməyə başladı... - Gözlərini quşa zilləyib azacıq fikrə getdi. - Amma məsləhətli quşdu. Onu gətirən adam danışdığını deyirdi. Yalan nə deyim, mən bu müddətdə onu danışan görmədim. Quşlarda olur belə şey, yeri, yeməyi, mühit, adamlar ürəyincə olmayanda, yetərincə diqqət, sevgi görməyəndə sönükürlər, incik düşürlər.

Kişinin danışdıqları Kənanda quşa olan marağı daha da artırdı və qərarı qətiləşdi...

Murad hədiyyəni çox bəyəndi. Vaxtilə atası kimi indi o da boş vaxtının xeyli hissəsini qəfəsin qarşısında keçirir, evin təzə sakininin dilini açmaq üçün dəridən-qabıqdan çıxırdı: “salam”, “necəsən”, “mənim adım Zaradı”...

Murad evdə olmayanda quş bütün günü sanki nəyinsə xiffətini çəkirmiş kimi qəmgin-qəmgin oturub gözünü bir nöqtəyə zilləyirdi. Ərlə arvadın onunla dil tapmağa yönəlmiş bütün cəhdləri uğursuz olmuşdu. Zara nə onlarla ünsiyyətə maraq göstərir, nə də çox sevdiyi meyvə və ləpələrə gözünün ucu ilə baxırdı. Qəfəsin qarşısında Murad peyda olanda isə vəziyyət tamam dəyişirdi: onun hər sözünə, hərəkətinə, nəvazişinə ya səs çıxarmaqla, ya da hansısa başqa formada reaksiya verirdi. Uşağın uzatdığı hər yeməyi də sevincək alırdı.

Bir dəfə quşun bu qəribə davranışının səbəbilə bağlı arvadı-

nın verdiyi suala Kənan "çünki uşaqlar saf və günahsız olurlar, heyvanlar bunu hiss edirlər", - cavabını vermişdi; Lalə razılaşırmış kimi başını yelləsə də, əslində, ağlı elə bir şey kəsməmişdi. Dediklərinin doğru olub-olmadığını heç Kənanın özü də bilmirdi, fikir isə qəfil ağlına gəlmişdi.

Arvadının hansı günahlar işlətdiyini bilmirdi, amma son vaxtlar başına gələnlərin öz günahlarının bədəli olduğuna şübhə etmirdi: onun ölkəsində bizneslə məşğul olub günaha batmamaq mümkün deyildi, biznes böyüdükcə günahlar da bir o qədər artırdı. Belə şeylər barədə düşünəndə Tanrı yadına düşür və günahlarından keçməsi üçün ona dil tökürdü.

O, Allahdan çox qorxurdi...

***

Qara görüş otağına girəndə orada onu ortaboylu, xoş görünüşə malik qara eynəkli bir nəfər gözləyirdi. Ayaqqabısından pencəyinə qədər geydiyi, taxdığı nə vardısa hamısı qara rəngdə idi. Tanımadığı bu adam onu müdafiə edəcəkdi.

Vəkil tələsirdi deyə birbaşa mövzuya keçdilər. Təzə söhbətə başlamışdılar ki, dustaqlardan biri əlində məcməyi içəri girdi, dəm çaynikini, iki armudu stəkanı və içərisində bahalı şirniyyatlar olan qənddanı masanın üstünə qoydu; qabda iki Snikers də vardı. Vəkil qara portmanatından bir onluq, bir də manatlıq çıxarıb, "özün yerbəyer elə" deyib gəncə uzatdı. Dustaq gülümsünüb pulu aldı, minnətdarlıq edib çıxdı.

Vəkil diqqətlə Qaraya qulaq asır, hərdən nəzakətlə sözünü kəsir, suallar verir, qarşısındakı qara üzlü bloknotunda qeydlər aparırdı. Qara baş verənləri olduğu kimi ona danışdı. Kəkliklə bir-birilərini sevdiklərini və ailə qurmaq istədiklərini, qızın onunla könüllü getdiyini və məhkəmədə də bunu təsdiqləyəcəyinə əmin olduğunu deyəndə vəkil çoxmənalı gülümsündü. Qabağındakı qovluqdan səliqəli xətlə nəsə yazılmış bir kağız çıxardı, qarşısına qoyub aram-aram oxumağa başladı. Vəkil oxu-

duqca dustağın sifəti rəngdən rəngə düşürdü; son cümlələr bitəndə başı, dizlərinə söykədiyi əlləri arasında eləcə quruyub qalmışdı; o, qulaqlarının eşitdiyinə heç cür inana bilmirdi. Qəfil başını qaldırıb az qala qışqırdı:

- Yoox! Ola bilməz bu! Kəklik belə şeylər yaza bilməz!

- İnanmırsan, al, özün oxu. - Vəkil təmkinin pozmadan kağızı ona uzadıb, özü də ayağa qalxdı. - Qoy qalsın səndə. Mənim vacib bir görüşüm var, indi getməliyəm, amma yaxın günlərdə yenə gələcəm. - Qapıdan çıxanda çevrildi. - Yadımdan çıxmışdı deyəm ki, sənin müdafiəni götürməyi məndən böyük adamlar xahiş edib. Adım da Mahmuddu... Mahmud Gəraylı. Hə, bir də, vəkilinin kim olduğunu burda bilməsələr yaxşıdı. Öz maraqlarına görə belə məsləhətdi.

Qara başı ilə hə cavabını versə də, fikri məktubun yanında idi. Qapı örtülən kimi həyəcan içində onu oxumağa başladı.

"...Qara Bəkirov ilə altı aydan çox idi ki, tanışlığımız vardı. Onunla bir neçə dəfə görüşmüşdük. Belə görüşlərin birində o, məni sevdiyini və mənimlə ailə qurmaq istədiyini bildirdi. Lakin mən ona ailəmin buna razı olmayacağını, bu günlərdə bizə elçi gələcəyini, əmim oğlu ilə ailə qurmağa hazırlaşdığımı, onunla isə yalnız dost kimi qala biləcəyimizi söylədim... Həmin hadisədən bir gün qabaq o mənə zəng edərək vacib bir məsələ ilə bağlı görüşmək istədiyini bildirdi. Dediyi vaxtda həmin yerə getdim. Qara yenidən mənə evlənmək təklifi edəndə ona qəti şəkildə rədd cavabı verib aralanmaq istəyəndə, əvvəlcə qolumdan yapışdı, sonra isə qəfil ağzımdan tutaraq məni zorla yaxınlıqda dayanmış maşına otuzdurdu. Maşın tərpənəndə bərkdən qışqırmağa başladım, amma Qara səsimin eşidilməməsi üçün sürücüyə şüşələri qaldırmağı və maqnitofonun səsini artırmağı göstəriş verdi, mənim isə əl-qolumdan tutub başımı iki oturacağın arasına saldı. Məni buraxmayacağını görüb, onu aldadaraq qaçırılmağıma etiraz etmədiyimi bildirdim. Bundan sonra qollarımı boş verdi. Təxminən iki saat yol getdik. Yolda yol kənarında yerləşən kafelərdən birində nahar etdik. Mən əvvəl istədim orda

qışqır-bağır salam, amma Qaranın mənə xətər yetirə biləcəyindən qorxduğum üçün bunu etmədim. Kafedə olduğumuz zaman Qara mənə bir kağız və qələm verib onunla könüllü getdiyim barədə yazmağımı istədi. Mən onun sayıqlığını zəiflətmək və qaçmağım üçün şərait yaratmaq məqsədilə məcbur olub dediklərini yazdım. Maşın bizi bir evə apardı, orada bildim ki, bura Qaranın dayısıgilinin evidir. Mən qaçmaq üçün fürsət axtarırdım, amma Qaranın nəzarəti daim üzərimdə olduğuna görə buna imkan olmadı. Gecəni orada qaldıq, amma mənim təkidli tələblərimdən sonra ayrı-ayrı otaqlarda yatdıq. Ertəsi gün ailə üzvlərim, yaxınlarım saxlandığım evə gələrək, məni ordan apardılar. Onlar tərəfdən nə Sarıya, nə də onun qohumlarına qarşı hər hansı qanunsuz hərəkətlərə yol verilməyib. Əmimin guya Qaraya şillə vurması barədə dedikləri isə ağ yalandır, törətdiyi ağır cinayətə görə alacağı cəzadan yaxa qurtarmaq üçün belə deyir. Mənim heç vaxt Qara ilə ailə qurmaq fikrim olmayıb və ola da bilməzdi, çünki o, qatı müxalifətçidir, dövlət əleyhinə mitinqlərdə iştirak edib, görüşlərimiz zamanı dövlət əleyhinə şərböhtanlar danışırdı. Buna görə, tez-tez mübahisələrimiz düşürdü, çünki bizim ailəmiz və qohumlarımız hamılıqla dövlətçiliyə sadiq insanlardı. Mən bu adama qarşı şikayətçiyəm, çünki o mənim həyatımı puç edib, buna görə, onun ən sərt qaydada cəzalandırılmasını tələb edirəm..."

Qara görüşdən çıxanda qaş qaralmışdı. Onu yenidən öz yerinə qaytardılar. İçəri girəndə otağını tanımadı: hər yer yuyulub təmizlənmiş, lampa taxılan qırıq patron yenisilə əvəzlənmiş, ona gur işıq saçan lampa taxılmışdı. Masanın üstündə sabun, poroşok, diş pastası və fırçası qoyulmuşdu. Unitaz çirk və ərpdən təmizlənmiş, yataq dəsti yenisi ilə əvəzlənmişdi. Kranı açdı, oradan isti su gəlirdi.

Başqa vaxt olsaydı, çox sevinərdi, amma indi bütün bunlar gözünə görünmürdü. Özünü süst və yorğun hiss edirdi, elə bil ağır yük boşaltmaqdan gəlirdi.

Cibindən məktubu çıxarıb yenidən oxudu, sonra bir də, bir

də. Qəfil hiss elədi ki, havası çatışmır, sanki bu dəqiqə boğulacaqdı. Qorxdu, yatağından qalxıb tez stulu ayaqları altına qoydu və ağzını nəfəsciyə dirədi. Bayırda sərin meh əsirdi, gözlərini yumub, dərindən nəfəs alaraq təmiz havanı acgözlüklə ciyərlərinə çəkdi. Bunu bir neçə dəfə təkrarladı. Bir az sakitləşən kimi oldu.

Yenib yenidən yatağına qayıtdı. Kəklik və məktubu gözlərinin önündən getmirdi.

Dəhlizdə dəmir arabanın səsi eşidildi. Azacıq keçmiş qapının pəncərəsi açıldı və ənənəvi səs gəldi: "Axşam yeməyi". Mədəsi acından zoqquldasa da, durmağa halı yox idi. Yatağından qalxmadan "İstəmirəm!" dedi. Pəncərə şaqqıltı ilə bağlandı. Sübhə qədər gözünə yuxu getmədi...

***

Kənan vergi idarəsindən ağır hisslə çıxdı. Rəisin özü zəng edib görüşə dəvət etmişdi: bir-birilərini xeyli müddətdi tanıyırdılar, aralarında xətir-hörmət vardı. Ona mədəni şəkildə başa salındı ki, bir neçə ay öncə deyilən məbləği Fonda köçürmək gərəkdir. Müraciəti xatıraladanda rəis istehza ilə gülümsünüb "Sənə hər şeyi danışa bilmirəm, amma bir məsləhət verim: o pulu gətirsən yaxşı olar." - deyib, düşünməyə bir həftə vaxt vermişdi.

Kənan çox ölçüb-biçəndən sonra bu nəticəyə gəldi ki, tələb olunan məbləği ödəsə, borclarının altından çıxa bilməyəcək. Vaxtın tamamında zəng edib rəisə "bağışlayın, o qədər pulum yoxdu", - dedi.

Yenə iki ay ərzində kimsə qapısını döymədi. Üçüncü ayın ilk günlərində ona məxsus bütün ticarət obyektlərində vergi yoxlaması başladı. Bir aydan çox çəkən təftişin yekunu olaraq, yarım milyon manatlıq vergi borcu aşkarlandı, barəsində külli miqdarda vergidən yayınma faktı ilə bağlı cinayət işi açıldı. İttiham olunduğu maddənin sanksiyasında yeddi ilə qədər həbs cəzası vardı. Məsələ həm də ona görə ciddi görünürdü ki, son üç ayda

beş sahibkar tanışına qarşı cinayət işi qaldırılmışdı: hamısı da doqquz ay öncə həmin o müraciəti imzalayanlar idi. Onlardan ikisi həbs olunmuş, digər üçü cəzadan yaxa qurtarmaq üçün ilk dəfə tələb olunan məbləğdən ikiqat artığını ödəməyə məcbur olmuşdular; bu yolla həm özlərinə, həm də başqalarına dərs verilirdi. Etirazçılardan daha ağıllı tərpənən biri isə vaxtında bütün mal-mülkünü satıb ölkədən qaça bilmişdi.

Kənanın da məsuliyyətdən yayınmaq üçün vaxtilə şansı yaranmışdı: bəlli müraciətdən bir neçə gün öncə yüksək vəzifəli məmurlardan birinin adamları ona çıxmışdılar. Məmur himayəsini təklif edirdi, şərtləri də çox sadə idi: biznesinə yarıbayarı şərik olur, əvəzində, bundan sonra kimsə qapısını döymür. O vaxt çox düşünüb sonda yox dedi. Təkcə pul məsələsi deyildi, belə şərtlər altında işləməyi, yaşamağı özünə təhqir sayırdı; gecəni gündüzünə qatıb işlə, sağlamlığından, ailənin boğazından kəsib, qəpiyi qəpiyin üstünə qoyub işini qur, hansısa bir məmur heç nədən dədə malı kimi gəlib sənə şərik olsun, hələ bir şərtlərini də diqtə etsin.

İndi yenidən bu təklifi xatırladı. O, həbs olunmaq istəmirdi. Həmin məmura müraciət etməyə həm üzü gəlmirdi, həm də qüruru yol vermirdi. Bir də ki, şərtləri daha az ağır olan varianta ümidlərini hələ tamam itirməmişdi. Yenə hakimiyyətə yaxın informasiya agentliklərindən birinin rəhbəri olan uşaqlıq dostu yadına düşdü; Ceyhunun əli uzun idi, öncələr xırda-para problemləri yarananda bir neçə dəfə köməyinə çatmışdı. Ofisinə getdi, başına gələnləri ona danışdı. Dostu belə hallarda bir qayda olaraq gülə-gülə "boş şeydi, qaydasına qoyarıq" deyə dilxoşluq edər, ürək-dirək verərdi, bu dəfə "mən girən kol deyil" cavabını verdi. Üstündən iki gün keçmiş zəng edib bir nəfərlə axşamtərəfi onlara gələcəyini dedi...

Kənan onu görən kimi tanıdı. Əvvəllər heç vaxt üz-üzə gəlməsələr də, bu adamı yaxşı tanıyırdı. Vaxtilə ölkənin ən mübariz vəkillərindən biri sayılırdı; yüksək vəzifəli məmurların adlarının keçdiyi hay-küylü korrupsiya işlərində müxalif qəzetləri,

jurnalistləri, ictimai və siyasi fəalları müdafiə edirdi. Yaxşı natiqliyi vardı, Ərəb Baharının[4] təsiri altında ölkədə hökumət əleyhinə mitinqlər zamanı tez-tez tribunalardan odlu-alovlu çıxışlar edirdi. Hakimlər, prokurorlar ondan tük tökürdülər.

Sonra həbs olundu, cibindən narkotik tapmışdılar; adamın heç siqaret də çəkmədiyi deyilirdi. Saxta ittihamlarla altı illiyə həbsxanaya göndərildi. Həbsdə olduğu dövrdə həm ölkədə, həm də xaricdə müdafiəsi üçün durmadan kampaniyalar keçirilirdi. Böyük-böyük dövlətlərin siyasətçiləri onun şəkli olan köynəklərdə parlament iclaslarına qatılırdılar. Azadlığı üçün dünyanın hər yerində etiraz toplantıları təşkil olunurdu; cəza çəkdiyi həbsxanaya ən müxtəlif ölkələrdən axın-axın dəstək məktubları gəlirdi. Müdafiəsinə ölkənin ən yaxşı vəkilləri qatılmışdılar. Hamı tezliklə azadlığa buraxılacağını gözləyirdi. Amma illər bir-birini yola verir, onun isə qapısı açılmırdı ki, açılmırdı. Həbsxanada başına daha nə oyunlar açmadılar: dəfələrlə karsa salındı, dustaqlar üstünə qaldırıldı, ən pis şeylərlə təhdid olundu... "Buradan meyitim çıxar, amma məni sındıra bilməzsiniz!" - demişdi. Onu tutduranlar da dirənmişdi, o da.

Azadlığa çıxmasına doqquz ay qalmış bir gün xəbər çıxdı ki, həbsxanada axtarış zamanı döşəyinin altından qanunsuz kəsici alət tapılıb. O vaxt bu iş böyük hay-küy yaratdı, həm ölkədə, həm də onun hüdudlarından kənarda ciddi etirazlara səbəb oldu. Böyük dövlətlər, nüfuzlu beynəlxalq təşkilatlar saxta cinayət işinə xitam verilməsini, vəkilin təcili azadlığa buraxılmasını tələb edirdilər. Amma faydası olmadı, cəzasına daha dörd il əlavə olundu. Beləcə, basqılar altında daha bir ilini yola verdi.

[4] 2010-cu ilin dekabrından ərəb ölkələrində işsizlik, ərzaq qiymətlərinin yüksəlməsi, söz azadlığı, bürokratik əngəllər və aşağı həyat səviyyəsi ilə əlaqədar başlayan etiraz nümayişləridir. Dekabrın 18-də Tunisdə başlayan və 1987-ci ildən hakimiyyətdə olan Zeynalabdin ben Əlinin ölkəni tərk etməsi ilə nəticələnən inqilabın qələbəsi digər ərəb ölkələri - Misir, Yəmən, Əlcəzair və İordaniyada da etiraz nümayişləri dalğasına səbəb olub.

Və bir gün heç gözlənilmədən azadlığa buraxıldı. Çöldə onu qəhrəman kimi qarşıladılar.

Həbsdən çıxandan sonra da vəkilliyinə davam etdi. Amma daha cəncəl işlərə çıxmırdı, əvvəlki tənqidi çıxışları və yazıları da yox idi. Az keçmiş, vaxtilə çiyin-çiyinə dayandığı, həbsdə olanda müdafiəsinə qalxan dostlarının, mübarizə yoldaşlarının ünvanına əvvəlcə tənqidlər, sonra hədyanlar yağdırmağa başladı. Qısa müddətdə ətrafında onlardan heç kəs qalmadı. Daha sonra bəzilərini saxta ittihamlarla həbsə atdılar, başqalarını yüksək cərimə və kompensasiya tələbilə mülki məhkəmələrə çəkdilər. O isə həmin işlərdə keçmiş əqidə yoldaşlarına qarşı vəkillik edirdi. Söhbət gəzirdi ki, təzə açdığı hüquq şirkəti üçün icarəyə götürdüyü iki mərtəbəli bina yuxarılara xidmətinə görə ona hədiyyə edilib. İndi o və komandası hökumətə qarşı yox, onun tənqidçilərinə qarşı idi. Qısa zamanda sosial şəbəkələrdə "mübarizə simvolu", "qəhrəman"dan "satqın", "əclaf"a çevrildi...

Heç yarımca saat keçmədi ki, qonağın səsi otağı götürmüşdü. Üçüncü qədəhdən sonra keflənib bərkdən deyib-gülür, zarafatlaşır, hər dəfə qədəhlər yuxarı qalxanda o da qalxıb uzun-uzadı tostlar deyirdi. Hərdən də əlini yanında sakitcə əyləşmiş ev sahibinin kürəyinə vurub "Heç nəyin fikrini eləmə, qardaşın ölməyib, hər şeyi qaydasına qoyacaq!" - deyə yekələnirdi.

Növbəti tostu demək üçün ayağa qalxanda təsüdüfən gözü pəncərə tərəfdə qəfəsdəki tutuquşuya sataşdı. Səndəlyə-səndələyə ora yaxınlaşdı. Pəncərədən çölə baxan quşun baxışlarından qəm-qüssə yağırdı.

Qonaq əlindəki kabab tikəsini dişinə çəkə-çəkə quşa marıtlandı.

- Nədi a quş, nədən belə qəm dəryasına qərq olmusan? Nə dərdin ola bilər ki sənin, yeməyin yanında, içməyin yanında, başqa sənə nə lazımdı axı, ay naşükür məxluq?!

Quş sanki onu görmür, eşitmirdi, necə durmuşdusa, tövrünü dəyişmədi. Onun bu saymazyanalığı ayaq üstə güclə dayanan qonağa toxundu. İçkinin təsirindən qırmızıya çalan sifəti əyildi.

- Səninləyəm, a quş! Bəlkə, kabab istəyirsən?! - Quşun yenə reaksiya vermədiyini görüb əlindəki tikəni acıqla qəfəsin telləri arasından içəri dürtməyə başladı. - Al, götür təp gözünə!

Quş diksindi, başını çevilib gözlərini ona zillənmiş sərxoş gözlərə dikdi, beləcə bir neçə saniyə donub qaldı və birdən heç kimin gözləmədiyi halda çığıra-çığıra özünü qəfəsin divarlarına çırpmağa başladı.

Qorxudan bir addım geri atan qonaq çevrilib təəccüblə ev sahibinə baxdı:

- Bu lap başdanxarabmış ki! Birdən-birə nə oldu buna?

Kənan da təəccüblə çiyinlərini çəkdi; o, Zaranı heç vaxt belə aqressiv görməmişdi, səbəbi özünə də maraqlı gəldi.

Qonaq yerinə qayıdıb növbəti qədəhi başına çəkdi. Quş da sakitləşmişdi, amma gözlərini ondan çəkmirdi.

Sərxoş vəkil az keçmiş növbəti tost demək üçün ayağa qalxanda quşu xatırlayıb o tərəfə çevriləndə heyvan yenidən panika içində özünü qəfəsin divarlarına çırpmağa başladı. Baş verənlərdən bir şey anlamayan ev sahibi yerindən qalxdı, tellərin arasında ilişmiş ət tikəsini dartıb çıxardı, qəfəsi götürüb o biri otağa keçdi. Az sonra əliboş geri dönüb üzrxahlıq etdi:

- Başa düşə bilmədim ki, nə olub buna. Əslində, çox sakit və xoşxasiyyət quşdu...

- Onu niyə gizlətdin ki, məndən? - İçkinin təsirindən sifəti pörtmüş qonaq növbəti qədəhi başına çəkib turş xiyarlardan birini götürüb diri-diri ağzına atdı və marçıltı ilə yeyə-yeyə gözlərini ev sahibinə dikdi.

Səs Kənanın beyninə işləyir, sinirlərinə toxunurdu. Adam artıq onda ikrah hissi oyadırdı; bunu gizlətməyə çalışıb sifətinə zorla təbəssüm verdi.

- Yox, yox, Allah eləməsin, Mahmud müəllim. Sadəcə heyvanın özünü belə aparmasının xətrinizə dəyə biləcəyindən narahat oldum.

- Xətrimə niyə dəyir ki?! - Qonaq bərkdən güldü, birdən sifəti ciddiləşdi, səsinin tonu da dəyişdi: - Mənim xətrimə dəyən

hələ anasından olmayıb, eləsi tapılsa başını bu əllərimlə üzərəm! - Kababın yağlı yerindən birini götürüb dişlərinə çəkdi. - Bura bax, səndən bir xahişim var, amma əvvəlcə söz ver ki, yerə salmayassan, sonra deyim. Onu da bil ki, xahişimi yerə salanda xətrimə möhkəm dəyir. - Qaşının birini aşağı, o birini isə yuxarı dartıb cavabı gözlədi.

- Buyurun, Mahmud müəllim.

- Bu quşu mənə hədiyyə elə. Qürurlu nə görsəm, istər adam olsun, istərsə də heyvan, çox sevərəm onu. - Daha bir qədəhi başına çəkdi və növbəti xiyarı ağzına atıb marçıldada-marçıldada: - Belələrini sındırmaqdan xüsusi zövq alıram, - deyib hırıldadı.

Eşitdikləri ev sahibi üçün o qədər gözlənilməz oldu ki, özünü itirdi. Bunun zarafat ya ciddi olduğunu müəyyən etmək üçün əvvəl bir, sonra o biri qonağa baxdı; Ceyhun üzrxahlıq edirmiş kimi çiyinlərini çəkdi. Yenidən sərxoş qonağa çevrildi: yox, adam tam ciddi idi. Həyəcandanmı, əsəbdənmi dil-dodağı qurumuşdu, sudan bir qurtum aldı. Gözlər onda idi.

- Qurbandı sizə... - dili topuq vurdu, - amma...

- Bilirəm nə deyəssən, - kefli qonaq sözünü kəsdi, - yoox, onu şişə çəkmək fikrim heç yoxdu. - Şit-şit gülüb ardınca sifətinə ciddi görkəm verməyə çalışdı. - Ona mədəniyyət öyrədəcəm, hörmətli insanlarla necə rəftar etməyin elmini öyrədəcəm!

Ev sahibinin tutulduğunu görən Ceyhun söhbəti dəyişməyə, əsas mövzunun üzərinə gətirməyə çalışdı, amma tanışı o hayda deyildi. Bunun fərqinə varanda, əlini çiyninə qoyub "gedək, Mahmud müəllim, daha gecdi", - deyib ayağa qalxdı.

Vəkil ayaq üstə güclə dururdu. Ceyhun ona ayaqqabılarını geyməkdə yardımçı oldu. Sonra qoluna girib çıxmaq istəyirdi ki, sərxoş ayaq saxladı, gözlərini Kənana dikdi.

- Bə mənim quşumu vermək istəmirsən?

Karıxıb qalmış ev sahibi əvvəlcə matdım-matdım qonağın üzünə baxdı, ardınca da "həə... əlbəttə!" deyib ağır addımlarla qonşu otağa keçdi və qəfəslə geri döndü; ona elə gəldi ki, əlində tutduğu qəfəs deyil, ağır daş parçasıdır. Utandığından quşun

üzünə baxa da bilmirdi. Qəribədir, Zara da bir küncə qısılıb baş verənləri sakitcə müşahidə edirdi. Sırtıq təbəssümü sifətindən çəkilməyən qonaq məmnun halda:

- Axı demədin adı nədi bunun? - soruşdu.

- Zara. - Ev sahibinin səsi güclə çıxdı.

Əl uzanıb qəfəsi alanda nə baş verdiyi sanki quşa indi çatdı: hövllənmiş kimi yenidən özünü qəfəsin divarlarına çırpmağa başladı. Vəkil qəfəsdən möhkəm yapışıb səndələyə-səndələyə qapıdan çıxanda o biri qonaq ayaq saxladı, donub qalmış ev sahibinə astadan.

- Keçmiş olsun...- deyib günahkarcasına gülümsündü - Qoy özünə gəlsin, görüşün vaxtını öyrənib deyərəm sənə, özün təklikdə gedib görüşüb həm dərdini danışarsan, həm də... - öz dediyinə özü də inanmır kimi çiyinlərini çəkdi, - quşu geri alarsan...

Kənan dəhşətli üzüntü içində idi. Vəkilin özünü necə aparmasından daha çox, oğlunun sevimli quşunu aparması ona möhkəm yer eləmişdi. Rayonlardan birində üç günlük məktəblərarası şahmat yarışından qayıdanda Murada nə cavab verəcəkdi, bilmirdi. Oğlu Zaraya çox bağlanmışdı; bir neçə gün öncə onunla çəkdirdiyi şəkli dükandan aldığı qəşəng bir çərçivəyə saldırıb otağından asmışdı. Bu itkinin ona güclü mənəvi zərbə olacağını bilirdi.

Qonaqlar gedəndən sonra mətbəxdən çıxmayan Lalə divanın bir küncündə büzüşüb oturmuş ərinə yaxınlaşdı.

- Özünü pis hiss edirsən, Kənan?

- Yox, yaxşıyam...

- Bunu hardan tapmısız? Çox həyasız adama oxşayır, heç xoşum gəlmədi ondan.

Qüssəli baxışları arvadına dikilmiş ərin bu adamdan gizli heç bir sirri yox idi, amma son vaxtlar baş verənləri onunla bölüşmürdü; Lalə onun səhhətinə görə onsuz da çox narahatdı, başına gələnləri eşitsəydi, bu, ona ağır yük olardı. Vəkilsə onun da ürəyinə yatmamışdı, amma düşdüyü indiki çıxılmaz durumda belə bir adamın köməyinə çox ehtiyacı vardı.

- Mənim işdə bir balaca problemlərim yaranıb, bu adamınsa əli hər yerə çatır. Əslində, pis adam deyil, yəqin içdiyindən özünü belə aparırdı.

- Hər halda, ehtiyatlı olsan yaxşıdı, gözüm su içmir ondan.

Arvadının ona birtəhər baxdığı gözündən yayınmayan kişi sifətinə təbəssüm verməyə çalışdı.

- Sözlü adama oxşayırsan, Lalə. - - Bəs Murada nə deyəcik, Kənan?

Ər gözlərini endirdi.

- Sənə bir şey demək istəyirəm, amma sözlərimi qəribçiliyə salma. - Qadın xeyli vaxtdır ona rahatlıq verməyən düşüncələrini yaxın adamı ilə bölüşmək üçün nəhayət, özündə güc tapa bildi. - Artıq neçə vaxtdı nəsə pis bir şeyin baş verəcəyi fikri rahat buraxmır məni. Sənə görə çox narahatam, Kənan. İntuisiyam məni nadir hallarda aldadır. Son bir neçə gündə yuxumda elə hey qara buludlar görürəm. Burax bu işin başını... - Susdu. İndi ərinə demək istədikləri barədə çox düşünmüşdü, amma yenə də onları dilə gətirmək üçün bütün iradəsini toplamalı oldu. - Gəl, çıxaq gedək bu ölkədən, Kənan!

Ər başını qaldırıb bir neçə saniyə təəccüblə arvadının üzünə baxdı, sonra yenidən gözlər ağır-ağır endi. Ortaya sakitlik çökdü. Qadın daha bir söz demədən otağı tərk etdi.

Tək qalan kişi isə nə qanı-canı hesabına yaratdığı biznesinin başını buraxa bilirdi, nə də çox sevdiyi torpağını tərk edə...

***

İki gecə idi ki, Qaranın gözünə yuxu getmirdi.

Səhər yeməyinə iki yumurta, qaynar çay, şəkər, kərə yağı vermişdilər. Bura düşdüyü vaxtdan belə zənginliyi ilk dəfə idi görürdü. Yemək paylayan adamayovuşmaz dustaq da ərzağı ona ötürəndə bütün bu müddətdə ilk dəfə gülümsünüb "nuş olsun" demişdi. Bəlkə də, yanılırdı, ona elə gəlmişdi ki, bu təbəssümdə gizli bir istehza gizlənirdi.

Masanın üstündəki yeməklərə bir xeyli baxıb yerindən qalxdı, dəmir qapının qarşısında dayandı. Bir qədər fikirləşib onu döyəcləməyə başladı. İkinci cəhdində dəmir pəncərə açıldı; hər zaman eşitdiyi sualı gözləyirdi ki, fərqli tonda və tam fərqli sual gəldi:

- Nəsə lazımdı, Bəkirov?...

Heç bir saat çəkmədi ki, onu inzibati binaya apardılar. Qırx beş dəqiqə sonra isə rəis müavininin otağından çıxdı. Onu öz kamerasına yox, başqa birisinə qaytardılar.

İçəri girəndə kimsə yox idi. Sifətindən çoxbilmişlik yağan dolu bədənli nəzarətçi, - yolda adının Zərif olduğunu öyrənmişdi, - qapını açıb onu içəri ötürəndə kameranın digər sakininin həkimə getdiyini dedi. Rəis müavini ilə son görüşündən sonra "həkimə getmək", "telefona çıxmaq" sözlərinin indi onun üçün həm də başqa mənası vardı. Nəzarətçi kamera yoldaşı barədə qısa məlumat da verdi: əvvəl tək qalırmış, sonra bir müddət tibb məntəqəsində müalicə alıb, iki gün öncə isə bura köçürülüb. Qara ürəyində gülümsündü: o, bunları artıq bilirdi; bugünkü görüşdən kamera yoldaşları olacaq şəxslər barədə ətraflı bilgi ilə çıxmışdı. Birisigünə qədər kamerada ikisi qalacaqdılar, sonra daha bir nəfər onlara qoşulacaqdı...

Masanın üstündə peçenye, şirniyyat, meyvə var idi. Acmışdı, amma icazəsiz də onlara əl vurmaq istəmirdi. Az keçmiş nəfsinə güc gələ bilməyib peçenyedən birini ağzına atdı; atmağı ilə az qala diri-diri udmağı bir oldu. Ardınca ikincini, üçüncünü... Utanmasaydı, hamısını gözünə təpərdi. Növbətisinə əl uzatmaqdan özünü güclə saxladı. Yadına düşdü ki, dustaqlar arasında belə şeylərə yaxşı baxmırlar.

Gözünə tok çaydanı sataşdı. Əli ilə toxundu, içindəki su isti idi; görünür, kameradakı adam yenicə çıxmışdı. Yuyulmuş bir fincan və bir də stəkan ağzı üstə çevrilmişdi. Fincanda çay içməyi xoşlamırdı, bayırda adətən armudu, o olmayanda şəffaf stəkandan istifadə edirdi. "Çayın rəngini görməyəndə tamı da olmur" - rəhmətlik babasının bu sözləri uşaqlıqdan hafizəsinə

hopmuşdu. Çaydanı qızdırdı - çayı qaynar içməyi xoşlayırdı. Masanın üstündəki paket çaylardan birini stəkana salıb kameraya göz gəzdirməyə başladı.

Qaldığı yerlə müqayisədə bura ona mehmanxana otağı kimi gəldi. Yetərincə böyük sahəsi olan otaqda iki ikiyaruslu çarpayı vardı; yataqlar təmiz və səliqəli idi. Əsas sahədən yuxarı hissəsi yaşıl rəngli görünməyən plastik şüşədən olan arakəsmə ilə ayrılan hamam-tualet təxminən iki kvadrat metrlik sahədə yerləşirdi. Burada yerdən qoyulmuş unitazla yanaşı, yuyunmaq üçün duş və su kranı da vardı. Hər tərəfdən dəmir barmaqlıqlarla əhatələnmiş aynabənd otağa bitişikdi. Qapısının səhər saat doqquzdan axşam saat beşə qədər açıq olduğunu eşitmişdi. Onu da danışırdılar ki, bəzi imkanlı kameralar aylıq haqq ödəməklə qapını həmişə açıq saxlatdırırdılar.

Otaqda paltar asmaq üçün divara bərkidilmiş asılqan, qapının sol tərəfindəki küncdə adam boyunda şkaf da vardı. Şkafın sağ tərəfindəki iri gözü paltar asmaq üçün nəzərdə tutulmuşdu; üç asılqandan birində boz rəngdə köynək, tünd qəhvəyi rəngdə pencək, o birindən isə cins şalvar asılmışdı. Asılqanın biri boş qalmışdı. Şkafın sağ tərəfdəki kiçik gözündə dövlət qəzetlərinin köhnə nüsxələri və bir də dörd kitab vardı. Kitabları götürüb adlarına baxdı: biri dünya, ikisi yerli səviyyəli klassiklərin seçilmiş əsərləri, biri isə tanımadığı yerli yazarın şerlər toplusu idi. Şkafın aşağı hissəsində üç kiçik siyirmədəki qablardan birində makaron, o birində qarabaşaq, çuqun qabın içində altı ədəd qaynamamış yumurta, yarım litrlik qabda günəbaxan yağı və dörd-beş kartof-soğan səliqə ilə yerləşdirilmişdi.

Yataqlardan birinin üstündə gözü televizor pultuna sataşdı. "Bu burda nə gəzir?" - Əlinə alıb maraq və təəccüblə ora-burasına baxmağa başladı. Yadına düşdü ki, kameralarda təzəlikcə televizorlar da quraşdırılıb. Onun axtarışında içəri diqqətlə göz gəzdirəndə giriş qapısının üstündə divara bərkidilmiş qurğunu gördü. "Bura lap kurort imiş ki..." - tələsik pultu işə salmaq üçün yadırğadığı düymələri qurdalamağa başladı. Nəhayət,

televizor işə düşdü. İlk dəfə görürmüş kimi maraqla gözlərini ekrana dikdi. Kanalları bir-bir çevirməyə başladı, ancaq dövlət kanalları idi, hamısında da şou verilişləri gedirdi. Azadlıqda olanda yerli televiziyalara demək olar ki, baxmırdı. Aşağı gözdəki boş çarpayıya uzanıb iki tanınmış müğənni arasında qalmaqalla bağlı şou verilişə maraqla tamaşa etməyə başladı...

Suyun şırıltısına ayıldı. Sən demə, verilişə baxa-baxa yuxu onu aparıb və kamera yoldaşının nə vaxt gəldiyini hiss etməyib. Qalxıb masanın ətrafındakı dörd stuldan birində əyləşdi. Oturmağı ilə hamamın qapısının açılmağı bir oldu; başını qurulaya-qurulaya oradan çıxan adam gülümsəyərək əlini uzatdı:

- Bağışlayın ki, bu kökdəyəm. Sarı. Tanışlığımıza çox şadam.

- Qara. - Təzə sakin eyni təbəssümlə əl verdi; rəis müavini ilə son görüşündən sonra kamerada ona yoldaşlıq edəcək adamların adlarını artıq bilirdi, amma bilməzlikdən gəldi... - Mən də... Bağışlayın, heç bilmirəm yuxu nə vaxt məni aparıb, gəldiyinizdən də xəbərim olmayıb...

- Sən bir təsadüfə bax da, Sarı və Qara... - Sarı gülə-gülə çayniki cərəyana qoşdu. - Böyüklərimiz bu adları hardan tapıb qoyurlar uşaqlara, bilmirəm də. Sən Allah, gör mənim sir-sifətimdə sarıya çalan nəsə var?! Siz də ki, maşallah, ağappaqsınız! Elə bil ad qəhətdi... - Özünə də çay süzdü, kamera yoldaşına da. - Rənglərimizin bir-birini tutub-tutmadığını bilmirəm, amma ümid edirəm ki, xasiyyətimiz tutacaq. - Təzəcə süzdüyü çayı qaynar-qaynar içməyə başladı. - Həkimlər mənə çayı qaynar içməyi qəti qadağan ediblər, amma ılıq çay içə bilmirəm də, heç ləzzət eləmir.

Qara gülümsündü.

- Mən də çayı həm tünd, həm də isti-isti içməyi xoşlayıram. - Bu sözləri xala-xətrin qalmasın, daha çox söhbətə qatılmaq naminə dedi.

- Zövqlərimizin üst-üstə düşməsi yaxşı əlamətdi. - Sarı güldü. - Bayaq gördüm yatmısız, özüm oyatmadım. Həkimə getmişdim, son günlər burda, - əlini qarnının sağ tərəfində gəzdir-

di, - bərk ağrılar olur. Tibb məntəqəsində olanda müayinədən keçirdilər, sən demə, mədəmdə xora peyda olubmuş. Dava-dərman yazıblar, həftədə də bir dəfə həkim qəbulunda oluram... - Çayın qalığını başına çəkib qalxdı. - Burda nə də olmasa, vaxtdan boluq, dərdləşib qeybətləşmək imkanı hələ çox olacaq. Səhərdən ağzıma tikə çörək də dəyməyib, ölürəm acından... Yəqin siz də acsız...

- Mən... mən icazəniz olmadan sizin peçenyenizdən bir neçəsini yemişəm... - Qara günahkar-günahkar dilləndi.

- Yaxşı eləmisiz, burda sənin-mənim söhbəti yoxdu, nə varsa, hamınındı. Bir də ki, etiraz etməsəniz, bir-birimizə sən deyə müraciət edərdik. Həm də yaşıdıq, belə daha doğru olar məncə. Nə deyirsən, Qara?

- Etiraz etmirəm, Sarı. - Əl tutub qucaqlaşdılar.

Sarı qapıya yaxınlaşıb onu döyəcləməyə başladı. Az keçmiş, dəmir pəncərə şaqqıltı ilə açıldı. Qara ilk dəfə hiss etdi ki, bu səs daha onun əsəblərinə toxunmur.

- Eşidirəm, gözəl oğlan, - boşluqdan işvəli gənc kişi səsi gəldi.

Sarı pəncərəyə tərəf əyildi.

- Ay gözəl günün olsun! - Əlini pəncərədən uzadıb uzanan əli aldı. - Birdənəsən də, Rufa, sən olmasan, biz batarıq! - Cibindən bir beşlik çıxarıb ona uzatdı. - Ala bunu, zəhmət olmasa, bizə dükandan üç yüz qram kolbasa, bir kilo şəkər, bir dənə də çörək al gətir.

Rufa deyilən şəxs pulu alıb, eyni qəmzə ilə "baş üstə" deyib pəncərəni qapadı.

- Bu, üzdəniraqlardandı. Əsl adı Rüfətdi, Rufa deyirlər. Öz aşnasını bıçaqladığına görə beş il iş alıb. Üç ildi ki, burdadı, məhkəməsi bitəndən sonra pul verib zona[5] getməyib, qalıb burda, xozda[6] işləyir. Pis adam deyil. Hərdən tutmaları olur, o da

[5] "Zon" dustaqların dilində cəzaçəkmə müəssisəsinə deyilir. İttiham hökmü qüvvəyə mindikdən sonra dustaqları təcridxanadan həmin müəssisələrə göndərirlər.

[6] "Xoz" (rusca "хозяйство" sözündən) ifadəsi həbsxana jarqonunda "təsərrüfat bölməsi" anlamını verir.

kimsə ayağını basanda. Bunlara burda ikinci sort adam kimi baxırlar. Zonda beləları üçün daha ağır olur, ona görə, kimin imkanı varsa pul verib qalır burda. Bunları adi dustaqlarla bir yerə salmırlar, özlərinin ayrıca kameraları olur, ən çirkli işləri də bunlara gördürürlər. Həbsxana qanunlarına görə, onlardan nəsə almaq, onlarla əllə görüşmək, hətta ünsiyyətdə olmaq zapodlo[7] sayılır.

- Sən indicə əl verib görüşdün axı. - Qara gülümsündü.

- Hə, görüşdüm, - otaq yoldaşı eyni təbəssümlə cavab verdi, - çünki biz ondan asılıyıq. Buranın yeməyini heç it də yeməz, gah dükandan nəsə almaq lazım gəlir, gah evdən gələn xörəyi soyuducuya qoymaq, gah da ordan götürmək, buz kimi yeməyi qızdırmaq, siqaretin olmayanda başqa kameralardan xahiş etmək. Bir sözlə, tez-tez işimiz düşür bunlara. Adamı soxublar balaca bir yerə, qalmısan əl-qolun bağlı naəlac durumda. Oğru qanunları mənim vecimə də deyil, çünki mənim nə oğru olmaq, nə də ömrümü həbsdə çürütmək fikrim var. Məni indi düşündürən yeganə şey burdan sağ-salamat çıxmaqdı. Bunun üçün lazım gəlsə hətta eşşəyə dayı da deməyə də hazıram.

Son eşitdikləri Qaranın ürəyinə yatmadı. Kamera yoldaşı görünür, bunu hiss etdi:

- Son dediklərim təbii ki, zarafatdı. - Ardınca başı ilə qapıya tərəf işarə elədi; sanki Rufa orada dayanmışdı. - Bir də ki, bunlar da bizim kimi adamlardı, onların şəxsi həyatından mənə nə, sənə nə. Doğru demirəm?

Bu yerdə pəncərə yenə şaqqıltı ilə açıldı. Rufanın başı göründü.

- Bu sənin ərzağın, bunu isə, - içində istidən buxarlanan dolma ilə dolu qabı göstərdi, - qonşu kameradan göndərdilər. Orda sənin pərəstişkarların varmış, verilişlərinə baxıblar. Məşhur adammışsan sən, mənim də xəbərim yoxdu. Özümə də maraqlı gəldi ki, görəsən nə verilişlər imiş elə, deyirlər qan eləyirmiş-

---

[7] Rus sözü "западло" - həbsxana jarqonunda ayıb, pis, həbsxana qanunlarına görə dustağa yaraşmayan hərəkət anlamında işlənir.

sən, - bic-bic gülümsədi, - imkan olanda, gərək özündən soruşam, həm də bir-iki şey var, onları məsləhətləşəm səninlə...

Pəncərəyə tərəf əyilmiş Sarı dirçələn kimi oldu, sifətinin cizgiləri də dəyişdi. - Buyur, Rufa, hər zaman qulluğunda hazıram.

Barəsində deyilənlərin kamera yoldaşının canına yağ kimi yayıldığını Qara hiss etməmiş deyildi.

- Çox sağ ol, Sarıçik. Hə, bu da mənim qabım. O biri kamera məni də dolmaya qonaq edib, sən də kolbasadan bir-iki dilim versən, ağzım əməlli-başlı tama gələr.

Sarı xörək qaşığının tutacağı ilə kolbasadan bir tikə kəsib Rufanın qabına qoyub onu yola salandan sonra qalanını eyni üsulla dilimləməyə başladı.

- Bıçaq vermirlər, məcburam bununla doğrayam, - qaşığı kamera yoldaşına nümayiş etdirdi, - bunu da gərək, dəmirə sürtüb bir az itiləyəm ki, rahat doğramaq olsun. Hərçənd buna görə adama əlavə iş kəsə bilərlər. Guya dustaqların təhlükəsizliyinin qayğısına qalırlar da. Adam özünü və ya başqasını öldürmək ya da kiməsə xətər yetirmək istəsə, bunu etməyə burda o qədər şey var ki. Pəncərənin şüşəsi, taburetka, üzqırxanın ülgücü, döşəkağı... Evdən mer-meyvə, kartof-soğan, başqa ərzaq gətirməyə qoyurlar, onları soymağa, doğramağa bır şey vermirlər. Sən qayda-qanunla dustaq üçün nəzərdə tutulan yeməyi versən, ona nə düşüb ki, evdən yemək gətizdirsin, ya da dükandan ərzaq alsın. Hamısı pulun başındadı. Nə isə... - Susub kolbasa dilimlərini qablara düzməyə başladı. - Eşitdin də Rufa nə dedi? Belə şeylər tez-tez olur, müxtəlif kameralardan heç tanımadığım adamlar salam yollayırlar, bu cür pay-puş göndərəni də çox olur. Sağ olsunlar...

Qara ürəyində gülümsündü. Sanki eşşəyə dayı deməyə hazır olan və bayaq üzdəniraq dediyi Rufanın qarşısında az qala ikiqat əyilən bu deyildi.

- Qonşu kameralardan bəzilərində plitka var. Burda elektriklə bağlılığı olan nə varsa kənardan gətirmək qadağandı. Nə özləri verirlər, nə də gətirməyə icazə verirlər. Amma pulun varsa

bunların hamısını əldə edə bilərsən. Tok plitəsi, çaydan, sərinkeş, hətta soyuducu belə. Hərəsinin öz qiyməti var. Kameranda soyuducu istəyirsənsə, buyur, ayı üç yüz manat, tok plitəsi iki yüz manat, sərinkeş yüz manat, tok çayniki əlli manat... Mən rəisin adına ərizə yazıb tok çayniki və plitə gətirilməsinə icazə istəmişəm. Çayniki dünən verdilər, özü də, pulsuz-parasız, plitəni isə söz veriblər. Ağızları nədi verməsinlər!

Duruxdu, çevrilib qabları masanın üstünə düzən kamera yoldaşına baxdı. Qara bu baxışlarda narahatlıq sezdi, amma özünü o yerə qoymadı. Sarı pay göndərilən dolmaları qablara çəkə-çəkə son cümləsini malalamağa başladı.

- Amma rəis çox yaxşı adamdı. Ümumiyyətlə, kimi dindirsən deyir ki, əvvəlki rəhbərliyin dövründə burda oğrular at oynadıblar, kameralara haqq qoyurmuşlar, içəri narkotik keçirən kim, nəşə satan, bir-birini döyən kim. İndi bunların heç biri yoxdu daha, təzə rəis gələndən hamısı yığışdırılıb. Düzdü, bəzən dustaqların döyülməsi barədə söz-söhbətlər gəzir, amma bunsuz belə yerləri idarə etmək çox çətin olar. Burda hər cür adam var, anasının əmcəyini kəsəndən tutmuş, bacısını zorlayana qədər. İplərini bir balaca boş buraxsan, adamın başına çıxarlar. Başını aşağı salıb sakitcə dustaqçılığını edirsənsə kimsənin səninlə işi olmaz...

Kamera yoldaşı ilə ilk ünsiyyətin təəssüratı o qədər xoş olmasa da, - niyəsini heç özü də bilmədi, - həbsdə olduğu müddətdə ilk dəfə idi ki, Qaranın ağzına ev yeməyi dəyirdi. Buna görə, çox məmnun idi...

***

Kənanı vəkil görüşə dəvət etmişdi; bu dəfə təklikdə, onun ofisində görüşürdülər. Sahibkar başına gələnləri ətraflı ərz elədi, vəkil diqqətlə dinləyir, hərdən dəqiqləşdirici suallar verirdi. Sonda susub fikrə getdi. Bu sükutu durumun ağırlığına işarə kimi qəbul edən qonaq daha da təlaşlandı.

- İş çox böyüyüb, isti-isti daha asan həll etmək olardı, - müştərisini bir xeyli intizarda saxlayan vəkil nəhayət, dilləndi. - Bu başdan vəd vermirəm, amma onu söz verə bilərəm ki, nə mümkünsə etməyə çalışacam...

Vəkil həm riskləri, həm də vəziyyətdən çıxış yolları ilə bağlı mümkün variantları bir-bir səbrlə izah etməyə başladı. Razılaşdılar ki, hər ikisi bir daha bu variantlar üzərində fikirləşsinlər və yaxın zamanda bir daha görüşüb atılacaq addımların planını cızsınlar.

Kənan qarşısındakını tanıya bilmirdi. İndi onunla söhbət edən bu adamla evində qonaq olan Mahmud arasında yerlə göy qədər fərq vardı: danışığında, davranışında, oturuşunda, duruşunda - hər şeydə! "Görəsən, əsl Mahmud hansıdı?" - düşündü.

Bu arada oğlundan yenidən mesaj aldı; burada olduğu müddətdə Murad tez-tez yazıb Zaranı soruşurdu. Evdən çıxanda ona sevimli quşu ilə birgə qayıdacağına söz vermişdi. Arada Zaranı burada görə biləcəyi ümidilə künc-bucağa göz gəzdirdi də, amma quş görünmürdü.

"Ola bilsin, evinə aparıb", - deyə düşündü.

Deyim ya deməyim seçimi arasında tərəddüddə qalmışdı.

"Normal adamdı, özü söhbəti açar yəqin. Sadəcə, deyə bilər ki, bağışlayın, sərxoş olmuşam, buyurun, Zaranızı geri alın"...

Görüş bitib qapıya yaxınlaşana qədər ümidini itirməmişdi. Amma ofisin sahibi sanki heç elə bir hadisə olmayıbmış kimi davranırdı. Ayaqqabısını ayağına keçirə-keçirə, onu əliboş görəndə oğlunun keçirəcəyi məyusluğu düşününcə, içində acığını boğa bilmədi:

"İkiniz də elə eyni adamsınız!"

Qapıdan çıxhaçıxda vəkil fikirlərini oxuyurmuş kimi:

- Bağışlayın... ö gün çox içmişdim. Quşla bağlı da heç yaxşı alınmayıb... Artıq-əskik hərəkət etmişəmsə, üzrlü sayın, heç nə xatırlamıram, - deyə üzrxahlıq etdi.

Bu sözləri eşitcək qonağın çöhrəsində təbəssüm peyda oldu:

- Siz nə danışırsınız, Mahmud müəllim, - quşun geri qayıda-

cağına daha heç bir şübhəsi qalmamışdı; hətta bayaq barəsində pis düşündüyünə görə ürəyində özünü qınayıb dilxoşluq etməyə başladı, - hər kəsin başına gələ bilər, olan işdi... Bir də ki, heç artıq-əskik hərəkətiniz də olmayıb axı.

Vəkil əvvəlcə razılıq əlaməti olaraq gülümsündü, ardınca yenidən günahkar görkəm aldı.

- Amma sizə pis xəbər verməli olacam... Bilmirəm necə olubsa, qəfəsin qapısı açılıb, quş da uçub gedib. - Bunu deyib əlini cibinə apardı. - Mən bir neçə zoomağazaya girib qiymətlərlə maraqlanmışam; bəlkə də, bu cür danışmağım yaxşı çıxmır, üzr istəyirəm buna görə, amma bu məbləğə o quşdan daha yaxşısını almaq olar... - Əlində beş dənə yüzlük avro tutmuşdu.

Elə bil Kənanın başına qaynar su tökdülər. Hə, bu məbləğ onun Zara üçün ödədiyindən qat-qat artıq idi, amma qarşısındakı bu adama necə anladaydı ki, oğluna, lap elə özünə hər hansı başqa birisi yox, məhz Zara gərəkdi.

- Oğlum o quşa çox bağlı idi... - Çətinliklə məyusluğunu gizlətməyə çalışdı, zorla gülümsündü. - Eybi yox... Hadisədi olub, daha neyləmək olar... - Ağzından qırıq-qırıq sözlər çıxırdı. - Kaş olmayaydı... Pula isə ehtiyac yoxdu...

Görüşdən ümidli çıxsa da, oğluna nə cavab verəcəyini düşünəndə canını dərd alırdı. Uşaq əməlli-başlı quşun xiffətini çəkirdi, bu, səhhətinə çox pis təsir edə bilərdi. Həkimlər hər ikisinə bərk-bərk tapşırmışdılar ki, əsəblərinə mənfi təsir edə biləcək şeylərdən onu mümkün qədər qorusunlar. İndi Murada nə deyəcəkdi. Hansı yalan uyduraydı ki, uşaq inansın, əsəbləşməsin, stres yaşamasın. Bütün yol boyu ancaq bu barədə düşünürdü, amma beyninə ağlabatan bir şey gəlmirdi ki, gəlmirdi. Beləcə, fikir içində evlərinə yaxınlaşmaqda idi ki, yolunun üstündə olan zoomağazanın yanından keçəndə mexaniki ayağı əyləcə doğru getdi.

Dükanın sahibi quşlara yem verirdi, onu görcək sevincək az qala qarşısına qaçdı, çatan kimi də yüz ilin tanışı kimi qucaqladı.

- Qardaş, neçə vaxtdı gözüm yoldadı ki, nə vaxt gələssən!

Ümidimi lap itirmişdim. Dedim, yəqin, köçüb getmisən bu həndəvərdən.

Kənan təəccüblə Həsən kişiyə, - onun adını ötən alış-verişdən yadında saxlamışdı, - baxdı. Həyəcanını gizlədə bilməyən mağaza sahibi ona ağzını açmağa imkan vermədi.

- Xatırlayırsan da, tutuquşunu sənə satanda onun sahibindən də söz açmışdım. Tanrının işinə bax, sən quşu alıb getməyindən heç on gün keçməmişdi ki, həmin adam gəlib çıxdı. Sən demə, iş yerindən onu Afrika ölkələrindən birinə altı aylığa ezam ediblərmiş. Orda olduğu müddətin sonuncu ayında çalışdığı şirkətin iyirmiyə yaxın əməkdaşı ilə birgə yerli hakimiyyətə qarşı çıxan silahlı qruplaşmalardan biri tərəfindən girov götürülüb. Adam elə dəhşətlərdən keçib, başına elə qəzalar gəlib ki... hələ də yadıma düşəndə damarlarımda qanım donur. Girovda olduğu müddətdə hər an ölümünü gözləyirmiş. Onları əsir götürən qrup hökumətdən həbs olunan liderlərindən birinin azadlığını tələb edirmiş. Dağlıq ərazidə gizlənən qruplaşma tələbləri yerinə yetirilənə qədər, hər iki gündən bir girovlardan birinin edam olunacağını bəyan edib. Dediklərinin də üstündə durublar. Əllərində qırxa yaxın adam olub. Təhlükəsizliyə görə, tez-tez yerlərini dəyişirmişlər. Hər dəfə girovların əl-ayağını bağlayıb maşınların baqajlarına doldururmuşlar. Danışırdı ki, bədbəxtlərdən üçü elə yollarda havasızlıqdan ölüb. Hər iki gündən bir döyüşçülər yanlarına gəlir, "kafir" qışqıra-qışqıra bir nəfəri edam üçün aparırmışlar. Sonda iki nəfər qalıb, bu və Pakistandan olan bir nəfər. Hər dəfə qapı açılanda bu yazıq da o dünyanı görüb-gəlirmiş...

Bu vaxt dükana iki gənc daxil oldu və birbaşa tutuquşular olan yerə yaxınlaşdılar. Həsən kişi üzrxahlıq edib o tərəfə getdi. Bu acı hekayənin necə bitdiyini tez bilmək arzusu ilə alışıb-yanan Kənan səbirsizliklə onun geri dönməsini gözləməyə başladı. Gənclər mağazanı tərk edən kimi Həsən kişi yanına döndü:

- Zaranı soruşurdular. Çox bəyənmişdilər onu, quşunku da bunlarla tuturdu. Bu yaxınlarda evləniblər, təzə evə kö-

çüblər, onun üçün gəlmişdilər, almaq istəyirdilər Zaranı. - Kənanın fikri bayaqkı söhbətin yanında idi; satıcı bunu hiss etdi. - Bayaq harda qaldım, - alnını bərkdən ovuşdurdu, - eh, qocalıq... hə, girovları əzab verə-verə öldürürmüşlər, kimisinin başını kəsiblər, kimisini qəfəsin içinə salıb diri-diri yandırıblar, bir başqasını iplə maşının arxasına bağlayıb sürüyüblər... Bütün bunları videoya çəkib sosial şəbəkələrdə yayır, sonra da gətirib bunlara göstərirmişlər. Təsəvvür edirsənmi yazıqların halını! O, danışdıqca mənim tüklərim biz-biz olurdu. Zaranı mənim yanıma gətirəndə qapqara saçları vardı, son gəlişində isə tanımadım onu, saçları ağarmışdı, sir-sifətini qırışlar basmış, beli bükülmüşdü. Qoca kişiydi elə bil...

Eşitdikləri Kənanı sarsıtmışdı. Dükan sahibi sözünü bitirər-bitirməz yaxınlıqdakı qəfəslərdən birindəki bülbül yanıqlı-yanıqlı oxumağa başladı. Araya çökmüş ağır sükuta həzinlik qatan bu səsə qulaq asa-asa fikirli-fikirli dilləndi.

- Belə anladım ki, Zaranı aparmaq üçün gəlib. O cür od-alovun içindən keçmiş adamın o quş nəyinə gərəkmiş ki.

- Mənə də çox maraqlı gəlmişdi, özümü saxlaya bilməyib sualı verdim ona. Kaş verməyəydim ki, dediklərini də eşitməyəydim. Sən demə, həmin quşla bu bədbəxti müdhiş bir faciə bağlayırmış, adamın başı həqiqətən bəladaymış! Yanıma ilk gəldiyi vaxtdan bir neçə ay öncə o, qardaşı, hər ikisinin həyat yoldaşı və qardaşının səkkiz yaşlı qızıyla birgə Türkiyədən istirahətdən gəlirmişlər. Bunların toyu təzə olubmuş, qardaşının da ailəsini götürüb bal ayını bir yerdə keçirməyi qərara alıblar. İstanbullu tanışlarının dəvəti ilə məşhur gecə klublarından birində əyləndə terrorçular ora basqın edib, hər yeri güllələbaran ediblər. Güllələr başlarının üstündən uçuşurmuş, çox dəhşətli anlar yaşayıblar, o dünyanı görüb gəliblər. İyirmiyə yaxın adam ölüb, qırxdan çoxu isə yaralanıb. Bunların anaları namaz üstə imiş, heç birinin burnu belə qanamayıb. Amma möhkəm qorxduqları üçün panikaya düşüb elə ertəsi gün də geri qayıtmağa qərar veriblər. Bütün yol boyu Tanrıya dua edib, qurban boyun olublar.

Beləcə, şükr edə-edə yol gəlirmişlər ki, qəfil qarşıdan gələn maşın yollarına çıxıb. Ancaq bu sağ çıxıb, bir də...

- Uşaqmı? - Həyəcandan alışıb-yanan Kənanın səbri çatmadı.

- Yox, təəssüf ki, uşaq da tələf olub... Bir də, o tutuquşu. - Gah susub, gah da zilə qalxan bülbüldən gözlərini çəkməyən Həsən kişi davam etdi. - Hə, hə, o tutuquşu da maşında olub. Quş uşağın sevimlisiymiş, hara gedirmiş, onu da özü ilə aparırmış. Qardaşının ailəsindən yeganə yadigar qalan da o imiş... - Ara verdi. - Zaranı cəmi bir neçə gün öncə satdığımı eşidəndə nə hala düşdüyünü bir görəydiniz. Kimə satdığımı soruşdu, deyəndə ki, bilmirəm, çox pis oldu. Mən nə biləydim ki, adamın başına bu qədər müsibətlər gəlib, yoxsa heç satardımmı...

Satıcı masasına yaxınlaşıb siyirmədən köhnə bir dəftər çıxardı, vərəqləyib axtardığını tapdı.

- Həmin adam mənə telefonunu qoyub, çox xahiş etdi ki, birdən mağazada görünüb eləsən, bu nömrəni sənə verim ki, onunla əlaqə saxlayasan. Onu da dedi ki, Zaraya görə nə qədər pul istəsən, verməyə hazırdı. Elə o vaxtdan gözüm qapıda qalıb... - Kişi nömrəni bir kağıza yazıb həmsöhbətinə uzatdı. - Quş yəqin sağ-salamatdı həə?

Kənan gözlərini ona dikib key-key baxırdı.

- Qardaş, səninləyəm... - Kənanın cavab vermədiyini görüb narahat-narahat soruşdu: - Özünü pis hiss edirsən?

- Hə... yox... üzr istəyirəm, hə, yaxşıyam. Narahat olma, quş... Zara bizdədi. O adamla da mütləq əlaqə saxlayaram.

- Lap yaxşı. - Həsən kişi sanki indi ayıldı. - İçəri girəndə sənə imkan vermədim ağzını açasan. Nəsə lazımıydı?

Eşitdiklərinin şokundan hələ də özünə gələ bilməyən Kənan bura nəyə görə gəldiyini dərhal yadına sala bilmədi.

- Yox... elə belə dəydim... - deyib sağollaşıb mağaza sahibinin təəccüblü baxışları altında çıxışa tərəf yollananda nəhayət, gəlişinin məqsədini xatırlayıb yarı yodan geri döndü. - Bağışlayın, mənə bir tutuquşu lazımdı, Zaranın tam eynisi. Amma məndən heç nə soruşmayın...

Dükandan çıxanda oğlunun növbəti mesajına qısa cavab yazdı:

"Gəlirəm."

Qapının o tərəfindən oğlunun əvvəlcə "atam gəldi" qışqırığını, ardınca da qaçaraq ayaq səslərini eşitdi. Çox həyəcanlı idi, yalanı üzə çıxsaydı, oğluna nə cavab verəcəkdi, bilmirdi...

Murad qapını açanda atasının əlində qəfəsi və içindəki quşu görcək sevincini təsvir etmək üçün söz tapmaq çətindi. Uşaq qəfəsi alıb öz otağına apardı.

Lalə ərinə yaxınlaşıb təəccüblə:

- Necə ala bildin? - soruşdu.

- Özü qaytardı, üzr istədi ki, içkili olub. - Arvadının üzünə baxmadan cavab verdi; ardınca da: - Yemək yemişəm, məni narahat etməyin, əlimdə vacib işim var, səhərə bitirməliyəm, - deyib birbaşa iş otağına keçib qapını örtdü. Həmin gün əli işə yatmadı. Gah iş masasının üstündəki kompüterin arxasında oturdu, gah da gecələr işi çox olanda qalıb gecələdiyi divanda uzandı, nə xaricdəki biznes partnyorlarından birinə göndərməli olduğu məktubu yaza bildi, nə də bir neçə dəfə açıb-bağladığı tarixi romanı oxuya. Fikri o biri otaqda idi. Hərdən oğlunun səsi eşidilirdi:

"Salam Zara, necəsən?", "Mən səni sevirəm, Zara"...

Hamı yatana qədər səksəkə içində Muradın bu dəqiqə içəri girib, "Ata, sən məni aldatmısan, bu, Zara deyil!" - deyə hirslə yalanını sifətinə çırpacağını gözlədi. Beləcə, səksəkə içində yola verdiyi gecəni səhər əvəzləyəndə yuxu onu apardı.

Bütün gecəni həm də o barədə düşünmüşdü ki, Zaranı onsuz da sahibinə qaytarmalı olacaqdılar...

***

Mahmudun gözləri sabah məhkəməsi başlayacaq keçmiş qaynının işi üzrə sənədlərdə olsa da, fikri başqa yerdə idi.

...O gün görüşə gedəndə onu hansı sürpriz gözlədiyini heç

ağlına da gətirə bilməzdi. Elə həmin o binanın yeddinci mərtəbəsində baş tutan ənənəvi və adi görüşlərdən biri idi; hər zaman olduğu kimi, otaq sahibi onu mehribanlıqla qarşılamış, çay süfrəsi arxasında bəzi məsələləri müzakirə etmişdilər. Xahiş də söhbətin şirin yerində səslənmişdi, ardınca da, təbəssümlə "amma istəməsən, bunu anlayışla qarşılayacam" demişdi. Bütün bunlar o qədər gözlənilməz oldu ki, özünü itirdi və əməllicə düşünüb-daşınmadan razılıq verdi.

Görüşdən ağır təəssüratla çıxmışdı. Bu işin məhz onun götürməsi ideyasının haradan yarandığı və arxasında hansı niyyətin dayana biləcəyi barədə sonralar çox düşündü. Onu elə bir oyuna qatırdılar ki, keçmişilə bağlı bütün körpüləri birdəfəlik yandırmalı olacaqdı. Bu idimi məqsəd? Yoxsa ona güvəndən qaynaqlanan dost xahişi idi yalnızca? Bilmirdi. Bəlkə də, anındaca yox desəydi, normal qarşılanardı, amma imtina etməyə dili gəlməmişdi; xahişi edən adama can borcu vardı...

Süsənin yazıçı qardaşı Əlif Bahadırı oliqarx nazirlərdən biri məhkəməyə vermişdi; sosial şəbəkələrdə nazirin və yaxınlarının xarici ölkələrdə dəyəri on milyonlarla ölçülən çoxsaylı mülkləri barədə məlumatlar yayıldıqdan sonra Əlif nüfuzlu əcnəbi qəzetlərdən birinə verdiyi müsahibədə naziri "korrupsioner", "oğru" və "quldur" adlandırmışdı. O, son illər hökuməti çox sərt tənqid edən çıxışlar edirdi və tez-tez də birinci şəxslərin adını çəkirdi. Görünür, bu yolla qorxutmaq, ağzını yummaq istəyirdilər. Bu yazı da əllərinə fürsət verdi. Yazarı cinayət məsuliyyətinə cəlb etmək tələbilə bağlı şikayətində məmurun istinad etdiyi maddə iki ilə qədər azadlıqdan məhrum etmə cəzası nəzərdə tuturdu.

Təzə-təzə bu cür proseslərə çıxanda sonradan uzun müddət özünü pis hiss edirdi, amma vaxt keçdikcə alışmağa başladı. Məhkəmə zallarında, xüsusən də, sosial şəbəkələrdə ünvanına səslənən söyüş və təhqirləri udmaq asan olmasa da, onları mümkün qədər ürəyinə salmamağa çalışırdı; tədricən bunu vərdişə çevirməyi bacardı. Amma sabah başlanacaq proses sıra-

dan birisi deyildi. Yazıçıya, dolayısı həm də Süsənə dəstək olmaq üçün prosesə gələnlər bir tərəfə, keçmiş həyat yoldaşının, həbsdə olduğu dövrdə tez-tez yanına gedib-gələn, ona yemək daşıyan qaynının, ilk gündən onu öz oğulları kimi qəbul edən və ən çətin anlarında ona dayaq olan qaynatasının, qaynanasının üzünə necə baxacaqdı? Bu düşüncələr ətrafında bütün gecəni gözünə yuxu getmədi.

İşdə də özünə yer tapa bilmədi. Belə hallarda içki köməyinə çox gəlirdi. Özü də, gözdən-qulaqdan, bütün bu hay-küydən, oyunlardan uzaq bir yerdə. Kreslosundan qalxdı, katibəsinə məhkəməyə getdiyini söyləyib ofisdən çıxdı. Az sonra maşını onu əyri-üyrü dağ yamacları ilə özünü ən çox rahat hiss etdiyi bir yerə aparırdı...

Zaranı Qayaya apardığı gün quş nə yeməyə, nə də suya yaxın durmuşdu. O, qəfəsə yaxınlaşan kimi yenə özünü dəmir divarlara çırpır, dəlilik edirdi. Əvvəl şəhərdəki evinə qaytarmaq istəmişdi, amma sonra "burada mənə özüm kimi birisi lazım" deyə fikrindən daşınmış, tərs heyvanı Qayada ac-susuz qoyub geri dönmüşdü. Bu gün orada nələrə şahidlik edəcəkdi, bunları görmək ona çox maraqlı gəlirdi.

Ayağı içəri dəyən kimi gözü quşu aradı. Zara onu görcək yenidən çığıra-çığıra özünü qəfəsin divarlarına çırpmağa başladı. Amma aclıq öz sözünu deyirdi, tez də heydən düşüb bir küncə qısılıb qaldı; çölə zillənən baxışlardan yenə nifrət yağırdı.

- Mənə niyə axı belə baxırsan?! Neyləmişəm mən sənə?! Olmaya, sən də mənim kim olduğumu bilirsən? De, bilirsən? Yaxşı, əgər bilmirsənsə, onda deyim. Hə mən, satqınam, yaramazam, əclafam! Bildin indi, mən kiməm?! - Sifətini qəfəsə yaxınlaşdırıb şəhadət barmağını qəzəblə yellədi. - Amma bunu özüm barədə ancaq mən özüm deyə bilərəm, anladın?! Tək özüm! Başqa kimsə dilinə gətirsə, o dəqiqə boğazını üzərəm! - Dəli kimi bağırdı.

Əl-qolunu ölçə-ölçə səsini başına aldı:

- Niyə belə edirsən? Qürurlu çıxmısan?! O ağılsız quş bey-

ninlə anlamırsan ki, sənin mənliyini sındırmaq insan əlində heç nədi! Mən də vaxtilə sənin kimi qürurlu idim. Amma sındırdılar məni! Ona görə, qürurlu kim görürəmsə, gözümün düşmənidi! Bilirsən niyə? Çünki beləsini görəndə sınmış, əzilmiş, alçaldılmış qürurum oyanır, ruhumu tərpədir, içimi didir, mənə əzab verir! - Gəlib quşun qarşısında durdu. - Sən axı nə bilirsən ki, mən nələrdən keçmişəm və bunları bilmədən necə ittiham edə bilərsən məni?!

Soyuducunu açıb oradakı cürbəcür bahalı içkilərin arasından birini götürdü, qapağını açıb qədəhini doldurdu, başına çəkib yenidən qəfəsə yaxınlaşdı, heydən düşmüş, susuzluqdan ləhləyən heyvanla üz-üzə dayandı.

- Sən elə bilirsən, mən həmişə belə olmuşam?! Yoox, səhv edirsən, axmaq quş, vaxt var idi, mən də sənin kimi qürurlu birisi idim, qabağımdan yeməzdim, ən təhlükəli işlərə çıxardım, böyüklər əlimdən qan ağlayardılar... Sonra şərləyib həbs etdilər, etmədiyim cinayəti boynuma qoydular. Beş il həbsdə yatdım. Çox çalışdılar ki, məni sındıralar, o oyun qalmadı ki, başıma açmasınlar... günlərlə karsa atdılar, kamerama narkoman, vərəm xəstəsi saldılar, dustaqları üstümə qaldırdılar, ölümlə təhdid etdilər, dilə tutdular... Bax, sən üç gündən çox ac qala bilmədin, mənim isə həbsdə bir aydan çox ac qalan günlərim olub. Başqa vaxtı yeməyə yarma supu, iylənmiş ətdən şorba verirdilər, aclıq etdiyim günlərdə isə kababından tutmuş, mer-meyvəsinə qədər, dünyanın ən dadlı nemətlərini düzürdülər masamın üstünə. Davam gətirmək çox çətin idi, çoox. Nəfsim mənə güc gəlməsin deyə onları unitaza tökürdüm, pəncərədən bayıra atırdım. Deyim biləsən, sənin kimi məni də bir neçə dəfə yerə yıxıb, güclə ağzıma yemək töküblər. Gözlərinin qabağındaca hamısını geri qaytarmışam. Mən səni sındırdım, amma onlar məni sındıra bilmədilər!...

Siqaret çıxarıb yandırdı.

- Məni narkotik ittihamı ilə tutmuşdular, amma heç siqaret də çəkmirdim. Bunu da orda öyrəndim. Çox istəmişəm atam,

amma bacarmıram. O günləri hər dəfə xatırlayanda başım gedir, az qala dəli oluram, onda bu zəhrimar çox köməyimə gəlir... - Siqaretdən qullab vurdu, dərindən içinə çəkdiyi tüstünü quşun üzünə pülədi; Zara üzünü o tərəf-bu tərəfə qaçırıb səndirlədi, amma çətinliklə də olsa müvazinətini qoruyub saxlaya bildi və yenidən nifrətlə dolu gözlərini qarşısındakı adama dikdi. - Bir dəfə yanıma bir nəfər gəldi, dedilər böyüklərdəndi. Çox sərt danışdı mənimlə, dedi ki, əgər cəzanı bitirib azadlığa çıxacağını düşünürsənsə, möhkəm yanılırsan. Təzə bir cinayəti boynuna qoyacaqlar və sən burda çürüyəcəksən. Deyib getdi. Bir neçə gün özümə gələ bilmədim. Əvvəl, buna getməzlər, lap ağ olar, deyə düşünürdüm və çalışırdım ki, beynimdən atam o söhbəti. Amma heç bir ay keçmədi ki, etmədiyim cinayəti boynuma qoyub cəzamı daha dörd il artıranda anladım ki, mənimlə zarafat etmirlər. Onda ilk dəfə içimə şübhə toxumları düşdü, öz-özümə sual verməyə başladım ki, həyat bir dəfə verildiyi halda bütün bu məhrumiyyətlərə, özünü qurban verməyə dəyərmi. Fikirləşdim ki, burda ölsəm, uzaqbaşı bir ay barəmdə yazıb-pozacaqlar, kimlərisə asıb-kəsəcəklər, sonra hamı sakitləşib öz həyatını yaşamaqda davam edəcək. Yaxşı halda, üç-dörd il öldüyüm gün beş-on nəfər qəbrimin üstünə gəlib bir-iki ağız danışıb dağılışacaqlar. Sonra tamam yaddan çıxacam. Qəhrəman kimi ölüb sonradan unudulan azmı adam var? Onda çox çətin oldu mənim üçün, əzab çəkirdim, tərəddüdlər qurd kimi beynimi yeyirdi. Bir gün yanıma çox böyük bir adam gəldi. Əvvəlkilərdən fərqli olaraq çox insani danışdı mənimlə. Həm azadlığa çıxıb, həm də yaxşı yaşaya biləcəyin halda niyə və nəyin naminə ölməlisən ki dedi. Söhbətimiz bir neçə saat çəkdi. Fasilədə yemək gətizdirdi, kababından tutmuş içkisinə qədər. Yeyib-içməyin ortasında məni niyə içəridə saxladıqlarını soruşdum. Gülə-gülə dedi ki, özün içəridə olmaq istəyirsən, ona görə. Sonra ciddi-ciddi əlavə etdi ki, burda olmaya da bilərsən. Bunun üçün nə etməli olduğumu soruşdum. Gülümsünüb peşmanlıq ərizəsi yazmağımı və çıxandan sonra əvvəlki işimlə məşğul olmayacağıma söz verməyimi

istədi, ardınca onu da əlavə etdi ki, danışığın şərtlərini pozmağa görə cəzalar daha sərt olur. Düşünmək üçün üç gün vaxt istədim. O günləri nələr yaşadım, bir özüm bilirəm, bir də Allahım! Üç gündən sonra həmin adam yenidən gəldi. Ərizəni yazdım, dediyi şərti də qəbul etdiyimi söylədim. Bir aydan sonra azadlığa çıxdım. Bayırda məni qəhrəman kimi qarşıladılar. İlk dövrlər özüm özümdən utanırdım, çünki daha qəhrəman olmadığımı özüm ki bilirdim...

Masasına yaxınlaşdı. Oradakı konyakdan qədəhinə süzüb yenidən qəfəsin yanına qayıtdı, diqqətlə quşun gözlərinə baxdı. Oradan hələ də nifrət yağırdı. Qədəhi başına çəkmək istəyəndə dayandı.

- Bəlkə, sən də mənimlə içəsən? Bütün dərdləri unutdurur, dünyəvi-aləm adamın vecinə olmur. Heç əclaf olmağını da özünə dərd eləmirsən... Yaxşı, istəmirsən içmə! İçkidə məcburiyyət yoxdu. Atam həmişə belə deyərdi. - Qəhərdən səsi titrədi. - O da mən həbsdə olanda dünyasını dəyişdi. Heç sonuncu dəfə üzünü görməyə də buraxmadılar. Atam mənim üçün çox qiymətli idi. Azadlığım üçün çox çalışmışdı o kişi. Çox ağır günlər idi. O yaşantıları sözlə ifadə etmək mümkün deyil...

Qədəhi başına çəkdi, içi odlanırmış kimi sir-sifətini büzdü. Sonra üzünü qəfəsə yaxınlaşdırıb spirt qoxuyan nəfəsini düz quşun sifətinə püfürdü. Spirtin iyindənmi, yoxsa nifrətdənmi Zara ikrahla başını yellədi. Adam dəli kimi qəhqəhə çəkdi. Sonra sifəti yenidən həminki halına qayıtdı.

- Söhbətim harda qaldı? - Bir xeyli donuq gözlərini quşun sifətinə dikdi. - Hə, yadıma düşdü. Həbsdən çıxandan sonra həmin adamla bir neçə dəfə onun iş yerində görüşdüm. Söhbət əsnasında hansısa xahişim varsa çəkinmədən söyləyə biləcəyimi dedi. Ofis və bir-iki də başqa problemim vardı, onları dedim. Elə yanımdaca kimlərəsə zəng edib təcili həll etmələrini tapşırdı. Beləcə, dostlaşdıq onunla. Arada o da məndən xırda-para xahişlər edirdi. Hansısa bir qəzet və ya jurnalist hansısa hörmətli məmur və ya nazir barədə təhqiramiz yazı dərc edəndə həmin iş-

lərdə vəkillik etməyimi xahiş edirdi... - Boşalmış qədəhini yenə doldurdu. - Adam mənim təkcə azadlığa çıxmağımın səbəbkarı deyil, həm də məni ola bilsin, ölümdən qurtarıb. Ona bir can borcum var. Etdiyi xahişlər isə yaxşılığının yanında çox xırda şeylər idi. O işlərə çıxmağa başlayanda hamı üstümə tökülüşdü, mənə satqın damğası vurdular, təhqir etdilər, söydülər... barəmdə elə şeylər yazırdılar ki... Halbuki mən heç kimi satmamışdım. Əvvəl bir tərəfi müdafiə edirdim, özü də uzun illər və pulsuz-parasız, həmin adamlar məni satqın çıxardılar... Sonra bu biri tərəfi müdafiə etməyə başladım, əvəzində pulumu da verirdilər, hörmət-izzətimi də saxlayırdılar. Hərdən ötən günlərin xiffəti güc gəlirdi, amma tez də qovurdum o fikirləri başımdan. Anlayırdım ki, onlardan nə qədər uzaq olsam, başım da bir o qədər az ağrıyar. Oyun qaydalarını pozmağın bədəlinin ağır olduğunu bilirdim. Beləcə, yeni həyata uyğunlaşırdım. Ta o hadisəyə qədər...

Susdu. Başına çəkdiyi qədəhlərin sayını itirmişdi. Dili hərdən topuq vursa da, ağlı da, mühakiməsi də yerində idi.

- Həmin gün bir toydan çıxıb bura, Qayaya gəlirdim. İçmək istəmirdim, amma məclis sahibi polis rəisi idi, qohum-əqrəbası da yüksək vəzifələrdə çalışır. Yəni elə-belə adam deyil. Məni məcbur içirtdi, kimsə yolda saxlasa, adımı verərsən dedi. Yolda maşını elə də böyük sürətlə sürmürdüm. Qabağımda qırmızı bir Volvo gedirdi, sürücüsü qadın idi, sürəti yüksək deyildi, yetmiş-səksən olardı ya olmazdı, amma fikri yolda deyildi, maşındakı iki gənc qadın və bir cavan oğlanla laqqırtı vururdular. Ürəyimə nəsə damdı, dedim keçim bunu, xəta-bəlası məndən uzaq olsun. Sürəti qaldırıb sol tərəfinə keçmişdim ki, birdən onun qarşısına hardansa it çıxdı. Görünür, ya xam idi, ya da başı söhbətə qarışdığı üçün özünü itirdi, iti vurmamaq üçün maşını sağa yox, mənə tərəf burdu. Mən də onu vurmamaq üçün maşınımı sola verib qarşı yola çıxmalı oldum. Onda gördüm ki, qabaqdan ağ rəngdə bir maşın düz üstümə gəlir. Çox dumanlı şəkildə maşının içində bir neçə nəfər olduğunu sezdim və sonra... sonra dəhşətli səs eşidildi. Ondan sonrasını xatırlamıram.

Hə, bir də işıq bir anlığa maşının içinə düşəndə balaca bir qız və əlində bir quş xəyal kimi gözümün önünə gəlir, gedir. O uşaq da öldü...

Səsi titrədi. Gözləri doldu. Udqunub dayandı. Nəfəsi ağır-ağır gəlirdi. Zara sakitcə dayanıb qulaq asırdı; hər halda, adama belə gəldi, hətta quşun gözlərində mərhəmət işartılarına oxşar nəsə də hiss elədi.

- Məni tutub polisə apardılar. Orda bildim ki, uşaqdan başqa maşında olan daha üç nəfər ölüb. Analiz də içkili olduğumu göstərdi. Azı on-on iki ilim var idi. Onda fikirləşdim ki, bu dəfə də içəri düşsəm, ordan ya ölü çıxaram, ya da dəli. Bu başdan ölmək daha yaxşı idi. Məni içirdən polis rəisi telefonuma cavab vermədi. Əslində, anlayırdım ki, bu iş onun girəcəyi kol deyil. Həmin anda o adam yadıma düşdü, telefon açdım ona, bir zəngi ilə buraxdılar məni. İşi də sonra mənim xeyrimə qoşub düzdülər. Volvodakıları tapıb qorxutdular, hamısı mənə tərəf şahidlik etdi ki, günah məndə olmayıb, o biri maşın mənim yoluma çıxıb. Bu dəfəki azadlığımın bədəlinin daha ağır olacağını anlayırdım. Elə də oldu. Sifarişlər bir-birinin ardınca gəlirdi. Bir gün də ayılıb gördüm ki, olmuşam əclafın birisi...

Özünü saxlaya bilməyib hönkürdü.

- Mən istəmirdim əclaf olam, məni zorla əclaf elədilər əclaflar! Heç olmasa sən mənə inanırsan?! - Bərkdən qışqırdı: - İnanırsan ya yox?! - Səsi elə bərkdən çıxdı ki, quş qorxusundan küncə qısılıb büzüşdü.

Gözlərinin yaşını silib yenidən masasına qayıtdı, qədəhi doldurdu. Başı tamam dumanlanmışdı. Tüstüdən ətraf da duman içində idi.

- Heyif ki, sən içmirsən... Yoxsa vurardın səninlə leş olana qədər. Tək içməyə adamın o qədər də həvəsi olmur. - Qaşlarını çatdı. - Bura bax, birdən elə bilərsən alkaşam-zadam haa! Mən tutulana qədər bu zəhəri dilimə də vurmamışam. Amma indi içəndə küpünə girirəm... Yalnız içki unutdurur mənə hər şeyi, başqa heç nə! Mən ancaq burda olanda özüm oluram, bütün

acılarım və əzablarımla. Buranı səndən başqa heç kim görməyib və heç vaxt da görməyəcək. Buranı görənlər burdan sağ çıxa bilməz! Mən öləndə də gəlib burda öləcəm.

Gəlib qəfəsin qarşısında dayandı.

- Heç kəs məni anlamaq istəmir. Heç olmasa, sən məni başa düş! - Sifətinə uşaqlara xas məsumluq qondu. Səsi də yumşaldı. - Sən adi quş deyilsən, ilk dəfə səni görəndə bunu anlamışdım. Mən sənin gözlərində də əzab və acılarının dərin izlərini görürəm... Nə baş verib axı? Onları mənə danışa bilsəydin, kaş! İstəyirsən, qəfəsi açım, burda azadlıqda yaşa. Həə, istəyirsən?

Zara gözlərini bir an da ondan çəkmirdi. Həmin dəqiqə adama elə gəldi ki, quş dediklərini anlayır, hətta gözlərindəki nifrət də yoxa olub.

İxtiyarsız əli qəfəsə doğru getdi.

- Görürsən, məndə sənə qarşı heç bir kin-küdurət yoxdu, indiyə qədər nə olubsa da qaldı keçmişdə. Biz səninlə hətta dost, sirdaş da ola bilərik. Heç kimlə bölüşmədiyim sirləri, məni içəridən didib-parçalayan acıları bölüşmək üçün yaxın birisinə ehtiyacım var. O, sən ola bilərsən. Mən insanlara etibarımı itirmişəm daha. Onlar hamısı alçaqdılar, riyakardılar, əclafdılar. Pula, var dövlətə, vəzifəyə görə hər şeylərini satarlar. Mənim sənin kimi etibarlı, mərd bir dosta çox ehtiyacım var. Elə birisinə ki, qorxmadan hətta ən acı həqiqətləri belə üzümə söyləyə bilsin. Elə birisi ki, hətta mənə deyə bilsin ki, sən əclafsan, Mahmud! De mənə bunları, de! Bunları üzümə söyləməyə ancaq sənə haqq verirəm. Dee!

Cəftəni qaldırıb qəfəsin qapısını açdı:

- Çıxa bilərsən indi! - deyib bir neçə addım geri çəkildi. - Gəl, qorxma, gəl!

Quş bir müddət gah ona, gah da açıq qalmış qapıya baxdı. Xeyli çəkən tərəddüddən sonra asta addımlarla ora yaxınlaşdı.

- Ay sağ ol, gəl! - Adam qalib görkəmində sağ qolunu irəli verib dirsəkdən əydi. - İndi də uç gəl yanıma. Gəl, dost. Gəl otur qolumun üstündə. Həə, gəəl...

Quş bir təkanla ona tərəf qanad açdı. İnsanın sifətində əvvəlcə məmnunluq, ardınca da təbəssüm peyda oldu və... düz gözünün içinə yönəlmiş dimdik zərbəsindən son anda, üzünü çevirməklə yayına bildi. Zərbə sifətini yaraladı. Qəfil baş verənlərdən özünə gəlməyə macal tapmamış, quş yenidən havaya qalxıb qırğı kimi yenidən aşağı şığıdı. Bu dəfə də cəld tərpənib sol əlilə üzünü örtə bildi. Quşun dimdiyi gözünü örtmüş barmaqlarından birini tutdu. Bıçaq kimi iti dimdik sümüyə dirəndi, barmağı qan götürdü. Quduza dönmüş quş dimdiyini barmağa möhkəm keçirib qopmaq istəmirdi.

Sağ əli ilə quşun boğazından yapışıb sıxdı. Gücdən düşmüş dimdik, nəhayət, barmaqdan aralandı. Quşu yerə atıb barmağından yapışdı. Onun üzüldüyünü düşünürdü, amma yerində idi; bərk incitsə də, tərpədə bilirdi.

Barmağının qanı axa-axa, yerdə çabalayan, nəfəsi güclə gedib-gələn heyvanla nə edəcəyini düşündü. Bu dəfə işini daha ehtiyatlı tutdu, əlinə keçən paltarlardan birini quşun üstünə atdı, sonra onu ehtiyatla döşəmədən götürüb qəfəsə qoydu. Yaralı barmağını sarıya-sarıya fikri qəfəsdə idi. Bir az keçmiş quş özünə gəldi, qalxıb qəfəsin bir küncünə sıxılıb eyni baxışları ona zillədi.

- Sən quş deyilsən, quş libasında iblissən! Yoox, mən səni öldürməyəcəm, bu çox yüngül cəza olardı səninçün. Sənə daha ağır cəza verəcəm, qürurunu, mənliyini qarnınla, nəfsinlə sındıracam. Sənin kimilərin sınması ölümdən betərdi. Ondan sonra həyatının qalan hissəsini sən də mənim kimi əzab çəkə-çəkə keçirəssən! Sağ qalassan, amma nəfsin hər gün qürurunu hissə-hissə yeyəcək və bir gün ayılacaqsan ki, əclafa çevrilmisən. Həmin gün həm də mənən öləcəksən!

Quşun gözlərindən yağan nifrətdən içindən üşütmə keçdi. Baxışlarını yayındırıb, qəfəsdəki yem və su qabını götürüb kənara tulladı.

- Hələ ki, iki gün ac qal. Amma çalış öləsən, yoxsa səni ölümdən daha betər sınaq gözləyir!

***

Dördnəfərlik kamerada indi üç nəfər qalırdılar. Bir yerdə olmalarının ikinci ayı tamam olurdu. Sarı ilə öncə heç vaxt qarşılaşmamışdı. Almaniyada veriliş açana qədər heç adını da eşitməmişdi. Hərdən vaxt tapanda bir neçə verilişinə baxmışdı. Təkəbbürü, ritorikası, aqressiyası çox da ürəyinə yatmamışdı. Burada da gördüyü ilk andan quşu qonmamışdı bu adama: çoxbilmiş adama oxşayırdı, çoxlu suallar verir, özü isə az danışırdı. İçindən bir səs ondan ehtiyatlı olmağı pıçıldayırdı.

Hünəri də azadlıqdan qiyabi tanıyırdı. Hətta dinc toplantıların birində yaxınlaşıb onunla selfi[8] də çəkdirmişdi. Bir yerdə olduqları müddətdə bu gənci daha yaxından tanıdıqca ona hörməti daha da artmışdı. Hünər gününün böyük bir hissəsinu mütaliəyə həsr edir, oxuduqları maraqlı şeyləri tez-tez onlarla bölüşürdü. Daha çox solçu ədəbiyyata meylli idi. Qara onun hesabına siyasi biliklərini xeyli artırmışdı. Hünərdə ürəyinə yatmadığı bircə şey Allahı tanımaması, hərdən də küfr etməsi idi. Bu mövzuda tez-tez sözləri çəp gəlirdi; amma mübahisələrinin ən qızğın çağlarında belə qırmızı xətti keçməməyə çalışırdılar.

Sarı Hünərə tez-tez və ən müxtəlif mövzularda suallar verirdi. Özü də, çox zaman təsadüfdən alınırmış kimi edirdi bunu. Qara bu sualların haradan qaynaqlandığını təxmin edirdi. Amma bu məlumatları kimə və necə ötürdüyünü gözü ilə görmədiyi üçün, gümanları ilə bağlı tam əminliyi də yox idi. Görüşlərə çağıranda onun özündən də bəzi məlumatları istəyirdilər. Özü də təkcə Hünərlə bağlı yox, həmçinin Sarının onunla və Hünərlə nə barədə danışdıqları, nə sual verib, nə cavab aldıqları, bir sözlə, az qala hər şey barədə. Ona da bərk-bərk tapşırılmışdı ki, bu görüşlər və orada müzakirə olunan məsələlər barədə kamera yoldaşları heç nə bilməməlidir. Böyük ehtimalla eyni şeyi

---

[8] Rəqəmsal kamera, kameralı mobil telefon və ya planşet ilə çəkilən avtoportret fotoşəkil növü.

Sarıya da demişdilər. Hünərin isə çuvallıq edə biləcəyini heç ağlına gətirmirdi.

Kamerada yenə ikilikdə qalmışdılar: Sarı, özü demişkən, hakimə çıxmışdı. Otağın hərarəti əlli dərəcəni keçmiş olardı; hər ikisi heyvan kimi ləhləyirdilər. Hünər tərdən su içində olan köynəyini çıxarıb əvvəlcə bədənini quruladı, sonra onu yelpiyə çevirib havanı küləkləməyə başladı. Bədənindəki qançır izləri yenidən kamera yoldaşının diqqətini çəkdi və Qara özünü saxlaya bilməyib onunla çoxdan etmək istədiyi söhbətə nəhayət, başlamaq qərarı verdi.

- Bərk yıxılmısan deyəsən, - başı ilə bədənindəki çoxsaylı qançırlara işarə edib gülümsündü, - izləri hələ də qalıb.

- Hə, dost, çox bərk, özü də, təkrar-təkrar, - Hünər də gülümsünüb əli ilə yaralarını sığallamağa başladı, - hər yıxılanda da o dünyanı görüb gəlirdim... - Sifəti ciddiləşdi. - Onlar məni bu yolla diz çökdürüb üzr istətməklə öz aləmlərində sındırmaq istəyirdilər. Bunu edə bilməyəndə hər dəfə döyürdülər.

- Qorxurdun?

- Əvvəl hə, özü də çox bərk qorxurdum, çünki vəhşicəsinə döyürdülər. Öləcəyimdən qorxurdum. Amma sonradan ölmək ölməkdi, xırıldamaq nə deməkdi deyib getdim qorxularımın üstünə. Hər vuranda söyməyə başladım, daha bərk vuranda, daha bərkdən və daha pis söyürdüm. - Güldü. - Özü də çox vaxt gülə-gülə. Dəli olmuşdular! Qorxunun üstünə gedəndə adiləşir, hətta ölüm də daha qorxulu gəlmir adama. Bunlar da görəndə ki, döyməyin xeyri yoxdu, abır-həya da əldən gedir, əl çəkdilər. Məni qorxudurdular ki, bunları ictimailəşdirsən daha pis olacaq, mənsə vəkilim vasitəsilə ictimailəşdirdim, hay-küyü çox oldu, bunun da təsiri az olmadı. Amma bilirəm ki, mənə acıqlıdılar, əvəzini çıxmaq üçün fürsət axtarırlar.

- Rəbbim səni qorxularınla sınağa çəkib. Qorxuların ən böyüyü ölümdü, ondan qorxmayan adam Tanrıya bir addım daha yaxındı. O, səni sevir, Hünər.

- Hə, əlbəttə ki, necə sevməyinin də dəfələrlə şahidi olmu-

şam, - ateist və solçu gənc gülümsəyərək bədənindəki ən böyük qançırı sığallamağa başladı.

- Onu da sevərək edib, bu sınaqdan keçməyini də vacib bilib.

- Mən də fikirləşirdim ki, bu işgəncələrin başında kim dayanır, - Hünər güldü, - sağ ol ki, dəqiq ünvanı göstərdin.

- Əstəfrulla de, Hünər... Tanrının da səbrinin bir hüdudu ola bilir.

- Bəs bayaq deyirdin sevir, - kamera yoldaşının rənginin dəyişdiyini görən Hünər zarafata saldı, - o boyda Tanrı xoşuna gəlməyən bir sözdən sarı məni cəzalandıracaqsa, daha onun yerdəkilərdən fərqi nə oldu. - Yenidən ciddiləşdi. - Mən Allahın varlığına inanmıramsa, onu inkar edirəmsə, o, məni necə sevə bilər ki?!

- Tanrı böyükdü, adildi, biz onun bildiklərini bilə bilmərik. Sən ona inanmaya bilərsən, amma əməllərinlə onun yolundasan. Buna görə də, o, səni qoruyur. Əminəm, vaxt gələcək, sən də onu sevəcəksən. Mənim kimi ondan qorxmayacaqsan, sevəcəksən! Lap elə mənim anam kimi. O, özünü Tanrının qulu sayır, elə qul kimi də ona sitayiş edir və dəlicəsinə sevir. Mən o cür saf və təmənnasız sevə bilmirəm. Çox istərdim, amma alınmır. Mənim sevgim daha çox qorxuya bağlıdır.

- Tanrını necə sevirsən sev, bunda bir qul sevgisi var. Qulun sevgisi isə kor olur. Mənsə kor olmaq istəmirəm, elə ona görə də, özümü kiminsə qulu rolunda görmürəm. Hətta Tanrının belə, əgər o varsa.

- Məncə, insanın başına gələnlər onun özünü yeri-göyü yaradanın qulu sayması ilə bağlı deyil. Tanrı öz bəndələrini cəzalandırmaqla həm də onlara anlatmağa çalışır ki, özlərini yalnız onun qulu saysınlar, başqa kimsənin yox.

- Yaxşı, bə məni niyə cəzalandırır onda, mən ki, özümü heç kimin qulu saymıram?!

Bu vaxt krandan adəti üzrə əvvəlcə xışıltı, az keçmiş, suyun özü gəlməyə başladı. Hünər qalxıb dəsmalını islatdı və yaş dəsmalla bədənini silməyə başladı.

- Gəl otur, Hünər, son vaxtlar rahatlığımı əlimdən alan daha bir acımı səninlə bölüşmək istəyirəm. Amma bu etirafımı da eşitsən, məndən lap zəhlən gedəcək.

Hünər bədənini silə-silə gəlib onun qarşısında oturdu, gözlərini də ağzına dikdi.

- Özümü lap günahları qəbul edən keşiş rolunda hiss edirəm bu gün. - Güldü. - De gəlsin, narahat da olma, zəhləm getməz.

Kamera yoldaşı susdu, rəngdən rəngə düşən sifətinin cizgilərindən düşündüklərini dilə gətirməkdə çətinlik çəkdiyini görmək olurdu.

- Mən sənin kimi ola bilmədim, Hünər, - nəhayət dilə gəldi, - mən qorxağam! Onlar məni diz çökdürüb, alçaldıb, çox pis formada üzr istətdilər, üç-dörd şillə-təpiyə özü də... - Başını aşağı salıb əlləri ilə üzünü örtdü. - Kaş o vaxt öləydim elə!

Hünər qarşısındakı adamın nələr çəkdiyini hiss edirdi; burada olduğu müddətdə oxşar hissləri özü az yaşamamışdı.

- Mən də dedim görəsən nə olub. Qorxmuşdum ey! - Gülümsünüb zarafata saldı. - Əgər demək istədiyin elə bu idisə, səndən zəhləm getməsi üçün heç bir əsas görmürəm. - Əlini Qaranın çiyninə qoydu. - Bir yığın qoluzorlu köməksiz birinin üstünə düşüb ona qarşı ən iyrənc şeyləri etməkdən çəkinmirsə, həmin adamın diz çökməsində ayıb heç nə yoxdu, dost. Utanası kimsə varsa da bu, həmin o quldurlardı. Sənə isə məsləhətim odu ki, belə xırda şeyləri ürəyinə salıb özünə dərd etməyəsən.

Qaranın gözləri yaşardı, qalxıb gənci qucaqladı.

- Mənim qardaşım yoxdu, bundan sonra səni özümə qardaş bilirəm. Və onu da bil ki, sənin bu qardaşın, - əlini ərklə sinəsinə döyəclədi, - yolunda ölümə də getməyə hazırdı!

- Ölümə getməyə gərək yox, qardaş, elə gün içərini bir balaca da qızdırsa, Sarı gəlib burda iki meyit görüb sevincək muştuluğa gedəcək.

Gülüşdülər. Az keçmiş, dəmir pəncərənin şaqqıltısı eşidildi, çərçivədən başı görünən nəzarətçi:

- Bəkirov, həkimə hazırlaş! - deyib dərhal da onu örtdü.

Kamera yoldaşının qaşqabaq tökdüyünü görən Hünəri gülmək tutdu.

- Axır vaxtlar yaman tez-tez həkimə gedirsən, qardaş, Allah axırını xeyir eləsin. Həkimə, bir də hakimə çox da etibar etmək olmaz... Hə, bir də ki, çalış orda yıxılmayasan.

Son cümləni elə ciddi-ciddi dedi ki, sifəti çönmüş Qaranın dodaqları qaçdı. Könülsüz-könülsüz qalxıb şortik və qısaqol idman köynəyini uzunqol köynək və ütülü qara şalvarla əvəzlədi.

Bir neçə dəqiqə sonra qapı açıldı. Qara çıxanda həkimdən qayıdan Sarı ilə qarşılaşdı, dinməzcə yanından ötüb keçdi. Onlar son vaxtlar demək olar ki, danışmırdılar.

Xəstə ayağını içəri qoycaq ufuldamağa başladı.

- Bədənimdə deşilməmiş yer qoymadılar, uff... - Çarpayısına sərilib əli ilə dalını ovxalamağa başladı. - Bu niyə belə qaşqabaq tökmüşdü? Uff... - Kamera yoldaşının susduğunu görüb sualına özü də cavab verdi: - Yəqin həkimə apardılar. Tibb məntəqəsində mənə demişdilər ki, onu da müayinədən keçirmək üçün çağırmalıdılar. Ufff...

***

Kənanı dünən günorta ofisindən aparmışdılar. Vergidən yayınma, vəzifə səlahiyyətlərindən sui-istifadə, qanunsuz sahibkarlıqda ittiham olunurdu.

Müştərisinin həbs olunacağını Mahmud üç gün öncə bilirdi. Tutulmasından iki saat qabaq telefonla danışmışdılar. Biznesmenə onu gözləyən həbs barədə, əlbəttə ki, heç nə deməmişdi. Əksinə, işində yaxşılığa doğru dəyişikliklərə ümidlər yarandığını deyib ürək-dirək vermişdi. Kənan da çox xəbərə sevinmiş, bol-bol razılıq etmişdi.

Elə həmin o binada ona bu məlumatı verən adamla həm də həbsdən sonra atılacaq ilk addımları da müzakirə etmişdilər. Müzakirənin yekunu kimi cızılan plana uyğun olaraq, müştərisi ilə təcridxanada ilk görüşü də bir neçə dəqiqə çəkdi.

Onun tanıdığı gənc və yaraşıqlı adam bir həftənin içində xeyli dəyişmiş, sir-sifətini tük basmış, ovurdları batmış, çənəsi qabağa çıxmışdı. Bir anlığa öz həbsinin ilk vaxtlarını xatırladı və iki həftənin içində azı on il qocalmış bu adama yazığı gəldi. Amma tez də özünə döndü: iş başında bu hissi yaxın buraxmaq olmazdı, yoxsa özü də təkrar müştərisinin gününə düşə bilərdi.

Dustaq onu görcək uşaq kimi boynuna sarıldı.

- Məni burdan qurtarın, Mahmud müəllim, göydə ümidim Allaha, yerdə sizədi! - Yaşarmış gözlərini silib qulağına pıçıldadı. - Mənim vəkilim olmağınızı bunlar istəmirdilər, deyirdilər kimi istəyirsən de, dəvət edək, təki o olmasın. Mənsə başqa vəkil istəmədiyimi dedim, təkidlə sizi tələb etdim, axırda məcbur olub razılaşdılar.

"Peşəkardılar da bunlar, adama torbanı elə tikirlər ki, heç özünün də xəbəri olmur", - Mahmud ürəyində gülümsündü.

- Həbsiniz hamımız üçün gözlənilməz oldu, Kənan bəy... – Üzündəki kədərin dozasını bir az da artırdı. - Əslində, işlər yaxşılığa doğru gedirdi, ümidlərimiz yaranmışdı, bu barədə demişdim sizə. Bir anda dəyişdi hər şey. - Səsini aldı, qulağına tərəf əyildi. - Görünür, lap böyüklərdən kimsə işə qarışıb...

Dustaq bu sözləri eşidəndə rəngi dəyişdi. Onun panika və qorxu içində olması son görüşdə cızılan plana tam uyğun idi.

- Amma heç narahat olmayın, söz verirəm sizə, nəyin bahasına olursa-olsun sizi çox tezliklə həbsdən çıxaracam.

Dustaq bir az özünə gəldi, amma gözlərindən qorxu və həyəcan çəkilməmişdi. Vəkil onun indiki psixoloji durumunu dəyərləndirib plana daxil olan daha bir məsələni – müştərisinin mülkləri üzərində sərəncam və digər hüquqlarını kimə həvalə etmək istədiyini sözgəlişi ortaya atdı; onu da vurğuladı ki, həbsdə olduğu üçün bunları özünün etməsi bundan sonra faktiki mümkün olmayacaq. Bəlli oldu ki, sahibkar da eyni fikirdədir və bu işi arvadına həvalə etməyi düşünür. Bu variant da bəlli planla üst-üstə düşürdü.

Razılaşdılar ki, etibarnaməni gələn görüşdə rəsmiləşdir-

sinlər. Vəkil bu işdə yardımçı olacağına söz verəndə dustaq təkrar-təkrar təşəkkürünü bildirdi.

Müştərisi kimi vəkil də məmnun idi: bu gün üçün aldığı tapşırıqların hamısını yerinə yetirmişdi. Görüşü yarımçıq kəsmək barədə tapşırığı xatırladı. Çox vacib işlə bağlı təcili getməli olduğunu bildirib ayağa qalxanda dustağın üzündə peyda olan ifadəni sözlə ifadə etmək çətindi. O, bu görüşü səbirsizliklə gözləyirdi, ailəsi ilə bağlı da daha çox məlumat eşitmək istəyirdi; işi ilə bağlı, o cümlədən mülklərinin, ticarət şəbəklərinin gələcək taleyi ilə bağlı da müzakirə olunmalı çoxlu şeylər vardı. Vəkil çox yaxın zamanda yenidən görüşə gələcəyinə və daha çox zaman bir yerdə olacaqlarına söz verdi. Dustaq çarəsiz razılaşıb arvadına bir neçə kəlmə yazmaq üçün qısa vaxt istədi və tələsik bunları yazdı:

“Lalə, mənə görə narahat olma, yaxşıyam. Tezliklə Mahmud müəllim məni burdan çıxaracaq, yenə də bir yerdə olacağıq. Muraddan muğayat ol, de ki, təcili səfərə çıxası oldum, darıxmasın, tezlikə qayıdacam. İkinizi də bərk-bərk bağrıma basıram. İmkan olan kimi zəng edəcəm sənə."

Vəkil həbsxanadan çıxanda Lalə onu ofisində gözləyirdi; belə razılaşmışdılar. Ərinin məktubunu oxuduğu müddətdə gözaltı diqqətlə qadını süzdü. Dostu Ceyhunla Kənangildə qatıldığı qonaqlıqda elə ilk dəfə görəndə gözü tutmuşdu onu. O vaxt ev sahibinə hiss etdirməmək üçün qadına gözücu baxmışdı, indi isə bu gözəlliyi yaxından seyr edə bilirdi. Ağappaq sifəti ilə uzun, tünd qara saçları, incə dodaqları, iri qara gözləri qəribə bir harmoniya yaradaraq sahibinə xüsusi gözəllik verirdi. Baxışları kiçik döşlərində duranda içindən qəribə bir hiss keçdi, yerində qurcalandı.

Qadının fikri məktubda idi, bədənində gəzişən şəhvət dolu baxışları hiss etmirdi. Birdən başını qaldırdı. Qara gözlərindən yanaqlarına süzülən dupduru göz yaşları çöhrəsinə xüsusi gözəllik verirdi.

- Necə hiss edirdi özünü, Mahmud müəllim?

Kişi ona tuşlanan baxışlardan özünü elə itirdi ki, sualı dərhal anlamadı.

- Kim? - Suala sualla cavab verdi, amma tez də özünü ələ aldı. - Bağışlayın, fikrim başqa yerdə idi... daha doğrusu, Kənanın yanında idi. - Qızın minnətdarlıq hissi ilə ona baxdığını görüncə tapıntısına özü də sevindi. Sifətinə kədər qatmağa çalışdı. - Çətindi onun üçün, Lalə xanım, çox çətindi. Qorxuram səhhəti bu yükə davam gətirməyə...

Son cümləni eşidəndə qadın hönkürməkdən özünü saxlamaq üçün əlləri ilə ağzını tutdu; göz yaşları yenidən yanaqlarına doğru axmağa başladı.

- Belə etməyin, Lalə xanım. İttihamlar ağır olsa da, Kənan bəyə də demişəm, sizə də söz verirəm ki, həyat yoldaşınızın tezliklə azadlığa çıxması üçün mümkün olandan da artığını edəcəm.

- Çox sağ olun. Onun azadlığı üçün mən... - qadının səsi titrədi, - mən hər şeyə hazıram.

"Hər şeyə hazıram" sözü Mahmudun qulağında cingildədi. "O, niyə belə dedi, yoxsa mənə nəyisə eşitdirir?" - Əlinin əsən barmaqlara doğru dartındığını hiss etdi. Gözlərinin qarşısına Süsən gəldi; özündən asılı olmadan tez özünü yığışdırdı, əllərini masanın altında gizlətdi...

***

Bu gün telefona çıxmalı idilər. İlk Hünər çıxdı. Hər zaman pozitiv olmağa çalışan bu gəncin hər telefon danışığından sonra qanı it qanına dönürdü. Atasının səhhətində çox ciddi problemlər vardı: ürəyinin dörddə biri işləyirdi, həkimlər təcili əməliyyat olunmasını tövsiyə etmişdilər, amma ailənin maddi durumu bu yükün altına girməyə imkan vermirdi...

Hünər həbsdə olduğu ilk vaxtlarda babasını itirmişdi. Qoca ağır yataq xəstəsi idi. Nəvəsinin tutulmasını ondan gizlədirdilər, Avropaya təhsil almağa getdiyini demişdilər. Hünər ən se-

vimli nəvəsi idi, başına gələnlərdən xəbər tutsaydı, dərdə tab gətirməyə bilərdi. Ona görə, evdə hər kəs bu tabuya ciddi riayət edirdi. Gələn qonaqlar isə elə həyətdəcə xəbərdar olunurdular. Hünərin tutulduğu ilk vaxtlar və sonradan karsa salınaraq ağır işgəncələrə məruz qoyulması barədə xəbəri qonaq gələn qız nəvələri ehtiyatsızlıq edərək öz aralarında müzakirə edərkən baba danışıqları eşitmişdi. Həmin gecə təzyiqi qalxan qocanı paralic vurub, sol tərəfi işləməyən kişinin həkimlər çox yaşamayacağını bildiriblər. Deyilənlər düz çıxıb, hadisədən heç iki həftə keçməmiş baba ölüb. Ailə üzvləri kişinin başına gələnləri də, onun ölümünü də Hünərdən gizlədiblər. Növbəti dəfə karsa salınanda nəzarətçilərdən biri xəbəri ona çatdırıb; həmin adamın bunu ehtiyatsızlıqdan ya da qəsdən etdiyi bilinmədi, amma gənc üçün bu xəbər ağır mənəvi zərbə oldu...

Hünər hər dəfə telefon günü atasının sağlamlıq durumu ilə bağlı evdən dolğun məlumat ala bilməyəndə kameraya qanı qara dönürdü. Yaxınlarının ondan nələrisə gizlətdiyini tez-tez təkrarlayır, yaşananlarda özünü təqsirli sayır və bunu ürəyinə salıb dərd edirdi.

Növbəti telefon danışığından yenidən qanıqara qayıtmışdı. Səssizcə çarpayısına uzanıb yarımçıq kitabı təzəcə əlinə almışdı ki, onu görüşə çağırdılar. Təəccüblə qalxdı, kimsə ilə görüşü nəzərdə tutulmamışdı. Vəkili dünən gəlmişdi, evdəkilərlə isə görüş vermirdilər.

Hünər olmayanda kameradakılar demək olar ki, danışmırdılar. Hərə sakitcə öz işi ilə məşğul olurdu. Sarı üzünü qırxmağa getdi. İçəri od tutub yanırdı, Qara çarpayıdan döşəyini götürüb aynəbəndin kölgə hissəsində yerə sərdi, Hünərin təzə tamamladığı tarixi romanı oxumağa başladı. Bir də qapının səsinə ayıldı; yuxu onu nə vaxt aparmışdı, xəbəri olmamışdı. Gələn isə, iki saatdan çox olardı getdiyi, Hünər idi. Nəfəsini dərməyə macal tapmamış Sarı üstünü aldı.

- Kiminlə görüşürdün, Hünər?

- Böyük adamlarla görüşürdüm, Sarı. - Hünərin bu sözləri is-

tehza ilə yoxsa ciddi dediyini ayırd etmək çətin idi; gəlib Qaranın dirsəkləndiyi döşəyin üstündə özünə yer elədi.

- Kimlər idi ki? - Gəlib onlarla üzbəüz əyləşən Sarı əl çəkmədi.

"Başladı yenə donos yığmağa, pedaraz blya[9]!..." - Qara heç cür həzm edə bilmədiyi bu adamın ünvanına ürəyində daha bir neçə yağlı söyüş işlətdi. Azadlıqda dilinə söyüş gətirməzdi, söyüş söyənə də pis baxardı. Amma burada istisnasız hamı söyürdü: rəhbərlik, zabitlər, adi işçilər, dustaqlar... Söyüş söyməyənə az qala pis baxırdılar. Özü də, nədənsə söyüşlərin çoxu, əksər oğru jarqonları kimi, rus dilində idi. O, bu dili bilmirdi, amma burada həmin dildə çoxlu söyüş öyrənmişdi.

- Kim olduqlarını demədilər. Amma rəisin onların qarşısında əzilib-büzülməsindən belə başa düşdüm ki, böyük adamlardı.

"Rəislə işin yoxdu, Hünər, bu suka gedib çatdıracaq hər şeyi. Əlavə problemlər lazımdı sənə?! Bu qədər də saf olmaq olmaz da!" - Qara ürəyində deyindi.

- Nə istəyirdilər ki?

- Əfv ərizəsi yazmağımı.

- İstəyirlər, yaz da. Niyə yazıb çıxmırsan, Hünər? Ailən də əziyyət çəkir, özün də. Bax, mən də yazmışam. Bunda pis nə var ki?

"Sənə nə var, ay cındır! Haçandan belə qayğıkeş olmusan, ay mandalışkanın belindən gələn!" - Qara həbsə düşəndən həm də öz dilində xeyli özəl söyüşlər öyrənmişdi, yadına düşdükcə, onları da bir-bir sıraya düzürdü.

- Əvvəla, ərizə yazsam da, buraxmaya bilərlər. İndi yaz, buraxaq deyirlər, vədlərini yerinə yetirməməyi özlərinə rəva bilməyəcəklərinə isə qarantiya yoxdu. Amma əsas olan heç bu da deyil. Ona görə yazmıram ki, heç bir cinayət törətməmişəm, əfvi isə cinayət etmiş adam diləyər. Hərçənd günahsız tutulan insanların ərizə yazmalarına da pis baxmıram, azadlıq haqlarıdı, əsas odur ki, burdan öhdəliklə çıxmasınlar.

---

[9] Rus dilində söyüşdür.

Bu yerdə digər iki məhbus özləri də hiss etmədən ani baxışıb tez də gözlərini çəkdilər.

- Ərizə yazmasan burdan çıxa bilməyəcəyini bildiriblər sənə. Özün demisən bunu. Bunu bildiyin halda nəyə ümid bağlayırsan? Yoxsa gəncliyini burdamı keçirmək istəyirsən?

Qara gözaltı ona diqqət yetirdi: Hünərin son cümləsindən sonra pərt olmuş kimi görünürdü, daha əvvəlki kimi arxayın danışmırdı; hər halda, ona belə gəldi.

- Bilirəm ki, buraxmaya bilərlər. Özümü də buna hazırlamışam. Bir də ki, günahsız yatan tək mənəm ki?! Mən heç kimdən artıq deyiləm. - Sifətində təbəssüm peyda oldu. - Ümumən isə çalışıram hər pisdə nəsə yaxşı bir şeylər də tapım. Buranın öz üstünlükləri də var, məsələn, çoxlu kitab oxuya bilirəm, çöldə bu imkan yoxuydu. - Əlini qara saqqalına aparıb sığalladı. - Nə yaşım var ki, cavanam hələ, həm də sağlam.

- Sən cavan və sağlamsan, doğru, amma atan cavan deyil, həm də sağlam. Babanı itirdin, bu qədər fikir edirsən, atana bir şey olsa, bu yükü çəkə biləssənmi? Heç bu barədə düşünmüsən? - Sarı yenə əvvəlki tonuna qayıtdı.

“Tülkü köpəyoğlu! Gör hardan vurur!...” - Qaradan növbəti ağır söyüş gəldi və düşündü ki, bunları necə böyük ləzzətlə üzünə deyərdi.

- Düşünmüşəm, Sarı. Nə gizlədim, belə bir şey baş versə, bu, mənim üçün əsl faciə olar... Burdan sağ çıxsam, o halda həyatımın qalan hissəsini rahat yaşamaq çətin olar mənə.

- Bir neçə sətirlik kağızdan sarı dəyərmi bu qurbanlara?! Axı yazsan, hamı anlayışla qarşılayacaq, çünki biləcəklər ki, bunu özünə görə etməmisən... Kimsə də qınamaz səni.

- Bu cür əminliklə danışma, - Hünərin təbəssümü yerinə qayıtdı, - azı, bir nəfər tanıyıram ki, mütləq qınayacaq və bunu bütün həyatım boyu başıma qaxınc edəcək, rahat yaşamağa imkan verməyəcək, boynum həmişə bükük olacaq qarşısında. Mənsə başı dik gəzmək istəyirəm.

Sual dolu baxışlar yenə Hünərə dikildi.

- Kimdi ki o adam?

Hünər fasilə verdi, ardınca da gülümsünüb:

- Özüm. - astadan cavab verdi.

"Əjdahasan! Halal olsun ananın südü sənə!" - Söyüş söyməkdən dili qabar olmuş Qaradan bu dəfə alqış gəldi. Bunu böyük məmnuniyyətlə aşkardan edərdi, amma bütün bu söhbətlərin lazımı yerə çatdırılmayacağına əmin deyildi.

- Bəs yaxınlarına bir şey olsa, başın dik gəzə biləcəksənmi? - Sarı əl çəkmək istəmirdi.

Hünərin sifətinə yenidən kədər çökdü. Bu mövzunun onun üçün necə ağır olduğunu görməmək mümkün deyildi. Sarı bunu görürdü və bilərəkdən təkrar-təkrar onun üzərinə qayıdırdı. Elə buna görə də, Hünərin yanında dirsəklənib sakit oturmuş kamera yoldaşının təkrar-təkrar söyüşlərinə tuş gəlirdi.

- Mən ateistəm, Tanrının varlığına inanmıram, amma burda olduğum zaman onlara bir şey olmasa, biləcəm ki, o var... Məncə, bitirək bu söhbəti və bir də bu mövzuya qayıtmayaq... - Saf uşaq təbəssümü yenidən sifətinə qayıtdı. - Yaman acmışam, yeməyə nəyimiz var?...

***

Mahmud saatın zənginə ayıldı. Göz qapaqları daş asılmış kimi aşağı dartınırdılar. Neçədə yatmasından asılı olmayaraq səkkizdə ayılırdı, artıq vərdişə çevrilmişdi. Əvvəllər hər səhər yuxudan duranda yarım saat idman edər, duş qəbul edər, səhər yeməyini yeyib işə yollanırdı. Son bir ildə idmanla nadir hallarda məşğul olurdu, o da əvvəlki həvəs və ritmlə yox. Axşamlar bərk içəndə tezdən iştahası olmur, bütün günü başağrısından əziyyət çəkirdi.

Təzyiqini ölçdü. Aparatın əqrəbinin üzərində dayandığı rəqəmi görcək ürəyi daha sürətlə döyünməyə başladı. Gözləri sanki bu an pırtlayıb hədəqəsindən çıxacaqdı. Tələsik dərmanı içib həkimini yığdı və bir neçə saniyə sonra xəttin o başındakı

adamın hay-küyü otağı bürüdü.

...Cəlal tələbə yoldaşı idi. Elə o vaxtlardan möhkəm dost idilər. Dili dinc durmadıqları vaxtlar araları bir az soyumuşdu. Cəlal suyu üfürə-üfürə içirdi. Həm yaxşı həkimdi, həm də tez-tez televiziyalara, hökumət tədbirlərinə dəvət olunurdu deyə yaxşı müştəri bazası vardı. İşlədiyi xəstəxana da ölkədə ən bərkgedənlərdən idi. Sənədlərdə xəstəxananın təsisçisi bir xanım olsa da, real sahibinin yüksək vəzifəli məmurlardan biri olduğu deyilirdi. Mahmud cəbhənin əks tərəfində olduğu dönəmdə təsadüfən məclislərdə qarşılaşanda aralarında bir-iki dəfə söz atışması olmuşdu. Düşmən olmasalar da, bir-birilərindən məsafə saxlamağa çalışırdılar. Mahmudun hakimiyyətlə problemləri aradan qalxan kimi Cəlalla da münasibətləri qaydaya düşdü. İlk addımı da tələbə dostu atmışdı. Məhkəmə proseslərindən birində təzyiqinin qalxması səbəbindən halı pisləşdiyinə görə çıxışını yarımçıq qoymuşdu. O vaxt ölkədəki bütün saytlar bu məlumatı baş xəbər kimi yaydılar. Onda Cəlal əvvəlcə zəng edib səhhəti ilə maraqlanmış, sonra durub evlərinə gəlmişdi. O vaxtdan aralarından yenidən su keçmirdi.

Son vaxtlar təzyiqi rahatlıq vermədiyi üçün Cəlala tez-tez zəng edir, məsləhətlər alırdı. Hər dəfə dostu "bu təzyiqlə bir gün öləcəksən", - deyə müalicə almasının vacibliyini dönə-dönə vurğulayırdı. Yox, o, ölmək istəmirdi. Bu yaşda ölmək çox tezdi, həm də böyük planları vardı, indi işləri heç vaxt olmadığı kimi yaxşı gedirdi...

Tələbə yoldaşı səsini başına atmışdı, qulağı az qala tutulacaqdı deyə, mikrofonu qulağından araladı.

- Nə məsuliyyətsiz adamsan sən! Niyə başa düşmək istəmirsən ki, bu təzyiqlə gəzmək ölümlə oynamaq deməkdi?! Hələ ölüm olsa yaxşıdı, bir gün qəfil beyninə qan sızacaq, paralic olub ömrünün qalan hissəsini yataqda, ya da yaxşı halda, əlil arabasında keçirəssən. Onda var-dövlət də, şan-şöhrət də, dost-tanış da köməyinə gələ bilməyəcək. Bir az keçəndən sonra isə heç qapını döyən də tapılmayacaq. Baxma ki indi başına fır-fır

fırlanırlar, yatağa düşəndən sonra kimə lazım olacaqsan sən?! Bir özünə kənardan baxsana, bu nə həyatdı sən sürürsən, nəyin naminə, kimin üçün?! Səndən soruşuram... aloo...

- Yaxşı da, doktor... Bax, sənə sonuncu dəfə və kişi kimi söz verirəm, əlimdə bir-iki vacib işim var, beş-on günə yoluna qoyub, gəlib uzanacam sənin palatanda. Ya məni bitirəssən, ya da bu bəladan qurtarassan.

- Çox demisən bu sözləri, - o başdan danlaq hələ davam edirdi, amma bu dəfə ton daha mülayim idi. - Ay adam, anlamırsan ki, belə getsə, gələn ay və hətta gələn həftə olmaya da bilər, bu xəstəlik səni hər gün, hər saat, hər an böyrü üstə yıxa bilər. Sənə maksimum bir həftə vaxt verirəm, sözünü tutmasan, gözümə görünmə. Ölsən, heç məzarın üstə də gələn deyiləm. Məni tanıyırsan, dedimsə, edərəm!

Mahmud gülə-gülə:

- Doktor, mən öləndən sonra gəldin mənə nə faydası, gəlmədin nə ziyanı. Sənə söz verdim, palatanda yaxşı bir otaq hazırla, amma tək mən olum, adamlardan başım bezib. Yerimi də heç kimə deməyəcəm, qoy elə bilsinlər ölmüşəm... - Sanki o başdakı adam onu görürmüş kimi, qulaqlarını dartdı. - Allah eləməmiş... Yox, ölmək istəmirəm, düşmənlərim çoxdu, sevindirmək istəmirəm onları. Həm də böyük planlarım var...

Qazı yatmış dostu təzyiqi aşağı salmaq üçün görməli olduğu bəzi şeyləri ona izah etdi. Onları yerinə yetirib yenidən çarpayısına uzandı. Dərmandanmı, yoxsa həkimlə söhbətin təsirindəndimi başının ağrısı keçmiş, gözlərindəki duman çəkilmiş, ürəyi də həminki kimi bərk döyünmürdü. Təzyiqini yenidən ölçdü; əvvəlki təhlükəli həddə deyildi.

"Yəqin, yenə bu zəhrimar içkidəndi" - deyə düşündü; dünən gecə möhkəm vurmuşdu, evə necə gəlib çıxdığı belə yadında deyildi. Axır vaxtlar çox içirdi. Hər dəfə özünə söz verirdi ki, daha dilinə vurmayacaq o zəhrimarı. Amma son vaxtlar oturub-durduqları da elə adamlardı ki, içməyə bilmirdi. Həm də həyatı başdan-ayağa streslə dolu idi. Əslində, əksi olmalıydı.

Belə baxanda, indi həyatı daha sakit və nizamlı idi: yağlı müştəriləri, yaxşı qazancı, evi-eşiyi, biznesi, əlaqələri, hörmət-izzəti... Amma bütün bunların olmadığı, daha ağır şərtlər altında yaşadığı cəmi bir neçə il öncəyə qədər özünü bu qədər gərgin hiss etmirdi. Axır vaxtlar bu barədə çox düşünürdü. Əslində, qəlbinin dərinliklərində cavabı bilirdi. "Baş dik olanda təzyiqi aşağı olur, əyildikcə basıb təzyiqi də qaldırır", - istehza ilə düşündü. Süsən yadına düşdü. Onu hələ də sevirdimi, bu suala cavab verməkdə çətinlik çəkirdi. Vaxt vardı, onsuz bir gün də yaşaya bilməyəcəyini düşünürdü. Həbsdə olanda bir-birilərinə yazdıqları sevgi etirafları ilə dolu məktubları xatırladı. Onların hər birini indi də əzbər söyləyə bilərdi. Çox az çəkdi o xoşbəxtlik. Evliliklərinin ili tamam olmamış onu həbs etdilər, həbsdən çıxmasının ili bitməmiş ayrıldılar. Bu sualı özünə tez-tez verirdi: nədən bir-birinə bu qədər bağlı adamlar birdən və belə rahatlıqla ayrıla bildilər? Hə, o, anlayırdı ki, Süsən o Mahmudu sevmişdi, bu birini heç cür sevə bilməzdi. Bu Mahmud isə o Süsəni hələ də sevməkdə davam edirdisə belə, onunla əvvəlki kimi rahat və xoşbəxt ola bilməyəcəkdi. Bəlkə, həmin o hadisə olmasaydı, nəyəsə ümid etmək olardı. Amma soyuq payiz günü baş verən həmin o müdhiş qəza hər şeyin üstündən birdəfəlik xətt çəkdi.

...Hadisə aeroporta gedəndə olmuşdu. Sonralar dəfələrlə o anda nə baş verdiyini xatirində təkrar-təkrar canlandırmağa cəhd etmişdi. Bir anın içində önündə peyda olan maşının qara rəngi, qulaqbatırıcı taqqıltı və xilasedici şarların onu hər tərəfdən sıxması... Bunlar yadında idi. Sonra baş verənləri isə yuxu kimi xatırlayırdı. Adamlar gəlib onu dartıb maşından çıxardılar. Yaxınlıqda çevrilmiş və əzik-üzük olmuş qara "Hunday"ın yanında uzadılmış qan içindəki adamları görəndə nə baş verdiyini dərhal anlamamışdı. Hərdən "Bu biri maşındakı sürücü sağdı!", "Qabaqda oturan kişi və arxadakı qadınlardan biri ölüb!", "Bu qadın və yanındakı uşaq hələ ki, sağdılar! Təcili həkim çağırın!", "Maşında quş da var, ona heç nə olmayıb!" - kimi səslər, çığırtılar qulağına çatırdı. Əli ilə bədənini yoxladığı da

yadına gəlirdi; təkcə ayağının aşağı tərəfi sıyrılmışdı. Sonra polislər tökülüşüb gəldilər, orta yaşlı birisi ona yaxınlaşıb sənədlərini istədi. Burnunu nəfəsinə yaxınlaşdırıb yanındakına yavaşdan "içkilidir", ardınca da üzünü ona tutub "qalxın, bizimlə getməlisiniz, yoldaş" deməsini də xatırlayırdı. Sonra onu polis maşınına otuzdurub idarəyə gətirdilər. Yarım saat sonra həkim gəlib bədəninə baxış keçirdi, ondan az sonra başqa birisi xüsusi cihazla içkili olub-olmadığını yoxladı. Polisə gətiriləndən yarım bir sonra isə müstəntiq gəldi, elə özü yaşda olardı. İçəri girəndə astadan salamlaşıb dərhal da başını yellədi:

- Vəziyyət mürəkkəbdi, Mahmud müəllim. İndi xəstəxanadan xəbər gəldi ki, uşaqla anası da öldü. Ölülərin sayı dördə çatdı. Sizi həbs etməli olacıq. Ya da ki, elə adam tapşırmalıdır ki... Üstəlik, içkili olmağınız vəziyyəti daha da qəlizləşdirir. Sizi həbsdən ancaq sehrli bir zəng xilas edə bilər.

Əlindəki kağızları oxuduqca qaşları daha da çatıldı.

- Analizlərin nəticəci də müsbət göstərib, qanınızda alkoqolun miqdarı normadan qat-qat artıqdı! Bir sözlə, dediyim o zəngdən lazımdı...

Əvvəl etiraz etmək istəmişdi. Sonra xatırladı ki, yola çıxmazdan öncə rayonlardan birinin polis rəisinin ad günündə üç qədəh araq içmişdi. Maşınla yol gedəcəkdi deyə içmək istəmirdi, amma keflənmiş rəis "narahat olma iç, yolda saxlasalar, adımı verərsən" deyib əl çəkməmişdi. Bu məsələdə ona yardımçı ola bilmək üçün həmin rəis çox balaca adam idi. Onu da, özünü də ürəyində söyürdü. İçkili olmasaydı, təqsirsizliyini sübut etmək daha rahat ola bilərdi.

Kimə zəng edəcəyini çox düşündü. Elə birisi olmalı idi ki, sözünün çəkisi əleyhinə olan və onu həbsə sürüyən bütün dəlilləri ört-basdır, yox etmək üçün yetərli olsun. Tanıdıqları arasında beləsi ancaq bir nəfər ola bilərdi. O vaxt həbsdən çıxdıqdan sonra iki saatdan çox davam edən söhbətdən məmnun halda onu yola salanda "Nə çətinliyin olsa, çəkinmədən xəbər elə!" - demişdi və "çox az adama verdiyi" telefon nömrəsini ona ver-

mişdi. Bu dəfəki himayənin bədəlinin qat-qat ağır olacağını anlamamış deyildi. Amma başqa yolu yox idi: vaxt keçdikcə, vəziyyətdən çıxmaq daha çətin olacaqdı. Yenidən həbsə qayıtmaq istəmirdi, o yükü təzədən çəkməyə gücü yetməzdi. Bütün bunları götür-qoy edib nəhayət, qərarını verdi. Telefon zəngindən heç beş dəqiqə keçməmiş, müstəntiqi rəisin yanına çağırdılar. Yarım saat sonra isə o, artıq evindəydi.

Həmin hadisə hər şeyi yerbəyer etdi. Borclu qalmaq və ona nə vaxt zəng olunacağını gözləmək istəmədi. Bir gün xilaskarının köməkçisinə zəng vurub görüş istədi. Səhəri gün şəhərin mərkəzində yerləşən hər tərəfi hasara alınmış, zəhmi adamı uzaqdan basan sovetdən qalma köhnə səkkizmərtəbəli binanın yeddinci mərtəbəsində görüşdülər, danışdılar və anlaşdılar.

O, yeni həyata başlayırdı. Əvvəlkindən tam fərqli və elə bir həyata ki, orada Süsənə yer yox idi...

Süsəndən sonra həyatında kimsə yox idi və ona elə gəlirdi ki, bir daha kimsəni sevə bilməyəcək. Arvadının onu tərk etdiyi o gün həyatının ən ağır anları idi; hətta həbsi və oradakı yaşantıları da o anların acısı ilə heç müqayisəyə gəlmirdi. Bəzən düşünürdü ki, Süsən o addımı atmasaydı, bəlkə bu qədər qəzəbli olmazdı, indi etdiklərinin çoxunu etməzdi. Amma arvadı onu heç cür anlamaq istəmədi, hər şeyin üstündən birdəfəlik və çox rahatlıqla xətt çəkə bildi...

Hiss etdi ki, təzyiqi yenə qalxmağa başlayır. Çarpayıdan qalxdı. Saata baxdı, ikiyə işləyirdi. Acdığını hiss etdi.

"Gərək, evlənəm, bəlkə, ayağım bu restoranlardan yığışdı".

Qəfil ağlına gələn və ən maraqlısı isə, bərkdən səsləndirdiyi bu fikri lağla, yoxsa ciddi dedi, heç özü də bilmədi.

Arvadının bişirdiyi yeməklərin dadı tam fərqli olurdu. Ondan sonra heç vaxt və heç yerdə o ləzzəti duya bilməmişdi. Həbs dövründə kamera yoldaşları növbəsinin nə vaxt çatacağını səbirsizliklə gözləyirdilər. "Xoşbəxtsən, - deyirdilər ona – evdəkinin əlləri qızıldandır". Hə, o, həqiqətən, çox xoşbəxt idi...

Bu düşüncələrin təsiri altında könlündən Süsənin bişirdiyi

plov keçdi, böyründə də təndirdə qızardılmış, içinə ləvəngi doldurulmuş kənd çolpası. Ağzı sulandı. Telefonu götürüb yaxınlıqdakı restoranlardan birinə zəng açdı, yanında da toyuq ləvəngisi ilə plov sifariş verdi; ötən dəfə görmüşdü, kənddən gətirilmiş çolpaları restoranın həyətində quraşdırılmış təndirlərdə qızardırdılar. Bir saata hazır olacağını söylədilər.

Hamam otağına keçib yuyundu. Son vaxtlar təmizlik məsələsində çox vasvası olmuşdu, əvvəllər belə deyildi. Özünü daim çirk içində hiss edirdi. Hər gün azı iki dəfə - bir qayda olaraq səhər yuxudan duranda, bir də işdən evə gələndə yuyunurdu. Çox vaxt yatmazdan öncə də özünü duşun altına verirdi. Əllərini isə gün ərzində hər yeməkdən öncə və sonra yumaqdan əlavə, az qala hər yarım saatdan bir sabunlayırdı. Alt paltarlarını hər gün və bəzən bir neçə dəfə, yataq dəstini isə həftədə iki dəfə dəyişirdi; təmizlik işlərinə baxan şirkətlə müqaviləsi vardı və müntəzəm gəlib çirkli paltarları aparır, yuyulub-ütülənmişləri isə təhvil verirdilər. Yemək üçün yerləri seçəndə də təmizliyə xüsusi önəm verirdi. Natəmizlik hiss etdiyi yerə ikinci dəfə ayaq basmırdı, belə şeylərlə rastlaşanda da çox vaxt abırlarını büküb çıxırdı...

Deyilən vaxtda restoranda idi. Buraya ikinci dəfə idi ki, gəlirdi. İçəri girəndə qarşılayıb yer göstərdilər. Müdir uzaqdan başı ilə xoş gəldin elədi. Ötən dəfə özünü ədalı aparması heç xoşuna gəlməmişdi. Oturduğu masaya xüsusi diqqətə alışmışdı; sıradan birisi deyildi axı. Çox vaxt getdiyi yerlərdə heç yediyi yeməyin pulunu da almırdılar. Burada ötən gəlişində adi müştəri kimi münasibət göstərmələri bir az yer eləmişdi ona; amma təmizliyi və yeməklərini bəyənmişdi.

Pəncərənin qırağında boş masalardan birini seçdi. İçəri girəndə müştəriləri qarşılayan restoran xidmətçisinə sifarişi telefonla verdiyini deyəndə cavabında nəzakətlə yeməyin hazır olduğunu, qısa zamanda masaya veriləcəyini bildirdilər.

On beş dəqiqə keçdi, yemək hələ də gəlib çıxmamışdı. Ofisiantı barmağı ilə yanına çağırdı, gecikməni özünə qarşı hör-

mətsizlik kimi qiymətləndirə biləcəyini dedi, bunu müdirə çatdırmağı xahiş etdi.

Müdir altmışı haqlamış, seyrək ağ saçları olan, bəstəboy bir kişi idi; ortalıqda gəzişir, hərdən də işçilərə göstərişlər verirdi. Ofisiant ona yaxınlaşıb, böyük ehtimalla, bir az öncə eşitdiklərini ona çatdırdı; müdir qaşlarını çatıb gözaltı müştəriyə tərəf baxdı, - bunu ehtiyatla etsə də, Mahmud söhbətin ondan getdiyini hiss edirdi, - sonra işçisinə nəsə dedi. Gənc başını astadan yellədib uzaqlaşdı.

Daha on beş dəqiqə keçdi. Yemək yenə də yox idi. Təzədən ofisiantı yanına çağırdı, bu dəfə səsində aşkar hiddət vardı:

- Hanı mənim sifarişim?!

Gənc özünü itirdi, nə cavab verəcəyini bilmədi.

- Müəllim, üzrlü sayın ki, belə alınıb, bu gün sifarişlərimiz çox olub, aşpazlar çatdıra bilmirlər...

Ofisiantın sözü ağzında qaldı:

- Deyəsən, sənin o müdirinin başı çomaq istəyir, oğlan! Get ona elə belə də çatdır!

Gənc başını aşağı salıb heç nə demədən iti addımlarla uzaqlaşdı və çox az keşmiş, eyni sürətlə əlində məcməyi geri döndü və yeməkləri stolun üstünə düzməyə başladı. Mahmud gözaltı onu süzürdü; həyəcanlandığı aşkar sezilirdi.

"Deməli, narahat olmağa başlayıblar! Əclaflar! Sizinlə adam kimi rəftar edəndə çatmır sizə!"

- Başqa bir şey lazım deyil ki? - Gənc həyəcandan dili topuq vura-vura soruşdu.

Başını qaldırmadan saymazyana "yox!" dedi.

Ofisiant sanki eşitmirmiş kimi gözlərini döyə-döyə bir neçə saniyə ona baxdı. Mahmud başını qaldırıb zəhmli baxışlarını ona tuşlayanda özünü daha da itirdi, panik tərzdə çevrilib masadan uzaqlaşdı.

İştahı tamam korlanmışdı. Təzyiqi də yenidən ayılmaq üzrəydi.

"Nə axmaq adamsan, hər xırda şeyə görə niyə əsəbləşirsən

ki?! Sakit ol, oğlan! Üzdə qəzəbli görünsən də, içində hər zaman sakit olmağı öyrən daha!"

Plov qabda buxarlanırdı; qazandan yenicə çəkildiyi hiss olunurdu. Ona dəymədi, bir az soyusun deyə fikirləşdi. Ləvəngi iyi vuran qızardılmış çolpa uzaqdan gəl-gəl deyirdi. Onu qabağına çəkdi, plov qədər qaynar deyildi; budundan birini üzüb dişinə çəkdi. Dadlı idi. Könlündən araq keçdi. Bunların yaxşı tut arağı olurdu. Amma həkiminin xəbərdarlığını xatırladı, həm də axşam görüşü vardı, içkili getsəydi, yaxşı düşməzdi. Fikrindən vaz keçdi.

Plov soyuyana qədər çolpanı yarı elədi. İştahası əməlli-başlı açılmış, başağrısı keçmiş, qəzəbi də ötmüşdü; hətta duranda ofisianta çaypulu verəcəyini fikirləşdi.

Aşın təbi gəlmişdi, onu qabağına çəkib dolu qaşığı ağzına apardı. Ayıq olanda yeməyi mümkün qədər çox çeynəməyə çalışırdı. Həbsxana yeməkləri mədəsini sıradan çıxarmışdı; haradasa oxumuşdu ki, təzyiqin səbəblərindən biri də bu ola bilir. Ağzını bir-iki dəfə açıb-yummuşdu ki, sifəti dəyişdi. Ağzında yemək, kənarda dayanıb gözünü ondan çəkməyən ofisiantı əlinin işarəsi ilə çağırdı. Gənc az qala qaçaraq yaxınlaşdı.

- Eşidirəm, müəllim, - ürkək baxışlar qəzəb saçan gözlərə dikildi.

- Ovcunu yaxın gətir.

Ofisiant bir şey anlamadı.

- Bağışlayın, başa düşmədim, müəllim. Neyləyim? - qorxa-qorxa soruşdu.

- Dedim ki, ovcunu yaxına gətir! - Ağzındakı yeməyin imkan verdiyi həddə səsini qaldırdı.

Ofisiant sağ əlinin ovcunu ona tərəf yaxınlaşdırdı.

- Əllərini ovucla və yaxına gətir! - Bu dəfə səsi daha da hökmlü çıxdı.

Heç nə anlamayan gənc dərhal göstərişi yerinə yetirdi: əllərini cütləşdirib ovcunu onun qarşısında tutdu. Müştəri bunu gözləyirmiş kimi ağzındakı yarıçeynənmiş düyünü ovcuna tüpürdü.

- Apar bunu müdirinin təpəsinə çırp və özünə də de gəlsin bura! Özü də, qaça-qaça!

Səsə çevrilən ətraf masalar tamaşaya durmuşdular. Aralarında pıçıldaşan da var idi, başını yelləyən də, gülüşən də. Son vaxtlar tez-tez televiziya və radio verilişlərinə dəvət olunurdu deyə, getdiyi yerlərdə onu üzdən tanıyanlar az olmurdu.

Təxmini düz çıxdı. Ofisiant aralanan kimi iki masa o tərəfdə əyləşmiş üç nəfər ortayaşlı adamlardan biri əli ilə onu salamladı:

- Bunlara bu da azdı, Mahmud məllim, qudurublar lap! Halal olsun, fəxrimizsiz!

Başı ilə razılığını bildirib yenidən baxışları ofisiantın getdiyi tərəfə çöndü. Gənc müdirə yaxınlaşdı, ovcunu qabağa verib, ona nəsə dedi - bir az öncə müştəridən eşitdiklərini ona çatdırdığına şübhə yox idi. Müdir bu dəfə ona tərəf baxmadan işçisinə nəsə dedi, ofisiant uzaqlaşan kimi asta addımlarla masasına yaxınlaşıb üzündə təbəssüm:

- Mahmud müəllim, nəsə bir problem var? - soruşdu.

Müdirin danışıq tərzi və səsində sezdiyi üstüörtülü əda, - hər halda, ona elə gəldi, - müştərini özündən daha da çıxardı.

- Canına dərd var, üstəlik də azzar var! - Az qala bağırdı. - Bir saat öncə bura zəng edib yemək sifariş vermişəm, vaxt demisiniz həmin vaxtda gəlmişəm, oturub yarım saat da gözləmişəm. Bu qədər gözlədəndən sonra çiy düyünü gətirib qoymusan qabağıma ki, ala zəhərlən! Görünür, sən o danqa başınla mənim kim olduğumu hələ də anlamamısan, yoxsa özünü belə qudurğan aparmağa cəsarət etməzdin!

Bu cür dönüşə hazır olmayan müdir özünü itirdi.

- Allah eləməsin, Mahmud müəllim, mən sizi çox yaxşı tanıyıram və həmişə də böyük hörmətimiz olub... - Bayaqkı ədasından əsər-əlamət qalmamışdı, sifəti də, səsinin tonu da çönmüşdü. - Sifarişlərimiz çox idi deyə, çatdıra bilmirdik, üzrlü sayın. Acığınıza gəlməsin, pis mənada demirəm, bu gün bişirdiyimiz plovdan çox adam yeyib, amma kimsədən narazılıq eşitməmişik hələ...

- Demək istəyirsən ki, mən sənə şər atıram, yəni böhtançıyam?! Deyəsən, sənin başın bədəninə ağırlıq edir, adam!

Gözləmədiyi halda məsələnin ciddiləşməsindən narahat olan müdir üzərində nəzarəti tamam itirdi.

- Mahmud müəllim, çevirin məni balalarınızın başına, bir səhvdi olub...

Bu vaxt masanın üstündəki telefona zəng gəldi, Mahmud hirslə ayağa qalxdı, qarşısındakı adama baxmadan və bir söz demədən iti addımlarla restoranı tərk etdi. Maşına yaxınlaşanda müdir yaddan çıxıb masanın yanında qalmış qara çantasını əlində tutub, az qala qaça-qaça yaxınlaşdı.

- Mahmud müəllim, çantanız yadınızdan çıxıb restoranda qalıb, - onu sahibinə uzatdı, - burda... burda... - Nəsə demək istəyirdi, amma çəkindiyi hiss olunurdu; yenə də yalvarmağa başladı. - Siz, Allah bağışlayın bizi. Nə vaxt istəsəniz, kiminlə istəsəniz, elə bilin ki, öz yerinizdir. Bizə şərəf vermiş olarsınız, pul-zad da lazım deyil...

Müdir durmadan danışırdı. Mahmud əvvəlcə onu tərs-tərs süzdü, sonra çantasını az qala dartaraq əlindən aldı və acıqla arxa oturacağa atdı, özü də maşına oturub sağollaşmadan uzaqlaşdı.

Bir qədər yol getmişdi ki, maşını əylədi, əlini uzadıb arxa oturacaqdan çantanı götürdü. Yanılmamışdı: içində ağ zərf vardı. Açıb içindəkiləri saymağa başladı - iki min avro. Gülümsündü. Bugünkü nahardan məmnun idi. Həm də, özünü çox rahat hiss edirdi, ağrıları da tamam keçmişdi. Özünə də qəribə gəldi.

Çantanı qaytarıb yerinə qoydu, maşını işə salmaq istəyəndə gözü iç güzgüyə sataşdı. Oradan ona bir cüt göz baxırdı. Diqqətini cəmlədi - baxışlarda kinayə sezdi.

- Niyə elə baxırsan?

Adam susurdu, eləcə, kinayə ilə baxmağında idi. Nə demək istədiyini birdən anladı.

- Ağlına belə bir fikir necə gələ bilir sənin?! - İncik səslə dilləndi. - Allah özü şahiddi ki, elə bir fikrim olmayıb... Sadəcə, düyü yaxşı bişməmişdi... Hə, doğrudu ki, bir az əsəbi idim, am-

ma düşündüyün şey heç ağlıma da gəlməyib. Sən kimi məni yaxşı tanıyırsan!

Güzgüdəki gözlərdən kinayə çəkilmədi, hətta ona elə gəldi ki, son sözlərindən sonra, əksinə, daha da artdı.

- Niyə axı mənə inanmırsan?! - Özündən çıxdı. - Hamınız bir bezin qırağısız! Paxıl, qurdlu, böhtançı... Sən də onların tayısan... Zəhləm gedir hamınızdan!

Gözünü güzgüdən çəkdi, başının ağrısı yenidən qayıtmışdı. Əsəb içində maşını işə saldı, motordan səs çıxınca ayağını dibə qədər qaza basdı və qorxunc çığırtı ətrafı bürüdü. Bir neçə dəfə beləcə qazı basıb buraxdı. Hirsi soyuyan kimi oldu, yenidən güzgüyə çevrildi. Baxışlar həminki idi.

- Əh, cərə inan, belə cəhənnəmə inan... Miskin və zavallı sərsəri! Mənə deyən lazımdı ki, sənə niyə baş qoşuram axı! Hə, onu da bil, sən mənim üçün çoxdan ölmüsən. Bildin?! İndi isə rədd ol gözümdən! - Əlinin acıqlı hərəkəti ilə güzgünü yana çevirdi, qazı basdı, maşın yerindən götürüldü.

On beş dəqiqə sonra səkkizmərtəbəli binada idi.

Görüşdən ağır hisslə çıxdı. Çətin bir tapşırığı yerinə yetirmək üçün sabah təcridxanaya görüşə getməli idi.

Bu gün onun günü deyildi...

***

Başqa vəkilləri, - xüsusilə siyasi işlərə çıxanları, - qapıda gözlədən, ciddi-ciddi yoxlanışdan keçirən təcridxana nəzarətçiləri onu görcək qabağında əzilib-büzülüb axtarışsız-filansız görüş otağına yola saldılar. Heç on dəqiqə çəkmədi ki, müştərisini gətirdilər. Ondan qabaq gələn və müştərilərini bəzən saatlarla gözləyən vəkillər təcridxananın həyətində gəzişirdilər.

Dustaq ötən görüşdən keçən dövr ərzində xeyli sınıxmışdı, xəstəhal görkəmi də gözündən yayınmadı. Danışdıqlarından bəlli oldu ki, qısa müddətdə ürək tutmasından üç dəfə yanına həkim gəlib, xeyli dava-dərman yazıblar. Siyahını vəkilə verdi,

onları tez bir zamanda alıb göndərməyi arvadına çatdırmağı xahiş etdi.

- Lalə xanım bu siyahını görcək çox narahat olacaq. İcazə verin bu dərmanları özüm alım. Sabah tezdən çatdırarlar sizə. Xahiş edirəm, belə xırda şeylərə görə evdəkiləri narahat etməyəsiniz, mənə hər zaman ərklə buyura bilərsiniz. Bir xahişim də var, məni özünüzə vəkil yox, qardaş bilin...

Eşitdikləri dustağı kövrəltdi.

- Çox sağ olun, Mahmud müəllim. Heç bilmirəm xəcalətinizdən necə çıxacam. - Görüşə gəldiyi heç on dəqiqə olmazdı, üçüncü siqareti yandırdı. - Həkim bu zəhrimarı qəti qadağan edib. Amma heç cür alınmır. Azadlıqda onu tərgitmişdim, özümü elə yaxşı hiss edirdim ki... Burda onsuz keçinmək çox çətindi. Gündə heç iki qutu bəs eləmir. Çəkməyə başlayandan ürək sancılarım da artıb. Bir gün vurub öldürəcək... Amma indi məni narahat edən heç öz sağlamlığım da deyil... - Sanki dünyanın bütün kədərini özünə çəkmiş iki göz vəkilə dikildi. - Oğluma görə çox narahatam, Mahmud müəllim. Dünən gecə yuxuda anasını görmüşəm, elə hey ağlayırdı. Nə qədər soruşdumsa, heç nə demədi. Bu gecə isə yuxuda qəbirstanlıq görmüşəm. Sir-sifətimi tük basmışdı. Dəli kimi ora-bura qaçır, oğlumu çağırırdım. Birdən hansısa məzardan onun səsini eşitdim. Ora yaxınlaşıb adını çağırdım. Birdən məzar aralandı və ordan bir uşaq skleti çıxdı və məni qabağına qatıb qovmağa başladı. Qışqırtıma oyanmışam. Dəli kimi olmuşdum. Bu gün Lalə ilə telefonla danışandan sonra bir az sakitləşmişəm. Amma nəsə xoşagəlməz bir hiss heç tərk etmir məni... Murad xəstədi, ona heç əsəbləşmək olmaz. Həbsimi ondan gizlədiblər, səfərdə olduğumu deyiblər. Uşaq mənimlə nəfəs alır. Uzun müddət gizlətmək mümkün olmayacaq, hardansa oxuyacaq, kimdənsə eşidəcək. Özüm də çox narahatam, anası da... Bilsə ki, atasını tutublar, psixikasına çox pis təsir edəcək. Ona nəsə olsa, mən bir gün yaşamaram. Mən... mən oğluma görə hər şeyimdən keçməyə hazıram! Çox xahiş edirəm, məni burdan çıxarın, özü də mümkün qədər tez...

Qırıq-qırıq və sistemsiz danışığından, bir-birinə caladığı siqaretləri əsəbi halda sümürməsindən, barmaqlarının titrəyişindən çox həyəcanlı olduğu sezilirdi.

Eşitdiklərindən özünü çox təsirlənirmiş kimi göstərən vəkil ürəyində gülümsədi. Adam yetişmişdi, dünən aldığı tapşırığın icrasına başlaya bilərdi.

- Kənan bəy, burdan çıxmağınızı sizin qədər mən də istəyirəm, bunu ki bilməmiş deyilsiniz artıq. Amma iş çox qəlizləşib, indi mən ancaq hüquq müstəvisində nələrisə edə bilərəm, o da ki, ancaq məhkəmə başlayanda.

Dustaq bu sözlərdən az qala havalanacaqdı.

- Mən o vaxta sağ çıxmaram, Mahmud müəllim!... Özüm cəhənnəm, uşaq... - Qəhər dustağı boğdu. - Sizin əlaqələriniz genişdi, danışın, nə şərt desələr razıyam, amma məni burdan buraxsınlar... - Nəzərlərini yerə dikdi. Əsən barmaqlarını yumruğa çevirib ovcunda elə sıxdı ki, çölə çıxmış damarları deyərdin davam gətirməyib bu dəqiqə partlayacaq.

- Kənan bəy, siz bilirsiz axı, mən bu alış-veriş söhbətlərindən çox uzağam. Özümü belə şeylərdən həmişə qorumağa çalışmışam... - Yenə ara verdi. Gah başını əlləri arasına alır, gah dərindən nəfəs alır, gah da qalxıb otaqda var-gəl edir, bu yolla içində keçirdiyi əzab və sarsıntıları dustağa nümayiş etdirməyə çalışırdı. O, bu tamaşada öz rolunu zövq ala-ala ifa edirdi. Bir vaxtlar özü də oxşar tamaşanın iştirakçısı olmuşdu, amma tamam fərqli - qurban rolunda. Onda heç ağlına da gəlməzdi ki, nə vaxtsa eyni tamaşada tamam fərqli rol alacaq. Nəhayət, ağır-ağır dilləndi: - Yox, mən bunu edə bilmərəm!

- Çox xahiş edirəm, Mahmud müəllim, - dustaq az qala yalva-rırdı, - xəstə oğluma görə, Allah xatirinə bunu edin...

Vəkil yenə başını əlləri arasına alıb fikrə getdi; baxışlarını bir an da ondan çəkməyən dustağa tərəf baxmasa da, yalvarış, imdad dolu baxışlarını üzərində hiss edirdi.

"Hərif hazırdı, nə demək istəyirdinsə, deyə bilərsən daha..."

Ürəyində gülümsünüb əvvəlcə əllərini başından çəkdi, sonra

dərindən nəfəs alıb onu pfıldaya-pfıldaya buraxdı və nəhayət, başını ağır-ağır qaldırıb intizar içində ondan cavab gözləyən dustaqla göz-gözə gəldi. O, bütün bunları elə ustalıqla edirdi ki, hər hərəkəti dustağın onsuz da gərilmiş əsəblərini daha da tarıma çəkirdi.

- Prinsiplərimə, dəyərlərimə zidd olan bir şeyləri etməyi məndən xahiş etməklə məni çox çətin durumda qoyursunuz, Kənan bəy. Amma həm də sizə və oğlunuza görə çox narahatam... - Yenə fikrə gedirmiş kimi susdu; dustaq üçün daha bir neçə üzücü dəqiqə keçdi. Nəhayət, dilə gəldi. - Belə bir adam var, yuxarılara çox yaxındı, o kömək edə bilər yəqin. Amma onunla sizin etibarlı adamınız danışsa yaxşıdı. Mən bu pul, mal-mülk söhbətlərinə qarışmaq istəmirəm...

Dustağın görüş zamanı ilk dəfə idi ki, çöhrəsində təbəssüm peyda oldu.

- Çox sağ olun, Mahmud müəllim. Sizin bu yaxşılığınızı bütün həyatım boyu unutmayacam... - Gözləri yaşardı, sözünü bitirə bilmədi. - Bunlarla isə haqq-hesabım qalsın azadlığa çıxana. Hər şeyin bədəlini artıqlaması ilə ödəyəcəklər... Özümə, ailəmə yaşatdıqlarımın əvəzini bir gün gələcək, onlardan mütləq çıxacam!

"Bahoo! - Vəkili ürəyində acı-acı gülümsündü. - Onda sən tez çıxdın burdan! Onlar da bunu bilmək istəyirdilər. Özünü yaman yandırdın, oğlan! Bağışla, amma mən bunları çatdırmalı olacam. Sən bilməli idin ki, bizim danışıqlarımız dinlənir..."

Özü də hiss etmədən ora-bura baxdı.

- Heç narahat olmayın, Kənan bəy, hər şeyin zamana ehtiyacı var. İndi bizim üçün əsas olan sizin sağlamlığınızdı. Sizə həyəcanlanmaq heç olmaz. - Yenə qayğıkeş dost obrazına girdi. - Sizə söz verirəm ki, hər şey yaxşı olacaq, sadəcə bir balaca səbr etməyiniz və ən əsası da səhhətinizin qeydinə qalmağınız gərək... Hə, bir də mən fikrimi başa çatdırmadım. Sizin adınızdan danışıqları aparacaq şəxsin adını demədiniz. Onu da nəzərə alın ki, o çox etibarlı və ağzıbütöv olmalıdı, yoxsa işləriniz daha da korlana bilər...

Dustaq sözünü ağzında qoydu:

- Mənim bu dünyada etibar etdiyim iki nəfər var, biri sizsiz, o biri də Lalə. Siz birbaşa iştirak etmək istəmirsizsə, onda danışıqları o aparar.

- Lap yaxşı. Həmin adamın kontaktlarını indi sizə təqdim edəcəm. - Telefonunda eşələnib oradan tapdığı nömrəni və onun sahibinin ad və soyadını bir kağıza yazıb dustağa uzatdı. - Lalə xanım mümkün qədər tez bu nömrə ilə əlaqə saxlayıb görüşsün. Ona məktub yazmağınız lazım gələcək. Yaxşı olardı ki, ümumi işin xatirinə nə o, nə də əlaqəyə girəcəyi adam mənim bu işdən xəbərim olduğunu bilsinlər. Mən sizə hər şeyi açıb deyə bimirəm, amma işinizin maraqları baxımdan belə daha yaxşıdı. Ona görə məktubda yazın ki, bu iş barədə heç kimə, hətta vəkilə də məlumat verməsin. Mən də özümü elə aparacam ki, guya heç nədən xəbərim yoxdu.

- Mən hazır, nə yazım Laləyə?

Üzündə təbəssüm, gözlərində isə ümid qığılcımları peyda olmuş dustaq vəkilinin qara kostyumunun cibindən çıxararaq ona uzatdığı qara qələmi aldı...

İki saat sonra yazdığı məktubun orijinalı arvadında idi. Həmin gün Lalə məktubda yazılan nömrəyə zəng açıb çox vacib bir məsələ ilə bağlı görüşmək istədiyini söylədi. Görüş yeri kimi şəhər kənarındakı bağlardan biri təklif olunurdu; yer qadının ürəyincə olmasa da, belə seçimin konfidensiallıq və təhlükəsizlik zəruriyyəti ilə bağlı olduğu barədə arqumentin qarşısında çox da etiraz edə bilmədi.

Telefon danışığından iki saat sonra səkkizmərtəbəli binada bağlı qapılar arxasında gizli xəfiyyələrdən birinin bağ evində iki nəfər arasında baş tutacaq görüşün detalları müzakirə olunurdu.

***

Gün Mahmud üçün ağır keçmişdi; özünü dəhşətli yorğun hiss edirdi. Yol getməyə heç həvəsi yox idi. Günorta yenə təzyi-

qi qalx-mışdı, işçiləri həkim çağırmış, iynədən sonra özünə gəlmişdi. Səhər evdən çıxanda planında axşam Qayaya getmək vardı. Yeməyə yaxın durmayan, onu görəndə dəlilik edən tərs quşu orada ac-susuz qoyub gəlmişdi - ölə biləcəyindən narahatdı. Quş isə ona diri lazım idi. O biri tərəfdən də, bu vəziyyətdə yol getməyə tərəddüd edirdi. Xeyli fikirləşəndən sonra marağı üstün gəldi, getmək qərarı verdi. Sabah işdə olmalıydı deyə, qaranlıq düşməmiş yola çıxdı ki, gecəni rahat yata bilsin.

Ayağı Qayanın döşəməsinə dəyən kimi birbaşa qəfəsə tərəf yön aldı. Quş sağ idi, amma qəfəsin bir küncündə halsız halda büzüşüb oturmuşdu. Qarşısındakı adamı görcək qurcalandı, artığına, görünür, heyi yetmədi.

- Ölürsən? - Yeni sahibi kinayə ilə gülümsündü. - Hara ölürsən, gör, sənə nələr almışam! Albalı, qoz ləpəsi, fındığ ləpəsi, - adlarını çəkə-çəkə, acıq verirmiş kimi hərəsindən bir-ikisini götürüb ağzına atır, marçıldada-marçıldada yeyirdi, - armud, təzə tərəvəz... yaman dadlıdı! Sən də istəyirsən?

Quş donuq və heysiz gözlərini ondan çəkmirdi.

Qəfəsin qapısını açıb armudun tikəsini ona yaxınlaşdırdı. Hər ehtimal üçün əlinə möhkəm dəridən əlcək geymişdi. - Al, ye!

Zara gözlərini tikəyə dikib xeyli baxdı, amma yerindən tərpənmədi.

Mahmud hovuzun böyründə qoyulmuş parçı götürdü, onu qayanın yuxarısından süzülüb gələn, büllur kimi su ilə dolu küpə salıb ağzına qədər doldurdu. Qəfəsə yaxın gəldi.

- Belə dadlı-ləzzətli təamların üstündən buz kimi su nə ləzzət edər! - Əvvəlcə bir neçə qurtum aldı, sonra quşa yanıq verirmiş kimi "oxxay!" deyib parçı başına çəkdi.

Zara gözlərini ona dikib tərpənmirdi. Birdən nəfəsi çatmırmış kimi ağzını bir neçə dəfə açıb-yumdu. Sonra yenə gözlərini qarşısındakı adama dikib, quruyub qaldı. Bu müddət ərzində quşun hər xırda hərəkətini maraqla müşahidə edən adam bu oyundan həzz almağa başlamışdı.

- Bəlkə, sənin də könlündən su keçir? - Yerə atdığı su qabını

götürüb ağzına qədər doldurdu, gətirib düz qarşısında qoydu. - Bilirəm, susuzluqdan yanırsan, bu da yemək deyil ki, sudu da, götür iç!

Quş fikirli-fikirli bir xeyli suya baxdı, sonra asta-asta qalxıb irəli bir addım atdı və dayandı. Qərar verməkdə çətinlik çəkdiyini görmək olurdu. Nəhayət, ikinci, ardınca üçüncü addımı atdı, qabın düz qarşısında dayandı. Beləcə, tərpənmədən fikirli-fikirli suya xeyli baxdı və... dimdiyini qaba tərəf uzadanda bayaqdan nəfəsini belə dərmədən bu səhnəyə tamaşa edən adamın gözləri alışıb yandı. "Belə sınarsan, ha!" - istehza ilə ürəyində güldü. Bu vaxt heç gözləmədiyi bir şey baş verdi: quş dimdiyi ilə qabı vurub aşırdı və ayaq üstə dayana bilməyib yerə sərildi, havası çatmırmış kimi ağzını açıb-yummağa başladı.

Adam qəzəbdən az qala partlayacaqdı. Əlini hirslə qəfəsə salıb can verməkdə olan quşu götürdü.

- Yox, mən sənə belə rahat ölməyə imkan verməyəcəm. Sən sınmalısan və sınıq mənliyinlə də əzab çəkə-çəkə yaşamağa davam etməlisən!

Quşu masanın üstünə qoyub dimdiyini aralamaq üçün bir neçə uğursuz cəhd etdi. Əlcəyi çıxarıb kənara tulladı. "Sən elə gündəsən ki, buna heç ehtiyac yoxdu!". Nəhayət, dimdiyi aralayıb sudan bir neçə damcı boğazına tökəndə bayaqdan can verən quşa sanki ikinci qüvvə gəldi, hikkə ilə başını yellədib ağzındakı damçıları bayıra boşaltdı.

Özünə də qəribə gəlsə də, bu dəfə özündən çıxmadı, quşu yerə çırpmadı, boğazını üzmədi, heç üstünə də bağırmadı... dimdiyini yavaşca aralayıb yenidən boğazına bir neçə damcı su tökdü; amma bu dəfə başını tərpətməyə, onu yerə tökməyə macal vermədi. Su quşun nəfəsini kəsə-kəsə boğazından axıb içəri getdi. Ona nəfəsini dərməyə, özünə gəlməyə imkan verdi və eyni şeyi bir neçə dəfə təkrarladı. Sonra armud tikəsini xırda dilimlərə böldü, taqətsiz halda masanın üstünə sərilmiş quşun dimdiyini yenidən araladı, dilimlərdən bir-bir götürüb ağzına qoyur, barmağı ilə yavaşca itələyirdi.

Ölümünü seçməklə ləyaqətini qorumağa qalxmış quş insan hikkəsinin qarşısında davam gətirmək gücündə deyildi!

Elədiklərindən məmnun halda heyvanı qaytarıb yuvasına qoydu. Qəfəsin qarşısından çəkilmədi, gözü onda idi. Bir neçə dəqiqə ötdü. Nəhayət, quş özünə gəlib səndələyə-səndələyə ayağa qalxdı. Adam sifətini qəfəsə yaxınlaşdırdı.

- Necəsən? Özünə gəldinmi? İki gündən sonra yenidən qayıdacam. Mən gələnə qədər çalış gəbərəsən!...

***

Bu gün Əlif Bahadıra hökm oxunmalı idi. Məhkəmə binasının qarşısı adamla dolu idi. Hakimiyyət qurumları xüsusi təhlükəsizlik tədbirləri görmüşdülər; hər yerdə polislər gözə girirdilər.

Əksər belə siyasi işlərdə olduğu kimi, mülki geyimli xüsusi şəxslər məhkəməyə gələnlərin arasında gəzişir, hərdən də kənara çəkilib əllərindəki telefonla toplaşanların şəkillərini çəkirdilər; bunu gizlətmədən, nümayişkaranə şəkildə edirdilər. Əvvəlki proseslərdə və sosial şəbəkələrdə daha çox fəallığı ilə seçilən bir neçə şəxsi zorla maşına mindirib aparmışdılar; sonradan barələrində polisin qanuni tələblərinə tabe olmamaq suçu ilə on, on beş, otuz sutkalıq inzibati həbs qərarı verildi. Amma insanların gözünü qorxutmaq üçün atılan bu addımlar daha əvvəlki effekti vermirdi: Əlifə dəstək üçün gələnlərin sayı prosesdən prosesə artmaqda idi.

Polis binanın qarşısında toplaşanların sayının artdığını görüb onları yaxınlıqdakı kiçik parka tərəf sıxışdırmağa başladı. Ortalıq yenə bir-birinə dəydi. Bu arada polislər mülki geyimli şəxslərin köməyilə daha iki nəfəri qamarlayıb, etiraz səsləri altında yaxınlıqda keşik çəkən polis maşınlarından birinə otuzdurub apardılar. Qısa çaxnaşmadan sonra ara yenə sakitləşdi.

Prosesin başlanmasına on beş dəqiqə qalırdı. Bu zaman qara bir CİP binanın qarşısında dayandı. Əlində qara çanta tutmuş qara kostyumlu adam ayağını maşından yerə qoyan kimi hər

tərəfdən fit, qışqırıq, söyüş səsləri eşidilməyə başladı: "Satqın haramzadə!", "Gözündən gəlsin Əlifin sənə etdikləri!", "Vicdanını pula satan əclaf!"...

Qara kostyumlu adam bütün bunları eşitmirmiş kimi binanın girişinə tərəf yönəlməkdə ikən, əllərində mikrafon tutmuş bir neçə jurnalist müsahibə üçün ona yaxınlaşdı; onlara əhəmiyyət verməyib addımlarını daha da yeyinlətdi. Amma jurnalistlər də asanlıqla əl çəkənlərdən deyildilər, suallarını bərkdən səsləndirə-səsləndirə arxasınca düşdülər. Bu zaman polislər özlərini yetirdilər, onu jurnalistlərin əlindən alıb binanın girişinə qədər ötürdülər.

Az keçmiş, Əlif bacısı Süsən və daha bir neçə nəfərlə binanın tinində peyda oldu. Bu dəfə ətrafı alqış səsləri bürüdü; Əlif başı və əli ilə minnətdarlıq etməklə qarşılıq verdi. Jurnalistlər bu dəfə ona yaxınlaşdılar. Bir neçə dəqiqəlik müsahibədən sonra məhkəmənin binasına daxil oldular.

Zal adamla dolu idi. Nazirin vəkilinin masası hələ ki boş qalmışdı. Hakimlər qapıda görünən kimi məhkəmə iclas katibi ənənəvi komandanı verəndə o da qapıda göründü; ayağını işəri basması ilə zaldan narazı uğultu keçdi. Başı ilə hakimləri salamlayıb düz vəkillər üçün ayrılmış masaya doğru getdi. O tərəfə baxmamağa çalışırdı, amma gözü ani onu tutdu: həminki yerində - ön cərgədə, qardaşının masası tərəfdə əyləşmişdi.

Məhkəməyə sədrlik edən orta yaşlı hakim, - onun əvvəllər ağır cinayətlər sahəsində ixtisaslaşan prokurorluq işçisi olduğu deyilirdi; bir sıra siyasi işlərdə istintaq qrupuna rəhbərlik etmişdi, - qərarı üzündən oxumağa başladı.

Gözü sədrlik edənin ağzında olsa da, fikri onun yanında idi. Bu iş üzrə dörd məhkəmə iclası olmuşdu və bütün bu müddət ərzində bircə dəfə də olsun onunla baxışları toqquşmamışdı. Sanki bu zalda Mahmud adlı adam yox idi; o adam ki, elə bir proses olmazdı ki, aşağılanmasın. Hətta ən bərk söyüldüyü, təhqir olunduğu vaxtlarda belə, Süsən ona tərəf baxmırdı, hər dəfə proses başa çatanda başını aşağı salıb sakitcə zalı tərk edirdi...

Sədrlik edən nəhayət, hökmün hamının səbirsizliklə gözlədiyi nəticə hissəsini elan etdi: Əlif Bahadır bir il müddətinə azadlıqdan məhrum edilirdi və məhkəmə zalında həbs olunmalı idi.

Zal bir-birinə dəydi. Qarğış, söyüş, təhqirin biri bir qəpiyə idi. Hakimlər az qala qaçaraq zalı tərk etdilər. Məhkəmə nəzarətçiləri dərhal qabağa keçib adamların qarşısında canlı sipər çəkdilər və onları qapıya tərəf sıxışdırmağa başladılar. Süsənə toxunmağa cəsarət etmədilər. O, müttəhimə yaxınlaşıb gülümsəyərək "Sənin kimi qardaşım olması ilə fəxr edirəm, Əlif!" - dedi. Qardaş da eyni təbəssümlə, "Mən də səninlə, Süsən!" cavabını verib bacısını qucaqladı.

Duruşlarından da, baxışlarından da əzəmət, məğrurluq, sevgi yağırdı.

Mahmudun içini qəribə bir hiss aldı. Bu iki şəxs cəmi bir neçə il öncəyə qədər ona çox doğma və əziz adamlardı. Biri sevgilisi, can yoldaşı, o biri dostu, əqidə yoldaşı idi. Bir-birilərinin yolunda canlarından belə keçməyə hazır idilər. İndi onlardan birini onun əli ilə həbsə göndərirdilər...

Bu vaxt xüsusi geyimli iki nəfər, - onlardan birinin əlində qandal vardı, - onlara yaxınlaşanda Əlif gülümsünə-gülümsünə əllərini irəli uzatdı. Dustağı vəkil masasının qarşısından keçirib apardılar; Əlif başını aşağı dikib oturmuş keçmiş kürəkəni tərəfə heç gözünün ucu ilə də baxmadı.

Mahmud hələ də özünə gələ bilməmişdi. Hə, o, öz çıxışında Əlifin həbsini tələb edirdi, - nazir belə istəmişdi, - amma bu məzmunda qərarı heç gözləmirdi; ona keçmiş qaynı barəsində icbari hökm çıxarılacağı deyilmişdi.

Zal boşalsa da, dəhlizdən hələ səslər kəsilməmişdi. Təhqirlərlə üzləşməsin deyə, adamların dağılışmasını gözləməli oldu. İçəridə o, Süsən və iki jurnalist qalmışdılar. Keçmiş arvadı zalın o başında, arxası ona tərəf jurnalistlərin suallarını cavablandırırdı. Heç dəyişməmişdi, hətta ona elə gəldi ki, bu müddətdə daha da gözəlləşib onun Süsəni. Ürəyi sıxıldı, dəhlizdəki səs-küy də kəsilmişdi, qalxıb getmək istəyirdi ki, heç gözlə-

mədiyi bir şey baş verdi: müsahibəsini bitirən Süsən jurnalistlərdən ayrılıb ona tərəf addımlamağa başladı. Ayaqlarını əsməcə tutdu, bir anlığa qaməti əyilən kimi oldu, amma tez də özünü yığışdırdı.

Qadın gəlib düz önündə dayandı, gözlərini gözlərinin içinə zilləyib eləcə səssizcə dayanıb durdu; keçmiş sevgilisi və əri tab gətirməyib baxışlarını endirdiyi anda heç nə demədən çevrilib getdi.

Kişi isə gözlərini endirdiyi həmin o anda anladı ki, bu baxışlar dəhşətli yuxu kimi bundan sonra bütün həyatı boyu onu qarabaqara izləyəcək...

***

Lalə tezdən zəng edib görüşmək istədiyini dedi. Səsindən bərk həyəcanlandığı hiss olunurdu. Özünü bilməzliyə vurub və bərk narahat olurmuş kimi göstərib təkidlə nə baş verdiyini soruşdu. Qadın həyəcan içində çox vacib bir məsələ ilə bağlı təcili görüşmək lazım gəldiyini az qala yalvara-yalvara təkrarlayırdı. Ofisə gəlməyi təklif etdi, Lalə heç yerə çıxa bilməyəcəyini deyib evə dəvət etdi.

Telefonu qoyub özündən razı halda gülümsündü. Bir neçə dəqiqədən sonra qara maşın sahibinin növbəti şikarına doğru şütüyürdü.

Qapını döyən kimi açıldı.

- İndi siz yeganə adamsız ki, bunu sizinlə bölüşə bilərəm. Mənə yol göstərin, tamam ağlımı itirmişəm... - Qadın həyəcandan titrəyirdi. - Murad olmasaydı, heç düşünmədən o addımı atardım... inanın atardım... bu ləkə ilə bir gün belə həyatda qalmaq istəməzdim...

Özünü heç nə anlamırmış kimi göstərib sifətinə mümkün qədər daha çox narahat görkəm verdi.

- Nə baş verib axı, Lalə bacı? Sakitləşin və normal danışın görək nə olub.

- Yox, mən heç nə danışa bilmərəm... Sizin mənə köməyiniz lazımdı... Mənə yol göstərin, rica edirəm... - Qadın gah başını əlləri arasına alır, gah əlləri ilə üzünü tutur, gah susub dayanır, gah da sistemsiz sözlər danışırdı.

- Nə baş verdiyini deməsəniz, sizə necə yardım edə bilərəm? Nəhayət, bir deyin görüm nə olub axı. Elə bir dərd yoxdu ki, dərmanı olmasın, əmin edirəm sizi, bu dərdinizin də çarəsi var. - Vəkil qaşlarını çatıb sifətinə də saxta təbəssüm verdi.

Onun son sözlərinə azacıq sakitləşən kimi olmuş ev sahibəsi ayağa qalxdı, böyük bir şkafın ən yuxarı siyirməsində gizlətdiyi iri, sarı zərfi çıxardı; ona toxunan kimi qadını yenidən əsməcə tutdu, əlləri əsə-əsə zərfi ona uzatdı.

- Mahmud qardaş, Allaha and olsun, Murad ölsün, mənim bundan xəbərim yoxdu!

Başını aşağı saldı, bütün bədəni əsirdi.

Qonaq zərfi alıb açdı, içindəki topa halında şəkilləri görcək təəccüblənirmiş kimi əvvəlcə onlara, sonra qadına baxdı. Şəkillərə nəzər saldıqca sifətininin necə dəyişdiyini görən qadın buna bəndmiş kimi hönkürməyə başladı.

- Mən bilmirəm bu necə olub, - başını itirmiş qadın ağlaya-ağlaya izahat verirdi, - Kənanın işi ilə bağlı bir görüşə getmişdim, özü xahiş etmişdi. Bilmirəm niyəsə, yazmışdı ki, sizə deməyim. Danışdıq, bəzi şeyləri müzakirə etdik. Söhbətin bir yerində davam gətirmədim, ağladım. Həmin adam mənə su gətirdi. - Hərdən qəhər boğazını elə tuturdu, nəfəsini güclə çəkə-çəkə, az qala boğula-boğula danışırdı. - Onu içəndən sonra heç nədən xəbərim olmayıb... Bu şəkildəki adam mənəm, amma belə bir şey olmayıb və ola da bilməzdi... - Qadın üzünü əlləri ilə tutub daha bərkdən hönkürməyə başladı. - Bütün müqəddəslərə and olsun mənim bundan xəbərim olmayıb. And verirəm sizi, mənə yol göstərin...

Şəkilləri bir-bir əlinə aldıqca kişinin sifəti haldan-hala düşürdü. O, rola girməyi yaxşı öyrənmişdi. İki gün öncə gözləri önündə zərfə qoyulan bu şəkillər cavan və gözəl bir qadınla

üzü görünməyən bir kişinin intim münasibətdə olduğu yerdə çəkilmişdi.

Şəkillərdəki qadın isə qarşısında oturmuş və hönkürtüsü bir an da kəsilməyən bu zavallı idi. Bir anlığa ona yazığı gəldi.

"İş başında mərhəmətə yer yoxdu!" - Bu qaydanı xatırlayıb yenidən özünə və roluna qayıtdı.

Qadının hönkürtüsü birdən kəsildi, başını aşağı salıb susdu. Otağa sakitlik çökdü.

- İndi sizdən başqa güvənəcək kimsəm yoxdu. Mənə yol göstərin. Əgər desəniz get özünü dənizə at, elə bu dəqiqə durub gedəcəm... İnanın, edərəm bunu! - Qadın başını qaldırmadan danışırdı, səsindəki həyəcandan əsər-əlamət qalmamışdı; nitqi aydın və qətiyyətli idi, sanki bir neçə dəqiqə öncə başını itirmiş həmin o adam bu deyildi. - Məni indi nə mal-mülk maraqlandırır, nə də başqa şeylər... - Susdu, baxışları aynadan uzaqlara dikildi və gözlərini oradan çəkmədən bir xeyli beləcə donub qaldı. - Heç onun barəsində də düşünmürəm. Bu anda məni təkcə bir nəfər, yalnız onun taleyi narahat edir...

Kişi çaşıb qalmışdı: o adam kim idi? Bu qadın həbsdə olan ərini də düşünmürdüsə, başqa kimi düşünə bilərdi?! Ona elə gəldi ki, həmin adam aynadan görünür və qadın da ona baxır. Gözləri ixtiyarsız o tərəfə çevrildi.

Qadın gözlərini aynadan çəkib qarşısındakı adamın gözlərinə dikdi.

- Məni indi ən şox narahat edən tək bir kəs varsa da, o, oğlumdu, Muraddı!

Bayaqdan yaş içində boğulan bu məzlum gözlərdən indi ona vəhşi heyvan baxırdı - təhlükədə olan balasını qorumaq üçün hər kəsi didib-parçalamağa, özünü belə qurban verməyə hazır olan birisi! Baxışlara duruş gətirə bilməyib gözünü yayındırdı.

- Mənə ölkədən çıxmağa yardımçı olun! Özü də, tez, nə qədər mümkünsə tez! - Səsdə xahişdən çox, göstəriş var idi.

Kişi özünü itirən kimi oldu. Bu variant barədə nə özü dü-

şünmüşdü, nə də bu barədə onunla danışmışdılar. Nə cavab verəcəyini bilmirdi. Qadının özü köməyinə gəldi.

- Kənanı tutduranlara çatdırın ki, mən onların istədiklərinin hamısını etməyə hazıram. Bunun üçün hansı sənədi imzalamalıyamsa, nələri etməliyəmsə, desinlər. Amma bir şərtim var. Ən geci birigün ölkədən çıxışıma imkan yaratsınlar. Bir də, yad ölkədə övladımla qapılarda qalmamaq üçün yetərli məbləğ verilməlidi! - Bu da daha çox əmr idi.

Kişi bir saat sonra səkkizmərtəbəli binanın yeddinci mərtəbəsində idi...

***

Mahmud iki gün öncə söz verdiyi kimi, yenidən Qayaya döndü. Yenə də eyni şey təkrarlandı. Aclıqdan, susuzluqdan heydən düşmüş heyvan yeməyə yaxın durmadı, suyu bu dəfə də təpiyi ilə dağıtdı. O da eyni şeyi təkrarladı: quşu yıxıb, suyu zorla boğazına tökdü. Amma yeməyi keçən dəfəki kimi, zorla yedizdirmədi, armudu vəənciri kiçik dilimlərə ayırıb qəfəsin içinə qoydu.

İşini bitirib diqqətlə quşun gözlərinə baxdı. İndi onlardan nifrət yox, ümidsizlik və çarəsizlik yağırdı.

- İki gündən sonra yenidən qayıdacam. - Gülümsündü. – Amma ikimiz də rahat ola bilərik, sən daha ölməyəcəksən!

Çıxmaq istəyəndə, qayıdıb bir qoz ləpəsi götürüb onu da qəfəsin telləri arasına sancdı.

- Al, bu da özünü yaxşı aparacağına görə, məndən sənə xüsusi hədiyyə olsun...

Sözünü tutub dediyi vaxtda Qayaya döndü. Qəfəsdə nə meyvə vardı, nə də qoz ləpəsi. Su qabını doldurub yerindən asdı. Marketdən aldığı təzə tərəvəzi, mer-meyvəni səliqə ilə kiçik qaba düzüb qalib görkəmində gətirib quşun qabağına qoydu. Sifətini qəfəsə lap yaxın tutdu; o dərəcə yaxın ki, quş dimdiyinin bircə zərbəsi ilə gözünü çıxara bilərdi. Amma daha qorxmurdu.

- Çətini geridə qaldı, bundan sonrası asan olacaq. Daha rahat nəfəs ala bilərsən, indi sən də mənim tayımsan.

Susub quşun buz kimi sudan içib, ardınca meyvələri acgözlüklə dimdikləyib içəri ötürməsinə xeyli tamaşa etdi. Sonra boşalmış su qabını doldurdu, qısa zamanda yeyilmiş meyvələrin yerinə yenilərini qoydu, qəfəsin sınmış sakininin üzünə baxmadan ikrahla:

- Kaş ki, öləydin, sənə hörmətim daha çox olardı! - deyib oranı tərk etdi...

***

Təyyarə saat ikidə Niderlanda uçacaqdı. Vaxta üç saat qalmış Mahmud onları evdən götürməli idi. Lazım olan sənədlərə aeroportda imza atılacaq, pul da elə oradaca veriləcəkdi. Məbləğ yetərincə böyük olsa da, bu, real əmlakın dəyərinin heç on faizi deyildi. Vəkil şərtləri hər iki tərəflə razılaşdırmışdı deyə, prosedur uzun çəkməməli idi. Aeroportda rəsmiləşdirməni operativ həyata keçirmək üçün notarius onları gözləyəcəkdi; bunun üçün onlara ayrıca otaq da ayırmışdılar.

...Saat on birə on dəqiqə qalmış qara CİP hündür bir binanın qarşısında dayandı. Az keçmiş dördüncü mərtəbədəki aynada kimsə görünüb elə o andaca yox oldu. Düz saat on birdə bir qadın yeniyetmə oğlanla giriş qapısında peyda oldular.

Yolboyu heç nə danışmadılar. Qadın belə istəmişdi, uşağa görə; o, atasının həbsdə olduğunu bilmədiyi kimi, sürücünün də kim olduğundan xəbərsizdi.

Yarım saatdan sonra hava limanında idilər. Yoxlamadan keçdikdən sonra qadınla uşağı VİP yolçular üçün ayrılmış yerə apardılar. Mahmud imkan tapıb qadına qısa müddət sonra onu ayrıca otağa dəvət edəcəklərini, orada notariusun iştirakı ilə sənədləşdirmə aparacaqlarını söylədi. Narahatlığı bir an da çöhrəsindən çəkilməyən qadın başı ilə razılıq verib uşağın heç nə bilməməsini təkrar xahiş etdi. Mahmud gülümsünərək, təkrara

ehtiyac olmadığını deyib aralandı.

VİP zalda xeyli adam vardı. Qadın ətrafa göz gəzdirdi, özünü çox da rahat hiss etmədiyini uzaqdan sezmək olurdu.

Diqqəti çəkməmək üçün qıraqda bir yerdə boş kreslolarda özlərinə təzəcə yer etmişdilər ki, gənc bir xanım masaya yaxınlaşıb nə içəcəklərini soruşdu. Qadın imtina etdi, oğlu portağal şirəsi sifariş verdi. Xanım uşağa qəribə bir təbəssümlə baxıb uzaqlaşdı. Az sonra şirə ilə birgə qayıtdı, onu oğlanın qarşısına qoyub, eyni təbəssümlə "nuş olsun" deyib aralandı.

Bu zaman zalın ortasına dikdaban ayaqqabılı, hündürboy və sarışın gənc bir xanım yaxınlaşdı. Əlində mikrafon vardı, yanında bir gənc xanım və iki oğlan dayanmışdılar; əllərində iri gül buketi və iki hədiyyə qutusu tutmuşdular.

Mikrafonlu xanım üzünü zala tutdu:

- Əziz yolçularımız, bir dəqiqəliyə diqqətinizi rica edərdim. Bu gün ölkənin ən böyük və dünyanın ən yaraşıqlı və təhlükəsiz aeroportlarından biri olan hava limanımızın həyatında çox əlamətdar bir gündür. Böyük məmnunluq hissi ilə bildiririk ki, uzun illər öz sərnişinlərinin xidmətində sevə-sevə dayanan kollektivimiz bu gün yüz milyonuncu sərnişinini qəbul etməyin sevincini və qürurunu yaşayır. Bu əlamətdar hadisə münasibətilə aeroportumuzun dəyərli rəhbərliyi və mehriban kollektivi adından həmin sərnişinimizə hədiyyələrimiz var. Bunlar dünyanın nüfuzlu şirkətlərinin istehsalı olan ən son model kompüter və mobil telefondur. Həmin şəxs indi burada, bizim aramızdadır. Mən böyük məmnunluq hissi ilə hədiyyələri ona təqdim etmək istərdim. Həmin adam... - Bu yerdə çıxışına pauza verdi.

Zalda canlanma yaranmışdı. Hər kəs o xoşbəxt sərnişinin məhz özü olması arzusu ilə həyəcanla gözlərini sarışın xanımın ağzına dikmişdi. Bu sırada bir nəfər istisna idi; qıraqdakı masanın arxasındakı az qala yumağa çevrilmiş qadın Tanrıya yalvarırdı ki, "həmin adam" nə özü, nə də oğlu olsun.

Aparıcı zaldakıları intizarda saxlamaqda davam edərək pauzanı bir az da uzatdı və... zalın küncündə gənc qadınla oğlan

uşağının əyləşdiyi masaya tərəf addımlamağa başladı. Dikdaban ayaqqabılar mərmər döşəməyə taqqıltı ilə dəyib hər dəfə səs çıxaranda masadakı qadına elə gəlirdi ki, zal titrəyir və bu dəqiqə bina başına çökəcək; bu hissin təsiri altında daha da büzüşüb masanın arxasında yumağa döndü. Aparıcı ona maraqla baxan uşağa yaxınlaşdı, üzünə gülümsəyərək hamının səbirsizliklə gözlədiyi adı uzada-uzada və təmtəraqla elan etdi: - Həmin adam... Murad Ayxanlıdır!

Zalı alqış sədaları bürüyüncə qalibin şərəfinə musiqi sədaları hər tərəfi bürüdü. Pauzadan yararlanan aparıcı əyilib hələ də nə baş verdiyini tam anlamayan uşağın qulağına nəsə pıçıldadı. Sifəti rəng verib rəng alan uşaq gah anasına, gah aparıcı xanıma baxa-baxa yerindən qalxdı; bu zaman əllərində hədiyyələr tutmuş gənclər ona yaxınlaşdılar.

- Dəyərli sərnişinlərimiz, - aparıcı zala üz tutdu, - indi qiymətli hədiyyələrimiz sahibinə təqdim olunacaq. Bu möhtəşəm hadisənin qəhrəmanı balaca Muradın və onun anası Lalə xanımın şərəfinə dəyərli bəylərimizdən və xanımlarımızdan gurultulu alqışlar rica edirəm...

Son sözlər ağzından çıxar-çıxmaz haradansa peyda olmuş müxbirlər əllərində kamera, fotoaparat həmin masaya yaxınlaşıb oğlanın və sifətini gizlətməyə çalışan anasının şəkillərini çəkməyə başladılar...

Az sonra zala yenidən sakitlik çökdü. Küncdəki masada büzüşüb qalmış və gözlərini başı hədiyyələrinə qarışmış oğlundan çəkməyən ana dəhşət içində bir neçə dəqiqə öncə nə baş verdiyini anlamağa çalışırdı. Bu zaman bir nəfər masaya yaxınlaşıb astadan ona nəsə dedi; qadın çiyinlərindən ağır yük asılıbmış kimi çətinliklə yerindən qalxıb uşağa yaxınlaşdı.

- Murad, oğlum, sən burda qal, mən biletlərimizi qeydiyyatdan keçirib qayıdıram.

Uşaq gülümsünərək başı ilə razılıq verdi və yenidən hədiyyələrinə döndü.

Mahmud otaqda tək idi, qadını görcək qalxıb qarşısına gəldi.

- Mənim bundan xəbərim olmayıb, inanın, Lalə xanım. Yoxsa imkan verməzdik belə bir şey baş versin.

Qadının donuq baxışları üzünə zilləndi.

- Ölüb yerə girsəydim, bundan yaxşı idi!

Bir neçə dəqiqə sonra notariusun iştirakı ilə öncədən razılaşdırılmış sənədlərin rəsmiləşdirilməsi başa çatdı. Notarius otaqdan çıxanda Mahmud qara çantasını açdı, oradan bir zərf çıxarıb qadının qarşısına qoydu.

- Xahiş etdilər ki, bunu sizə çatdırım. Danışılmış məbləğin bir hissəsi nağd şəklində bu zərfin içindədi. Qalan hissəsi isə, - əlini qara kostyumun döş cibinə salıb oradan çıxardığı kartı qadının önündə masanın üstünə qoydu, - burdadı. Belə daha təhlükəsiz olacağını düşündük. Pulu saya, kartı isə hava limanındakı bankomatlardan istənilən birində yoxlaya bilərsiniz.

Qadın başını aşağı salmışdı. Hiss olunurdu ki, fikri başqa yerdədir. Qarşısındakı adam onun nələr çəkdiyini təxmin edirdi və iş başında bu hissi özündən nə qədər qovmağa çalışsa da, o, bu qadının faciəsinə acımaya bilmirdi. "Nə etmək olar, - acı-acı düşündü, - başımıza nə gələcəyini heç kəs bilmir".

- Lalə xanım, bunları götürün və etibarlı yerə qoyun. - Ayağa qalxdı. - Siz getməlisiz, bir azdan təyyarəyə minik başlayacaq. Hər ehtimal üçün sizi ora qədər ötürəcəklər. Hər hansı probleminiz yaranmasın deyə.

Qadın zərflə kartı götürüb əl çantasına qoydu; zərfin içinə nəzər belə salmadı.

- Onları cibinizə qoymağınız məsləhətdi, hər şey ola bilər.

Qadın bu sözləri sanki eşitmədi.

Kişi ayağa qalxdı.

- Mən artıq getməliyəm. Əgər səfər müddətində və ya sonralar hər hansı bir probleminiz yaransa, çəkinmədən yazın, zəng edin, hər zaman qulluğunuzda hazıram. Kənan bəyə görə də narahat olmayın. Onun tezliklə azadlığa çıxması üçün nə mümkünsə, onu edəcəyimə söz vermişəm artıq sizə. Ümid edirəm, bu çətin günlər tezliklə geridə qalacaq və hamınız əvvəlki

kimi yenə də bir yerdə olacaqsınız və - bu yerdə gülümsündü, - mən də sizə qonaq gələcəm.

Qadının sifətində hər hansı əzələ belə tərpənmədi. Əlini çantasına salıb oradan bir neçə dəfə qatlanmış kiçik bir zərf çıxardı.

- Siz mənə çox yaxşılıq etdiniz bu müddətdə. Hər şeyə görə sağ olun. Sizdən bir ricam da var... - Səsi titrəyirdi. Ovcunda sıxdığı zərfi kişiyə uzatdı. - Bunu ona çatdırmağınızı xahiş edirəm. Bu müddət ərzində ilk dəfə başını qaldırıb qarşısındakı adamın gözlərinə baxdı. - Məktubu başqa bir adamın oxumayacağına və kimsənin əlinə keçməyəcəyinə əmin olmaq istəyirəm.

- Mənə güvənə bilərsiniz, Lalə xanım, - məktubu alıb əvvəl döş cibinə qoydu, sonra nə fikirləşdisə çıxarıb qiymətli sənədlərin yığıldığı qara qovluğun içinə qoydu; bütün bunları səliqə və xüsusi diqqətlə edirdi. Tamaşanın sonu kədərli olsa da, rolunu zövq ala-ala oynamaqda davam etməkdə idi; ürəyində oyunun belə tez başa çatmasına azacıq kədərləndi də...

Bir neçə dəqiqə sonra ana və oğulun da yer aldığı təyyarə havaya qalxdı...

Saat yarım öncə aeroporta daxil olan qara rəngli CİP böyük sürətlə şəhərin mərkəzinə doğru şütüyürdü; onun sahibi görüşə tələsirdi; kefi kök idi, daha bir tapşırığı uğurla başa vurmuşdu.

Yolda maşını saxladı. Qara qovluğun içindən məktubu çıxarıb ona bir xeyli baxdı. Tərəddüd etdiyi hiss olunurdu, nəhayət, onu döş cibinə qoyub yenidən maşını işə saldı.

Bir qədər də yol getmişdi ki, yenidən sürəti azaltdı: sol döşü sanki bu dəqiqə alışıb yanacaqdı. Yavaş sürətlə bir qədər də irəliləmişdi ki, ayağı əyləcə doğru getdi; maşın yolun bir kənarında susub dayandı. Marlboro-dan birini çıxarıb alışdırdı, tüstünü acgözlüklə ciyərlərinə çəkdi.

*"Sən o məktubu oxuya bilməzsən! Söz vermisən qadına!"*

"Amma o söz tutmayacağım əvvəlcədən bəlli idi, onu başqaları oxuyacaq. Oxumağa isə onu mütləq verməliyəm."

*"Oxuyacaqlarını öncədən bilirdinsə, sahibinə söz verməyə və ya azı, onu götürməyə bilərdin!"*

“Bilməzdim. Şərtlərə ziddi bu. Oyun qaydalarını poza bilmərəm. Belə şeylərin bədəlinin ağır olduğunu və kimlərlə iş gördüyümü sən ki yaxşı bilirsən. Bizim izlənilmədiyimizə heç bir təminat yoxdu.”

*“Bəlkə, məktub barədə məlumat verməli olduğun adamlar da onu oxumaq istəmədilər!”*

“Çox sadəlövhsən, bu mümkün deyil.”

*“Oxusan, zərfin açıldığını biləcəklər!”*

“Mənsə sənin düşündüyün qədər də sadəlövh deyiləm. Dükanlar bu cür zərflərlə doludu.”

*“Sən əclafsan!”*

“Ha-ha-ha... Sən yeganə adamsan ki, bu sözü üzümə deyə bilərsən. Çox sağ ol, səni anladım, demək, oxuyuram!”

Əlini döş cibinə atdı.

Bir saat sonra isə bu məktubu artıq azı iki nəfər oxumuşdu.

“Dostum, sevgilim, can yoldaşım... İlk dəfədir ki, səninlə danışanda gözlərinin içinə baxa bilmirəm. Bu məktubu yazmağa özümdə güc tapmaq üçün nələrdən keçdiyimi, onun sənə yetirə biləcəyi acıları düşünəndə necə əzab çəkdiyimi bir bilsən. Barəmdə sənə nə desələr, nə göstərsələr, inanma. Bunları kimin etdiyini bilmirəm, amma anladığım budur ki (hisslərim məni nadir hallarda aldadır), bunlar səni (bizi) sındırmaq üçün və məqsədli şəkildə edilir. Mən bu gün oğlumuzla birgə ölkəni tərk etməli oluram. Təəssüf ki, sənə hər şeyi yaza bilmirəm. Ümidimi yalnız Tanrıya bağlamışam. Əminəm ki, o, hər şeyi görür və eşidir və gec-tez hər şeyi öz yoluna qoyacaq və yenidən bir yerdə olacağıq: sən, mən və oğlumuz Murad. Bəlkə də bu qərarıma görə məni qınayacaqsan, hətta ola bilsin məndən birdəfəlik üz döndərəcəksən, amma bir şeyi bilməyini istəyirəm: mən bu addımı tək övladımızın maraqları naminə, onu qorumaq üçün atmaq zorundayam. İnşallah vaxt gələr hər şeyi sənə anladaram. Sənsə özünü qoru. Səni sevən, hər zaman yolunu gözləyən oğluna, ailənə görə bunu et, rica edirəm. Və yaddan çıxarma ki, sən bu həyatda sevdiyim yeganə adamsan və məza-

ra qədər də belə olacaq. Düşüncələri, qəlbi, ruhu ilə hər zaman yanında olan sənin Lalən."

Qaçqınlar təyyarədə ikən yerli saytlar ölkənin əsas hava alanının yüz milyonuncu sərnişini barədə xəbəri və onun anası ilə birgə şəkillərini yaydılar. Ertəsi gün isə bir çox qəzet və saytlar "Kənan Alxanlının həyat yoldaşı azyaşlı oğlunu da götürüb ölkədən qaçdı", "Həbsdə olan sahibkarın ailəsi ölkəni tərk etdi", "Uşağı ilə birgə ölkədən qaçan Lalə Alxanlı barədə gizli seks görüntüləri olduğu iddia edilir" və buna oxşar başlıqlı yazıları günün əsas xəbəri kimi tirajladılar...

***

Başını əlləri arasına alaraq görüş otağında belini büküb oturmuş dustaq qapı açılan kimi yerindən sıçradı. Həyəcandan bütün bədəni əsirdi.

- Mahmud müəllim, Lalə on gündü mənə zəng etmir! Bu arada siz də gəlmirdiniz, nigarançılıqdan ürəyim az qala partlayacaqdı! Evdən xəbəriniz varmı, Lalə, Murad necədi?

- Hamısı yaxşıdı, narahat olmayın, - Mahmud bunları az qala hüzn içərisində dedi.

...Onun Kənana həm yazığı gəlirdi, həm də acığı tuturdu. Bu bədbəxt onunla öz doğması kimi bütün dərd-sərlərini bölüşürdü; bəzən yalnız çox yaxın adamların bir-birilərinə dedikləri sirləri belə. O, bu adamın heç bir cinayət etmədiyini bilirdi; onu da bilirdi ki, qaydaları pozduğuna görə cəzalandırılmışdı ki, başqalarına da dərs olsun. Amma Kənanın öz ailəsinə bağlılığı, qadınına sonsuz sevgisi onda qıcıq doğururdu. Onların bir-birilərinə yazdığı və onun vasitəsilə göndərdikləri məktubları oxuyanda hər dəfə az qala içi od tutub yanaydı. Oxşar məzmunlu məktubları vaxtilə Süsənlə bir-birilərinə o, həbsdə olanda az yazmamışdılar.

Bu hissin arxasında nə dayandığını ayırd etmək ona çətin idi. Yox, bu qısqanclıq deyildi. Lalə sadəcə bir qadın kimi xoşuna gəlir-

di, amma bu sevgi deyildi, daha çox, gözəl qadın görəndə əksər kişilərdə baş qaldıran fizioloji istək idi, vəssəlam. O, hələ də Süsəni sevirdi. O, bu sevgidən yaxa qurtarmaq, Süsəni yaddan çıxarmaq üçün daha nələrə əl atmırdı! Həbsdə olduğu zaman qadınının ona dəfələrlə xəyanət etdiyi barədə içinə şübhə toxumları səpir, cücərtilərin böyüyərək nifrətə çevrilməsi üçün bütün xəyal gücünü işə salırdı: arvadını yataqda başqa kişi ilə tutur, müxtəlif iyrənc xəyanət səhnələri uydururdu. Sosial şəbəkələrdə, müxalifyönlü mediada ona qarşı müntəzəm alovlanan söyüş, böhtan və təhqir kampaniyalarını keçmiş arvadı tərəfindən təşkil edildiyinə özünü inandırmağa çalışır, ona nifrət edən birisini sevəcək qədər əskildiyinə görə özünü ən ağır sözlərlə aşağılayırdı. Amma cəhdləri faydasız idi: bütün bunlar onun Süsənə olan sevgisini azalda bilmirdi ki, bilmirdi. O, bu qadını qəlbindən nə qədər təkidlə çıxarmağa çalışırdısa, onu daha çox sevirdi, sevgisi artdıqca Süsən ondan daha çox uzaqlaşırdı, məsafə böyüdükcə Kənanla Lalənin bir-birilərinə sevgisi onda daha çox qıcıq doğururdu. Son vaxtlar beyninə ciddi-ciddi yeritmişdi ki, Kənanın arvadına sevgisi nifrətə çevriləcəyi gün o da Süsənə eyni hissi bəsləməyə başlayacaq. O, yeni həyatında hüzur tapmaq istəyirdi və getdikcə daha çox əmin olurdu ki, arzusunda olduğu o həyat Süsənə nifrətdən keçir həm də...

- Bəs onda niyə zəng etmirdi Lalə mənə? Çox ciddi bir şey baş vermiş olmasaydı o zəngləri heç vaxt qaçırmazdı. Xahiş edirəm ki, məndən heç nə gizlətməyəsiz. Siz həbsdə yatmısınız və bilirsiniz ki, belə şeylər adamın psixikasını necə sıradan çıxarır. Mən az qala dəli olmaq dərəcəsinə çatmışam bu on günü...

Mahmud susurdu. Bilirdi ki, bu sükut nə qədər uzanırsa, qarşısındakı adamın qəlbindəki şübhə toxumları bir o qədər də boy atır. O, bundan həzz alırdı.

- Mahmud müəllim, xahiş edirəm, mənə həqiqəti söyləyəsiniz! - Dustağın yalvarış dolu gözləri ona dikilmişdi.

"Bu bədbəxt bilsəydi ki, nələri eşitmək üçün tələsir", - ürəyində acı-acı düşündü.

- Bəzən elə xəbərlər olur ki, onları demək çox çətin olur, Kənan bəy.

- Yoldaşlma, oğluma nəsə olub? - dustaq az qala havalanacaqdı. - Sizinləyəm! - Qəhər onu boğmaqda idi. - Onlara nəsə olub?

- Yox, onlara heç nə olmayıb, hər ikisi sağ-salamatdı.

- Bəs niyə zəng etmir Lalə mənə?

- Mən sizə hər şeyi danışa bilmərəm.

- Anlamadım! Niyə?! - Təəccüb və nigarançılıqdan hədəqəsindən çıxmağa hazır gözlər qırpılmadan cavab gözləyirdi.

"Vaxtdı. Obyekt tam ekstaz vəziyyətindədi. Ahh, yazıq!"

Ağır-ağır qara çantasını yerdən qaldırdı, ağzını açıb əlini içinə saldı və elə o vəziyyətdəcə bir xeyli donub qaldı.

Hər hərəkətini bir an da gözdən qoymayan dustağın bədəninin bütün əzalarının necə gərildiyini hiss edir və bundan aldığı həzzi uzatmağa çalışırdı. Nəhayət, əl çantadan çıxdı. İri, ağ zərfi astaca stolun üstünə qoyub çiyinlərindən ağır yük asılıbmış kimi ağır-ağır ayağa qalxdı:

- Mən bir neçə dəqiqəyə qayıdıram, - deyib eyni ağır addımlarla da otağı tərk etdi.

Arxadan maraq və təəccüb dolu iki göz gah zərfin üzərində, gah da onun kürəyində gəzişirdi.

Beş dəqiqə sonra geri qayıdanda otaqda qoyub getdiyi adamı tanımadı. Bir neçə dəqiqənin içində insanın bu qədər dəyişə biləcəyini ağlına gətirməzdi. Dinməzcə əyləşdi.

Bir-birilərinə tərəf baxmırdılar. Qulaqbatırıcı sükut bir neçə dəqiqə davam etdi. Zərfi masanın üstündən götürüb yenidən çantasına qoydu.

- Nə vaxt olub bu? - Dustaq gözünü bayaqdan dikdiyi məchul nöqtədən çəkmədən soruşdu; səsi də özü kimi diri-diri ölmüşdü.

- On gün qabaq. - Yenə, sanki yasdaymış kimi ağır-ağır qara çantasını açıb oradan bir neçə qəzeti çıxarıb masanın üstünə qoydu; bunlar qadınla uşağın ölkəni tərk etdiklərinin ertəsi günü dərc olunmuş nüsxələr idi. Baş verənlərin onun üçün nə qə-

dər ağrılı olduğunu mümkün qədər səsinə oturtmağa çalışdı: - İki gün qabaq uşağı da götürüb ölkəni tərk edib.

Oturduğu yerdə sanki daşa, heykələ dönmüş dustağın donuq baxışları qəzetlərin ön səhifələrindəki şəkillərə dikilmişdi. Bir xeyli beləcə hərəkətsiz qaldıqdan sonra ağır-ağır başını qaldırdı və görüş ərzində ilk dəfə baxışlar toqquşdular; nəsə demək istədi, amma gözləri eyni ağırlıqla endi və otağa yenə sükut şökdü. Daha bir neçə dəqiqə keçdi.

- Nəzarətçilərə deyə bilərsinizmi gəlib məni aparsınlar.

Səsdəki kədər və hüzndən Mahmudun içindən üşütmə keçdi. Hər görüşdən sonra özünü daha yaxşı hiss edən, tezliklə azadlığa çıxacağına ümidləri artan və hər dəfə vəkili getmək üçün qalxanda "nə tez gedirsiniz?" deyə uşaq kimi küsən birisi indi özü görüşü yarımçıq kəsmək istəyirdi.

- Siz getmək istəyirsiniz?

- Hə.

- Özünüzü pis edirsiniz?

Cavab gəlmədi.

- Bəlkə, həkim çağırım?

- Nəzarətçini çağırın!

Bir saat sonra vəkil səkkizmərtəbəli binanın yeddinci mərtəbəsində yerləşən kabinetin sahibinin yanında idi...

Ertəsi gün tezdən isə saytlar məşhur iş adamı Kənan Ayxanlının istintaq təcridxanasında öldüyü xəbərini yaydılar. Rəsmi məlumatda məhbusun gecə yuxusundan ayılmadığı və həkimlərin ilkin tibbi rəyinə əsasən, ürək çatışmazlığından vəfat etdiyi bildirilirdi...

***

Məhkəmədə Qaranın qohumlarından heç kim iştirak etmirdi: qarşı tərəfin qorxusundan prosesə gəlməkdən çəkinirdilər. Qızın qohum-əqrəbası tökülüşüb məhkəmənin qabağını kəsdirir, oğlan adamlarından kimsə peyda olan kimi dövrəyə alıb sö-

yüb təhqir edir, hədə-qorxu gəlirdilər. Bu səbəbdən, zalda ancaq qızın adamları olurdu.

Bir-iki dəfə zalda müdafiəçisinə söz atsalar da, qabağından yeməyən vəkil onları yerində otuzdurmuş, xüsusi canfəşanlıq edən bir nəfəri isə cərimələdib zaldan çıxartdırmışdı. Ondan sonra vəkillə işləri olmadı.

Bugünkü iclasda Qaranı dindirməli idilər. Vəkili gecikirdi, onsuz başladılar. Dünən bütün günü Hünərlə aynəbənddə prosesə hazırlaşmışdılar. İndi özünü daha arxayın hiss edirdi. Həmin söhbətə qədər tam günahsız olmasına şübhələri vardısa, kamera yoldaşı onları tamam aradan qaldırmışdı. Zaldakı qız adamlarından da əvvəlki kimi çəkinmirdi. Heç onlara daha acığı da gəlmirdi; çünki bu adamların, Hünər demişkən, "cahilliyi təbliğ və təşviq edən sistemin" qurbanları olduğunu anlayırdı. Ona görə, ünvanına deyilən söyüş və təhqirlər də əvvəlki kimi əsəblərinə və qüruruna toxunmurdu.

"O insanlar qurbandılar - Hünər belə deyirdi, - onların sözünü, söyüşünü ürəyinə çox almamaq gərək, çünki yaşadıqları ağır həyat, doğulandan ölənə, uşaqlıqdan ahıl yaşlarına qədər kölgə kimi qarabaqara onları izləyən adət-ənənələr, evdə, işdə, bayırda hər addımbaşı alçaldılmalar əksəriyyətində ağır travmalar yaradıb, onlar da başqalarını alçaltmaqla, əzməklə rahatlıq tapır, natamamlıq kompleksini bu yolla təmin edirlər...".

Yaxşı danışırdı Hünər. Qara hər dəfə ona qulaq asdıqca zövq alırdı, həm də hiss edirdi ki, canından qorxu çıxır, təmizlənir, tamam başqa adama çevrilir...

İlk proseslərə gəlməyən Kəklik ifadə vermək üçün bu günkü iclasa qatılmışdı; məhkəmənin iştirakını vacib saydığı qız ön cərgədə, anasının yanında əyləşmişdi. Dustaq əlləri qandallı zala daxil olanda bir anlığa baxışları toqquşdu və ikisi də eyni vaxtda gözlərini çəkdilər.

Qara bu anı çox gözləmişdi, o anda nə hiss edəcəyi, özünü necə aparacağı barədə çox düşünmüşdü. Amma heç nə hiss etmədi və məhkəmənin bütün gedişi boyu bircə dəfə də o tərəfə

baxmağa içində ehtiyac duymadı. Özünə də təəccüblü gəldi: vaxt vardı ki, onsuz həyatını təsəvvür etmirdi, amma indi bir neçə addımlığında əyləşən və gizli baxışlarını üzərində hiss etdiyi bu qadına qarşı heç bir duyğusu yoxdu. Xeyli rahatlaşdı.

Prosesə sədrlik edən ifadə vermək üçün qıza söz verəndə başını qaldırmadan "yazılı ifadəmi təsdiqləyirəm, başqa söyləyəcəyim bir şey yox", - deyib əyləşdi.

İlk sualları sədrlik edən verməyə başladı; bu, yaşı altmışı haqlamış ağsaçlı, arıq bir kişi idi. Davranışından və ona münasibətindən pis adama oxşamırdı.

*- Qızı niyə qaçırmısan?*

- Mən onu qaçırmamışam, o, mənimlə könüllü gedib.

*- Qız sənin onu iradəsinin əleyhinə, zorla qaçırdığını deyir.*

- Axı bunun belə olmadığını müəyyən etmək çox asandı. Şahid sürücü var, qızla birlikdə evlərində gecələdiyimiz adamlar var, telefon danışıları var, işdə qızın üzərində hər hansı zorakılıq əlamətini təsdiqləyən hər hansı sübut da yoxdu. Bir də ki, mən adamı aparıb gözdən-qulaqdan uzaq yerdə gizlətməmişəm, hamının gözü qabağında olub. Ona əlimlə də toxunmamışam. Hətta Kəkliyi qaçırmışamsa və ya ittihamda iddia edildiyi kimi oğurlamışamsa belə, bunu pis niyyətlə etməmişəm, məqsədim sevdiyim bir qadınla ailə qurmaq olub. Niyə buna görə mən və mənim kimilər həbsə atılmalı, ağır cəza almalıdılar ki. Hanı bunda məntiq, ədalət, humanizm?

*- Əgər həqiqətən niyyətin xoş idisə, onda niyə ailə qurmaq istədiyin adamı öz evinə yox, başqalarının evinə aparırdın?*

- Çünki qohumlarından qorxurdum, həm də anam xəstədi.

*- Niyyətin ailə qurmaq idisə, niyə evinə dədə-baba qaydasında elçi göndərib ailəsinin razılığını almırdın?*

- Çünki yaxınları qızı başqasına zorla ərə vermək istəyirdilər, yox cavabı alacağımı bildiyim halda, bunun mənasız olduğunu anlayırdım. Bir də ki, mən Kəkliklə ailə qurmaq istəyirdim, ona alış-veriş predmeti kimi baxmırdım.

*- Kəklik isə səninlə ailə qurmaq istəmədiyini deyir.*

- Bizdə qızlar hələ də bu cür məsələlərdə daha hüquqsuzdular, ətrafdan çox asılıdılar, rayon yerlərində də xüsusən. Belə hallarda onların yerinə qərarları başqalarının diqtə etmələri ehtimalı hər zaman qalır.

*- Sən bir azərbaycanlı, müsəlman kimi bilməli idin ki, qızın adı çıxandan sonra kimsə daha ona yaxın durmaz, beləsi ilə ailə qurmaq istəməz. Bu, bir namus məsələsinə çevrilir və evinə qayıdan qızın qapısını döyən bir də çətin tapılır.*

- Belə çıxır ki, mən pis adətlərin, cahilliyin, geriliyin fəsadlarına görə məsuliyyət daşıyıram?! Bəlkə, siz adamları həbsə atmaq əvəzinə, qadına bu cür münasibətin kökündə duran səbəbləri araşdırıb onları aradan qaldırasız.

*- Biz məhkəməyik, bunlar bizim səlahiyyətimizə aid olan məsələlər deyil!*

- O zaman imtina edin o kürsüdən!...

Bunların çoxunu Hünərdən eşitmişdi, ondan öyrənmişdi.

Fasilədən sonra prokuror çıxış etdi. Vəkili də gəlib çıxmışdı. Prokurorun nitqi yetərincə sərt oldu və əsasən, qızın özünün və qohumlarının ittihamedici ifadələri üzərində qurulmuşdu; yekunda təqsirləndirilən şəxsə səkkil il azadlıqdan məhrum etmə cəzası istədi. Həmin rəqəmi eşidəndə qulaqlarına inanmadı. Özü də hiss etmədən yerindən dik atıldı, üzünü prokurora tutdu:

- Neçə il dedin?

Prokurorun yerinə vəkili dilləndi.

- Səkkiz! - Əli ilə də dustağa sakit olmaq işarəsi verdi.

Dustaq tabe olub əyləşdi.

Sözü vəkilə verdilər. O, danışdıqca Qaraya elə gəlirdi ki, dünən Hünərlə aynəbənddə etdiyi söhbətin hamısını kürsüdəki bu adam eşidib. Zalda milçək uçsaydı, səsi eşidilərdi. Hətta yerlərində sakit durmayan qız adamları belə, tilsimlənmiş kimi ağızlarını ayırıb sakitcə çıxışa qulaq asırdılar.

- ...Dəmir barmaqlıqlar arxasında əyləşmiş bu gənc də, onu sevib, sonra da ətrafının basqısı altında ondan imtina edən və nəinki vədini danan, hətta sevdiyi insanın cəzalandırılmasını

tələb edən bu qız da qurbandılar. Cahilliyin, nadanlığın, toplumun inkişafı üçün buxovlara çevrilmiş adət-ənənələrin, qondarma milli-mənəvi dəyərlərin, mentalitetin qurbanlarıdı bunlar. Sevdiyi ilə ailə qurmaq istəyən bu gənclərdən biri həbsin, o biri isə puç olmuş taleyinin acısını yaşamaqdadı. Uzun müddətdi ki, mənə bir sual rahatlıq vermir: iki gəncin nakam sevgisi üzərindəki bu qələbədən onların yaxınları nə udacaq? Toplum nə qazanacaq bu uduşdan? Sevgiyə görə insanı mühakimə edən femidamız necə, ədalətə nə töhfəsi olacaq onun çıxaracağı hökmdən? Buna oxşar faciələr nə qədər ki, yeni-yeni kəkliklərin, qaraların başına gəlməkdə davam edəcək, hər birimiz məhkumuq - cahil toplumda yaşamağa məhkum edilmiş bədbəxt insanlar. Bu, çox dəhşətlidi!...

On dəqiqəlik çıxışla ittihamın bütün arqumentlərini darmadağın etdi. Bu adama qarşı hərdən daxilində baş qaldıran şübhələrə görə indi çox utanırdı Qara.

Hakimlər başlarını aşağı salıb susurdular. Bu vaxt zalda səs-küy qopdu: Kəkliyin halı pisləşmişdi. Qızı bayıra, təmiz havaya çıxardılar və o bir daha zala qayıtmadı.

Hakimlərin müşavirəsi xeyli çəkdi. Vəkilin möhtəşəm çıxışından sonra Qaranın ümidləri artmışdı. O, həm minnətdarlıq etmək, həm də müşavirənin nəticəsi barədə fikrini öyrənmək üçün gözlərini Mahmuddan çəkmirdi. Vəkil isə onun burada olduğunu unudubmuş kimi qabağındakı kağız-kuğuzla qurdalanırdı. Yalnız hakimlər müşavirədən qayıdanda nəzərləri toqquşdu. Vəkil dustağın sifətindən sualı oxuyurmuş kimi dodağını büzüb çiyinlərini çəkdi.

Qaranın canını qorxu aldı. Sədrlik edən hökmü oxumağa başlayanda fikrini nə qədər cəmləməyə çalışsa da, bir şey alınmadı: səkkiz rəqəmi ilan-qurbağa olub gözünün qabağından, səkkiz sözü gurultuya çevrilib qulaqlarından çəkilmirdi, görmək, eşitmək, düşünmək qabiliyyəti tamam sıradan çıxmışdı...

Özünə gələndə adamlar sakitcə zalı tərk edirdilər. Ətrafda qəribə bir sakitlik vardı. Həmişə prosesin sonunda fəallaşan,

üzlərini qəzəblə qəfəsə tərəf tutub ürəklərini o ki var boşaldan qız adamlarının da səsləri çıxmırdı.

Vəkil qəfəsə yaxınlaşanda dili-ağzı qurumuş dustaq həyəcanını boğmağa çalışaraq:

- Mahmud müəllim, eşitmədim, neçə il? - soruşdu.

Vəkil gülümsündü.

- İki - Çıxışa yollanan və çoxmənalı gülümsəyib onunla sağollaşan prokuroru gözləri ilə ötürə-ötürə əlavə etdi: - Bunun tələb etdiyindən və sanksiyada nəzərdə tutulandan qat-qat aşağı cəza! Çox nadir hallarda hakimlər buna gedirlər. Ona görə, bu partlaya-partlaya qalmışdı, bilmirdi neynəsin... - Ağzını qəfəsə yaxınlaşdırıb astadan: - Səni böyük adamlar tapşırmışdılar... Bir də ki, təvəzökarlıq olmasın, özün eşitdin də çıxışımı. Hamı ağzını açıb qulaq asırdı... Papağını fırladacaqsan keçib gedəcək. Sovet dövründə biz iki il əsgərlik çəkərdik, elə həbsxana kimi bir şeydi...

İkili hiss keçirirdi Qara, bilmirdi sevinsin, ya əksinə. O, heç bir cinayət törətmədiyi halda, niyə həbsdə yatmalıydı axı? Amma o biri tərəfdən də, Tanrısına şükr edirdi: qarşısına yaxşı adamlar çıxarmasaydı, səkkiz ilini həbsdə keçirəcəkdi, hələ o da bəlli deyildi ki, oradan sağ çıxacaqdı ya yox!

Vəkilinə isə xüsusi minnətdar idi...

***

Məhkəmə bu gün Mahmuda bəraət vermişdi. Sosial şəbəkələr dağılırdı. Onun şəkilləri ilə yanaşı, avtomobil qəzasında həyatını itirmiş ailənin üzvlərinin şəkillərini də paylaşırdılar. Şərhlərdə işə baxan hakimləri, onun özünü yıxıb-sürüyürdülər. Yazılar "əclaf", "satqın", "şərəfsiz", "murdar" kimi epitetlərlə, bəzən isə ən ağır söyüşlərlə bol idi.

Əvvəlcə şərhlərə cavab yazırdı; çox sərt olmayan status və şərhlərin altında özünə bəraət qazandırmağa çalışır, onu söyənlərdən bəzilərini o da söyür, bir başqalarına hədə-qorxu gəlir,

üçüncüləri bloklayırdı. Amma getdikcə əleyhinə olan yazılar və şərhlər elə böyük sürətlə artmağa başladı ki, sinirləri davam gətirmədi, sosial şəbəkələrdəki bütün hesablarını qapatdı.

"Boş ver, qoy hürsünlər. Dağa qalxmaq gərək, ora hündürdədi, atdığı daşlar sənə yetməz. Həm də, orda özün kimi birisi var, görüb sakitləşəcəksən!"

Yolu başa vurmağa az qalmış yol kənarındakı tanış restoranlardan birinə girdi. Təzə quzu ətindən kabab sifariş vermişdi. Sükan arxasında dilinə içki vurmayacağına söz vermişdi, ona görə, yeməyi özü ilə götürəcəkdi. Zəng edib öncədən sifariş vermişdi. Burada onu yaxşı tanıyırdılar deyə, xüsusi diqqət və qulluq göstərirdilər. İçəri girəndə restoranın sahibi də daxil, hamı əl-ayağa düşdü. Şişdən təzəcə çıxmış isti tikələri qaynar təndir çörəyinin arasına qoyub, böyür-başına göy-göyərti, çox xoşladığı sirkə-badımcan və xiyar turşusundan düzüb, bütün bu təamları iri bir qaba qoyub bərk-bərk bükdülər ki, isti canından çıxmasın. Sonra qabı səliqə ilə bir paketə yerləşdirib maşınına qoydular. Əlini cibinə aparanda restoranın sahibi "Ayıb olar bizim üçün, Mahmud müəllim, hər zaman ən əziz qonağımızsız!" - deyib dilxoşluq etdi...

Qapını açıb həyətə girəndə köpək yenə də bərkdən hürməyə başladı. Elə dartınırdı ki, sanki bağlandığı zənciri yerindən qoparıb bu dəqiqə gələni parça-parça edəcəkdi.

Qarabaşı qaravolçu özü ilə gətirmişdi. Köpəyin ilk gündən onunla arası yox idi; səbəbini anlamırdı, özündən də soruşa bilmirdi. Ayağını içəri qoyan kimi əvvəlcə mırıldamağa, ardınca da hürməyə başlayır, qarovulçunun "Qarabaş, sakit ol!" göstərişi gəlincə sakitləşib yuvasına çəkilirdi.

İt bu dəfə də onu görcək ağzını açdı. Adam bunu gözləyirmiş kimi əlində tutduğu paketi eşələməyə başladı, çörəyin arasındakı tikələrdən ən böyüyünü və yağlısını çıxardı.

- Mənliyinin bir kabablıq olduğunu indi sübut edəcəm sənə, ay it, - deyib tikəni heyvana tərəf atdı, - al, yallan!

İtin ətə cumacağına heç bir şübhəsi yox idi, amma heyvan ti-

kəyə tərəf gözünün ucu ilə də baxmadı, hürməyini də kəsmədi. Bu, adamı özündən daha da çıxardı.

- Kəs səsini, əclaf köpək! - deyə acıqla heyvanın üstünə bağırdı, ürəyi sakitləşmədi, təpəsinə çırpmaq üçün əyilib yerdə daşdan-kəsəydən bir şey axtardı.

Köpəksə nəinki qorxdu, əksinə, zəncirdə dartına-dartına daha bərkdən hürməyə başladı.

- Qarabaş, sakit ol! - Gözlərini ovxalaya-ovxalaya evdən çıxan qarovulçunun səsi gəldi. İt səsi eşitcək dərhal əmrə tabe olub yuvasına tərəf çəkildi, iki ayağı üstə oturub gah nifrətlə evin sahibinə, gah da sevgi ilə öz sahibinə baxırdı.

Qoca könülsüz-könülsüz gələnlə salamlaşdı.

- Hardasan, ay Rəhman kişi?! - Mahmud qəzəb və nifrətdən eybəcər hala düşmüş sifətini itə tərəf tutdu. - Bir gün beynimin çönən vaxtına düşəcək, başına gülləni çaxıb gəbərdəcəm bu köpəyi. Yaxşı olardı ki, arada buna qandırasan, bilsin kimə hürmək lazımdı, kimə isə itaət etmək. - Yenidən qocaya döndü. - Yatmışdın, deyəsən? Xəstələnmisən, nədi?

- Xəstə deyiləm... Uzanmışdım... - Səsindəki narazı tonu sezməmək mümkün deyildi. - Neçə dəfə xahiş etmişəm ki, su borusu partlayıb, su gəlmir, onu düzəltdir. Hər dəfə əlimdə bardaq su üçün bir kilometr yolu düşüb, sonra da qalxmalı oluram. Ayaqlarım daha sözümə baxmır, qollarımın da gücü qalmayıb, yolu güclə düşüb qalxıram. Gətirdiyin beş-on litrlik suya xörəkmi bişirim, çaymı qoyum, qab-qacağımı, yoxsa tualetə gedəndə bir yerimimi yuyub təmizləyim?!

- Yaxşı, ay Rəhman kişi, yadımdan çıxır da. O qədər iş-gücüm var ki... Maşında qabda su var, birtəhər elə, gələn dəfə rayon mərkəzindən usta gətirərəm, düzəldər.

- Qabdakı su ilə mən bədbəxt necə birtəhər edim? Axı nə çətin şeydi bu zəhrimarı düzəltdirmək! Bir həftədən çoxdu ki, bədənim su görmür. Bədən cəhənnəm, tualetə də gedə bilmirəm ki, nəylə təmizlənəcəm! Bir tərəfdən havasızlıqdan, o biri tərəfdən istidən adam az qala evdə boğula, barı bir pəncərəsi də

yoxdur ki, içəri hava girsin. Gələndə də gedib girirsən o otağa, qapını da arxadan bağlayırsan, bilmirəm neynirsən o darısqal otaqda. Adam bir üzünü görüb dərdini deyə bilə barı... - Qoca astadan danışsa da, içindən daşıb gələn qəzəbi sezməmək mümkün deyildi. - Mən də insanam axı, bu şəraitdə necə yaşayım?! Məzar burdan min dəfə yaxşıdı! Altında yüz min manatlıq maşının var...

Sözü ağzında qaldı, ev sahibi üstünə bozardı.

- Bura, bax qoca, deyəsən, axı sən ağlını yavaş-yavaş itirirsən, haa! Evsiz-eşiksizin biriydin, yaxşılıq edib sənə dam altında yer verdim, bu da əvəzində mənə sağolundu?!

- Məni bu zindana gətirməklə ağ günəmi çıxarmısan?! Atmısan ins-cins üzü görməyən bu dağın başına, Allahın bir kilo qəndi, çayı nə olan şeydi ki, onu da almırsan. Fikirləşmirsən ki, bu da insandı, nəsə yeməlidi, içməlidi... Adamın bir insafı olar, mürvəti olar, Allahı...

- Kəs, kaftar!

Elə bu sözlər ağzından çıxmışdı ki, bayaqdan başını qabağa uzatdığı iki pəncəsinin üzərinə qoyub quyruğunu oynada-oynada onların söhbətinə diqqətlə qulaq asan it qəfil yerindən qalxıb cavan adama tərəf elə atıldı ki, zəncir bu an parça-parça olacaqmış kimi tarıma çəkildi. Aralarındakı məsafə azdı deyə, ev sahibi qorxudan geri atıldı, ətrafına baxıb gözünə sataşan iri ağac parçasını əlinə aldı və qəzəb içində onunla iti vurmağa çalışdı. Köpək zərbədən çətinliklə yayına bildi.

- Qarabaş, sakit ol! - Qarovulçunun zəhmli səsi eşidildi. - Sakit ol, deyirəm sənə, keç yuvana!

Heyvan narazı halda zingildəyə-zingildəyə yuvasına çəkildi, başını çölə çıxarıb yenidən gözlərini adamların ağzına dikdi.

- Şələ-küləni də yığışdır, bu itini də götür rədd ol burdan, - ev sahibi bağıra-bağıra əlindəki ağacı kənara tulladı, - yoxsa əlimdən xəta çıxacaq, ikinizdən birinin burdan meyiti çıxacaq!

Qoca əsəbi halda başını yelləsə də, cavab vermədi, evə girməyi ilə çıxmağı bir oldu. İti zəncirdən açıb xaltasından yapışdı.

- Qarabaş, sakit ol! Eşitdin? Daha gedirik burdan, sakit ol! - Başını çevirib evin giriş qapısında dayanmış Mahmuda ötəri nəzər atdı, əyilib köpəyin başını sığallaya-sığallaya: - Sən adamları məndən yaxşı tanıyırmışsan. Gedək... - deyib qapıya tərəf yollandı. İt də sakitcə yanınca düşdü; arada çevrilib evin sahibinə mırıldandı.

- Allah bəlanı versin! - Qapı arxadan çırpıldı.

Mahmud içəri keçdi. Sidik kisəsi daşırdı. Tualetə girib özünü boşaltdı. Suyu çəkməyə tənbəllik etdi, oradan çıxıb mətbəxə keçdi. Kranı açdı, su gəlmirdi. Qarovulçunun az öncə həyasızcasına üzünə söylədikləri yadına düşəndə beyni yenidən çöndü. Kiçik masanın üstündəki yarım çörəyi, qaz pilətəsinin üstündə qazandakı hazır yeməyi, digər ərzaq məhsullarını bir qaba töküb aparıb çöldəki zibil vedrəsinə atdı. Geri qayıdıb bağlı otağın qapısını açarla açdı, içəri adlayıb kitab şkafına yaxınlaşdı. Qara cildli qalın kitabı kənara itələyib düyməni basan kimi şkaf-seyf qapı hərəkətə keçdi və açılmağı ilə də o tərəfin qaranlığı gur işığa qərq oldu.

Ayağını Qayaya basan kimi düz qəfəsə doğru getdi. Yemək qabı boş idi.

- Bu gün hamı məni söyür... Onlar bu yolla məni özümdən çıxara biləcəklərini düşünürlər, amma gördüyün kimi, mənim heç vecimə də deyil. Təzə-təzə çətin olurdu, amma sonra öyrəşdim. - İyrənc təbəssümü yenidən sifətinə qayıtdı. - Sən də öyrəşirsən ha, yavaş-yavaş. Əvvəl mənə baxanda gözlərindən nifrət yağırdı, atılıb-düşür, etiraz edirdin, qəfəsi yarıb məni didib-parçalamağa hazırıydın... az qala, gözümü çıxaraydın, barmağımı yerindən üzəydin. Bilirəm, indi də mənə nifrət edirsən, amma bunu əvvəlki kimi büruzə vermirsən, özünü dəli kimi daha ora-bura çırpmırsan. Ağıllanmısan artıq!

Qəfəsin qapısını açdı.

- Bax, qapın da açıqdı, amma mən səndən qorxmuram, çünki bilirəm ki, daha gözümü çıxarmaq üçün üstümə hücum çəkməyəssən. Nəyə görə bunları etmirsən, niyə belə üzüyola olmusan,

bilirsən? Qarnına görə! Doğrusunu bilmək istəsən, mən də qarşılarında əyildiyim, hər cür buyruqlarını yerinə yetirməyə hazır olduğum o adamların çoxuna nifrət edirəm. Amma bunu heç vaxt onlara nümayiş etdirmirəm. Çünki o adamların hesabına indi mənim hər şeyim var. Pulum, maşınım, bir neçə yerdə evim, mərkəzdə bahalı ofisim, biznesim, hətta ərəb şeyxlərinin də həsəd apara biləcəyi bu qayam-villam! Qürurlu vaxtlarımda bunların heç biri yoxumuydu.

Gələndə marketdən təzə aldığı çeşidli meyvə qurularının, ləpələrin, tumların yığıldığı qabı masasının üstünə qoyduğu çantadan çıxardı, yenidən qəfəsə yaxınlaşdı.

- Bax, sən ölmək istəyirdin, amma mən sənə imkan vermədim bunu edəsən. Sənə canım yanmırdı, yox... o qədər də mərhəmətli deyiləm. Eqom imkan vermirdi... sındırılmış eqom. Mən səni indi sındırdığım kimi, məni də vaxtilə eyni cür sındırıblar. Sınmışların qarşısında isə ölü yox, sınmış dayanmalısan.

Üzünü qəfəsə yaxınlaşdırdı.

- Anladınmı, axmaq quş, nəyə görə sağsan?!

Quşun fikri onda deyildi, baxışları əlindəki qaba zillənmişdi. Bunu hiss edib qabdakı albalı qurularından birini götürüb açıq qapıdan ona tərəf uzatdı. Quş azacıq tərəddüddən sonra yaxınlaşıb meyvəni almaq istəyəndə əlini geri çəkib sifətini nifrətlə büzdü.

- Ffu... sən artıq məndə ikrah doğurursan!

Meyvələri ovuclayıb qəfəsə sarı tullamağa başladı.

- Al, təp gözünə!

Quş üstünə gələn şeylərdən özünü qorumaq üçün qəfəsin bir küncünə qısılıb durmuşdu, heç çınqırığı da çıxmırdı.

Sahibi qalib görkəmdə qəfəsdən ayrılıb sərin mətbəxə keçdi, restorandan gətirdiyi yeməkləri ləzzətlə yeyib üstündən sərin bulaq suyundan içdi. Özünə də qəribə gəldi, könlü spirtli içki istəmirdi. Qalxıb nə edəcəyini fikirləşdi. Quş daha onun üçün maraqlı deyildi, seyf qapısının o biri tərəfinə adladı, kitab şkafının aşağı gözündən qalın kitabı götürdü. Bu, onun ən çox sev-

diyi əsərlərdən biri idi; onu dəfələrlə oxusa da, təkrar-təkrar göz gəzdirməkdən yorulmurdu.

Geri dönüb iri və rahat yataq otağına keçdi, italyan mebelindən hazırlanmış sevimli çarpayısına uzandı. Beləcə, gecəni kitab əlində yuxuya verdi.

Səhər Qayanı tərk edəndə seyf qapı arxasınca örtüldü və avtomatik kilidləndi. Onun bu biri tərəfində – şkaf olan və həmişə bağlı saxladığı otağın qapısını isə bu dəfə kilidləmədi.

Qarovulçu çıxıb gedəndən sonra buraya özündən başqa daha kimsənin ayağı dəymirdi...

***

Hünər aynabənddə yerə sərdiyi döşəyin üstündə uzanıb həm özünü günə verir, həm də solçuluqla bağlı təzə əlinə keçən kitabı oxuyurdu. Sarı tibb məntəqəsinə getmişdi; çirk etmiş dişinin ağrısından gecəni yata bilməmişdi.

Qara yaxınlaşıb döşəyin bir tərəfində oturdu.

- Səninlə, bir söhbətim var, Hünər.

Gözünü kitabdan ayıran gənc gülümsünüb onu kənara qoydu, yerində dirsəkləndi.

- Eşidirəm səni...

Baxışları o qədər saf və məsum idi ki, Qara özünü itirdi: bir anlığa fikrindən daşınan kimi oldu, amma belə fürsət hər zaman da ələ düşmürdü: Sarı həkimin yanından tezliklə qayıtmayacaqdı və Qara qısa tərəddüddən sonra özünü toparladı.

- Söhbət ciddidi, üz-üzə oturmalıyıq.

Gənc çarpayısından endi. Masanın arxasına keçdilər.

- Mən sabahdan namaza başlamaq istəyirəm, Hünər. Səninlə çoxdandı rahatlığımı əlimdən alan bir məsələni bölüşməyə ehtiyacım var. - Susdu, tərəddüd keçirdiyi hiss olunurdu. - Qarşında böyük günah işlətmişəm. Onu mənə keçməsən, ibadətimin Tanrının mənzilində karıma gələcəyinə şəkk-şübhəm var deyə, səninlə bu barədə danışmağa özümdə cəsarət tapa bildim. Əs-

lində, ibadət bəhanədi, bunu gec-tez onsuz da edəcəkdim, sadəcə namaz sürətləndirdi.

- Nə günahdı o elə, dost?

- Mənə bu cür müraciət etmə, xahiş edirəm, mən dost deyiləm, mən... - Qəhər boğazını tutdu, udqunub çətinliklə davam etdi. - Mən əclafam!

Hünərin güldüyünü görən və ondan tamam fərqli reaksiya gözləyən kamera yoldaşı özünü lap itirdi. Kədərlə gözlərinin içinə baxdı.

- İndi gülürsən, amma bir azdan məni söyəcəksən, hətta ola bilsin ki, mənə nifrət edəcəksən! - Gözlərini endirdi. - Bizi bura gətirməmişdən qabaq qarşımızda şərt qoyulmuşdu. Bu kamerada nə danışılırsa, onu rəhbərliyə çatdırmalıyıq. Bizi həftədə iki dəfə rəis müavini, ayda da bir dəfə mülki geyimli bir nəfərlə görüşdürürlər. Onun kim olduğunu da heç bilmirəm. Müavin qaba adamdı, bu biri isə çox mədəni... - Susdu. - Bizimlə ayrı-ayrı görüşürlər həmişə, görünür, tam etibar etmirlər. Əsasən telefon danışıqlarına və ya həkim yanına getmək bəhanəsilə çağırılanda olur baş verir bu... Bu Sarıdan lap əvvəldən gözüm su işməyib. - Sonuncunu həqarətlə söylədi və Hünərin çoxmənalı gülümsədiyini görüncə pörtdü. - Demək istəyirsən ki, özün guya ondan yaxşısan... Haqlısan, mən də onun tayıyam, ikimiz də əclafıq... Amma qərarım qətidir, bu dəfə çağıranda gedib imtina edəcəm. Qoy neynirlər, eləsinlər. Mən daha əclaf olmaq istəmirəm...

- Dediklərini hiss etmişdim, - Hünərin sifətindən təbəssüm çəkilsə də, səsinin mülayim tonu dəyişməmişdi, - həm öncə həbsdə yatan dostlar xəbər göndərmişdilər ki, kamera yoldaşlarından ehtiyatlı ol. Əslində, narahat ola biləcəyim bir şey də yox. Onsuz da burda danışdıqlarımı məhkəmədə də, telefon danışıqlarında, bayıra ötürdüyüm yazılarda da açıq və daha sərt bildirirəm. Ona görə, çox da narahat olma. Etirafına görə sağ ol, amma imtina fikrini ağlından çıxar. Bu sənə baha başa gələ bilər, bir bəhanə ilə başqa kameraya köçürüb orda çox sərt

cəzalandıra bilərlər. Bunlardan nə desən gözləmək olar, belə şeyləri də bağışlamırlar. Heç mən də sənin başqa kameraya köçürülməni istəmirəm. Üz-gözümüz öyrəşib, səni aparıb yerinə başqa bir Qaranı... - Sözü ağzında qaldı, kamera yoldaşı başını aşağı endirəndə günahkarcasına gülümsünüb əlini onun çiyninə qoydu. - Bağışla, o mənada demək istəmirdim... yəni deməyim odu ki, sənin yerinə başqa birisini göndərəcəklər və hələ bilmək olmaz o kim olacaq. Sən getsən, bu mənim üçün böyük itki olar, çünki heç nəyə baxmayaraq, səni özümə dost bilirəm. Ona görə, get görüş, nə danışdığınızı istəsən, imkan olanda həm də mənə deyərsən...

- Sən... - Qaranı qəhər boğdu, - sən çox yaxşı adamsan, Hünər... Səndən bir xahişim var, aramızdakı söhbəti bu bilməsin. - Gözü ilə yığışdırılmamış çarpayını göstərdi.

Ad çəkilməsə də, söhbətin kimdən getdiyi aydın idi; Hünər gülümsündü.

- Narahat olma, bilməz.

Az keçmiş, Sarı ufuldaya-ufuldaya içəri girdi...

***

Susuzluqdan yanırdı. Burada olmasının on altı, ya da on yeddinci günü idi. Artıq dördüncü gün idi ki, dilinə həm də su dəymirdi. Yeməksiz hələ birtəhər dözmək olurdu, amma susuzluğun yanğısı dözülməz idi.

Əvvəlki günlər möcüzə baş verəcəyi ümidilə gündə bir neçə dəfə suyun gəlib-gəlmədiyini yoxlamaq üçün gah mətbəxə, gah da tualetə baş çəkirdi. Kranı həmişə açıq saxlasa da, hər dəfə onu yenidən açıb bağlayır, ürəyi bununla sakitləşmir, barmağını dəmir borunun lap içinə qədər soxurdu. Amma su gəlmirdi. O, bu mülkün sahibini yeddi arxa dönəninə yadına gələn ən ağır söyüşlərlə gündə bir neçə dəfə söyürdü.

Su barədə düşünməməyə çalışırdı. Amma bu lal otaqda hər kiçicik səs, hətta çətinliklə gedib-gələn nəfəsi belə, ona suyun

səsini xatırladırdı. Yuxuya gedən kimi gördükləri çay, göl, şəla-lə, sərin içkilər olurdu. Onlara əl uzatdıqca yoxa çıxırdılar. Bir dəfə soyuducunu açıb buz gözündən çıxardığı mineral su şüşə-sinin qapağını həyəcandan əlləri titrəyə-titrəyə açmış, onu hətta ağzına yaxınlaşdırmış və... həzzin bir anlığında ayılmışdı. Hə-min anda başını divara çırpmaq, var gücü ilə bağırmaq, hön-kürüb ağlamaq istəmişdi. Amma gücü tükənmiş, batmış səsi bir tərəfə, gözlərinin yaşı da qurumuşdu.

Gözlərini açmaq istədi, qapaqlar bir-birilərinə pərçimlənmiş-dilər. Təxmininə görə üçüncü gün idi ki, yataqdan qalxmırdı. Ayaqları yadına düşdü. Onları çətinliklə də olsa dəbərdə bildi. Yerində asta-asta, o tərəfə-bu tərəfə yırğalanmağa başladı. Başı hərləndi. Dayandı. Birdən sidik kisəsində yanğı hiss etdi. Deyə-sən, işəməyi gəlirdi. İnanmadı. Fikrini toplayıb bütün diqqətini orada cəmləməyə çalışdı. Hə, yanılmırdı. Möçüzə kimi gəldi: neçə gün idi ki, ağzına ümumiyyətlə maye dəymirdi, bu su har-dan peyda ola bilərdi vücudunda?

"Görəsən, bu nəyə işarədi?", - deyə yarıhuşsuz vəziyyətdə düşündü. "Yoxsa canını tapşırmazdan öncə bədənində artıq nə varsa, insan ondan təmizlənir ki, o dünyaya pak getsin".

"Bu cür axmaq fikirlər ağlına hardan gəlir, ölümün o işə nə dəxli var, təbii ehtiyacdı, hər zaman ola bilər", - biganə-biganə özünə etiraz etdi.

"Axmaq-axmaq sən danışırsan, üç gün dilinə su, yemək dəy-məyən adamın bədənində su hardan yaransın ki?" - tənbəl-tən-bəl özü öz müdafiəsinə qalxdı.

"Tanrı heç nədən var edəndi, sən onun işlərinə şübhəmi edəcək-sən, miskin bəndə?! Qalx ayağa, dur get özünü boşalt... Bəlkə..."

"Bəlkə nə?"

Yarıhuşsuz vəziyyətdə qəfil ağlına gələn fikirdən tamam ayıldı, çətinliklə də olsa, gözlərini açdı, dirçəlib qarşısında kim-sə varmış kimi, onları həmin nöqtəyə zillədi. Birdən gözləri işıl-dadı, canına güc gəldi. Çarpayıdan enib divarları tuta-tuta mət-bəxə tərəf yön aldı. Əlini masanın üstündə gəzdirdi. Kiçik bir

fincan əlinə keçdi. Nəsə fikirləşib onu yerinə qoydu, axtarışını davam etdirdi, daha böyük qab tapınca onu götürüb şalvarını aşağı şəkdi. Oradan gələn pis qoxu burnuna vurdu. Barmaqları ilə büzüşmüş, çirkdən qabar bağlamış, üfunət iylənən ət parçasından yapışdı, onu stəkana yaxınlaşdırıb içinə tutdu və güc verdi. Heç nə gəlmədi. Məyusluğunun hüdudu yox idi. Gücünü toplayıb cəhdini bir də təkrarladı. Ət parçası canlanan kimi oldu, sonra içindən göynədə-göynədə nəyinsə hərəkət etdiyinin fərqinə vardı. Nəfəsini dərib bir də və daha bərkdən gücəndi. Budur, stəkana düşən ilk damçıların səsini eşidir. Həyəcandan əlləri əsməyə başladı. Stəkandan iki əllə bərk-bərk yapışdı. Zəif şırıltının səsinə ürəyi sevincdən bərkdən döyünməyə başladı. Amma proses çox az çəkdi, şırıltı kəsildi. Barmağını stəkanın içinə saldı; oradakı maye qabın üçdə biri qədər olardı. Yenidən gücəndi. Bu dəfə cəhdi uğursuz oldu. Bir əli stəkandan, o biri əlinin baş və şəhadət barmağı isə ət parçasının yuxarı hissəsindən yapışdı, barmaqlarını azca sıxıb aşağıya doğru sürüşdürdü. Sidik borusunda qalmış son damcılar qaba düşər-düşməz onu acgözlüklə başına çəkdi. Əvvəlcə tamı hiss etmədi, sonra birdən ürəyi bulanmağa, ardınca bərkdən öyüməyə başladı. Özünü güclə çarpayısına çatdırdı, öyüməyi ara vermirdi. Öyüyüb-öyüyüb, sidiyi ağzından geri qaytarması ilə süst düşdü...

Beləcə, bir saatdan çox vaxt keçdi. Əvvəlcə sol, sonra o biri əli tərpəndi. Sağ əli saatı tapınca, barmaqları ilə əqrəbləri aradı. Saniyəölçən qırılıb düşmüşdü; barmaqlar hissetmə qabilyyətini itirdikləri üçün daha əvvəlki kimi ehtiyatla davrana bilmirdilər. Çətinliklə əvvəl kiçik əqrəbi tapdı, sonra böyüyünü axtarmaq istədi, amma fikrindən yayındı; indi saatın onun üçün heç bir önəmi qalmamışdı. Onun vaxtı bitmək üzrə idi. Bu fikir daha əvvəlki kimi dəhşətli gəlmədi ona. Əlinin etinasız hərəkəti ilə cihazı itələdi; vaxtölçən taqqıltı ilə döşəməyə düşüb, yerində diyirlənib dayandı.

Çıqqıltı kəsildi və yenə huşdan getdi...

***

Sarı kamerada yox idi, yenə həkim adı ilə çıxmışdı.

Hünər ikinci mərtəbədəki çarpayısında dirsəklənib daha bir kitabı başa vurmaqda idi. Qara aşağıdan yuxarı hərdən ona göz qoyurdu. Fikir vermişdi ki, kitab oxuyanda sanki içinə girir və orada cərəyan edən hadisələrin canlı iştirakçısına çevrilir: tez-tez dəyişən sifətinə - çatılan qaşlarına, büzülən dodaqlarına, hərdən qıyılan, hərdən də geniş açılan gözlərinə, sıxılan yumruğuna, uşaqlara xas saf təbəssümünə, gərilən vücuduna baxanda kitab qəhrəmanlarının nə vaxt qorxduğu, nə vaxt həyəcan və məyusluq, nə vaxt isə sevinc yaşadığını hiss etmək olurdu.

"Bu cür adama necə qıymaq olar?! Əclaflar!" - deyə acı-acı düşündü.

- Hünər, - astadan səsləndi, - gözünü kitabdan ayırdığını görüncə günahkar-günahkar davam etdi. - Bağışla, bilirəm kitabdan ayıranda heç xoşuna gəlmir, amma səninlə çox təcili və vacib bir söhbətim var.

Hünər kitabı kənara qoyub çarpayıdan endi. Qara da qalxıb, masanın arxasında əyləşdilər.

- Buyur, Qara, - sifətində uşaq təbəssümü peyda oldu, - eşidirəm səni.

- Sənin həbsdən göndərdiyin yazılar yuxarıları möhkəm qıcıqlandırıb. Səni susdurmaq üçün təxribat hazırlayırlar, bunu da mənim və böyük ehtimalla həm də bunun, - başı ilə boş çarpayını göstərdi, - əli ilə etmək istəyirlər.

- Nə təxribatdı ki o? - Təbəssümü sifətindən çəkilməsə də, Hünərin narahat olduğu sezilirdi.

- Yatağından və ya paltarından narkotik ya da qadağan olunmuş hər hansı bir şey çıxmalıdı, bıçaq da ola bilər, telefon da, başqa bir şey də. Onu bu gün deməli idilər. Yadındadı, sragagün səninlə söhbət edəndə nəzarətçi gəlib məni həkim adı ilə apardı, əslində, rəis müavininin qəbuluna getmişdim. Orda dedilər mənə və möhkəm-möhkəm tapşırdılar ki, nə sən bilmə-

lisən, nə də Sarı, əks halda, mənim üçün çox pis ola bilər. Məni axmaq yerinə qoyublar, elə bilirlər, bunun, - yenə də başı ilə boş çarpayını göstərdi, - onlara çuğulluq etdiyini bilmirəm. Həkim adı ilə yəqin bu gün də o məsələ ilə bağlı çağırıblar. Ardınca da ola bilsin, bu gün və ya səndə şübhə yaranmasın deyə, sabah telefona çıxanda məni də çağırıb nə etməli olduğumu deyəcəklər. Sonra da mən sənin üzünə durmalıyam. Yəqin ki, Sarıya da eyni şey tapşırılacaq...

Susdu.

Hünər onun necə əzab çəkdiyini görürdü. Söhbətin ağırlığı bir yana, dözülməz isti də digər tərəfdən gərginliyi daha da artırırdı. O, özünü gözləyən təhlükənin fərqində idi, amma kamera yoldaşının durumu onunkundan heç də yaxşı deyildi.

- Sən mənə görə narahat olma, onsuz da, bir şeyi etmək istəsələr, onu mütləq edəcəklər, sən razı olsan da, olmasan da. - Gülümsündü. - Ona görə, sənə bir dost kimi məsləhətim, nə deyirlər, onu da elə...

Qaranı elə bil tok vurdu, yerindən dik atıldı.

- Yox, mən bunu edə bilmərəm, Hünər! - Kamera yoldaşının sözünü ağzında qoydu. - Qərarım da qətidi, daha belə davam etməsini istəmirəm! Burdan çıxanda sənin, başqalarının üzünə necə baxacam, güzgüdə özüm özümə nə üzlə baxacam, sabah uşaqlarım xəbər tutsa, onlara nə cavab verəcəm?! Hər dəfə namazda Tanrıya üz tutanda xəcalət çəkirəm, özüm özümə nifrət edirəm. Mən bütün həyatım boyu bu ləkə ilə yaşamaq istəmirəm, qardaş! - Susdu. Gözlərindən əzab yağırdı. - Hünər, istəyirəm sən də biləsən, mən bunları ifşa edən yazılı müraciətimi artıq vəkilimə vermişəm və xahiş etmişəm ki, onu qəzetlərdə yaysınlar.

- Vəkilin kimdi ki? - Hünər təşvişə düşmüşdü.

- Mahmud Gəraylı.

- Nəə, Mahmud Gəraylı?! - Bu dəfə də Hünər yerindən dik atıldı. - Sən nə etmisən, Qara? Bunu necə edə bilərdin, özünü necə bir təhlükəyə atdığını dərk edirsənmi?! Bunlar oyun qay-

dalarını pozanları çox sərt cəzalandırırlar, sən axı bunu bilməliydin! Sənin o vəkilin isə heç etibar ediləsi adam deyil, çox böyük ehtimalla da onlara işləyir. Məktubunun dərc olunmayacağına da əmin ola bilərsən. Amma onu artıq başqalarının oxumadığına mən əmin deyiləm.

- Axı o, mənə çox kömək edib.

- Eh, Qara... Çox sadəlövhsən. - Hünər acı təəssüflə başını yellətdi.

Qara başını endirib fikrə getdi.

- Bəlkə də, bunlar hamısı məni tələyə salmaq üçün oyunmuş. Ola bilər ki, sən haqlısan... - Başını qaldırdı, kamera yoldaşının gözlərinə baxdı; orada qorxu yox idi. - Amma bu heç nəyi dəyişmir, Hünər. Mən bütün hallarda nəyə getdiyimi də, məni gözləyə biləcək təhlükəni də göz önünə almışam. Səni hansı təhlükə gözlədiyini bilə-bilə buna göz yuma, özümün də bu iyrənc prosesin iştirakçısı olmağıma razı ola bilmərəm. Bu əclaflıq olardı mənim tərəfimdən. Sən bunu haqq etməmisən, qardaşım. Ona görə də, qərarım qətidi, çuğul, əclaf ləkəsi ilə ömür boyu yaşamaqdansa, ölmək daha yaxşıdı.

- Nə vaxt vermisən məktubu vəkilə?

- Dünən axşam görüşəndə.

Hünər qalxıb otaqda var-gəl etməyə başladı; o, əsəbiləşəndə belə edirdi. Qara ona yaxınlaşıb əlini çiyninə qoydu.

- Hər şey yaxşı olacaq, Hünər. Mən hər varianta hazıram, hətta ən ağır işgəncələrə belə. Sənin sözlərini hələ də unutmamışam, ən qorxulusu birinci dəfə olur, sonra ağrıya öyrəşirsən və qorxu da yox olur.

- Səni qorxutmaq istəmirəm, amma ondan da pisi ola bilər... - Hünər gözlərini yayındırdı.

- Ona da hazıram, - gülümsündü, - səninlə bir yerdə olandan daha ölümdən də qorxmuram. Bir də ki, Tanrı verən canı, o özü istəməsə, heç kim ala bilməz... Səndən bir xahişim var, amma söz ver ki, onu yerinə yetirəcəksən.

- De. - Səs güclə çıxdı.

- Söz ver, sonra. - Qara əl çəkmədi.

Hünərin uzunsov daz başı, - azadlıqda uzun saç və saqqal saxlayan solçu gənc burada saqqalına toxunmayıb başını lezva ilə təmizə çıxarmışdı, - asta-asta qalxdı, sifətində xəfif təbəssüm peyda oldu.

- De görüm nə deyirsən, söz verirəm.

Qaranın üzü güldü. Yenidən masanın arxasına keçdilər.

- Çox sağ ol, Hünər, sən əsl dostsan. Birdən mənim başıma bir iş gəlsə... Nə dediyimi anlayırsan yəqin... sən danışmayacaqsan! Mən heç bir halda mənə görə sənin özünü təhlükəyə atmağını istəmirəm. Eşidirsən məni, nə baş verməyindən asılı olmayaraq susacaqsan. Sən mənə söz vermisən! Bunu da eşit və bil, mənim heç bir halda intihar etmək fikrim yoxdu. Yadda saxla, heç bir halda! Mənə bir şey olsa, bil ki, bu, intihar deyil... Azadlığa çıxanda hər şeyi danışarsan. Eşidirsən, qardaş, ancaq bayırda olanda! Bir də ki... - Susdu. Daha nəsə vacib bir şey demək istədiyi hiss olunurdu; bunun onun üçün necə ağrılı olduğu sifətinin əzablarını üzə verən cizgilərindən görünürdü. Nəhayət, çətinliyi adladı. - Mənim kənddə yaşlı bir anam var, - səsi titrədi, - əgər burda başıma bir iş gəlsə, imkanın olsa, vaxt tapıb ona baş çəkərsən və deyərsən ki, mənə görə üzülməsin, yoxsa oralarda rahat ola bilmərəm. Hə, bir də deyərsən ki, mən ona yaxşı oğulluq edə bilmədim, amma onu çox sevirdim... Hamıdan çox!

Araya sükut çökdü. Hünər, başı əlləri arasında yerindəcə quruyub qalmışdı. Qara qalxıb aynəbəndə keçdi; görünür, göz yaşlarını kamera yoldaşının görməsini istəmirdi.

Sakitliyi dəmir qapının şaqqıltısı pozdu. İçəri girəndə bir qayda olaraq otaqdakılarla hal-əhval tutan gülərüz nəzarətçi bu dəfə xəbəri salamsız-kəlamsız verdi:

- Dustaq Qara Bəkirov, şey-şüylərini yığışdır, başqa kameraya köçürsən!

- Nədən, nəzarətçi? - Gözlənilməz xəbərdən şoka düşmüş məhbuslardan ilk Hünər özünə gəldi.

- Əmr belədi!

Cavabının təhəri və tonundan gələnin bundan artıq danışmaq fikri olmadığı aydın görünürdü. Hünər yenə nəsə demək istəyirdi ki, Qara dinməzcə əlini onun çiyninə qoyub gülümsündü; beləcə, iki cüt göz səssizcə baxışdılar, danışdılar və nə qədər çətin olsa da, sonda anlaşdılar. Qara qalxıb əşyalarını paketlərə yığmağa başladı. Bu işi elə ağır-ağır görürdü ki, elə bil dar ağacına yollanırdı.

Nəzarətçi qapının ağzında durub gözləyirdi. Köç edən dustaq işini bitirib, məyus halda divara söykənib nə baş verdiyini anlamağa çalışan kamera yoldaşına yaxınlaşdı.

- Sağlıqla qal, Hünər, - sifətindən xəfif təbəssüm keçdi. - Mənə verdiyin söz də yadından çıxmasın. Qucaqlaşıb, əşyalarını da götürüb nəzarətçinin ardınca otağı tərk etdi.

Həmin gün Sarı gec qayıtdı. Qaranı soruşdu. Başqa kameraya köçürüldüyü cavabını alıb əlavə sual vermədi; Hünərin danışmaq həvəsi olmadığını görmək çətin deyildi.

Ertəsi gün Qaranın təkadamlıq kameraya köçürüldüyü, üç gün sonra isə intihar etdiyi xəbəri yayıldı. Ölümündən öncə məktub yazdığı, onu bu addımı atmağa sövq edən səbəb kimi "həyatda yaşamağın mənasını itirdiyini" qeyd etdiyi bildirilirdi. Ölüm faktı ilə bağlı cinayət işi açan, iki ay sonra işə kriminal olmaması səbəbilə ona xitam verən prokurorluğun rəsmi açıqlamasında məktubun mərhumun öz xəttilə yazıldığının ekspert rəyi ilə təsdiqləndiyi xüsusi vurğulanırdı...

Qara getdikdən bir həftə sonra Sarını da başqa kameraya köçürdülər və iki ay sonra o, əfvə düşdü.

Azadlığa çıxmasından az keçmiş xəbər yayıldı ki, Almaniyada özünə vəkil tutub və keçmiş həyat yoldaşına qarşı məhkəmə işi açıb. Sən demə, Sarı həbsdə olanda Klara adlı qızları dünyaya gəlibmiş; uşağın dörd aylığında Anna nüfuzlu qəzetlərdən birində işə düzəlib və tez-tez xəbər ardınca qaynar nöqtələrə səfərə yollandığı üçün qıza valideynləri baxmalı olur. Sarı alman vəkili vasitəsilə Annanın işi ilə bağlı uşağa yetərincə diqqət ayıra bilmədiyini, qızının Azərbaycanda və atasının yanında daha

xoşbəxt böyüyə biləcəyini vurğulamaqla, ona verilməsini tələb edib; alman məhkəmələri tələbi əsaslı saymayaraq rədd ediblər.

Həmin dövrdə Sarının yerli mediaya verdiyi çoxsaylı müsahibələrdə Almaniyada yaşadığı dövrdə bu ölkənin məhkəmələrində, həmçinin insan haqları və digər sahələrdə həm özünün rastlaşdığı, həm də başqalarından eşitdiyi qanunsuzluqlar barədə xeyli məlumatlar getdi. Türkiyədəki Ana Yasa dəyişiklikləri ilə bağlı həmin ölkənin hakim partiyasının Almaniyada öz vətəndaşları və seçiciləri üçün keçirmək istədiyi toplantıya rədd cavabının verilməsini isə Avropada getdikcə güclənən islamafobiya, millətçilik və irqçiliyin təzahürü, demokratiya və insan haqlarının isə iflası kimi qələmə vermişdi.

Bir müddət sonra isə daha bir xəbər yayıldı ki, keçmiş dustaq şəhərdə bahalı maşında gəzir, mərkəzdə komfortabelli bir ofis icarəyə götürüb, üç dildə yayılan xəbər saytı açıb və tez-tez də Almaniyaya, Qərb demokratiyasına döşəyir...

***

Mahmud məclisdən çıxanda çox gec idi. Ayaq üstə güclə dururdu. Maşınının xırda-para problemləri var idi, usta yanına aparmağa vaxt tapa bilmirdi. Səfərə yollanmağı ilə əlinə yaxşı fürsət düşmüşdü, günorta aparıb tanış ustalardan birinin yanına qoydu; o da qayıdan kimi götürə biləcəyini söz verdi.

Maşınsız olmasına narahat deyildi, belə yerlərdə taksilər səhərə qədər keşik çəkirdilər. Düşündüyü kimi də oldu, yolun qırağında bir neçə taksi dayanıb müştəri gözləyirdi. Bir anlığa hara gedəcəyini fikirləşdi. Sabah iş günü deyildi, birisigün tezdən iki həftəlik Bodruma yola düşürdü. İşdə, dost-tanışa xəbərdarlıq etmişdi ki, həmin arada kimsə onu aramasın, telefonları sönülü olacaq. Çox yorulmuşdu, bir müddət işdən-gücdən, gündəlik qayğılardan uzaq olmaq istəyirdi. Səfər öncəsi dincəlmək, ağır iş həftəsinin yorğunluğunu çıxarmaq üçün sakit, insanlardan, səs-küydən kənar bir guşəyə ehtiyacı vardı. Həm də, mər-

kəzdə hava çox bürkülü idi, nəfəs almaq olmurdu. Belə yeyib-içməkdən sonra əsl dağ havasının yeri vardı. Çox fikirləşmədən getmək qərarını verdi.

Yaxınlıqda dayanmış taksilərdən birinə yaxınlaşıb ünvanı dedi; iki saatlıq yoldu, bir hissəsi dağlıq ərazidən keçirdi. Sürücü əvvəlcə tərəddüd etdi, amma təklif olunan məbləği eşitcək razılıq verdi. Maşına oturanda vaxtı öyrənmək üçün telefonuna baxdı, gecə biri keçmişdi. Gözü batareyasının enerji göstəricisinə sataşdı, bitmək üzrəydi.

...Sürücü haylayanda yuxunun ağuşunda idi.

Maşını yola salıb, üç adam böyu hündürlüyündə hasarın darvazasına yaxınlaşdı. Gözləri dumanlı idi, başı da bərk ağrıyırdı.

"Yəqin, yenə təzyiqim qalxıb. Ha deyirəm içmə bu zəhrimarı, xeyri yoxdu, gərək, beyninə qan vursun, onda ağlın bəlkə başına gələ!"

Hər dəfə bu kökə düşəndə olduğu kimi, özünü söyə-söyə qapını açıb həyətə girdi. Səndələyə-səndələyə evə tərəf addımladı. Yaxınlaşanda qarovulçunu səslədi, hay verən olmadı. Ötən gəlişində onu qovduğunu xatırladı; axır vaxtlar yaddaşında da problemlər yaranmışdı.

Evin qapısını çətinliklə açdı, əlləri əsir, barmaqları sözünə qulaq asmırdı. Başının ağrısı daha da güclənmişdi. İçəri girib qapını ardınca çəkdi. Dəmir qapı avtomatik kilidlənəndə ona çatdı ki, açarı o üzdə qapının üstündə qoyub. Əvvəl narahat oldu, amma Qayada ehtiyat açarın olduğunu xatırlayanda sakitləşdi.

İşığı yandırdı. Gözlərini alan duman getdikcə artırdı. Təcili həkimə zəng etmək lazım idi. Yox, bu gün ona it hürmüşdü: telefonu işləmirdi, batareyasının enerjisi tamam tükənmişdi. Qayada ehtiyat əl telefonu, həm də bir neçə nömrəli xətli telefon vardı, özünü tez ora çatdırıb zəng etmək qalırdı.

Durumu heç ürəyincə deyildi, gəlməyinə də çox peşmandı.

"Mərkəzdə olsaydım, beşcə dəqiqəyə həkimlər tökülüşüb gəlmişdilər."

Taksini buraxdığına da heyifsləndi. Divardan tutub irəlilə-

məyə başladı. Başı kimi əl-ayağı da daha sözünə qulaq asmırdı. İndi yeganə istəyi tez Qayaya yetişməkdi. Çətinliklə də olsa, həmin otağa çatdı, budur, gözlərini duman tutsa da, kitab şkafını görə bilir. Daha bir neçə addım atdı. Bu da o – İdiot!

Əlini qalın kitaba tərəf uzatdı, ev başına hərlənməyə başladı, tir-tap yerə sərələndi...

***

Göz qapaqları ağırlaşmışdı, onları yerindən tərpətmək getdikcə daha çətin olurdu. Gücünü toplayıb bəlkə də sonuncu dəfə işıq görəcəyi ümidilə onları çətinliklə araladı. Gözlər yenə onu məyus etdi: hər tərəf zülmət içindəydi. Qapaqlar ağır-ağır yerlərinə qayıtdılar və yenidən xatirələr onu caynağına aldı. Onlarda nə vardısa, dəmir çarpayıda uzanmış, it iyi verən bu adamı haldan-hala salırdı: gah çırpınır, gah fısıldayır, gah gərilir, gah büzüşür, gah da can verirmiş kimi ağır-ağır nəfəs alırdı. Arada qırıq-qırıq sözlər deyir, adlar çəkir, qışqırır, içində sanki Şeytanla müharibəyə giribmiş kimi tez-tez Tanrını köməyə çağırırdı. Yerində çabalaya-çabalaya başını, əl-qolunu dəli kimi ora-bura yellədirdi və birdən süst düşdü.

Bir neçə dəqiqə beləcə sakit uzandı. Sonra bəbəkləri açıldı, heydən düşmüş iki göz məchul nöqtəyə dikilib dondu. Daha bir neçə dəqiqə keçdi. Sifətinin ölmüş əzələləri tədricən dirilməyə başladı, donuq gözləri hərəkətə gəldi.

"Zara... O orda... Tanrım, keç günahımdan!"

Son sözlər ağzından çıxar-çıxmaz öncə əlləri, sonra ayaqları, ardınca bütün bədəni hərəkətə keçdi. Çevrildi, çarpayıdan enmək istəyirdi, amma özünü saxlaya bilməyib tappıltı ilə taxta döşəməyə dəydi. Ufuldamadı, üz-gözünü də turşutmadı, sifətindəki işıq da yox olmadı, sürünə-sürünə dəhlizə çıxdı. Bir neçə dəqiqə öncə ölümün pəncəsində can verən adama sanki ikinci güc gəlmişdi.

Əzrayıldan qaçırmış kimi geriyə baxmadan var gücü ilə irəli

dartınırdı. Dəhlizi yarıya vuranda dayanıb azacıq nəfəsini dərdi. Bütün paltarı, bədəni sidik və nəcis iyi verirdi. "Su!" - deyə tez-tez təkrarlayırdı.

Otağa çatanda gücü tamam tükənmişdi, qolları və ayaqları daha sözünə qulaq asmırdılar. Amma üzündəki ümid işartılı o qəribə ifadə hələ də çəkilməmişdi.

Çətinliklə kitab şkafına çatdı, nəfəsini dərib dirsəkləndi, sağ əlini aşağı rəfdəki kitablara doğru apardı. Barmaqları qalın cildli iri kitabın üzərində dayandı. Onu kənara itələyib arxasındakı gizli düyməni tapdı, son gücünü toplayıb onu basdı.

Şkaf yerindən tərpənəndə heysiz bədəni yerə sərildi...

SON

İki gün sonra polislər axşam üfunət qoxuyan evə daxil olanda saat 7.18 idi. Yataq otağının döşəməsində düşüb qalmış saatın əqrəbləri 15.53-ü göstərirdilər.

Meyiti kitab şkafının yanında aşkarladılar. Gizli seyf qapısı rolunu oynayan və yarıya qədər açılmış şkafın o tərəfindəki mənzərə hamını şoka saldı. Bahalı çılçıraqlar, par-par parıldayan mebellər, cakuzilər, basseyn, brend markalardan olan içkilər və siqarlar, içərisi hər cür nemətlərlə dolu olan soyuducu...

Zalda iri bir monitor yerləşdirilmişdi. Orada həm şkafın o, həm də bu tərəfindəki bütün otaqlar, otaqlardan birində isə kitab şkafının yanında uzanmış cansız insan bədəni görünürdü.

Qayadakı iri zalda yerləşdirilmiş iş masasının yanında büllur kimi parıldayan kiçik hovuz, onun lap yaxınlıqda isə iri dibçəkdə əkilmiş qollu-budaqlı, yamyaşıl dekorativ bir ağac göz oxşayırdı. Qayanın yuxarı hissəsində kiçik çatdan süzülən göz yaşı kimi duru damcılar saxsı küpə tökülür, orada quraşdırılmış süzgəcdən keçib hovuza axırdı. Ağacın küpə tərəf uzanan budaqlarından birindən iri bir qəfəs asılmışdı. Dolub-daşan küplə qəfəsin arasındakı məsafə üç barmaq ölçüsündə ola, ya olmayaydı.

Qəfəsin telləri arasından başını bayıra çıxarmış və dimdiyi suya tərəf uzanmış halda canını tapşırmış bir quş eləcə quruyub qalmışdı...

Ertəsi gün rəsmi qurumların nekroloqu yayıldı.

"...Ölkənin tanınmış vəkillərindən biri Mahmud Gəraylı dünən ona məxsus olan mənzillərdən birində ölmüş vəziyyətdə aşkar edilib. Həkimlərin verdiyi rəyə görə, ölümə səbəb yüksək təzyiq nəticəsində beyninə qan sızması olub. Mahmud Gəraylının işıqlı xatirəsi onu sevənlərin qəlbində əbədi yaşayacaq."

Bir ay sonra mətbuatda ciddi səs-küyə səbəb olan böyük bir yazı getdi. Məqaləni Mahmud Gəraylının meyiti tapılan gün, özünü onun yaxın tanışı kimi təqdim edib polislərlə birgə Qayaya girə bilmiş bir araşdırmaçı jurnalist qələmə almışdı.

Yazı Afrikadakı terrorçu qruplardan birinin girovluğundan sağ çıxmış şəxsdən, zoomağaza sahibindən və xaricdə sığınacaq almış Lalə adlı bir xanımdan alınmış müsahibələrin üzərində qurulmuşdu. Səhifədə iki şəkil yer almışdı: biri yaxınları ilə birgə təbiətin qoynunda gülümsəyən qız uşağının əlində xoşbəxtcəsinə qanad çalan tutuquşunun, o biri isə sir-sifətini tük basmış, üst-başı nəcisə bulaşmış orta yaşlı kor bir kişinin yerdə uzanılı halda şəkli idi. Məqaləyə "Əclafın ölümü" adı verilmişdi, müəllifi isə Süsəndi.

...Zaranı isə, Çimnazın terrorçuların əlindən sağ qurtara bilmiş əmisi, sevimli qardaşı qızının kiçik məzarının ayaq tərəfində basdırdı...

İntiqam Əli
**Əclafın ölümü**

Çapa imzalanıb 01.08.2019.
Format 60x90 1/16.
Ofset çap üsulu.
Fiziki çap vərəqi: 13.
Tifraj: 500.

"OL" npkt-nin mətbəəsində çap olunub.
AZ 1009 Bakı, Mirzə İbrahimov 43.
Tel: (012) 497-36-23
E-mail: olnpkt@gmail.com